Biz maddi dəyərləri insan kapitalına çevirməliyik.
İlham Əliyev

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Cild 7, №3, 2024
Vol. 7, №3, 2024
Том 7, №3, 2024
İldə dörd dəfə nəşr olunur.

Peşə təhsili və insan kapitalı

Vocational education and human capital

Профессиональное образование и человеческий капитал

***Elmi-praktiki, metodiki jurnal* ∗ *Scientific-practical and methodological journal* ∗**

Научно-практический, методический журнал

*****

Baş redaktor
Balakişiyev Ş.Ş. (f.e.f.d.)

Redaksiya heyətinin sədri
Mamedov S.T. (Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini)

Redaksiya heyətinin üzvləri

Ataşov B.X. (i.e.d., prof., Əməkdar elm xadimi)**, Əlizadə H.Ə.** (p.e.d., prof.), **Əlizadə R.İ.** (t.e.d., prof.), **Ağayev F.H.** (t.e.f.d.), **İlyasov M.İ.** (p.e.d., prof.), **Quliyev N.Ə.** (p.e.d., prof.), **Əmiraslanov T.İ.** (t.e.f.d., Əməkdar mədəniyyət işçisi), **Əsgərov R.B.** (Əməkdar müəllim), **Quliyev C.Ə.**, **Axundov Y.M., Zeynalov V.E., Mehdiyeva N.B., Camalov H.E.**

*****

Chief editor
Balakishiyev Sh.Sh. (a.s.s.dr.)

Chairman of the editorial board: Mamedov S.T.
(Deputy director of the State Agency for Vocational Education)

Members of the editorial board

Atashov B.Kh. (prof., dr., Honored scientist), **Alizade H.A.** (prof., dr.), **Alizadeh R.I.** (prof., dr.), **Aghayev F.H.** (a.s.s.dr.), **Ilyasov M.I.** (prof., dr.), **Guliyev N.A.** (prof., dr.), **Amiraslanov T.I.** (a.s.s., dr., Honored cultural worker), **Asgarov R.B.** (Honored teacher), **Guliyev J.A., Akhundov Y.M., Zeynalov V.E., Mehdiyeva N.B., Jamalov H.E.**

*****

Главный редактор
Балакишиев Ш.Ш. (д.ф.ф.н.)

Пред. ред. коллегии: Мамедов С.Т. (Заместитель директора Государственного Агентства Профессионального Образования)

Члены редакционной коллегии

Аташов Б.Х. (д.э.н., проф., Заслуженный деятель науки), **Ализаде Х.А**. (д.п.н., проф.), **Ализаде Р.И.** (д.т.н., проф.), **Агаев Ф.Г.** (д.ф.т.н.), **Ильясов М.И.** (д.п.н., проф.), **Гулиев Н.А.** (д.п.н., проф.), **Амирасланов Т.И.** (д.ф.и.н., Заслуженный деятель культуры), **Аскеров Р.Б.** (Заслуженный учитель), **Гулиев Дж.А., Ахундов Ю.М., Зейналов В.Е., Мехтиева Н.Б., Джамалов Х.Е.**

"Peşə təhsili və insan kapitalı" jurnalında pedaqogika, texnika, iqtisadiyyat, informatika, ekologiya və digər fundamental elm bölmələri üzrə məqalələr, metodiki yazılar dərc edilir.

*****

The journal "Vocational Education and Human Capital" publishes clauses, and other pieces of information on pedagogy, technology, economics, informatics, ecology and other fundamental sciences, including methodical articles.

*****

В журнале "Профессиональное образование и человеческий капитал" публикуются статьи по педагогике, технике, экономике, информатике, экологии и других фундаментальных науках, а также методологические статьи.

Jurnalın indekslənməsi / Indexed by

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

ROAD DIRECTORY OF OPEN ACCESS SCHOLARLY RESOURCES

MŞ Azərbaycan Mətbuat Şurası Azerbaijan Press Council

doi Crossref

ISSN 2664-4770 *(Print)*
E-ISSN 2706-7858 *(Online)*
DOİ: 10.30546/2706-7858

http: // www.jurnal.vet.edu.az
e-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

MÜNDƏRİCAT

6 **Y.Axundov.** Peşə təhsilinin Azərbaycanın dayanıqlı inkişafında və sosial rifahının yüksəlməsində rolu

Pedaqogika

10 **V.Xəlilov.** Mütaliə mədəniyyəti
13 **N.Məmmədova Sadıxlı.** Peşə təhsilində yeni ixtisasların tədrisi zamanın tələbidir
18 **F.Xudiyeva.** Ali təhsil müəssisələrində pedaqoji kadr hazırlığının nəzəri məsələləri
24 **A.Əliyeva.** Uşaqların məktəb təhsilinə hazırlığının psixoloji komponentləri
31 **A.Novruzova, K.Hüseynova.** Müasir dövrdə müəllimin pedaqoji fəaliyyətinin əsasları

İqtisadiyyat

35 **N.Nəcəfov.** Arıların zəhərlənməsinə səbəb olan əsas amillər
39 **T.Sadıqov.** Respublikamızda qoyunçuluğun inkişaf etdirilməsinə dair tövsiyələr
49 **A.Əzizov.** Azərbaycanda davamlı daxili turizmin ilk əsası kimi turizm layihələrinin inkişaf etdirilməsi
55 **A.Fərəcova.** Doğru liderlik və onun idarəetmədə rolu
58 **N.Mirzəzadə.** Müasir iqtisadi inkişafda hərbi irs turizminin əhəmiyyəti
62 **F.Niftiyev.** İnsan kapitalı: mahiyyəti, təhlili və qiymətləndirilməsinin xüsusiyyətləri

Texnika

66 **İ.Piriyev.** Ürək fəaliyyətinin məsafədən monitorinqi sisteminin alqoritmik və aparat-proqram təminatı məsələləri

Beynəlxalq əlaqələr (layihələr, təcrübələr)

72 **K.Ələkbərova.** Peşə təhsilində innovativ yanaşma
74 **R.Əliyev.** Azərbaycan 47-ci Beynəlxalq "Worldskills" yarışlarında
76 **P.Hüseynov.** Ailədaxili vaxtın bölüşdürülməsində qadınların təhsilinin rolu

Metodika və innovasiyalar

81 **M.Eyvazova, G.Fərəcova.** Ümumtəhsil məktəblərində peşəyönümü işinin təşkili
85 **S.Ağazadə.** Peşə təmayüllü siniflərdə tədrisin effektivliyini artıran metodik tövsiyələr
89 **X.Səftərova.** Peşə təhsilinin yaşıl iqtisadiyyatyönlü transformasiyası
94 **İ.Dadaşov.** Təsviri incəsənət dərslərinin şagirdlərin peşəyönümlü istiqamətdə inkişafına təsiri
99 **Ş.Abdullayeva.** Dövlət və özəl məktəblərdə təhsilalanlara milli-ümumbəşəri dəyərlərin aşılanması məsələləri

105 2024/2025-ci tədris ili üçün peşə təhsili müəssisələrinə tələbə qəbulu

117 **Məqalələrin tərtibatı qaydaları**

CONTENTS

6 **Y.Akhundov.** The role of vocational education in sustainable development of Azerbaijan and the improvement of its social welfare

Pedagogy

10 **V.Khalilov.** Reading culture
13 **N.Mammadova Sadikhli.** Teaching new specialties in vocational education is the need of the era
18 **F.Khudiyeva.** Theoretical issues of pedagogical personnel training in higher educational institutions
24 **A.Aliyeva.** Psychological components of children's preparation for school education
31 **A.Novruzova, K.Huseynova.** The basics of the teacher's pedagogical activity in modern times

Economics

35 **N.Najafov.** The main factors that cause bee poisoning
39 **T.Sadigov.** Recommendations on the development of sheep breeding in our Republic
49 **A.Azizov.** Development of tourism projects as the first basis of sustainable domestic tourism in Azerbaijan
55 **A.Farajova.** True leadership and its role in management
58 **N.Mirzazade.** Importance of military heritage tourism in modern economic development
62 **F.Niftiyev.** Human capital: its nature, analysis and assessment features

Technology

66 **I.Piriyev.** Algorithmic and hardware-software issues of remote heart activity monitoring system

International Relations (Projects & Practices)

72 **K.Alekbarova.** Innovative approach in vocational education
74 **R.Aliyev.** Azerbaijan – at the 47th İnternational "Worldskills" competitions
76 **P.Huseynov.** The role of women’s education on intrahousehold time allocation

Methodology & Innovations

81 **M.Eyvazova, G.Farajova.** Organization of vocational-based work in secondary schools
85 **S.Aghazade.** Methodical recommendations that increase the effectiveness of teaching in vocational classes
89 **Kh.Saftarova.** Green economy-based transformation of vocational education
94 **I.Dadashov.** The effect of fine art classes on the professional development of students
99 **Sh.Abdullayeva.** Some issues of instilling national-universal values to students in public and private schools

105 Student admission to vocational education institutions for the academic year 2024/2025

117 **Rules for the layout of the premises**

ОГЛАВЛЕНИЕ

6 **Ю.Ахундов.** Роль профессионального образования в устойчивом развитии Азербайджана и улучшении его социального благосостояния

Педагогика

10 **В.Халилов.** Культура чтения
13 **Н.Мамедова Садыхлы.** Преподавание новых специальностей в профессиональном образовании – потребность времени
18 **Ф.Худиева.** Теоретические задачи подготовки педагогических кадров в высших учебных заведениях
24 **А.Алиева.** Психологические компоненты подготовки детей к школьному обучению
31 **А.Новрузова, К.Гусейнова.** Основы педагогической деятельности учителя в современное время.

Экономика

35 **Н.Наджафов.** Основные факторы, вызывающие отравление пчел
39 **Т.Садыгов.** Рекомендации по развитию овцеводства в нашей республике.
49 **А.Азизов.** Развитие туристических проектов как первооснова устойчивого внутреннего туризма в Азербайджане
55 **А.Фараджова.** Истинное лидерство и его роль в управлении
58 **Н.Мирзазаде.** Значимость туризма военного наследия в современном экономическом развитии
62 **Ф.Нифтиев.** Человеческий капитал: его природа, особенности анализа и оценки

Техника

66 **И.Пириев.** Вопросы, связанные с алгоритмическим и аппаратно-программным обеспечением системы дистанционного мониторинга сердечной деятельности

Международные отношения (проекты и практики)

72 **К.Алекбарова.** Инновационный подход в профессиональном образовании
74 **Р.Алиев.** Азербайджан – на 47-м Международном чемпионате «Worldskills»
76 **П.Гусейнов.** Роль женского образования в распределении внутрисемейного времени

Методика и инновации

81 **М.Эйвазова, Г.Фараджева.** Организация профессиональной работы в общеобразовательных школах
85 **С.Агазаде.** Методические рекомендации повышающие эффективность обучения в профессиональных классах
89 **Х.Сафтарова.** Трансформация зеленой экономики профессионального образования
94 **И.Дадашов.** Влияние занятий изобразительного искусства на профессиональное развитие учащихся
99 **Ш.Абдуллаева**. Некоторые вопросы привития национальных-общечеловеческих ценностях учащимся государственных и частных школ
105 Прием студентов в учреждения профессионального образования на 2024/2025 учебный год

117 **Правила составления статей**

Peşə təhsili və insan kapitalı. Cild 7, №3, 2024, s.6-9

YENİ DƏRS İLİ

PEŞƏ TƏHSİLİNİN AZƏRBAYCANIN DAYANIQLI İNKİŞAFINDA VƏ SOSİAL RİFAHININ YÜKSƏLMƏSİNDƏ ROLU

Yusif Axundov,
Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Tərəfdaşlarla iş və kommunikasiya şöbəsinin müdiri
e-mail: Yusif.Akhundov@ptda.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.206

Elm və texnologiyanın sürətli inkişafı sənaye sahələrində yüksəkixtisaslı kadr ehtiyacına tələbatı artırır. Əmək bazarının bu ehtiyacı peşə təhsilinin inkişafını daha da zəruri edir. Odur ki, peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkülündə böyük rola malikdir. Son illərdə Azərbaycanda peşə təhsilinin inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Ulu öndər Heydər Əliyevin xalqımızın gələcəyinə istiqamətlənmiş düzgün siyasəti nəticəsində məhz peşə təhsilinin inkişafı prioritet istiqamətlərdən olmuş və onun Azərbaycanda hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq respublika texniki-peşə təhsilinin inkişafı məqsəd kimi qarşıya qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının təsdiq edilməsi haqqında" Sərəncamı ilə bu strategiya ölkənin dayanıqlı və sürətli sosial-iqtisadi inkişafının təmin edilməsinə, müstəqilliyin möhkəmləndirilməsinə yönəlmiş əsas hədəfləri müəyyənləşdirmişdir. Bu da Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğundan xəbər verir.

İllər ötdükcə infrastruktur yenilənir, tədris proqramları müasir dövrün tələblərinə uyğunlaşdırılır, beynəlxalq əməkdaşlıqların hüdudları genişlənir. Dövlətin diqqət və qayğısı ilə peşə təhsili sahəsində keyfiyyətin artırılması bu sahənin daha da əlçatan olmasını gündəmə gətirir. Bu nailiyyətlər Azərbaycan gənclərini daha çevik, daha rəqabətqabiliyyətli edir. Peşə təhsili ilə əlaqəli bütün bu uğurlar ölkəmizin iqtisadi dirçəlişinə, gənclərin əmək bazarına daha möhkəm addımlarla daxil olmasına zəmin yaradır.

Azərbaycan iqtisadiyyatı bu sahəyə göstərilən diqqət nəticəsində yeni zirvələrə qalxır, sosial inkişafda mühüm nailiyyətlər əldə edilir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" adlı Sərəncamı peşə təhsili üçün yeni üfüqlər açdı. Belə ki, islahatların uğurla həyata keçirilməsi gənclərin peşə seçiminə olan marağını artırdı. Tələbələrin peşə təhsilinə yönəlməsi onların həyatında dönüş nöqtəsinə çevrildi.

2023-2024-cü tədris ili peşə təhsili sisteminə böyük marağın artdığı bir dövr olaraq yadda qaldı. Bu il ərzində peşə təhsilinə qəbul olunan tələbələrin sayı yeni rekordlarla yaddaşlara həkk olundu. Qəbulu həyata keçirilən 20 mindən çox gənc peşə təhsili ilə həyatına yeni istiqamət verməyi seçdi. Bu, ötən illərlə müqayisədə böyük bir artımdır və cəmiyyətin peşə təhsilinə olan baxışında mühüm dəyişikliklərin göstəricisidir.

Həmçinin son illər qadınların peşə təhsili sahəsinə marağı daha da artıb, bu da gender bərabərliyi istiqamətində əhəmiyyətli bir addım kimi qiymətləndirilməlidir.

Yüksək texniki-peşə təhsili də diqqətdən kənarda qalmadı. Ali təhsilə keçid imkanı verən bu səviyyə çoxsaylı gənclərin daha yüksək hədəflərə nail olmasına səbəb oldu. Yüksək texniki-peşə təhsili alan tələbələrin sayı artdı, bu isə onların gələcəkdə daha geniş imkanlara sahib olacağını göstərir. 2023-2024-cü tədris ilində bu sahədə əldə edilən nailiyyətlər peşə təhsili sisteminin həm tələbə sayında, həm də keyfiyyətində böyük bir sıçrayış yaşandığını göstərdi. Tələbələrin peşə təhsilinə marağı gələcək illərdə bu sahənin daha da inkişaf edəcəyinə ümid verir.

Azərbaycan öz tarixi torpaqlarını 30 illik işğaldan azad etməklə bərpa-quruculuq layihələri ilə səciyyələnən dayanıqlı sülhə, tərəqqiyə əsaslanan yeni mərhələyə qədəm qoydu. İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli, 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri kimi müəyyən edilib. Bu hədəflərə çatmaq üçün "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib. Bu proqram çərçivəsində Qarabağda tikintisinə başlanılan Füzuli Peşə Liseyi xüsusi əhəmiyyət kəsb edir. Bu tədris ocağı yalnız təhsil verməklə kifayətlənməyəcək, eyni zamanda bölgənin iqtisadi dirçəlişinə də böyük töhfə verəcəkdir. Şuşa, Qubadlı və Zəngilanda da yeni peşə təhsili müəssisələrinin layihələndirilməsinə start verilib, bu isə işğaldan azad edilmiş ərazilərdə təhsil sahəsində böyük bir sıçrayışa səbəb olacaqdır. Bu müəssisələr gənclərin peşə təhsili vasitəsilə bölgələrdə inkişaf edən sənaye və kənd təsərrüfatı sahələrinə inteqrasiyasını təmin edəcəkdir.

İnfrastrukturun yenilənməsi yalnız Qarabağla məhdudlaşmayıb. Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi, eləcə də Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin yeni binaları 2024-cü il ərzində təhvil verilməsi nəzərdə tutulub ki, bu da həmin müəssisələrdə peşə təhsilinin keyfiyyətini daha da artıracaqdır. Eyni zamanda, Quba və Sumqayıt şəhərlərində də müasir peşə təhsili müəssisələrinin tikintisinə başlanılıb. Bu layihələr ölkənin müxtəlif bölgələrində peşə təhsili üçün yeni imkanlar yaradır, gənclərin öz bölgələrində yüksək səviyyəli peşə təhsili almalarına şərait yaradır. Yenilənmiş və müasir avadanlıqlarla təchiz edilmiş bu tədris ocaqları tələbələrin praktiki bacarıqlarını inkişaf etdirməsi üçün geniş imkanlar təqdim edir. Bütün bu yenidənqurma işləri peşə təhsilinin daha da güclənməsinə xidmət edir. Yeni tədris ocaqları müasir tələblərə cavab verən təhsil proqramları ilə tələbələrin rəqabətyönümlü, müasir tələblərə cavab verən ixtisaslaşmasını təmin edəcəkdir. İnfrastrukturun bu cür genişlənməsi və müasirləşdirilməsi peşə təhsilinin cəlbediciliyini artırır, daha çox gəncin bu sahəyə yönəlməsinə şərait yaradır. İnanırıq ki, yeni tədris binalarının inşası modern təhsil avadanlıqlarının quraşdırılması və regional inkişaf strategiyalarının tətbiqi ilə peşə təhsili ölkənin iqtisadi və sosial inkişafına mühüm töhfələr verəcəkdir.

Yeni təhsil proqramlarının tətbiqi peşə təhsilində keyfiyyətin artırılması istiqamətində atılan mühüm addımlardan biri olmaqla birlikdə yeni proqramlar ən son texnologiyalara və istehsalat proseslərinə uyğun olaraq hazırlanmışdır ki, bu da tələbələrin müasir biliklərə sahib olmasına şərait yaradır. Tədris prosesində istifadə olunan metodikaların yenilənməsi tələbələrin öyrənmə prosesinə cəlb olunmasında daha effektivdir. Eyni zamanda, 2024-cü il üçün nəzərdə tutulan 15 yeni kurikulumun hazırlanması tədrisin daha səmərəli və məqsədyönlü şəkildə həyata keçirilməsini təmin edir. Bu kurikulumlar peşə təhsili müəssisələrinin məzunlarının daha rəqabətqabiliyyətliliyinə və onların əmək bazarına asanlıqla inteqrasiya olunmasına yardım edir.

Yeni tədris proqramlarının tətbiqi ilə yanaşı, 2024-cü il üçün 33500 dərsliyin çapı da planlaşdırılıb. Bu dərsliklər müasir təhsilin tələblərinə cavab verən məzmunlarla zəngindir və tələbələrin dərs prosesində daha müasir biliklərə yiyələnməsinə şərait yaradır. Yeni tədris proqramları və kurikulumlar, yalnız tələbələrin deyil, eyni zamanda müəllimlərin də bilik və bacarıqlarını artırmağa xidmət edir. Tədris prosesinə bu cür yanaşma Azərbaycanda peşə təhsilinin keyfiyyətinin davamlı olaraq yüksəldilməsini təmin edir. Nəticədə bu islahatlar və yeniliklər ölkə iqtisadiyyatının və sosial sahələrinin inkişafında peşə

təhsilinin nə qədər mühüm rol oynadığını bir daha sübut edir.

Peşə təhsili sahəsində maliyyə mexanizmlərinin yenidən qurulması və təkmilləşdirilməsi də əsas nailiyyətlərimizdən biridir. Adambaşı maliyyələşmə mexanizminin tətbiqi peşə təhsili müəssisələrinə yeni imkanlar yaradaraq təhsilalanların daha keyfiyyətli tədrislə təmin olunmasını mümkün etdi. 2023-cü il ərzində bu mexanizm 8 müəssisə üzrə 5452 tələbəni əhatə etdi və 2026-cı ilədək bu rəqəmin 12000-ə çatdırılması planlaşdırılır. Adambaşı maliyyələşmə sistemi rəqabətqabiliyyətli mühit yaradaraq təhsil müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə təkan verir. Yeni maliyyələşmə mexanizmi həmçinin peşə təhsili müəssisələrinə öz gəlirlərini artırmağa və sahibkarlıq fəaliyyətlərini inkişaf etdirməyə də imkan yaradır. Bu, peşə təhsili müəssisələrinin daha müstəqil fəaliyyət göstərməsinə və bazarın tələblərinə daha çevik cavab verməsinə şərait yaradır. Digər tərəfdən peşə təhsili müəssisələrində yaradılan rəqabətli əməkhaqqı sisteminin tətbiq olunması təhsil sahəsində daha peşəkar kadrların cəlb edilməsinə və mövcud kadrların davamlı inkişafına səbəb olmuşdur.

Maliyyə mexanizmlərinin təkmilləşdirilməsi ilə yanaşı, dövlət sifarişli yerlərin sayı da əhəmiyyətli dərəcədə artmışdır. 2023-cü ildə dövlət sifarişli yerlərin sayı 18290-a çatdı və bu, əvvəlki illərlə müqayisədə 30%-lik artımı göstərir. Bu artım dövlətin peşə təhsilinə verdiyi önəmin göstəricisidir. Yeni maliyyələşmə mexanizmləri ilə peşə təhsili müəssisələri daha keyfiyyətli tədris prosesini həyata keçirə bilir və tələbələrin peşəkar inkişafı üçün daha geniş imkanlar yaradır. Bu mexanizmlərin tətbiqi peşə təhsili sisteminin daha da güclənməsinə və ölkənin iqtisadi inkişafına böyük töhfə verəcəkdir.

Almaniya ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən ***"dual təhsil sistemi"*** peşə təhsilinin ən müasir formalarından biri olaraq ölkəmizdə geniş tətbiq olunur. Almaniyanın Spar-kassenstiftung Fondu və Agri Kontakte Təşkilatı ilə birgə həyata keçirilən proqramlar Azərbaycan tələbələrinin beynəlxalq səviyyədə bilik və bacarıqlarını artırmağa imkan yaradır. Belə ki, bu il Bərdə Dövlət Peşə Təhsil Mərkəzi və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri Almaniyada təşkil olunan beynəlxalq kənd təsərrüfatı təhsil proqramlarında iştirak etdilər və bu təcrübə onların peşəkar inkişafına böyük töhfə verdi. Eyni zamanda, Almaniya Federativ Respublikasının dəstəyi ilə həyata keçirilən digər layihələr də rəqəmsallaşma və diversifikasiya kimi müasir təhsil yanaşmalarını Azərbaycanın peşə təhsilinə gətirdi.

Almaniya ilə yanaşı Türkiyə ilə də peşə təhsili sahəsində əməkdaşlıq iki ölkə arasında dostluq əlaqələrinin və hökumətlərarası inteqrasiyanın daha da güclənməsinə səbəb oldu. Əməkdaşlıq çərçivəsində Bakı və Qəbələdə yeni peşə təhsili müəssisələrinin yaradılması planlaşdırılır. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında imzalanan Protokol peşə təhsilinin inkişafında Türkiyə təcrübəsindən faydalanmaq və bu təcrübəni ölkəmizdə tətbiq etmək məqsədini daşıyır. Bu əməkdaşlıq ölkəmizin peşə təhsilini beynəlxalq səviyyədə daha da rəqabətqabiliyyətli edir və tələbələrimiz üçün yeni imkanlar yaradır. Beynəlxalq əməkdaşlıqların güclənməsi Azərbaycan peşə təhsilinin dünya səviyyəsində tanınmasına və bu sahədə ölkəmizin daha da irəliləməsinə xidmət edir.

Peşə təhsilində keyfiyyətin artırılması yalnız tədris proqramları və dərsliklərin yenilənməsi ilə məhdudlaşmır. Müəllimlərin ixtisasartırma təlimlərinə cəlb edilməsi onların bilik və bacarıqlarını davamlı olaraq təkmilləşdirməsinə imkan verir. 2023-2024-cü tədris ili ərzində 160-a yaxın müəllim ixtisasartırma kurslarına cəlb edildi və bu, tədrisin keyfiyyətinin yüksəldilməsinə səbəb oldu. Müasir tədris metodikalarının tətbiqi müəllimlərin yeni biliklər əldə etməsinə və bu bilikləri tələbələrlə bölüşməsinə şərait yaradır. Nəticədə peşə təhsili sistemi həm tələbələr, həm də müəllimlər üçün daha keyfiyyətli bir tədris mühitinə çevrilir, bu da ölkənin ümumi təhsil səviyyəsinin yüksəldilməsinə və gələcək nəsillərin daha hazırlıqlı olmasına xidmət edir.

2023-2024-cü tədris ili ərzində peşə təhsilinin maarifləndirilməsi və təbliği istiqamətində geniş miqyaslı fəaliyyətlər həyata keçirildi. Bakıda və regionlarda yerləşən peşə təhsili müəssisələrində təşkil olunan 644 infotur, 52 açıq qapı tədbiri və "Bir peşənin sirri" festivalı minlərlə gəncin bu sahə barədə məlumatlanmasına şərait yaratdı. Ümumilikdə, 39600-dən çox şagird peşə təhsilinin imkanları ilə tanış oldu, bu isə gənclərin bu sahəyə marağını daha da artırdı. Aparılan maarifləndirmə tədbirləri peşə təhsilinin cəmiyyətə təqdimatında mühüm rol oynadı, valideynlər

və gənclər arasında peşə təhsilinə olan etimadı artırmağa gətirib çıxardı.

Təbliğat fəaliyyətləri yalnız infoturlar və açıq qapılarla məhdudlaşmadı. Eyni zamanda iqtisadiyyatın dayanıqlı inkişaf modelinə keçidi və təhsilin roluna həsr olunmuş maarifləndirmə həftəsi çərçivəsində müxtəlif tədbirlər həyata keçirildi. Bu tədbirlər arasında "İstehsal, ətraf mühit və bərpa olunan enerji" mövzusunda seminarlar, "Ekonəqliyyata keçid" sərgiləri və "Kənd təsərrüfatında yaşıl innovasiyalar" mövzusunda infoturlar xüsusi diqqət çəkdi. Bu tədbirlər peşə təhsili alan gənclərin müasir ekoloji və iqtisadi trendlərə uyğun olaraq bilik və bacarıqlarını inkişaf etdirməsinə şərait yaratdı. Həmçinin bu tədbirlərin "Peşə təhsilinin ətraf mühit və davamlı inkişaf" mövzularında gənclərin şüurunda mühüm izlər buraxdığı qeyd olunmalıdır.

"Təməl" platformasının yaradılması işəgötürənlərlə peşə təhsili müəssisələri arasında daha sıx və davamlı əlaqələrin qurulmasına şərait yaratdı. Bu platforma çərçivəsində keçirilən dəyirmi masalar və seminarlar, işəgötürənlərin peşə təhsilinə olan marağını artırdı və məzunların işlə təmin olunmasında mühüm rol oynadı. Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında keçirilən regional forumlar peşə təhsili sisteminin dövlət-özəl tərəfdaşlığı çərçivəsində inkişafını müzakirə etmək üçün mühüm bir platformaya çevrildi. Bu cür maarifləndirmə və təbliğat fəaliyyəti peşə təhsilinin cəmiyyətin bütün təbəqələri arasında tanıdılması və onun əhəmiyyətinin daha geniş şəkildə başa düşülməsinə səbəb oldu. Nəticədə peşə təhsili alan gənclərin cəmiyyətə və iş dünyasına inteqrasiyası daha da sürətləndi.

Dəyişən bazarın tələbləri nəzərə alınaraq 2024-2025-ci tədris ili üçün "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda yeniliklərin edilməsi, eyni zamanda, peşə təhsili müəssisələrinə tələbə qəbulu planına 9 yeni ixtisasın, o cümlədən 2 yüksək texniki-peşə təhsili, 7 texniki-peşə təhsil səviyyələri olmaqla, əlavələrin edilməsi ölkənin iqtisadi siyasətinin prioritetlərini və sosial-iqtisadi hədəflərini əks etdirən mühüm addımdır. Bütün bu işlər yeni ixtisasların yaradılması, ölkənin müxtəlif sektorlarının, xüsusən də sənaye, energetika və kənd təsərrüfatı kimi strateji sahələrin modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması məqsədinə xidmət edir. Ümid edirik ki, *"dronların texniki xidməti və təmiri üzrə mütəxəssis", "elektrik və hibrid avtomobillərin təmiri üzrə texnik", "alternativ enerji qurğu və avadanlıqlarının istismarı", "günəş panellərinin quraşdırıcısı və təmirçisi", "suvarma maşınları və nasos qurğuları maşinisti"* kimi ixtisaslar ölkənin texnoloji innovasiyalar sahəsində inkişaf perspektivlərini daha da möhkəmləndirəcək və Azərbaycanın yaşıl enerji siyasətinə dəstək olmaqla, enerji səmərəliliyinin artırılmasına xidmət edəcəkdir.

Həmçinin qida və içki üzrə nəzarətçilərin, kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssislərin hazırlanmasına yönələn işlər də rəqabətqabiliyyətli kadrların və rəqəmsal savadlılığın təmin edilməsi baxımından turizm və biznes sektorlarının inkişafına öz töhfəsini verəcəkdir. Əminliklə deyə bilərik ki, bu ixtisaslar, əmək bazarının cari tələblərinə uyğun olaraq, ölkənin gələcək inkişafına mühüm töhfə verəcək peşəkarların yetişdirilməsini təmin etmək məqsədi daşıyır.

2024-2025-ci tədris ili üzrə tələbə qəbulu 78 peşə təhsili müəssisəsində 136 ixtisas olmaqla 30960 plan yeri üzrə aparılır, ayrılan plan yerlərində ötənilki rəqəmlərlə müqayisədə 22 faiz artım vardır. Bu son 10 ildəki ən böyük qəbul planıdır. Artıq tələbə qəbulunun ilk mərhələsi geridə qalıb. İlk mərhələdə 27 000-dən çox abituriyent peşə təhsili almaq üçün müraciət edib. Qeyd edə bilərik ki, bu il rekord sayda 23 185 dövlət sifarişli plan yeri ayrılıb. Bu da ümumi plan yerlərinin təxminən 85%-ni təşkil edir.

Gələcək perspektivlərə gəldikdə isə peşə təhsilinin daha da inkişaf etdirilməsi üçün kompleks tədbirlər planı hazırlanır. Yeni təhsil proqramlarının tətbiqi, infrastrukturun yenilənməsi və daha çox beynəlxalq təcrübənin ölkəmizə gətirilməsi bu sahədə davamlı inkişafın təmin olunmasına yönəldiləcək. Qarabağda və ölkənin digər bölgələrində yeni peşə təhsili müəssisələrinin açılması gənclərə yaşadıqları yerlərdə keyfiyyətli təhsil almaq imkanı yaradacaq. Eyni zamanda, peşə təhsilinə qəbul olunan qadınların sayının artırılması və gender bərabərliyinin təmin olunması gələcək illərdə bu sahədə daha böyük irəliləyişlərin əldə olunacağını vəd edir. Bu məqsədlərə nail olmaq üçün dövlət, özəl sektor və beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da gücləndirilməsi zəruridir. Çünki, peşə təhsili Azərbaycanın dayanıqlı inkişafında və sosial rifahının yüksəlməsində əsas rol oynamağa davam edəcək.

MÜTALİƏ MƏDƏNİYYƏTİ

Vidadi Xəlilov,
Azərbaycan Respublikası Təhsil İnstitutunun
baş elmi məsləhətçisi, pedaqoji elmlər doktoru,
professor, Əməkdar müəllim
e-mail: konulmikayilova@rambler.ru

DOİ: 10.30546/2706-7858.2024.3.212
UOT: 37; 73/76; 78

Xülasə. *Məqalədə müxtəlif nəsillərdən olan insanların mənəvi zənginliyində, şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən mütaliə prosesinin əsas mahiyyəti, başlıca istiqamətləri nəzərə çatdırılır.*

Açar sözlər: *mütaliə, oxumaq, yazmaq, təkrarlamaq, müqayisə aparmaq, nəticə çıxartmaq, biliklilik, şəxsiyyət zənginliyi, fəal mövqe.*
Key words: *reading, recitation, writing, repeating, comparing, drawing conclusions, knowledge, personality enrichment, active position.*
Ключевые слова: *чтение, письмо, повторение, сравнение, выводы, знания, богатство личности, активная позиция.*

İnsan insanlıq adını uca tutmaq yolunda çalışan hər kəs bəşəriyyətin yaratdığı mənəvi sərvət çeşməsindən bəhrələnmək üçün daha çox oxuyub-öyrənməli, daima mütaliə etməlidir. Ululardan ulu babamız dahi Nizaminin elmi, etik-estetik fikirləri, ideyaları ilə bu gün də irqindən-millətindən asılı olmayaraq hər kəsin ömür yolunu işıqlandırır:

Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr, daşdan da gövhər çıxardar.
Ancaq öyrənməyi ar bilən insan,
Məhrumdur dünyada bilik almaqdan.
Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular [1, s.44].

Böyük çex pedaqoqu Yan Amos Komenski yetirmələrinə bu sözləri dönə-dönə xatırladırdı: *O günü, o saatı bədbəxt say ki, yeni bir şey öyrənməmisən və öz təhsilinə heç nə əlavə etməmisən.*

Xüsusi olaraq sübuta ehtiyac yoxdur ki, ən dərin bilik, elmi dünyagörüşü, məhz mütaliə yolu ilə yaranır. Müxtəlif məzmunlu kitabları oxumaq zəruri, mənəvi tələbata çevrilib. Mütaliə mədəniyyətindən danışarkən mühüm bir məsələnin üzərində dayanmaq lazımdır. Müşahidələr göstərir ki, müxtəlif nəsildən olan insanların bəziləri ancaq bədii ədəbiyyata – məhəbbəti, qəhrəmanlığı tərənnüm edən kitablara daha çox meyil edirlər. Bir çoxları isə fantastik – macəra ədəbiyyatına üstünlük verir, mütaliə üçün faydalı sayırlar. Müşahidələr göstərir ki, mütaliəni aşağıdakı istiqamətdə davam etdirmək daha faydalı və əhəmiyyətlidir.

İdeya-siyasi istiqamətdə. Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasəti, uşaqların, gənclərin mənəvi tərbiyəsi üzrə görülən işləri, habelə dünyanın bir çox ölkələrində baş verən hadisələri əks etdirən kitablarla, qəzet və jurnal səhifələrindəki yazılarla müntəzəm tanış olmaq faydalıdır.

Elmi-kütləvi ədəbiyyat üzrə. Müxtəlif nəsildən olan insanlar, eyni zamanda elmin-texni-

kanın, mədəniyyətin ayrı-ayrı sahələrinin başlıca xüsusiyyətləri, yenilikləri ilə tanış olarsa, bu onun dünyagörüşünün genişlənməsinə, ümumi inkişafına əsaslı təsir göstərər.

Müxtəlif təsisatlı məktəblərdə tədris edilən fənlər və gələcəkdə seçiləcək elm-sənət sahəsi üzrə. Bu istiqamətdə mütaliəyə xüsusi fikir verən məktəblilər qarşıya qoyduqları məqsədə daha tez çatırlar. Onların təlim uğurları gündən-günə artır. Orta məktəbdə və gələcəkdə təhsil alacaqları ali və orta ixtisas məktəblərində fəallar-əlaçılar sırasında olmağa əsaslı bünövrə yaranır.

Bədii ədəbiyyat üzrə. Bu istiqamətdə mütaliə etmək də vacibdir. Hər bir məktəbli ədəbiyyat dünyasında tanınan görkəmli şair və yazıçıların, habelə müasir dövrdə yazıb-yaradan söz-sənət ustalarının əsərləri ilə müntəzəm tanış olsa, bu onlar üçün daha faydalıdır. Bədii ədəbiyyat üzrə mütaliə sizlərdən hər birinizin estetik hislərini, zövqünü inkişaf etdirir, ətraf aləmə, ən başlıcası isə insanlara qayğı hissini qüvvətləndirir.

İncəsənət üzrə. Bu istiqamətdə mütaliə etmək şəxsiyyətin mənəvi zənginliyinə müsbət təsir göstərir. Estetikaya, estetik tərbiyəyə və incəsənətşünaslığın əsaslarına həsr edilmiş lüğət-məlumat kitablarında göstərilir ki, bu günlərə gəlib çatan incəsənətin daha geniş yayılan aşağıdakı növləri vardır: ***dekorativ-tətbiqi incəsənət, memarlıq, təsviri incəsənət, musiqi, bədii ədəbiyyat, xoreoqrafiya, teatr, kino, bədii fotoqrafiya***.

Əgər nəzərə alsaq ki, həmin növlər də müxtəlif janrlara – janr qruplarına ayrılır, o zaman incəsənətin geniş əhatə dairəsi haqqında daha aydın təsəvvür yaranar. Elə burada nəzərə çatdıraq ki, bəzi kitablarda incəsənətin növlərindən bəhs olunarkən bədii ədəbiyyat əvvəl göstərilir, yaxud da dekorativ-tətbiqi sənət təsviri incəsənətin tərkibində nəzərə çatdırılır. Əlbəttə, belə variantlar da mümkündür. Görünür, həmin fikrin tərəfdarları bədii ədəbiyyatın daha geniş yayılmasını, hamı tərəfindən başa düşülməsini, yaxud dekorativ-tətbiqi sənət təsviri incəsənətin mühüm bir janrı olmasını əsas götürürlər. Lakin tarixilik baxımından yanaşarkən dekorativ-tətbiqi sənət qədim insanların yaratdığı ilk sənət nümunələri olduğu üçün onu əvvəlcə, özü də ayrıca nəzərə çatdırmağı daha məqsədəmüvafiq sayırlar.

İncəsənət ictimai şüur formasıdır. Bəşəriyyətin yaratdığı mənəvi mədəniyyətin mühüm tərkib hissəsidir. Müxtəlif təbiət lövhələrini, ictimai həyat hadisələrini, insani münasibətləri müvafiq janrlar, bədii obrazlar vasitəsilə əks etdirir. Əlbəttə, bütün bunlar ayrı-ayrı incəsənət növlərinin ifadə vasitələri ilə mümkün olur. Musiqidə səslər, ritmlər, ədəbiyyatda sözlər, rəssamlıqda rənglər, heykəltəraşlıqda daş, gil, dəmir və formalar, forma çalarları ayrı-ayrı sənətkarların ustalığı peşə məharəti ilə nəzərə çatdırılır.

Müxtəlif xarakterli insanların hiss və həyəcanlarını, arzu və ideyalarını ifadə etməkdə incəsənətin ayrı-ayrı növləri çox böyük imkanlara malikdir. İncəsənətin növlərindən danışarkən ***mono*** və ***sintetik*** incəsənət terminləri də işlədilir. Ancaq bir növdən ibarət olan incəsənətə ***mono*** incəsənət deyilir. Bədii ədəbiyyatın növ və janrları, rəssamlıq əsərləri, instrumental musiqi nümunələri və s. mono incəsənət növlərinə aiddir. Bir neçə növdən ibarət olan incəsənətə isə ***sintetik*** incəsənət deyilir. Kiçik və irihəcmli vokal musiqi janrları (*mahnı, romans, kantata, oratoriya*), teatr, kino və digər növlərdəki sənət inciləri sintetik incəsənətə aiddir. İncəsənətin müxtəlif növlərindəki əsərlər insanların əxlaqi-estetik hislərinin inkişafında, mənəvi zənginliyinin artmasında çox böyük rol oynayır. İncəsənətin, xüsusilə də musiqinin, təsviri incəsənətin nəinki insanlara, hətta bütün canlılara çox qüdrətli təsir göstərməsi dahi Nizaminin əsərlərində parlaq misralarla inandırıcı şəkildə nəzərə çatdırılır. Daha aydın olmaq üçün "İsgəndərnamə" poemasının "İqbalnamə" bölməsinə "Əflatunun çalğı aləti qayırması" hissəsindəki aşağıdakı misralara diqqət edək:

Bütün heyvanları yatırdıb sazla,
Sonra ayıldardı xoş bir avazla.
Hər bir səsə uyğun səslər çıxardan,
Bir saz düzəltdi ki, başqa bir insan,
Onun sirlərini əsla bilməzdi,
O sazda bir hava çala bilməzdi.
Ustad həmin sazı çaldığı zaman,
Edərdi xəstənin dərdinə dərman.
Çalğıda elə bir cəhət də vardı
Ki, həkim onunla dərdi tapardı...

İncəsənətin ən geniş yayılan növləri olan musiqi, ədəbiyyat, təsviri-incəsənət, həqiqətən çox təsirli müalicə vasitəsidir. Fəlsəfə elmləri doktoru, professor Adil Nəcəfov "İncəsənət və səhhət" əsərində yazır: "İncəsənət insana şəfa gə-

tirən ən təsirli ruhi əlaclardandır. Bu mənəvi dərman insanı quruluqdan, qəzəbdən, xudpəsəndlikdən, xəsislikdən, tamahkarlıqdan, dünyagirlikdən xilas edib, onun qəlbində yaşamaq həvəsi, könül dolu sevinmək həvəsi, dünyanı və insanları sevmək həvəsi yaradır, insanın qəlbini romantik sənət möcüzəsi sehirləyir...

İncəsənət əsərlərindən alınan estetik zövq ən güclü müsbət emosiyalardandır və insan orqanizminə olduqca yaxşı təsir göstərir. Ən yaxşı bədii əsərlər hər cür azara qarşı mübarizədə çox zəruri olan böyük nikbinlik ehtiyacı yaradır. İncəsənət sağlamlığa xidmət edir və edəcəkdir" [5, s.3].

Çox gözəl deyilmişdir. İncəsənətin, həm də müalicə funksiyasını yerinə yetirməsi onun emosional təbiəti ilə sıx bağlıdır. Bax elə buna görə də incəsənətin ən geniş yayılan növlərindən olan musiqi nümunələri ilə bütün canlılara təsir etmək olur. Musiqi ilə bitkilər yaxşı inkişaf edir. Sağmal heyvanlar südünü, qoşqu heyvanları (cütə, arabaya qoşulan öküzlər nəzərdə tutulur) isə gücünü artırır.

Artıq xeyli vaxtdır ki, təbabətdə "muzoterapiya" (musiqi vasitəsilə müalicə) adlanan yeni bir sahəyə maraq və diqqət artıb. Dünyasını vaxtsız dəyişən görkəmli Azərbaycan alimi, tibb elmləri doktoru, professor İbrahim Topçubaşov bu sahədə böyük uğurlar qazanmışdır. O, ən ağır cərrahiyyə əməliyyatını musiqi müşayiəti ilə aparır, musiqi ilə müalicəyə böyük üstünlük verir, böyük nailiyyətlər əldə edirdi.

Bəli, Azərbaycan incəsənəti həm də xalqımızın mədəniyyət-mənəviyyat tarixidir. Ayrı-ayrı dövlərdə yaranan incəsənət nümunələri o zamankı insanların həyat və məişət şəraiti haqqında doğru-düzgün təsəvvür yaradır. İncəsənətin mahiyyətindən bəhs edərkən Azərbaycan xalq yaradıcılığına – musiqi və ədəbi folklor nümunələrinə xüsusi diqqət yetirmək lazımdır. Laylalar, bayatılar, nağıllar, dastanlar, aşıq havaları, muğamlar, mahnılar və saysız-hesabsız rəqs melodiyaları xalqımızın bədii təfəkkür incilərinin zənginliyini göstərir. Dədə Qorqud müdrikliyi, Xaqani və Nizami fəlsəfəsi, Nəsimi və Füzulinin həyat eşqi, Bəhruz Kəngərli və Səttar Bəhlulzadənin ecazkar rənglər dünyası, Üzeyir Hacıbəyli musiqisinin qüdrəti, mübarizliyi, həzinliyi və füsunkarlığı, Səməd Vurğun poeziyasının bədii-ruhi təsiri ilə həmişə, hər an mənalı yaşamağa çalışırıq. Bu sənət möcüzəsini yaradanlarla fəxr edirik.

Azərbaycan incəsənətinin geniş yayılan musiqi, təsviri incəsənət nümunələri bütün dünyada məşhurdur. Azərbaycan tətbiqi sənət ustalarının – xalçaların, xəttatların, zərgərlərin, fırça ustalarının yaratdığı sənət inciləri bu gün dünyanın ən inkişaf etmiş ölkələrinin muzeylərində nümayiş etdirilir. Azərbaycanın mədəni inkişaf səviyyəsi, incəsənət ustalarının böyük məharəti haqqında aydın təsəvvür yaradır. Xalqımız həqiqətən nəğməkar, şair xalqdır. Ona görə də görkəmli sənət ustaları müxtəlif vaxtlarda gənc nəslə müraciət etmiş, incəsənəti daha mükəmməl öyrənməyi, bu sənət incilərinin təsiri ilə yaşayıb-yaratmağı həmişə tövsiyə etmişlər.

İstifadə edilmiş ədəbiyyat

1. Nizaminin hikmət və nəsihətləri. "Yazıçı" nəşriyyatı, Bakı, 1981.
2. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Şeirlər. "Yazıçı" nəşriyyatı, Bakı, 1988.
3. Vəfalı A. Sənətkar və xalq. "Gənclik" nəşriyyatı, Bakı, 1983.
4. Hüseynli A. Qədim türk hökmdarları. "Nərgiz" nəşriyyatı, Bakı, 2013.
5. Nəcəfov A. İncəsənət və səhhət. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1989.

V.Khalilov

Reading culture

Abstract

The main essence and directions of the reading process, which is important in the spiritual enrichment and personality formation of people from different generations, are taken into account in the article.

В.Халилов

Культура чтения

Аннотация

В статье доводят до сведения основные направления процесса чтения, имеющего важное значение в духовном богатстве и формировании личности людей разных поколений.

PEŞƏ TƏHSİLİNDƏ YENİ İXTİSASLARIN TƏDRİSİ ZAMANIN TƏLƏBİDİR

Nərmin Məmmədova Sadıxlı,
Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşə təhsilinin təşkili və təhsilverənlərlə iş şöbəsinin müdiri
e-mail: Nermin.Mammadova@ptda.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.214
UOT: 33; 377

Xülasə. *Məqalədə 2024-2025-ci tədris ilində peşə təhsili üzrə təklif edilən yeni ixtisaslar və onların Azərbaycanın müxtəlif sektorlarının – enerji, nəqliyyat, kənd təsərrüfatı, səhiyyə və xidmət sahələrinin gələcək inkişafına töhfəsi öz əksini tapmışdır. Bu ixtisaslar ölkənin sosial-iqtisadi strategiyasına uyğun olaraq texnoloji yeniliklərin tətbiqi və ekoloji dayanıqlılığın təmin olunması məqsədi ilə hazırlanmış, geniş bir sahədə mütəxəssislər yetişdirməklə ölkənin rəqabət qabiliyyətini və dayanıqlı inkişafını təmin edəcəkdir. Bu ixtisaslar, həmçinin Azərbaycanı regional və qlobal səviyyədə innovativ texnologiyaların və ekoloji həllərin tətbiqi sahəsində aparıcı mövqeyə gətirə bilər.*

Açar sözlər: *peşə təhsili, rəqəmsal transformasiya, yaşıl enerji, sosial-iqtisadi strategiya, ekoloji dayanıqlılıq.*
Key words: *vocational education, digital transformation, green energy, socio-economic strategy, ecological sustainability.*
Ключевые слова: *профессиональное образование, цифровая трансформация, зелёная энергия, социально-экономическая стратегия, экологическая устойчивость.*

Qlobal iqtisadiyyatın dinamik xarakteri dəyişən tələblərə və iş şəraitinə tez uyğunlaşmağı bacaran ixtisaslı işçi qüvvəsini təmin etmək üçün təhsil sistemlərinin davamlı inkişafını şərtləndirir. Məşğulluğun təmin edilməsində vacib rol oynayan peşə təhsili XXI əsrin tələblərinə cavab vermək üçün əhəmiyyətli dəyişikliklərə məruz qalmaqdadır. Əsas trendlərdən biri nəzəri biliklərdən daha çox praktiki işlə bağlı spesifik bacarıqların inkişaf etdirilməsinə üstünlük verən və bacarıqlara əsaslanan tədris metodologiyasına keçiddən ibarətdir. Bərpa olunan enerji, səhiyyə, informasiya texnologiyaları və digər sürətlə inkişaf edən sektorların ehtiyaclarını ödəmək üçün peşə təhsili proqramları transformasiya edilməkdədir.

Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Peşə təhsilinin müasir standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğun olaraq təşkil edilməsi peşə təhsili sahəsində dövlət siyasətinin əsas prinsiplərindəndir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 22 iyul 2022-ci il tarixli, 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda peşə təhsilinin əhatə dairəsi və keyfiyyətinin artırılması əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Azərbaycan

Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, gələcək illərdə yüksək rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının formalaşması üçün üç əsas məqsəddən biri kimi XXI əsrin tələblərinə cavab verən təhsil göstərilmişdir. İnsanların yüksəkkeyfiyyəti təhsil almaq imkanlarının genişləndirilməsi, rəqəmsal texnologiyaların təhsilə inteqrasiya edilməsi, kadr hazırlığı siyasətinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, peşə hazırlığı sisteminin beynəlxalq standartlara uyğun qurulması və təmin edilməsi bu məqsədə nail olmaq üçün əsas fəaliyyətlər kimi təsbit olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 942s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı"na uyğun olaraq "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nın mövcud vəziyyəti işğaldan azad edilən ərazilərdə mövcud əmək bazarının strukturuna, iqtisadiyyatın dinamik inkişafı və ixtisaslı kadrlara olan tələbatın dəyişməsinə münasibətdə araşdırılmışdır. Habelə Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi üzrə istiqamətə, uyğun olaraq COP29-un cari ildə ölkəmizdə keçirilməsi nəzərə alınaraq, peşə təhsili üzrə ixtisasların təsnifatında təkmilləşdirilmə zərurəti müəyyən edilmişdir. Bu məqsədlə müvafiq sahədə fəaliyyət göstərən işəgötürənlər və işəgötürən assosiasiyaları ilə birgə əmək bazarı tələbatına uyğun yeni ixtisasların təsnifata əlavə edilməsi mövzusunda müxtəlif görüş və dəyirmi masalar təşkil edilmişdir. Əlavə olaraq müxtəlif beynəlxalq layihələr çərçivəsində də qabaqcıl beynəlxalq təcrübə təhlil edilmiş və yeni ixtisasların hazırlanması prosesində əsas götürülmüşdür.

2024-2025-ci tədris ili üçün həm "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"na, həm də peşə təhsili müəssisələrinə tələbə qəbulu planına 9 (doqquz) yeni ixtisasın, 2 (iki) yüksək texniki-peşə təhsili, 7 (yeddi) texniki-peşə təhsil səviyyələri olmaqla əlavə edilməsi ölkənin iqtisadi siyasətinin prioritetlərini və sosial-iqtisadi hədəflərini əks etdirən mühüm addımdır. Yeni ixtisasların yaradılması ölkənin müxtəlif sektorlarının, xüsusən də sənaye, energetika və kənd təsərrüfatı kimi strateji sahələrin modernləşdirilməsi və rəqabətqabiliyyətinin artırılması məqsədinə xidmət edir. Məsələn, *"dronların texniki xidməti və təmiri üzrə mütəxəssis", "elektrik və hibrid avtomobillərin təmiri üzrə texnik", "alternativ enerji qurğu və avadanlıqlarının istismarı", "günəş panellərinin quraşdırıcısı və təmirçisi", "suvarma maşınları və nasos qurğuları maşinisti"* kimi ixtisaslar enerji səmərəliliyinin və ölkənin texnoloji innovasiyalar sahəsində inkişaf perspektivlərini daha da möhkəmləndirəcəkdir. Bu ixtisaslar, həmçinin Azərbaycanın yaşıl enerji siyasətinə dəstək olmaqla, enerji səmərəliliyinin artırılmasına da xidmət edəcəkdir. Bununla yanaşı, qida və içki üzrə nəzarətçilərin, kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssislərin hazırlanması, rəqabətqabiliyyətli kadrların və rəqəmsal savadlılığın təmin edilməsi baxımından turizm və biznes sektorlarının inkişafına öz töhfəsini verəcəkdir. Hər bir ixtisasın yaradılması, qanunvericilikdəki dəyişikliklərə və təhsil sahəsində həyata keçirilən islahatlara və beynəlxalq təcrübədə mövcud qlobal trendlərə cavab olaraq reallaşdırılmışdır. Bu ixtisaslar əmək bazarının cari tələblərinə uyğun olaraq ölkənin gələcək inkişafına mühüm töhfə verəcək peşəkarların hazırlanmasını təmin etmək məqsədi daşıyır.

Yeni ixtisaslar və onların təhlili

Dronların texniki xidməti və təmiri üzrə mütəxəssis. Müasir dövrdə dronlar, bir çox sənaye sahəsində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Onlar təkcə hərbi məqsədlər üçün deyil, eyni zamanda kənd təsərrüfatı, logistika, mülki təhlükəsizlik, enerji sektoru, hətta film sənayesi kimi sahələrdə geniş tətbiq olunmaqdadır. Dron texnologiyalarının sürətli inkişafı ilə bu sahədə ixtisaslı texniklərə olan tələbat da artmaqdadır. Dünya İqtisadi Forumunun 2020-ci il hesabatına görə, dron texnologiyaları sektorunun 2030-cu ilədək dünya iqtisadiyyatına 42,8 milyard dollar həcmində töhfə verməsi gözlənilir. Bu, dron xidmətləri və texniki dəstək sahələrinin vacibliyini bir daha təsdiq edir.

Azərbaycan özünün kənd təsərrüfatı, neft-qaz və enerji sektorlarında müasir texnologiyaları tətbiq etməyə başladığı dövrdə, dron texnologiyalarına da ciddi əhəmiyyət verməkdədir. Kənd təsərrüfatında dronların istifadəsi ilə məhsuldarlıq

artır, xəstəliklərin erkən aşkarlanması və səmərəli suvarma metodları tətbiq olunur. Bu məzmunda dronlara texniki xidmət və təmir sahəsində mütəxəssislərə olan tələbat da artır.

Dron texnologiyalarının geniş yayıldığı ölkələrdən olan Çin dronların istehsalı və texniki dəstəyinə görə dünyada liderdir. Bu ölkədə dron texniki xidmət sahəsində xüsusi peşə təhsili proqramları həyata keçirilir. Məsələn, DJI şirkəti, dronların texniki xidmətini təmin etmək üçün müxtəlif sertifikat proqramları təklif edir. Eyni zamanda ABŞ-da dron texniki xidmət sahəsində peşəkarların hazırlanması üçün FAA (Federal Aviation Administration) tərəfindən xüsusi tələblər müəyyən olunmuşdur. FAA sertifikatına malik texniklər dronların texniki xidmətini və təmirini həyata keçirə bilərlər. Bu, beynəlxalq səviyyədə tanınan bir standart olaraq qəbul edilir və digər ölkələrdə də geniş tətbiq olunur.

Dünya üzrə dron bazarının həcmi 2022-ci ildə təxminən 30,6 milyard dollara çatmışdır və bu rəqəmin 2027-ci ilədək 58,4 milyard dollara yüksəlməsi proqnozlaşdırılır. Bu artım dron texniki xidmət və təmir sahəsində işçi qüvvəsinə olan tələbatın da artacağını göstərir. Azərbaycan bu tendensiyadan kənarda qala bilməz, əksinə, bu sahədə mütəxəssislərin hazırlanması və təhsil müəssisələrinin bu sahəyə yönəldilməsi ölkənin rəqabət qabiliyyətini artıracaq və iqtisadiyyatın modernləşməsinə töhfə verəcəkdir.

Qida və içki üzrə nəzarətçi dünya iqtisadiyyatında ən sürətlə inkişaf edən və strateji əhəmiyyət daşıyan peşələrdən biridir. Bu sektor, insanların gündəlik həyatında mərkəzi rola malik olmaqla yanaşı, turizm, xidmət sektoru və qonaqpərvərlik kimi sahələrlə də sıx bağlıdır. Dünya əhalisinin artması, qida sənayesində innovasiyaların tətbiqi, qida təhlükəsizliyi standartlarının yüksəldilməsi və ekoloji dayanıqlılıq meyarlarının ön plana çıxması bu sahədə mütəxəssislərə olan tələbatı artırmaqdadır. Statistika göstərir ki, 2023-cü ildə qida və içki sənayesinin qlobal bazar həcmi təxminən 7 trilyon dollar olmuşdur və bu rəqəmin 2028-ci ilədək 10 trilyon dollara çatması gözlənilir.

Son illərdə Azərbaycanın qida və içki sektoru mühüm irəliləyişlərə imza atmışdır. Turizm sektorunun inkişafı, yerli istehsalın stimullaşdırılması və ixrac potensialının artırılması, ölkənin bu sahədə ixtisaslı kadrlar hazırlanmasını zəruri edir. Azərbaycanın milli mətbəxi və yerli qida məhsulları, həm daxili bazarda, həm də xarici bazarlarda artan maraqla qarşılanır. Ona görə də qida və içki üzrə mütəxəssislərin hazırlanması ölkənin iqtisadiyyatında əhəmiyyətli rol oynayır.

Bərpa olunan enerji və ekoloji dayanıqlılıq üzrə ixtisaslar. Elektrik və hibrid avtomobilləri dünya üzrə karbon emissiyalarının azaldılması məqsədi ilə yaşıl enerji strategiyalarında əsas yer tutur. Beynəlxalq Enerji Agentliyinin (IEA) məlumatına görə 2022-ci ildə dünyada satılan elektrik avtomobillərinin sayı 10 milyon ədədə çatmışdır ki, bu da əvvəlki ilə nisbətən 55% artım deməkdir. Azərbaycan bu tendensiyaya uyğun olaraq ekoloji nəqliyyat vasitələrinə keçidi təşviq edir. 2023-cü ildə Azərbaycan hökuməti elektrik və hibrid avtomobillərin idxalına tətbiq olunan gömrük rüsumlarında azalmalar etmişdir ki, bu da ölkədə bu nəqliyyat vasitələrinə olan marağı artırmışdır. Elektrik və hibrid avtomobillərinin təmiri üzrə mütəxəssislər bu tendensiyanın dəstəklənməsi üçün vacibdir. Bu ixtisas enerji səmərəliliyini artıracaq, ekoloji dayanıqlı nəqliyyat vasitələrinin işini təmin edəcək və ölkənin yaşıl enerji siyasətinin icrasını sürətləndirəcəkdir. Azərbaycanda elektrik nəqliyyat vasitələrinə keçid enerji istehlakının daha səmərəli idarə olunması və karbon emissiyalarının azaldılmasını təmin edəcəkdir.

Günəş enerjisi dünyada ən sürətlə inkişaf edən bərpa olunan enerji mənbələrindən biridir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) məlumatına görə 2021-ci ildə günəş enerjisindən istifadə edən qlobal quraşdırılmış güc 849 GW-a çatmışdır ki, bu da əvvəlki ilə nisbətən təxminən 22% artım deməkdir. Azərbaycan da günəş enerjisi potensialı yüksək olan ölkələrdən biridir və bu sahədə böyük investisiyalar cəlb edir.

Elektrik və hibrid avtomobillərinin təmiri, alternativ enerji qurğularının istismarı və günəş panellərinin quraşdırılması üzrə mütəxəssislərin hazırlanması Azərbaycanın yaşıl enerji siyasətinin və ekoloji dayanıqlılıq strategiyasının uğurla həyata keçirilməsi üçün vacibdir. Beynəlxalq təcrübə göstərir ki, bu sahələr üzrə kadrların hazırlanması ölkənin enerji təhlükəsizliyinə və iqtisadi dayanıqlığına mühüm töhfə verir. Azərbaycanın enerji siyasəti ilə paralel olaraq bu ixtisasların inkişafı ölkənin qlobal yaşıl enerji bazarında mövqeyini gücləndirəcəkdir.

Suvarma maşınları və nasos qurğuları

maşinisti ixtisası Azərbaycanda kənd təsərrüfatının inkişafı və su resurslarının səmərəli istifadəsi baxımından strateji əhəmiyyət daşıyan sahələrdən biridir. Bu ixtisas üzrə mütəxəssislər, suvarma sistemlərinin qurulması, nasos qurğularının istismarı və texniki xidmətini həyata keçirərək kənd təsərrüfatı məhsuldarlığının artırılmasına və su resurslarının daha effektiv idarə edilməsinə töhfə verirlər.

2022-2026-cı il Sosial-İqtisadi İnkişaf Strategiyası çərçivəsində ölkədə suvarma sistemlərinin təkmilləşdirilməsi və müasir texnologiyaların tətbiqi əsas prioritetlərdən biridir. Bu, kənd təsərrüfatında suvarma texnologiyalarının inkişafını və suyun səmərəli istifadəsini təmin etmək üçün vacibdir. Suvarma sistemlərinin modernləşdirilməsi, həm su itkisinin qarşısını alacaq, həm də məhsuldarlığı artıracaq. Suvarma maşınları və nasos qurğuları maşinisti ixtisası bu hədəflərə çatmaq üçün kadrların hazırlanmasında mühüm rol oynayır. Bundan əlavə, Azərbaycanın Milli Prioritetləri 2030 sənədində kənd təsərrüfatında ərzaq təhlükəsizliyinin təmin edilməsi və suvarma infrastrukturunun təkmilləşdirilməsi hədəflənir. Bu prioritetlər, kənd təsərrüfatı sektorunda suvarma sistemlərinin və texnoloji avadanlıqların modernləşdirilməsini tələb edir ki, bu da ixtisaslı mütəxəssislərə olan tələbatı artırır.

Nəqliyyat vasitələrinin texniki istismarı (hava nəqliyyatı üzrə) ixtisası Azərbaycanın hava nəqliyyatı sektorunun inkişafına və yeni tikilən infrastrukturun səmərəli işləməsinə mühüm töhfə verəcək bir ixtisasdır. Hava nəqliyyatının inkişafı və beynəlxalq uçuşlara açıq olan hava limanlarının genişlənməsi bu sahədə yüksəkixtisaslı texniki kadrların hazırlanmasını tələb edir.

Bu ixtisasın əhəmiyyəti, xüsusilə **Qarabağda tikilən 3 beynəlxalq hava limanı** ilə bağlıdır. Qarabağdakı strateji hava limanlarının istifadəyə verilməsi, həm daxili, həm də beynəlxalq hava daşımalarının artırılmasını hədəfləyir ki, bu da texniki istismar sahəsində ixtisaslı kadrların əhəmiyyətini daha da artırır. Belə ki, Füzuli, Zəngilan və Laçında yeni beynəlxalq hava limanlarının inşası Azərbaycanın regional və beynəlxalq aviasiya sektorunda mövqeyini gücləndirməklə yanaşı, regionun iqtisadi inkişafını sürətləndirərək, beynəlxalq yük və sərnişin daşımalarının həyata keçirilməsini təmin edəcəkdir. Bu limanların texniki istismarı isə yalnız peşəkar mütəxəssislərin hazırlığı ilə mümkündür. İxtisas üzrə təhsil alan mütəxəssislər bu hava limanlarında təyyarələrin texniki xidmətinin göstərilməsi, avadanlıqların istismarı və onların təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyət göstərəcəklər. Yüksək standartlara cavab verən bu mütəxəssislər hava nəqliyyatının fasiləsiz fəaliyyətini və beynəlxalq standartlara uyğun texniki baxışların həyata keçirilməsini təmin edəcəklər.

Kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis ixtisası Azərbaycanda dövlət və özəl sektorun rəqəmsallaşma və elektronlaşma prosesində mühüm yer tutan bir sahədir. Bu ixtisas üzrə təhsil alan mütəxəssislər sənədlərin elektron idarə olunması, ofis xidmətlərinin avtomatlaşdırılması və idarəetmənin effektiv həyata keçirilməsinə cavabdehdirlər. Rəqəmsallaşma prosesinin sürətləndiyi dövrdə bu ixtisasın əhəmiyyəti getdikcə artır.

Azərbaycanda rəqəmsal transformasiya sahəsində həyata keçirilən əsas dövlət proqramlarından biri olan **"Azərbaycan Respublikasında Rəqəmsal Transformasiya üzrə Dövlət Proqramı"nın (2021-2025)** məqsədi elektron sənəd dövriyyəsi, elektron arxivlər və idarəetmə sistemlərinin rəqəmsallaşmasıdır.

Azərbaycanın rəqəmsallaşma sahəsində mühüm nailiyyətlərindən biri də **"Elektron Hökumət" Dövlət Proqramı** çərçivəsində görülən işlərdir. Bu proqram dövlət idarələrində sənədləşmə proseslərinin elektron sistemlər üzərindən idarə olunmasını hədəfləyir. Elektron hökumət platformasında xidmət göstərən qurumların sayı 2023-cü ildə 1500-dən çox olmuşdur ki, bu da idarəetmə işlərinin əksəriyyətinin elektron sistemlərdə həyata keçirildiyini göstərir. Elektron sənəd dövriyyəsi və rəqəmsallaşma prosesləri kağız istifadəsini 40%-dən çox azaltmışdır. Bu tendensiyalar kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssislərin fəaliyyət sahəsinin elektron sistemlər üzərində genişlənəcəyini göstərir. Rəqəmsal transformasiya çərçivəsində kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis ixtisasının dəyəri və gələcək perspektivləri böyükdür. Bu sahədə çalışan ixtisaslaşmış kadrlar həm dövlət, həm də özəl sektorda vacib mövqelər tutacaqdır.

Tibbi avadanlıqların təmiri və xidməti elektromexaniki ixtisası səhiyyə sektorunda yüksək texnologiyalı tibbi avadanlıqların dayanıqlı və təhlükəsiz istifadəsini təmin edən mütəxəssislərin hazırlanmasını hədəfləyir. Müasir səhiyyə siste-

mində texnoloji avadanlıqların rolu böyükdür və onların düzgün işləməsi tibbi xidmətlərin keyfiyyətinə birbaşa təsir edir. Bu ixtisas üzrə təhsil alan elektromexaniklər tibbi avadanlıqların diaqnostikası, texniki xidməti, təmiri və istismarı sahəsində mütəxəssislər kimi formalaşırlar.

Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə əlaqədar olaraq tibbi avadanlıqlara olan tələbat sürətlə artır. 2022-2026-cı il Sosial-İqtisadi İnkişaf Strategiyası çərçivəsində səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və səhiyyə infrastrukturunun modernləşdirilməsi əsas hədəflərdən biridir. Bu isə tibbi avadanlıqların müasir standartlara uyğun işləməsini təmin edəcək peşəkar mütəxəssislərə böyük ehtiyac yaradır.

Tibbi avadanlıqların texniki xidməti və təmiri üzrə mütəxəssislərin hazırlanması beynəlxalq səviyyədə də geniş yayılmışdır. **Dünya Səhiyyə Təşkilatı (WHO)**, səhiyyə infrastrukturunun davamlı işləməsi üçün tibbi texnika üzrə texniki mütəxəssislərə ehtiyac olduğunu vurğulayır. Məsələn, ABŞ-da tibbi avadanlıqların təmiri üzrə elektromexaniklər səhiyyə müəssisələrinin fasiləsiz işləməsini təmin edən mühüm peşəkarlar kimi qəbul olunur. Xüsusilə pandemiya dövründə tibbi avadanlıqların fasiləsiz işləməsi səhiyyə infrastrukturunun dayanıqlılığını təmin edən əsas amillərdən biri kimi ön plana çıxmışdır.

Nəticə etibarilə, **"tibbi avadanlıqların təmiri və xidməti elektromexaniki"** ixtisası müasir səhiyyə sisteminin texnoloji ehtiyaclarını qarşılamaq və yüksəkkeyfiyyətli tibbi xidmətlərin davamlılığını təmin etmək baxımından mühüm rol oynayır. Bu gün Azərbaycanda bu ixtisasın inkişafı, ölkənin səhiyyə infrastrukturunun gücləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üçün əhəmiyyətlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası.
2. Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 942s nömrəli Sərəncamı.
4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Səhiyyə infrastrukturunun inkişafı üzrə Dövlət Proqramı, 2022.
5. World Economic Forum – Drone Technology: The Next Economic Frontier, 2020.
6. International Energy Agency (IEA) – Global EV Outlook 2022.
7. International Renewable Energy Agency (IRENA) – Renewables 2021, Global Status Report.
8. World Health Organization (WHO) – Healthcare Infrastructure and Equipment Maintenance Guidelines, 2021.

N.Mammadova

Teaching new specialties in vocational education is the need of the era

Abstract

The article highlights the new specializations proposed for vocational education in the 2024-2025 academic year and their contribution to the future development of various sectors in Azerbaijan, including energy, transport, agriculture, healthcare, and services. These specializations have been designed in line with the country's socio-economic strategy to implement technological innovations and ensure ecological sus-tainability. By training specialists in a wide range of fields, they will enhance the country's competitiveness and sustainable development. Additionally, these specializations can position Azerbaijan as a leading player in the application of innovative technologies and ecological solutions at both regional and global levels.

Н.Мамедова

Преподавание новых специальностей в профессиональном образовании – потребность времени

Аннотация

В статье отражены новые специальности, предложенные для профессионального образования на 2024-2025 учебный год, и их вклад в будущее развитие различных секторов Азербайджана, таких как энергетика, транспорт, сельское хозяйство, здравоохранение и сфера услуг. Эти специальности разработаны в соответствии с социально-экономической стратегией страны с целью внедрения технологических инноваций и обеспечения экологической устойчивости. Подготовка специалистов в широком спектре областей обеспечит конкурентоспособность страны и устойчивое развитие. Кроме того, эти специальности могут вывести Азербайджан на ведущие позиции в применении инновационных технологий и экологических решений как на региональном, так и на глобальном уровнях.

Peşə təhsili və insan kapitalı. Cild 7, №3, 2024, s.18-23

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PEDAQOJİ KADR HAZIRLIĞININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

Fəridə Xudiyeva,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: xfarida09@mail.ru

DOİ: 10.30546/2706-7858.2024.3.215
UOT: 37

Xülasə. *Bu məqalədə müasir dünyada səriştəli müəllimlərin hazırlanmasının nə üçün zəruri olduğunun səbəbləri araşdırılır. Təhsil sahəsi texnoloji irəliləyişlər, qloballaşma və inkişaf edən ictimai ehtiyaclar səbəbindən əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Müəllimlər bu dəyişən mənzərəni idarə etmək üçün lazımi bacarıqlarla təchiz olunmalıdırlar. Təlim proqramları müəllimlərə texnologiyanı effektiv şəkildə inteqrasiya etmək, innovativ tədris metodlarından istifadə etmək və onların təlimatlarını tələbələrin müxtəlif ehtiyaclarına uyğunlaşdırmaq üçün alətlər və biliklər təqdim edir. Peşəkar müəllimlər pedaqogika haqqında dərin anlayışa malikdirlər ki, bu da onlara stimullaşdırıcı təlim mühiti yaratmağa imkan verir. Təlim proqramları tədris texnikalarının təkmilləşdirilməsinə, kurikulumun hazırlanmasına və qiymətləndirmə strategiyalarına yönəlib. Müəllimlər pedaqoji bacarıqlarını təkmilləşdirməklə tələbələri daha effektiv cəlb edə, tənqidi təfəkkürü təşviq edə, yaradıcılığı inkişaf etdirə və mürəkkəb anlayışların daha dərindən dərk edilməsinə şərait yarada bilərlər. Hər bir tələbə fərqli öyrənmə üslubları, qabiliyyətləri və maraqları ilə unikaldır. Bacarıqlı müəllimlər bu fərqləri tanıyır və təlimatlarını buna uyğun tərtib edirlər. Məqalədə vurğulanır ki, təlim proqramları müəllimlərə fərdi təlimatı həyata keçirtmək üçün bilik və alətlərlə təmin edir, onlara tələbələrinin müxtəlif ehtiyaclarını ödəməyə imkan verir. Bu yanaşma inklüzivliyi təşviq edir və hər bir tələbənin uğur qazanması üçün lazım olan dəstəyi almasını təmin edir. Təhsil təkcə akademik biliklərdən ibarət deyil, həm də tələbələrin sosial və emosional inkişafında mühüm rol oynayır. Bacarıqlı müəllimlər tələbələrin özlərini ifadə edə bilməsi, empatiya hissini inkişaf etdirə, əlaqələr qura və emosiyalarını effektiv idarə edə bildiyi təhlükəsiz və dəstəkləyici sinif mühiti yaratmaq üçün hazırlanır. Belə təlim müəllimləri tələbələrinin sosial və emosional ehtiyaclarını müəyyən etmək və həll etmək bacarıqları ilə təchiz edir, onların ümumi rifahını artırır. Sürətlə inkişaf edən dünyada tələbələrin sadəcə olaraq mövzuya aid biliklərə ehtiyacı yoxdur. Onlar tənqidi düşünmə, problemlərin həlli, əməkdaşlıq, ünsiyyət və rəqəmsal savadlılıq daxil olmaqla, XXI əsr bacarıqları kimi tanınan bir sıra ötürülə bilən bacarıqlar tələb edir. "Səriştəli müəllimlər bu bacarıqları öz təlim proqramlarına inteqrasiya etmək üçün hazırlanır, tələbələrə müasir işçi qüvvəsində inkişaf etməyə və cəmiyyətə səmərəli töhfə verməyə imkan verir".*

Açar sözlər: *ünsiyyət, təhsil, akademik biliklər, keyfiyyətli təhsil, tədqiqat, kurikulum.*
Key words: *communication, education, academic knowledge, quality education, research, curriculum.*
Ключевые слова: *коммуникация, образование, академические знания, качественное образование, исследования, учебная программа.*

Təhsil dinamik bir sahədir, daim tədqiqat və innovativ təcrübələrdən təsirlənir. Bacarıqlı müəllimlər öz tədris metodlarını daim təkmilləşdirmək üçün ən son tədqiqatlar və tendensiyalarla yenilənməlidirlər. Təlim proqramları pedaqoqlara peşəkar inkişafla məşğul olmaq, həmyaşıdları ilə əməkdaşlıq etmək və təhsildə mövcud tədqiqatlardan xəbərdar olmaq imkanları verir. Dəlillərə əsaslanan təcrübələri daxil etməklə müəllimlər tədrisin effektivliyini artıra və tələbələrin nəticələrini yaxşılaşdıra bilərlər. Müasir dövrdə müəllimlərin rolu bilik verməkdən kənara çıxır, belə ki, onlar cəmiyyətin gələcəyini formalaşdırırlar. Tələbələrin keyfiyyətli təhsil almasını təmin etmək üçün səriştəli müəllimlərin hazırlanmasına sərmayə qoymaq mütləqdir. Müəllimləri lazımi bacarıq, bilik və pedaqoji texnika ilə təmin etməklə təlim proqramları pedaqoqlara dəyişən təhsil mənzərəsinə uyğunlaşmağa, tələbələrin müxtəlif ehtiyaclarını ödəməyə, sosial və emosional inkişafı dəstəkləməyə, XXI əsrin bacarıqlarını inkişaf etdirməyə, təhsildə bərabərsizlikləri aradan qaldırmaqla tədqiqat və innovativ təcrübələrlə yenilənir. Nəhayət, səriştəli müəllimlərin hazırlanması təhsilin yaxşılaşdırılması və bütövlükdə cəmiyyətin tərəqqisi üçün həyati əhəmiyyət kəsb edir. Pedaqoji kadr hazırlığında humanistləşdirmənin mahiyyəti həm müəllimlərin, həm də təhsil prosesində iştirak edən tələbələrin fundamental keyfiyyətlərinin tanınması və qəbul edilməsindən, eyni zamanda təhsil mühitində empatiya, anlayış və əlaqənin inkişaf etdirilməsindən ibarətdir. Bu, iştirak edən hər kəs üçün ümumi öyrənmə təcrübəsini artırmaq məqsədi ilə empatiya, anlayış və əlaqəni prioritetləşdirən bir mühitin yaranmasını əhatə edir. Pedaqoji kadr hazırlığında humanistləşdirmə müəllimlərin təkcə bilik ötürən deyil, əksinə, böyümə və inkişafın vasitəçiləri olduğunu qəbul etməklə başlayır. Onlar tələbələrinin şüurunun və şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır və ona görə də müsbət və inklüziv öyrənmə mühiti yaratmaq üçün onların lazımi bacarıqlarla təchiz olunması çox vacibdir. Pedaqoji kadr hazırlığında humanistləşdirmənin əsas aspektlərindən biri emosional intellektin inkişafıdır.

Təhsil sosial-iqtisadi mənşəyindən və coğrafi mövqeyindən asılı olmayaraq bütün tələbələr üçün bərabər imkanlar təmin edən böyük bərabərləşdirici olmalıdır. Bacarıqlı müəllimlər təhsildəki boşluqların və bərabərsizliklərin aradan qaldırılmasında müxtəlif öyrənmə üsullarından istifadə etməlidirlər. Təlim proqramları mədəni səriştə, müxtəliflik və inklüzivliyə diqqət yetirir, müəllimləri müxtəlif tələbə kütlələrinin ehtiyaclarını anlamaq və onlara uyğunlaşdırmaq bacarıqları ilə təchiz edir. Bu da hər bir tələbənin keyfiyyətli təhsilə çıxışını təmin edir, daha ədalətli cəmiyyəti təşviq edir.

Müəllimlər tələbələri ilə empatiya qurmağı, onların unikal ehtiyaclarını və problemlərini başa düşməyi, onlara şəfqətli və dəstəkləyici şəkildə cavab verməyi bacarmalıdırlar. Bu, tələbələri fəal şəkildə dinləmək, onların emosiyalarına cavab vermək və sinifdə inam və təhlükəsizlik hissini gücləndirməkdən ibarətdir. Bununla müəllimlər tələbələrin özlərini dəyərli və hörmətli hiss etdikləri mühiti yarada bilər ki, bu da öz növbəsində, onların motivasiyasını və təlim prosesində iştirakını artırar. Bundan əlavə, müəllim hazırlığında humanistləşdirmə hər bir tələbənin müxtəlifliyini və fərdiliyini tanımaq və qəbul etməyi əhatə edir. Müəllimlər müxtəlif mədəni fonları, öyrənmə üslublarını və qabiliyyətlərini qeyd edən, onlara hörmət edən inklüziv sinif otaqları yaratmağa çalışmalıdırlar. Bu, diferensiallaşdırılmış təlimin təmin edilməsi, müxtəlif öyrənənlərin ehtiyaclarını ödəmək üçün tədris strategiyalarının uyğunlaşdırılması və bütün tələbələr üçün aidiyyət hissinin aşılanması deməkdir [1, s.28]. Əməkdaşlıq və ünsiyyət də pedaqoji kadr hazırlığında humanistləşdirmənin vacib komponentləridir. Müəllimlər hərtərəfli və dəstəkləyici öyrənmə icması yaratmaq üçün həmkarları tələbələr və valideynlərlə əməkdaşlıq etməyə təşviq etməlidir. Buraya tələbələri qərar qəbul etmə proseslərinə cəlb etmək, onların töhfəsini axtarmaq və perspektivlərini qiymətləndirmək daxildir. Açıq ünsiyyət xətlərini inkişaf etdirməklə müəllimlər tələbələri ilə daha güclü əlaqələr qura və öyrənmə prosesi üçün ortaq məsuliyyət hissi yarada bilərlər. Bundan əlavə, pedaqoji kadr hazırlığında humanistləşdirmə tənqidi təfəkkür və yaradıcılığı təşviq edir.

Müəllimlər tələbələrin marağını stimullaşdıran, onları tənqidi və müstəqil düşünməyə ça-

ğıran cəlbedici və interaktiv dərslər hazırlamağa həvəsləndirməlidirlər. Bu, təkcə onların idrak qabiliyyətlərini gücləndirmir, həm də onların şəxsi inkişafını və özünü ifadə etmələrini təmin edir. Emosional zəka, inklüzivlik, əməkdaşlıq və tənqidi düşüncəyə üstünlük verməklə müəllimlər həm müəllimlərin, həm də tələbələrin fundamental insanlığına hörmət edən dəstəkləyici və zənginləşdirici öyrənmə mühiti yarada bilərlər. Bu yanaşma vasitəsilə müəllim hazırlığı pedaqoqlara tələbələrinin həyatına müsbət və davamlı təsir göstərmək, onların akademik, sosial və emosional cəhətdən inkişaf etmələrinə kömək etmək imkanı verə bilər.

Təhsil sistemi cəmiyyətin intellektual və mədəni potensialının artırılmasının əsas mənbəyidir. Bu sistemdə əsas vəzifəni ümumtəhsil, orta ixtisas və ali məktəblərin tərəqqisini təmin edən müəllim tutur, ona görə də onun peşəkarlığı, inkişafı, fəaliyyəti təhsil və tərbiyənin nəzəriyyəsi və praktikasında prioritet istiqamət təşkil edir. Tədris prosesinin uğuru isə bütün dövrlərdə müəllimin təhsilindən, erudisiya və ümumi mədəniyyət səviyyəsindən, peşəkar bacarıqlarından asılı olub. Millətin təhsilalma prosesində müəllimin məsuliyyəti həmişə kifayət qədər yüksək olub. Müəllimin əsas vəzifələrindən biri keçmişlə bu gün arasında əlaqə yaratmaqdır, çünki hər bir müəllim obrazlı desək, estafeti bu gündən gələcəyə ötürür. Bu səbəbdən də müəllim hazırlığı həmişə Azərbaycan cəmiyyəti üçün aktualdır və aktual olaraq da qalacaqdır.

Ənənəvi olaraq dünyada ixtisaslı müəllim kadrlarının hazırlanması universitetlərin fəaliyyəti ilə əlaqələndirilir. Universitetlər elmi biliklərin əsasını təşkil edən fənlər toplusu üzrə mütəxəssis hazırlayan ali elm və təhsil müəssisələridir. Universitetlər gimnaziyalar, liseylər, kolleclər və texnoloji seminariyalar əsasında formalaşıb. Ona görə də görkəmli maarif işçiləri universitetlərdə müəllim kadrları hazırlığına xüsusi önəm veriblər.

N.İ.Piroqov Rusiya cəmiyyəti üçün universitetlərin təhsil və elmi-pedaqoji əhəmiyyətini belə əsaslandırırdı: "Universitetdə cəmiyyət həm güzgüdə, həm də perspektivdə görünür. Universitetlər, həm də cəmiyyətin ən yaxşı barometridir. Sevmədiyiniz vaxtı göstərirsə, onu poza və ya gizlədə bilməzsiniz, baxmaq və vaxtdan asılı olaraq hərəkət etmək yaxşıdır [3, s.122]. Universitetlərə bu baxışı tarix təsdiq edir. Cəmiyyətin siyasi həyatının saat kimi rəvan yellənən, ən yüksək sferalardan gələn siyasi ehtirasların formalaşmamış nəslə çatmadığı yerdə universitetdə onun birbaşa məqsədi – elmi fəaliyyət ön plana çıxır. Universitet orada maarifçiliyin barometrinə çevrilir".

M.Ə.Rəsulzadə Azərbaycan cəmiyyəti üçün universitetin vacibliyini belə əsaslandırırdı. O, parlamentdə universitetin açılmasının zəruriliyi ilə bağlı çıxışlarında deyirdi: "Bir ölkədə, bir millətin siyasi həyatında və millətin formalaşmasında darülfunların, akademiyaların əmələ gətirəcəkləri tərəqqinin dərəcə meyarı misilsizdir. Tarixdə Afina darülfunun yeni bir Yunanıstan yaratdığını kim inkar edə bilər? Almanları 1806-cı il fəlakətindən sonra yenidən şöhrətə, siyasətə və hərbə hazırlayan və Napoleondan bir intiqam alan Berlin və Hamburq darülfunları olmamışdırmı? Arximedin müvazi qanunları, Qalileyin elmi ərazi, Dekartın riyaziyyəsi, Volter və J.J.Russonun elmi ictimayəsi, Kludfayerin fiziolojisi... Bunların həyata tətbiqi və təhqiqini təmin edən darülfunlar olmuşdur. Yeni millət, yeni elm, yeni fəlsəfə demək isə hər darülfununda yeni bir məbəd olmasını icbar edər, Azərbaycan Darülfununu, əlbəttə, bir türk Darülfununudur, çünki türk milləti, türk parlamanı, türk hökuməti tərəfindən türk gəncliyi üçün açılmışdır" [3, s.76].

Universitetlər pedaqoji kadr hazırlığının əsas fərqləndirici xüsusiyyətlərinə malikdir. Burada tələbələrlə bağlı əsas tələblər: "tələbələrin yaradıcı təfəkkürünün, tədqiqat bacarıqlarının inkişafı, praktiki problemlərin həllinə müstəqil, qeyri-ənənəvi yanaşma, biliklərin daim yenilənməsi ehtiyacı və gələcək özünütəhsil" qarşıya qoyulur. Müasir peşəkar müəllimin bu tələblərə uyğunluğu universitetdə pedaqoji kadr hazırlığının ən vacib xüsusiyyətidir. Universitetlər müəllim hazırlayan ali təhsil müəssisələri kimi təhsil sistemində həmişə müstəsna rol oynamış və burada təhsil alan tələbələrin peşəkar hazırlığının keyfiyyətinə xüsusi diqqət verilmişdir.

XX əsrin sonlarında Azərbaycan cəmiyyəti iqtisadi, siyasi və mənəvi sahələrdə ənənəvi sistemin dağılması ilə xarakterizə olunan bir vəziyyətə düşdü. Bu böhranı aradan qaldırmaq və

Azərbaycanda vətəndaş cəmiyyəti qurmaq istəyi dövlətin təhsil sistemində və onun tərkib hissəsi kimi, ilk növbədə, müəllim kadrları hazırlığında islahatların aparılmasını nəzərdə tutdu. Bu, müəllimin məktəbdə və bütövlükdə cəmiyyətdə baş verən dəyişikliklərin fəal subyekti kimi çıxış etməsi ilə bağlıdır. Məhz müəllim cəmiyyətin topladığı təcrübəni insanlara çatdırmağa, hər kəsdə mənəvi mədəniyyəti formalaşdırmağa, tələbələrin mədəni-milli xüsusiyyətlərini nəzərə alaraq, yüksək əxlaqlı, qanuna tabe olan vətəndaşlar hazırlamağa və onları cəmiyyət üzvləri kimi tərbiyə etməyə qadirdir. Azərbaycanda plüralizm, multikulturalizm və tolerantlıq prinsipləri əsasında çoxmədəniyyətli bir cəmiyyətin formalaşdırılmasında müəllimlərin böyük əməyi vardır. Pedaqoji ixtisasların məzunları multikultural cəmiyyətdə peşəkar fəaliyyət göstərməyə yaxşı hazırlanmalıdırlar ki, bu da gənc mütəxəssislərə tədris fənləri, dövlət subyektinin iqtisadi unikallığı, milli tərkibi və tədris nümayəndələrinin susiyyətləri ilə bağlı biliklərə uğurla inteqrasiya etməyə imkan verir. Belə sosial və pedaqoji təcrübəyə əsaslanmaqla yeni pedaqoji kadr hazırlamaq mümkündür. Təhsilin sosial-mədəni hadisə kimi inkişafının spesifik qanunauyğunluqlarını müəyyən etmək üçün onun məzmununu müəyyən etmək prinsipial əhəmiyyət kəsb edir. Mədəni-tarixi dəyərə çevrilən təhsilin məzmununu təhlil edərkən onun paradiqmaları aydın görünür [5, s.322].

Bu pradiqmaları tədqiqatçılar aşağıdakı kimi müəyyənləşdirmişdirlər:

– *insanın mənəvi mədəniyyətini formalaşdıran təhsil əməliyyatlarında assimilyasiya;*

– *mənəvi mədəniyyətlə məlumatların ötürülməsi üsulları;*

– *bilik daşıyıcısı olan müəllim obrazı;*

– *savadlı insan üçün zəruri olan keyfiyyət və bacarıqların seçilməsi meyarlarını müəyyən edən biliklər sistemi, onların cəmiyyətdəki rolu və təhsilin məqsədləri haqqında təsəvvürlər;*

– *uşağın təbii keyfiyyətləri və onların mənəvi inkişafı, eləcə də korreksiyası imkanları haqqında təsəvvür [1, s.136].*

Buradan aydın olur ki, milli təhsil sistemlərinin hər birinin inkişafı və formalaşması prosesinin baş verdiyi, sonradan onun strukturunu, formalarını, metodlarını və təhsilini müəyyən edən konkret mədəni mühitə mənsubluğunu müəyyən edən özünəməxsus xüsusiyyətləri vardır.

Qeyd etmək lazımdır ki, XX əsrin ikinci yarısında bir çox sosial-mədəni məkanların konfiqurasiyası uzun müddət sabit və dəyişməz qaldığından, təhsilin məzmun potensialının inkişafı və modernləşdirilməsi kifayət qədər ləng baş vermişdir. Sosial məkanın hər bir elementi bütövlükdə cəmiyyətin vacib bir hissəsini təşkil edir. Məlumdur ki, hər bir insan müəyyən bir sosial-mədəni məkana, əsasən, funksional əlaqələr sistemi vasitəsilə daxil edilir ki, burada da təhsilin, ənənələrin müstəsna rolu vardır.

V.A.Masilov hesab edir ki, məhz indiki şəraitdə ali pedaqoji təhsilin klassik modelləri qurulmuş və onlar yalnız daha da təkmilləşdirilmişdir [2, s.72]. Bu baxımdan hər hansı bir təhsil sistemi yalnız mədəniyyətin potensialından istifadə ilə bağlı özünün innovativ inkişaf və formalaşma yolunun xüsusiyyətlərində ifadə olunan mədəni özünəməxsusluğunun tanınması ilə qəbul edilir.

Azərbaycanda pedaqoji kadrların hazırlanması sisteminin innovativ inkişafının təhlili onu deməyə əsas verir ki, respublikada təhsil milli dəyərlərə və milli ənənələrə əsaslanır. Müəllim hazırlığına humanist yanaşma müasir təhsilin mühüm aspektidir. Bu, onun fərdi xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alaraq, tələbə şəxsiyyətinin inkişafına diqqət yetirməyi, habelə onun özünü həyata keçirməsi və öz müqəddəratını təyin etməsi üçün şərait yaratmağı nəzərdə tutur.

Azərbaycanın pedaqoq-alimlərinin fikrincə, humanist yanaşma hər bir tələbənin dəyərlərinə və ehtiyaclarına diqqət yetirməyi tələb edir. Pedaqoji fikir tarixində və praktik pedaqoji fəaliyyət təcrübəsində humanist pedaqogikanın nəzəri və praktik cəhətdən əsaslandırılması üzrə bir sıra pedaqoqlar – Y.A.Komenski, İ.H.Pestalossi, K.D.Uşinski, Y.Korçak, V.A.Suxomlinski, psixoloqlardan – A.Maslou, K.Rocers, Ş.A.Amonaşvili, Azərbaycan alimlərindən Ə.Ə.Əlizadə və Y.R.Talıbov xeyli işlər görmüşlər. Bununla yanaşı, nəzəriyyədən praktikaya keçiddə hələ də bir çox problemlər qaldığından bu sahədə görüləcək işlərə xeyli ehtiyac vardır. Bu, müəllimlə tələbə arasında onun rəyini və qərarların qəbulunda iştirakını nəzərə alaraq, müstəqillik və təşəbbüskarlığı təşviq edən etibarlı münasibətin yaradıl-

masını nəzərdə tutur [4, s.56].

Azərbaycanda müəllim olmaq üçün hazırkı dövrdə ali təhsil almaq mütləqdir. Əvvəllər kollec təhsili ilə də müəllim olmaq mümkün idi. Hazırda kolleclərin sayı azaldılıb. Bu kolleclərdə isə müəllim hazırlığı dayandırılıb. Ali təhsil almaqla yanaşı, hökmən həmin fənnə dair metodik biliyiniz (məsələn, riyaziyyatın tədrisi metodikası, tarixin tədrisi metodikası və s.) olmalı, pedaqogika və psixologiya fənlərindən imtahan verməlisiniz. BDU-nun riyaziyyat, kimya, biologiya fakültələrini bitirənlər yox, riyaziyyat müəllimliyi, kimya müəllimliyi, biologiya müəllimliyi ixtisaslarını bitirənlər müəllim ola bilərlər. Bunun üçün Elm və Təhsil Nazirliyinin təşkil etdiyi MİQ imtahanında iştirak etmək, müsabiqə şərtlərini ödəmək tələb olunur. Riyaziyyat, kimya, biologiya və s. fakültələrini bitirənlər isə ali təhsil aldıqdan sonra pedaqoji hazırlıq keçməlidirlər. Pedaqoji hazırlığa fənnin metodikası, təlimin psixologiyasının, tədris prosesinin təşkilinin və tədrislə bağlı digər aspektlərin (pedaqogikanın) öyrənilməsi daxildir. Müəllim hazırlığının mühüm hissəsi təcrübədir. Tələbələr məktəblərdə təcrübə keçir, burada tələbələrlə işləmək və əldə etdikləri bilikləri praktikada tətbiq etmək təcrübəsi qazanırlar. Bu proses sonuncu kursda 14 həftə ərzində aparılır.

Müasir dövrdə Azərbaycanda müəllim hazırlığı və təcrübəsini başa vurduqdan sonra gələcək müəllimlər müəllimlik lisenziyası almaq üçün sertifikat imtahanları verirlər. Bu imtahanlar müəyyən edilmiş standartlara uyğun olaraq müəllimlərin bilik və bacarıqlarını qiymətləndirir. Ölkəmizdə ibtidai sinif müəllimləri bu sertifikat imtahanlarından keçmişdir.

Müəllim hazırlığı proqramları hər bir xalqın özünəməxsus mədəni, təhsil və siyasi kontekstlərini əks etdirən müxtəlif ölkələrdə əhəmiyyətli dərəcədə fərqlənir. Biz hərtərəfli təhlildə Türkiyə, ABŞ, Rusiya, Sinqapur, Koreya və Azərbaycanda da müəllim hazırlığının oxşar və fərqli cəhətlərini araşdırdıq.

Nəticə. Müəllim fəaliyyəti kifayət qədər çətin işdir, insandan ən yüksək ideoloji səviyyə, möhkəm bilik, sabit maraqlar, aydın ifadə olunmuş peşə istiqaməti, tədris və tərbiyənin nəzəriyyəsi və praktikası haqqında biliklər tələb edir. Bu keyfiyyətlər birləşdirildikdə iş hərtərəfli və ardıcıl şəkildə həyata keçirilir ki, bu da müəllimin şəxsiyyətini səciyyələndirir.

İstifadə edilmiş ədəbiyyat

1. Cahangirov A.B. Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2020, 382 s.
2. Əfəndiyeva F. Yeni təhsil proqramı və gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılmasına verilən tələblər. Azərbaycan Respublikasının Təhsil İnstitutu "Elmi əsərlər" jurnalı, Bakı, №5, 2020.
3. Əliyeva A., Talıbova X., Qasımov V. Müəllimlərin peşəkar inkişafı beynəlxalq təcrübədə. Bakı, "Şahin-MB" MMC, 2016, 248 s.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (dərslik). Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2012, 548 s.
5. Rüstəmov F.A. Keyfiyyətli müəllim kadrları hazırlığında yeni mərhələ. "Azərbaycan müəllimi" qəzeti, 6 dekabr 2013, s.6.

F.Khudiyeva

Theoretical issues of pedagogical personnel training in higher educational institutions

Abstract

This article examines the reasons why training competent teachers is necessary in today's world.

The field of education has undergone significant changes due to technological advancements, globalization and evolving societal needs. Teachers need to be equipped with the necessary skills to manage this changing landscape. Training programs provide teachers with the tools and knowledge to effectively integrate technology, use innovative teaching methods, and adapt their instruction to the diverse needs of students. Professional teachers have a deep understanding of pedagogy, which enables them to create a stimulating learning environment. The article emphasizes that training programs focus on improving teaching techniques, curriculum development, and assessment strategies. By improving their pedagogical skills, teachers can more effectively engage students, encourage critical thinking, foster creativity, and foster deeper understanding of complex concepts. Every student is unique with different learning styles,

abilities and interests. Skilled teachers recognize these differences and tailor their instruction accordingly. Training programs provide teachers with the knowledge and tools to implement individualized instruction, allowing them to meet the diverse needs of their students. This approach promotes inclusion and ensures that every student receives the support they need to succeed. Education is not just about academic knowledge; it also plays an important role in the social and emotional development of students. Skilled teachers are trained to create a safe and supportive classroom environment where students can express themselves, develop empathy, build relationships, and effectively manage their emotions. Such training equips teachers with the skills to identify and address the social and emotional needs of their students, enhancing their overall well-being. In a fast-paced world, students don't just need subject knowledge. They require a range of transferable skills known as 21st century skills, including critical thinking, problem solving, collaboration, communication and digital literacy. "Capable teachers are trained to integrate these skills into their curriculum, enabling students to thrive in today's workforce and contribute effectively to society".

Ф.Худиева

Теоретические задачи подготовки педагогических кадров в высших учебных заведениях

Аннотация

В этом статье рассматриваются причины, по которым подготовка компетентных учителей необходима в современном мире. Область образования претерпела значительные изменения из-за технологических достижений, глобализации и развития потребностей общества. Учителя должны обладать необходимыми навыками, чтобы управлять этой меняющейся ситуацией. Программы обучения предоставляют учителям инструменты и знания для эффективной интеграции технологий, использования инновационных методов обучения и адаптации обучения к разнообразным потребностям учащихся. Профессиональные преподаватели обладают глубоким пониманием педагогики, что позволяет им создавать стимулирующую среду обучения. Программы обучения направлены на совершенствование методов преподавания, разработку учебных программ и стратегий оценки. Совершенствуя свои педагогические навыки, учителя могут более эффективно вовлекать учащихся, поощрять критическое мышление, способствовать творчеству и способствовать более глубокому пониманию сложных концепций. Каждый студент уникален и имеет разные стили обучения, способности и интересы. Квалифицированные преподаватели осознают эти различия и соответствующим образом адаптируют свое обучение. В статье подчеркивается, что программы обучения предоставляют учителям знания и инструменты для реализации индивидуального обучения, что позволяет им удовлетворять разнообразные потребности своих учеников. Такой подход способствует инклюзивности и гарантирует, что каждый учащийся получит поддержку, необходимую для достижения успеха. Образование – это не только академические знания; оно также играет важную роль в социальном и эмоциональном развитии учащихся. Квалифицированные учителя обучены создавать безопасную и благоприятную среду в классе, где учащиеся могут выражать себя, развивать сочувствие, строить отношения и эффективно управлять своими эмоциями. Такое обучение дает учителям навыки выявления и удовлетворения социальных и эмоциональных потребностей своих учеников, улучшая их общее благополучие. В быстро меняющемся мире учащимся нужны не только предметные знания. Они требуют ряда передаваемых навыков, известных как навыки XXI века, включая критическое мышление, решение проблем, сотрудничество, общение и цифровую грамотность. «Квалифицированные учителя обучены интегрировать эти навыки в свою учебную программу, что позволяет учащимся преуспевать в современной рабочей силе и эффективно вносить вклад в жизнь общества».

UŞAQLARIN MƏKTƏB TƏHSİLİNƏ HAZIRLIĞININ PSİXOLOJİ KOMPONENTLƏRİ

Aygün Əliyeva,
Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının baş müəllimi
e-mail: aliyeva.aygun2017@list.ru

DOİ: 10.30546/2706-7858.2024.3.217
UOT: 159.9

Xülasə. *Uşaqların psixoloji hazırlığı problemi son onilliklərdə xüsusi əhəmiyyət kəsb etmişdir, çünki valideynlər övladlarını 5 yaşından məktəbə yazdırmağa başlamışlar. Təcrübəyə əsasən deyə bilərik ki, məktəbdə sistemli təhsilə 6-7 yaşdan başlamaq daha məqsədəuyğundur, çünki uşaqlar bu təlimə artıq psixoloji və fiziki cəhətdən hazır olurlar.*

Hər bir uşaq məktəbə qədəm qoyarkən fərdi davamiyyət potensialına malik olur. Məktəbə hazırlıq uşağın bütün hislərinə, maraq və münasibətlərinə, eləcə də gündəlik məktəb həyatında onun qarşısında qoyulan tələblərin öhdəsindən necə gəldiyinə, hansı istiqamətdə reaksiya verməsinə aid edilir. Müvafiq olaraq, uşaq ətrafındakı insanlarla münasibət qurmağı bacarırsa, öyrənməyə qadir sayılır.

Məqalədə uşaqların məktəb təhsilinə psixoloji hazırlığından, təhsil fəaliyyətinin qanunauyğunluqlarının mənimsənilməsində və uğurlu təhsilə intellektual yanaşma, məntiqi təfəkkürün formalaşması və sosial mövqeyinə görə bacarıqların inkişaf etdirilməsi məsələləri təhsildə psixoloji hazırlığın əsas komponentləri əsasında müəyyən edilərək təhsilin onların həyatında rolundan danışılır.

Açar sözlər: *təlimə hazırlıq, komponentlər, formalizm, uyğunlaşma, motivlər, şəxsi inkişaf, məktəbli.*
Key words: *preparation for training, components, formalism, adaptation, motives, personal development, pupil.*
Ключевые слова: *готовность к обучению, компоненты, формализм, адаптация, мотивы, личностное развитие, школьник.*

Məktəb həyatı dövrü uşağın məktəbəqədər dövründən əhəmiyyətli dərəcədə fərqlənir, məktəbəqədər yaşdan ibtidai məktəb yaşına keçid hər bir uşağın həyatında dönüş nöqtəsidir. Bu, bütün uşaqlar üçün xoş keçməli olan mühüm mərhələdir. Onun həyatına yeni tələblər: uşağı əhatə edən yeni mühit, onun üçün yeni həyat şəraiti və s. əlavə olunur. Bundan əlavə, cəmiyyət yüksəliş səviyyəsinə qədəm qoyduqca, təhsil sistemi durmadan inkişaf edir, məktəblilərə tələblər ildən-ilə artır, məktəb uşaqların qarşısında onların yetkinlik yaşına çatmadıqlarına görə psixoloji baxımdan həllinə hazır olmadıqları çoxsaylı çətin vəzifələr qoyur. Məktəbəqədər yaşlı uşaqlarda intellektual hazırlıqsızlıq, yaddaşın, düşüncənin qeyri-kafi inkişafı müşahidə oluna bilər. Nəticədə məktəbli uğursuzluq, təhsil motivasiyasının olmaması, nevrotik reaksiyalar, emosional qeyri-sabitlik və digər mənfi fəsadlarla üzləşə bilər. Motivasiya sferasının qeyri-sabitliyi təxminən bir il ərzində təhsil fəaliyyətinə təsir göstərməyə bilər, lakin bu, ikinci və üçüncü siniflərdə davamiyyətin zəifləməsi şəklində özünü

daha aydın şəkildə göstərəcəkdir.

Uşağın məktəbə psixoloji hazırlığı xaricdə və Azərbaycanda müxtəlif pedaqoq-psixoloqlar tərəfindən araşdırılmış və tədqiq edilmişdir. Uşaqların məktəbə hazırlığı problemini ilk dəfə Y.A.Komenski XVII əsrdə irəli sürmüş, uşaqların "Ana məktəbi" və "Ana dili məktəbi"ndə təhsil alması ideyasında təqdim etmişdir. L.S.Vıqotskinin, D.B.Elkoninin, Q.M.Qutkinanın, L.İ.Bojoviçin, Y.O.Smirnovanın, A.Kernin, A.A.Qədirovun, M.V.Vəliyevin, L.Ş.Əmrahlının və digərlərinin araşdırmalarında da biz uşaqların məktəbə psixoloji hazırlığı ilə bağlı tədqiqatları görə bilərik. Bugünədək bu problem öz aktuallığını itirməmişdir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə valideynlər uşağın məktəb təhsilinə həm fizioloji, həm də psixoloji səviyyədə hazırlanmadığını düşünmədən 5-6 yaşında övladlarını məktəbə göndərirlər. XX əsrin 60-cı illərində uşaq psixoloqları tərəfindən məktəbəqədər və ibtidai məktəbyaşlı uşaqların xüsusiyyətlərinin, bu mərhələlərin qovuşuğunda inkişafın böhran dövrlərinin dərindən öyrənilməsi ilə əlaqədar olaraq, uşaqların məktəbdə təhsil almağa "psixoloji hazırlığı" anlayışı ortaya çıxmışdır. XX əsrin 80-ci illərinin birinci yarısında uşaqların 6 yaşından etibarən eksperimental, daha sonra isə sistematik təhsilinin tədris proqramlarına daxil edilməsinə başlanılması ilə onların psixoloji hazırlığı böyük aktuallıq kəsb etmişdir.

Uşaqların məktəb təliminə psixoloji hazırlığı problemi L.S.Vıqotskinin, L.I.Bojoviçin, Y.L.Kolominskinin, D.B.Elkoninin, N.G.Salminanın, Y.Y.Kravtsovanın, N.V.Nijeqorotsevanın, O.B.Konevanın, V.D.Şadrikovun, N.A.Sklyarın, V.S.Muxinanın, N.İ.Qutkinanın və digərlərinin əsərlərindən qaynaqlanır.

L.S.Vıqotski yazırdı: "...təlim həmişə onların psixoloji əsaslarının inkişafını qabaqlayır. Uşaq müəyyən fənn üzrə məlum bacarıqlara onları şüurlu və könüllü şəkildə tətbiq etməyi öyrənməkdən daha tez yiyələnir" [7, s.227]. L.S.Vıqotskinin ardınca yuxarıda adları qeyd olunan müəlliflər funksional yetkinliyi təlimin başlıca əsası hesab etmirdilər. Onlar hesab edirdilər ki, təhsil müəssisəsində uğurlu təlimə nail olunmasında uşağın şəxsi və intellektual inkişaf səviyyəsi mühüm rol oynayır. Uşaq sinif yoldaşları ilə fəal qarşılıqlı ünsiyyətə ehtiyac olduğunu ifadə etdirməlidir. Bundan əlavə, onun hazırlığı həm "funksional inkişaf"ında, həm də "şəxsi inkişaf"ındadır. *Funksional inkişafa* intellektual sahəyə aid olan "qaydaları dərk etmək", yəni kauzal düşüncə qabiliyyəti, strukturlaşdırma qabiliyyəti, işləmək üçün yetkinlik və çıxarış qabiliyyəti daxildir. Qavrama və danışıq qabiliyyəti də funksional inkişafa aid edilir. *Şəxsi inkişafa* dözümlülük, diqqətin konsentrasiyası, tapşırıqları yerinə yetirməyə hazırlıq, davranışını cəmiyyətin normalarına uyğunlaşdırmaq bacarığı, özünün sosial rolu və mövqeyini dərk etmək və s. daxildir. Həmçinin uşağın məktəbə psixoloji hazırlığı təhsilin uğurlu olmasına (və ya olmamasına) təsir edən mühüm amildir.

Uşağın məktəbdə təhsil almağa psixoloji hazırlığı təhsilin məzmununa daxil edilmiş mədəniyyətin müəyyən bir hissəsini təhsil fəaliyyəti şəklində mənimsəməyə hazır olması, uşaq psixikasının bütün aspektlərini əhatə edən mürəkkəb struktur-sistemli formalaşmadır [8, s.126].

Uşağın birinci sinfə daxil olması onun həyatında böhran dövrüdür. Psixoloji hazırlığın məzmunu məktəbin uşaqların qarşısında qoyduğu tələblər sistemi ilə müəyyən edilir. Birinci sinfə daxil olan uşağın qarşısına yeni tələblər qoyulur ki, bu da onun üzərinə qar topası kimi çökə bilər və uşaq buna hazır olmaya bilər. Bu, məktəbəqədər uşağın sosial mövqeyinin dəyişikliyi və təhsil fəaliyyətinin özünəməxsus sistemi ilə əlaqədardır. Bu, həm də, uşağın müstəqil və mütəşəkkil olmasını tələb edir. Ona görə də uşağın məktəbdəki həyatının son nəticədə necə olacağı onun həyatının bu dövrünə əvvəlcədən nə qədər hazır olmasından asılıdır.

"Məlumdur ki, məktəb təhsilinin uğuru, bir tərəfdən şagirdlərin təhsil fəaliyyətinin mənimsənilməsinin qanunauyğunluqları və fərdi xüsusiyyətləri ilə, digər tərəfdən isə tədris materialının özünəməxsusluğu ilə müəyyən edilir" [9, s.54]. Uşağın fiziki vəziyyətini də unutmamaq lazımdır. O, məktəbə fiziki baxımdan hazırlıqlı getməlidir. Məktəbəqədər uşağı ümumi təhsil müəssisəsində təhsil almağa hazırlayarkən sinir sisteminin möhkəmlənməsinə, düzgün qamətin formalaşmasına və s. diqqət yetirmək lazımdır. Çünki birinci sinifdə uşaqlar çox zaman səhhətinə görə dərslərindən geri qalırlar. Eləcə də çeviklik, dözümlülük, güc və digər keyfiyyətləri inkişaf etdirmək lazımdır, çünki onlar uşağın iş qa-

biliyyəti ilə sıx bağlıdır və uşaqların təhsildə uğur qazanmasına kömək edir. Bununla belə, uşaq psixologiyasından danışarkən, uşağın məktəbə psixoloji hazırlığı, psixi proseslərin inkişafı, uşağın optimal və uğurlu təhsil alması, təhsil proqramının mənimsənilməsi və onun təhsil müəssisəsi şəraitinə uyğunlaşdırılması üçün zəruri olan şəxsi keyfiyyətlərinin, bacarıq və biliklərin inkişafı ön plana çəkilir. Birinci sinifdə uşaq sosiumun ona qarşı tamamilə fərqli münasibəti ilə qarşılaşır, yəni müəllim tərbiyəçidən daha sərtdir, ailə uşaqla münasibətini qismən dəyişir, ona yeni vəzifələr daşıyan, həmyaşıdlarının yeni əhatəsinə düşmüş yetkinyaşlı ailə üzvü kimi yanaşır. Belə vəziyyətdə uşaqda yeni sosial mühitlə münasibət qurmaq bacarığının zəruriliyi ortaya çıxır. Tədris fəaliyyəti uşağın həyatında mühüm aspektə çevrilir və bu səbəbdən o, bütün uğursuzluqlarını və uğurlarını ürəyinə salır. Uşağa ətrafdakı insanların münasibəti də onun təhsil nəticələrindən asılı olaraq dəyişir. Nəticə odur ki, böyükyaşlı məktəbəqədər uşaq həm şəxsi, həm idrak sahəsində, eləcə də sosial mövqedən hazırlıqlı olmalıdır.

Məlumdur ki, idrak fəaliyyətinə maraq uşağın daha effektiv təhsil alması üçün vacibdir, buna onun məktəbli kimi daxili mövqeyinin formalaşması və ona yaxın olan yaşlı insanların münasibəti təsir göstərir. Məktəblinin daxili mövqeyi uşağın idrak fəaliyyətinin xeyrinə məktəbəqədər oyun fəaliyyətlərindən imtina etmək təşəbbüsündən ibarətdir. Uşağın özü buna maraq göstərir və yeni biliklərə yiyələnməyə çalışır. Uşağın öz hərəkətlərini və zehni qabiliyyətlərini adekvat qiymətləndirə bilməsi də böyük əhəmiyyət kəsb edir. O, böyüklərin köməyi olmadan öz hərəkətlərinin nəticəsini, səhv və ya düzgün yerinə yetirildiyini qiymətləndirməyə və nəticədə hərəkətlərinin gedişatında dəyişiklik etməyə ehtiyac duyur.

Psixologiya elminin inkişafının indiki mərhələsində məktəbə uşağın inkişafının psixoloji hazırlığına kompleks xarakteristikası kimi baxılır ki, bu da sistematik təlim şəraitində təhsil fəaliyyətinin formalaşdırılması, habelə yeni sosial mühitə uğurla qovuşması üçün psixoloji keyfiyyətlərin inkişaf səviyyələrini aşkar etməyə imkan verir. N.A.Sklyarın, Y.L.Kolominskinin, O.B.Konevanın və digər müəlliflərin əsərlərini tədqiq edərək, biz məktəb təliminə psixoloji hazırlığın əsas komponentlərini müəyyən edə bilərik:

– *Psixomotor (funksional) hazırlıq.*
– *İntellektual hazırlıq.*
– *Emosional-iradi hazırlıq.*
– *Motivasiya-şəxsi hazırlıq.*
– *Sosial hazırlıq.*

Psixomotor (funksional) hazırlıq dedikdə, müəyyən beyin strukturlarının yetişmə dərəcəsi, məktəb təhsilinin şərtlərinə və vəzifələrinə uyğunluğu başa düşülür. Uşaq orqanizmi üçün təhsil fəaliyyəti böyük gərginlik və stress yaradır. Ona görə də uşağın orqanizmi və psixikasının kifayət qədər hazır olması vacibdir. İlk növbədə, motorikanın məkan oriyentasiyasının, təqlidetmə qabiliyyətinin formalaşmasını, ümumi inkişafı yoxlamaq lazımdır. Uşağın psixomotor hazırlığı onun ümumi inkişaf səviyyəsini, məkan oriyentasiyasını, təqlidetmə qabiliyyətini, habelə kompleks şəkildə əlaqələndirilmiş əl hərəkətlərinin inkişaf dərəcəsini göstərir. Psixomotor hazırlıq uşağın bədənində baş verən dəyişiklikləri əhatə edən əmək qabilliyini, dözümlülüyü və daha çox funksional yetkinliyi artırır.

İnsanlar uzun müddət hesab edirdilər ki, ***intellektual inkişaf səviyyəsi*** uşağın söz ehtiyatı ilə bağlı əldə etdiyi biliklərin miqdarı ilə müəyyən edilir. Biz bu nəzəriyyəni onunla inkar edə bilərik ki, indiki reallıqda uşaqlar böyük miqdarda informasiya ilə əhatə olunmuşlar və onu özlərinə hopdururlar. Lakin onların söz ehtiyatı və dünyagörüşü genişlənsə də, əqli prosesləri eyni sürətlə inkişaf etmir. Əlbəttə ki, heç bir halda məktəbəqədər yaşlı uşağın dünyagörüşünü genişləndirməyi və ətraf mühit haqqında konkret biliklərdən təməl formalaşdırmağı unutmamalıyıq ki, bu da onun gələcək əqli inkişafının əsasını təşkil edir, lakin heç bir halda intellektual hazırlığının yeganə əlaməti deyildir. "Boş baş düşünmür: bu baş nə qədər çox təcrübə və biliyə sahibdirsə, bir o qədər düşünmək qabiliyyətinə malikdir" [5, s.246].

Uşaq psixologiyasını tədqiq edən ilk tədqiqatçı L.S.Vıqotski qeyd etmişdir ki, bir uşağın təhsil müəssisəsində təhsil almağa intellektual hazırlığı biliyin kəmiyyət yükündə deyil, uşaq təfəkkürünün keyfiyyətindədir, yəni uşağın düşüncə proseslərinin nə dərəcədə inkişaf etməsindən asılıdır. Uşaqların məktəbdə təhsilə intellektual hazırlığı məktəbəqədər yaşlı uşaqlarda idrak tələbatının inkişafı ilə müəyyən edilir ki, bu da düşüncə proseslərinin inkişafına səbəb olur. Məktəbəqədər yaşlı uşaqda obraz və məkan təsəvvürlərinin ge-

nişliyi formalaşmalıdır. Beləliklə, uşağın məktəbə intellektual hazırlığının nəticəsi əyani-obrazlı təfəkkürün ali formalarının formalaşmasının başlanğıcıdır, obrazlı təfəkkürün formalaşma səviyyəsi ibtidai məktəbdə məntiqi təfəkkür səviyyəsindən daha vacibdir. Paradoks onunla izah olunur ki, məktəb təhsilinin ilkin mərhələsində uşağa verilən fəaliyyət normaları və üsulları olduqca sadədir və onların həyata keçirilməsinə nəzarət etmək üçün məntiqi təfəkkürün orta inkişaf səviyyəsi tamamilə kifayətdir. Lakin onu da qeyd etmək lazımdır ki, psixoloqlar belə bir nəticəyə gəlirlər: bu yaş mərhələsində məntiqi təfəkkürün ifrat ümumiləşdirilməsi zəifliyə çevrilir və "təfəkkür formalizminə" səbəb olur [11, s.305].

Təhsil fəaliyyətində uşağın tələb olunan aparıcı bacarıqlardan biri olan əsas təhsil vəzifəsini müəyyən etmək və bu vəzifəni fəaliyyətinin məqsədinə çevirmək bacarığıdır. Belə bir prosesi həyata keçirtmək üçün uşaqdan intellektual inkişafın, gerçəkliyi dərketmə tələbatının, səbəb-nəticə əlaqələri qurmaq bacarığının müəyyən səviyyəsi və digər keyfiyyətlər tələb olunur. Uşaqlarda bu koqnitiv ehtiyacın inkişafı fərqlidir. Bəzilərində bu, çox aydın ifadə olunur və belə desək, "nəzəri" istiqamətə malikdir. Digərlərində daha çox uşağın praktiki fəallığı ilə bağlıdır. Təcrübəli müəllim-psixoloq şagirdlər arasında nəzəriyyəçi və praktiki fəaliyyətyönümlü uşaqları dərhal seçə bilir. "Nəzəriyyəçi uşaqlar" niyə?, nə üçün? sualları ilə daim axtarışda olur, çoxlu sayda suallar verir, hər şeylə maraqlanırlar. "Təcrübəçi uşaqlar" isə zehni passivliklə xarakterizə olunurlar ki, bu da onların məktəbdə kurikulumdan geri qalmasına səbəb ola bilər. Lakin nəzərə alınmalıdır ki, praktiki fəaliyyət və ya oyun şəklində yerinə yetirilməsi lazım olan təlim tapşırıqlarına gəldikdə, onlar bu cür tapşırıqların öhdəsindən uğurla gələcəklər. Belə uşaqlarla işləyərkən onların intellektual inkişafının göstəricilərini – *məkan anlayışları və obrazlı təfəkkürün inkişafını, əlamətlər sisteminə diqqət yetirmək bacarığını, işarə-simvol funksiyasının inkişafını, nitqin intellektual inkişafını nəzərə almaq və onların idrak fəaliyyətini inkişaf etdirmək lazımdır.*

Məkan anlayışlarının və obrazlı təfəkkürün inkişafı bilavasitə şifahi və yazılı nitqin, vizual-məkan yaddaşının inkişafına təsir edir, həmçinin riyazi əməliyyatların və digər aspektlərin mənimsənilməsinə təsir göstərir.

Əlamətlər sisteminə diqqət yetirmək qabiliyyəti uşağa müəyyən bir tapşırığı yerinə yetirərkən eyni vaxtda bir neçə əlaməti nəzərə almağa imkan verir. Bu bacarıq birinci sinfə daxil olduqdan sonra inkişaf etməyə başlayır və məktəbəqədər yaşlı uşaq üçün təhsildə uğur əldə etmək zəruridir. Məsələn, hər hansı bir hərfi düzgün yazmaq üçün o, bu hərfin tərkib hissələrinin yazılışını, dəftər vərəqinin ölçülərinə diqqət yetirməklə bu hissələrin kağız üzərində düzgün yerləşdirilməsini mənimsəməlidir.

İşarə-simvol funksiyasının inkişafı da ilkin təlim zamanı formalaşmağa başlayır, bu funksiya uşağın hərf-rəqəm sistemini və abstrakt sistemi mənimsəməsi üçün zəruridir.

Uşağın nitq inkişafı elə səviyyədə olmalıdır ki, o, müəllimin məntiqli-qrammatik ifadələrinin mənasını aydın başa düşsün, həm də zəngin lüğətə malik olsun, ifadəli nitqdən istifadə edərək fikirlərini aydın şəkildə ifadə edə bilsin, fonematik eşitmə qabiliyyətinin inkişafı təmin edilsin.

Sadalanan bu intellektual göstəricilər sayəsində uşaq çətin tapşırıqların həlli yollarını axtarmaq, öyrənmə prosesində daha effektiv nəticələr əldə etməyə kömək edən zehni və idrak proseslərini inkişaf etdirmək imkanı əldə edir. Uşaq nəinki zehni əməliyyatların kifayət qədər yüksək səviyyəsinə malik olmalıdır, həm də dərslərində daha yaxşı nəticələr əldə etmək üçün özü də onlardan düzgün istifadə etməyi bacarmalıdır.

Uşağın orqanizmində məhsuldar iş və dözümlülük səylərinə töhfə verən dəyişikliklər baş verir ki, bunlara da aşağıdakılar daxildir: oyatma və ləngitmə proseslərinin tarazlığı – bu, uşağa uzun müddət diqqətini tapşırığa yönəltməyə kömək edir və ixtiyari davranış formalarının və idrak proseslərinin formalaşmasını təmin edir; kiçik motorikanın və vizual-hərəki koordinasiyanı inkişaf etdirir, uşağa yazı qaydalarını mənimsəməyə kömək edir, nitqin idrak və verbal-məntiqi təfəkkür vasitəsi kimi təşəkkülünü aktivləşdirən beynin funksional asimmetriya mexanizmini təkmilləşdirir.

Emosional-iradi hazırlıq uşağın məktəbə hazırlığında mühüm əhəmiyyət kəsb edir, baxmayaraq ki, o bütün uşaqlarda müxtəlif inkişaf səviyyələrinə malikdir, lakin onun əsas xüsusiyyəti motivlərin qarşılıqlı tabeliyindədir. Bu, uşağa öz davranışını idarə etməyə imkan verir və uğurlu təlim nəticələrinə gətirib çıxarır.

Davranışın sərbəstliyi uşağın hərəkətlərini müəyyən bir modelə tabe etmək bacarığında, müəllimin dediklərinə diqqət yetirməklə dinləmək və təhsil müəssisəsində qəbul edilmiş normalara riayət etmək bacarığındadır. İradi fəaliyyətin əsas elementlərinin formalaşması məqsəd qoyulmasını, qərar qəbul edilməsini, fəaliyyət planının qurulmasını, onun icrası və həyata keçirilən fəaliyyətin nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur. İradi keyfiyyətlərin inkişafının başlanğıcına nizam-intizamlılıq, mütəşəkkillik, özünənəzarət və digər keyfiyyətlər aiddir. Uşağın emosionallığı inkişafının yeni səviyyəsi təmkinliliyin artmasında və emosiyaların dərk edilməsində, eləcə də emosional vəziyyətlərin sabitliyində özünü göstərir.

Uşağın məktəb təhsilinə emosional hazırlığı ona emosional sıxıntının və təhsil prosesinin gedişində yaranan müxtəlif maneələrin öhdəsindən gəlməyə imkan verən keyfiyyətlərin mövcudluğunu nəzərdə tutur. Təhsilin başlanğıcında uşaq bilik və bacarıqlarına inamsızlığı, eləcə də materialın mürəkkəbliyinə və ya qarşılaşdığı çətinliklərə görə məyusluğu səbəbindən müəyyən hadisələrlə üzləşə bilər. Bu hadisələr uşağın psixikasına birbaşa mənfi təsir göstərir və nəticədə uşağın tamamilə özünə qapanmasına və artıq özünə və öz gücünə inanmamasına səbəb ola bilər. Uşağın bu cür hallara davamlı olması üçün birinci sinfə getməzdən əvvəl onun emosional hazırlığı formalaşmalıdır. O.B.Koneva öz əsərlərində qeyd edir: "Şəxsiyyətin iradi formalaşması iki əsas istiqamətdə həyata keçirilir: ayrı-ayrı iradi keyfiyyətlərin formalaşması və bütövlükdə şəxsiyyətin iradi tənzimlənməsinin inkişafı" [7, s.30]. Bir çox rus psixoloqlarının (V.V.Davıdov, A.N.Leontyev, D.B.Elkonin və s.) qeyd etdikləri kimi, məktəbəqədər yaşda şəxsiyyətin motivasiya sferası inkişaf edir və mürəkkəbləşir, bu yaş dövründə sosial əhəmiyyətli motivlər və onların qarşılıqlı tabeçiliyi də meydana çıxır.

Motivasiya – şəxsi hazırlıq təhsil fəaliyyətinin müxtəlif amillərdən ibarət kifayət qədər mürəkkəb sahəsidir. Onun sayəsində uşaqda məktəb təliminə müsbət münasibət formalaşır və insanın motivasiya sferasının bütün strukturu mürəkkəbləşir. Öyrənmə motivasiyasında iki səviyyəni qeyd edə bilərik: bunlar bilavasitə geniş öyrənmə motivləridir ki, bunlara öyrənmə prosesi, uğur əldə etmək, çətinliklərin öhdəsindən gəlmək və maraq göstərməklə bağlı motivlər, həmçinin bilik əldə etmək yollarından ibarət nəzəri-idraki motivlər daxildir. Rus psixoloqları (L.İ.Bojoviç, D.B.Elkonin, L.A.Venqer və b.) bu problemi öyrənmişlər. L.İ.Bojoviç motivləri 2 qrupa bölərək hesab edirdi ki, məktəbdə psixoloji hazırlığın əsas məramı uşağın motivasiya sferasının inkişafıdır: birincisi, təhsil fəaliyyətinin məzmunundan və onun həyata keçirilməsi prosesindən asılı olan motivlər (yəni idrak fəallığına olan ehtiyac), ikincisi, uşağın digər insanlarla münasibətlərə, onların sosial bəyənilməsinə ehtiyaclarından, uşağın böyüklər arasında sosial münasibətlər sistemində yer almaq istəyindən asılı olan digər sosial motivlərdir (yəni, ünsiyyətə olan ehtiyac). L.A.Vengerə və D.B.Elkoninin fikrincə, təhsil motivasiyası təhsil fəaliyyətinin tədricən mənimsənilməsi nəticəsində formalaşır. Bu, uşaqda "məktəblinin daxili mövqeyi"nin formalaşması nəticəsində baş verir. "Məktəbəqədər yaş dövrünün sonunda uşaqda yaranan məktəblinin daxili mövqeyi yeni, ciddi, real, ictimai əhəmiyyətli fəaliyyət kimi təlimlə əlaqəli tələbatlar sistemindən ibarətdir ki, bu fəaliyyət də yeni, ciddi, real, ictimai əhəmiyyətli və daha yetkin həyat tərzini təcəssüm etdirir" [10]. Eyni mövqedən çıxış edən L.İ.Bojoviç qeyd edir ki, uşaq birinci sinfə qədəm qoyanda şagird funksiyalarını mənimsəməyə çalışır və nəticədə onda məktəbə motivasiya hazırlığı formalaşır. Nəticə etibarilə uşağın motivasiya sferası transformasiya olunur və təhsil motivləri, təhsil fəaliyyətlərində ətrafdakı insanlarla münasibətlərin qurulması və ictimai əhəmiyyətli mövqenin formalaşması motivləri ön plana çıxır.

Uşaq üçün məktəbli olmaq, bir pillə yüksəlmək, böyüklər dünyasına və təhsil fəaliyyətinə qədəm qoymaq deməkdir, o, bu pilləyə daha böyük məsuliyyətlə yanaşır. Məktəbəqədər yaşlı uşağın təhsil almağa hazır olması üçün vacib element təkcə onun intellektual hazırlığı deyil, həm də məktəblinin sosial mövqeyinə hazır olmasıdır. Şagirdin sosial mövqeyi inkişaf etmədikdə, o, özünü uşaq kimi aparır, təhsilə ciddi yanaşmır, yalnız onun özünü birbaşa maraqlandıran fəaliyyətdə uğur qazanır. Məsuliyyət hissi ilə yerinə yetirilməsi lazım olan fəaliyyətdə isə o, verilən tapşırığı ən yaxşı halda yersiz və istənilən nəticə əldə edilmədən həyata keçirir. Ən pis nəticələrdən biri də uşağın məktəbə getmək istəməməsidir. Belə uşaqların sayının az olmasına

baxmayaraq, problem aktual olaraq qalır. Bu reaksiyanın səbəbi məktəb tərəfindən tərbiyə işinin düzgün qurulmaması və uşaqlara qorxu hissinin aşılanmasıdır.

"Məktəbə hazırlıq, həm də yeni "sosial mövqe"nin – bir sıra mühüm vəzifə və hüquqlara malik olan və uşaqlarla müqayisədə cəmiyyətdə fərqli mövqe tutan məktəblinin mövqeyinin qəbul edilməsinə hazırlığının formalaşdırılmasını da əhatə edir" [11]. **Sosial hazırlıq** öz davranışını cəmiyyətdə müəyyən edilmiş qaydalara uyğunlaşdırmaq bacarığını, həmyaşıdları ilə ünsiyyət ehtiyacını, ünsiyyətdə təşəbbüsün təzahürünü, şagird rolunun qəbul edilməsini, müəllimin izahatlarını dinləmək və onlara əməl etmək bacarığını ehtiva edir. Bundan əlavə, o, həm də uşağın təhsil müəssisəsində yeni sosial mühitə və özünə hazırlığını əhatə edir. Məktəbə daxil olarkən uşaq özünün yeni sosial mövqeyinə, sosial ünsiyyət bacarıqlarına hazır olmalıdır. Valideynlər övladında bu bacarıqları inkişaf etdirməli, özünəinam və məktəbə getmək istəyini inkişaf etdirməlidirlər.

Sosiallaşma prosesi insanın bütün həyatı boyu baş verir. Erkən uşaqlıq dövründə yaşlı şəxs uşağın ətraf aləmə qovuşmasında bələdçi olur, onunla toplamış olduğu sosial təcrübəsini bölüşür, uşağa onu əhatə edən dünyanın necə qurulduğunu izah edir və göstərir. Lakin məktəb yaşından başlayaraq cəmiyyətə inteqrasiya həmyaşıdlarla ünsiyyət vasitəsilə baş verir. Digər uşaqlarla ünsiyyət prosesində uşaq mübahisə etmək, öz nöqteyi-nəzərini müdafiə etmək, maraqlanmaq və müxtəlif növ suallar vermək və s. kimi ünsiyyət bacarıqlarına yiyələnir. Kiçik məktəbli yaşında uşaq üçün sosial tanınma olduqca vacibdir. Bacarıqlarının təzahürü sayəsində uşağın özünüdəyərləndirmə hissi hər dəfə yüksəlir. Qeyd edək ki, bağçadakı psixoloji iqlim və uşaqlar qrupu ilə qarşılıqlı münasibətlər onun sosial mühitə daxil olmasına birbaşa təsir göstərir.

Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin inkişafında böyüklərin rolu aparıcı olaraq qalsa da, illər keçdikcə uşağın davranışı getdikcə daha müstəqil olur, bunun nəticəsində onun böyüklərlə birgə fəaliyyəti "parçalanır" və müstəqilliyə meyilli formalaşır. L.S.Vıqotskinin "yaxın inkişaf zonası" konsepsiyasına görə, böyüklərlə ünsiyyət və əməkdaşlıq potensial qabiliyyətlərin təkmilləşdirilməsinə kömək edir. Həyatın ilk həftələrindən uşaq böyüklərlə ünsiyyət qurur və bu dövrdə yaşlı insan onun üçün əsas və hər şeyi bilən şəxs kimi çıxış edir, həmçinin bu zaman uşaqlar böyüklərin biliyini qiymətləndirə bilmirlər. Bu səbəbdən uşaqda güvən kimi bir xüsusiyyət formalaşır. Təqlid də bu keyfiyyətlə bağlıdır, məktəbəqədər yaş dövrü bu keyfiyyətlə birbaşa bağlıdır və uşaq hər şeyi böyüklər kimi etməyə can atır. Uşaqların davranışına yaşlının qınağı və təşviqi də təsir göstərir, halbuki onlara kənardan nəzarət etmək çox çətindir.

Məktəbəqədər yaşlı uşaqlara xas olan bu xüsusiyyətləri müəyyən edərək, E.O.Smirnova və həmkarları təlim zamanı yuxarıda göstərilən parametrlərə uyğun olaraq uşağın böyüklərə münasibətini qeyd etməyə imkan verən eksperiment keçirmişlər. İştirakçılar 3-5 yaşlı uşaqlar olmuşlar. Eksperiment yaşlı insanın ünsiyyət nümunələri təqdim etdiyi, situativ ünsiyyətdən şəxsi ünsiyyət motivlərinə keçidin baş verdiyi məşğələlərin gedişatından ibarət olmuşdur. Məşğələlərin mövzu seçimi uşaqların şəxsi və yaş xüsusiyyətlərindən asılı olaraq fərdi xarakter daşımışdır. "Bu araşdırma nəticəsində böyüklərlə situasiyadankənar – şəxsi ünsiyyət formasının məktəbəqədər uşaqların təlimi üçün ən əlverişli olduğu müəyyən edilmişdir. Bu forma çərçivəsində təlimə kommunikativ hazırlıq formalaşır ki, bu da istənilən mütəşəkkil təlim üçün zəruri şərt və təhsil fəaliyyətinə keçid üçün mühüm ilkin şərtdir" [6, s.111].

Nəticə. Birinci sinifdə uşağın sosial mövqeyində və aparıcı fəaliyyət növündə dəyişikliklər nəticəsində formalaşan yeni sosial-psixoloji formasiyalar yaranır. Məktəbəqədər və kiçik məktəbyaşlı uşaqlar arasında aparılan tədqiqatlar nəticəsində qeyd edə bilərik ki, məktəbəqədər uşaqlar arasında oyun və ya digər fəaliyyət növü zamanı yaranan şəxsi və emosional münasibətlər üstünlük təşkil edir. Kiçik məktəb yaşında "qaydalara uyğun" komponentlər nəticəsində yaranan işgüzar münasibətlər üstünlük təşkil edir. Dəyər oriyentasiyalarının transformasiyası baxımından təhsil fəaliyyəti və ictimai işlərlə bağlı amillər irəli çəkilir.

Sonda yazılanlardan belə nəticəyə gəlmək olar ki, məktəbəqədər yaşın sonunda hər bir uşaq üçün fərdi amillərdən asılı olaraq müxtəlif motivlər üstünlük təşkil edə bilər. Kimdə sosial mövqe tutmaqla bağlı, digərlərində isə uşaqların marağı ilə bağlı idrak motivlərinə meyillilik ola bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Əmrahlı L., Rzayeva N. Uşaq psixologiyası. Bakı, "Nurlan" nəşriyyatı, 2015, 342 s.

2. Əmrahlı L.Ş. Uşaqların məktəbə hazırlığının psixoloji məsələləri. Bakı, "Nərgiz" nəşriyyatı, 2006, 211 s.

3. Əzizov Q. Uşaqlarda hafizənin inkişafının səmərəli yolları. Bakı, "Mütərcim" nəşriyyatı, 2007, 40 s.

4. Vəliyev M.V., Mustafayev A.M. Uşaq psixologiyası (metodik vəsait). Bakı, 2011.

5. Блонский П.П. Память и мышление. СПб.: Питер, 2001, 288 с.

6. Журнал "Вопросы психологии", №5, за годы 1980-1999.

7. Конева О.Б. Психологическая готовность детей к школе (учебное пособие). Челябинск, Изд-во ЮУрГУ, 2000, 32 с.

8. Нижегородцева Н.В., Шадриков В.Д. Психолого-педагогическая готовность ребенка к школе: Пособие для практических психологов, педагогов и родителей. Москва, Гуманит. Изд. центр Владос, 2001, 256 с.

9. Эльконин Д.Б. Развитие личности ребенка-дошкольника. В кн.: Психология личности и деятельности дошкольника. Москва, 1965, с.254-264.

10. Эльконин Д.Б. Избранные психологические труды. Москва, 1989, 155 с.

11. Эльконин Д.Б., Венгер А.Л. (ред.) Особенности психического развития детей 6-7 летнего возраста. 1988.

A.Aliyeva

Psychological components of children's preparation for school education

Abstract

The issue of psychological preparation for children has become particularly relevant in recent decades, as parents have begun enrolling their children in school at the age of 5. Based on experience, it can be said that systematic schooling is more appropriate to start at the age of 6-7, as children are already psychologically and physically ready for this education.

Each child has an individual potential for school attendance upon enrollment. Preparation for school encompasses all the feelings, interests, and perspectives of the child, as well as how they cope with the demands placed on them in everyday school life and how they respond to these challenges. Accordingly, a child is considered capable of learning if they can communicate with those around them.

The article examines the psychological preparation of children for school learning, an intellectual approach to successful education, the formation of logical thinking, and the development of skills according to their social status in mastering the rules of academic activity. It discusses the role of education in their lives based on the fundamental components of psychological preparation in education.

А.Алиева

Психологические компоненты подготовки детей к школьному обучению

Аннотация

Проблема психологической подготовки детей стала особенно актуальной в последние десятилетия, когда родители начали отдавать детей в школу с 5 лет. Основываясь на опыте, можно сказать, что систематическое обучение в школе целесообразнее начинать с 6-7 лет, поскольку дети уже психологически и физически готовы к этому обучению.

Каждый ребенок имеет индивидуальный потенциал посещаемости при поступлении в школу. Подготовка к школе касается всех чувств, интересов и взглядов ребенка, а также того, как он справляется с требованиями, предъявляемыми к нему в повседневной школьной жизни, и в каком направлении он реагирует. Соответственно, ребенок считается способным к обучению, если он умеет общаться с окружающими его людьми.

В статье рассматривается психологическая подготовка детей к школьному обучению, интеллектуальный подход к успешному обучению, формирование логического мышления и развитие умений согласно их социальному положению в освоении правил учебной деятельности, роль образования в их жизни определяются исходя из основных компонентов психологической подготовки в образовании.

В статье речь идет о психологической подготовке детей к школьному обучению, интеллектуальном подходе к успешному обучению, формировании логического мышления и развитии навыков в соответствии с социальным положением. Учитывая основные компоненты психологической подготовки к школе рассматривается их роль в жизни детей.

MÜASİR DÖVRDƏ MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİNİN ƏSASLARI

Aidə Novruzova,
Naxçıvan Dövlət Universitetinin
Orkestr alətləri kafedrasının müəllimi
e-mail: aidenovruzova @mail.ru

Kifayət Hüseynova,
Naxçıvan Dövlət Universitetinin
Bədən tərbiyəsi və idman kafedrasının
baş müəllimi
e-mail: nurv7487@gmail.com

DOİ: 10.30546/2706-7858.2024.3.219
UOT: 37

Xülasə. *Məqalədə müasir müəllimin formalaşmasında etik və pedaqoji ideyaların, o cümlədən mənəvi əqidənin böyük rolundan bəhs edilərək, əsasən ictimai mühitin müəllim şəxsiyyətinin inkişafında və formalaşmasında mühüm amil kimi çıxış etməsi qeyd olunmuşdur. İnsan şəxsiyyətinin formalaşmasına təsir edən irsiyyət, mühit və tərbiyə amillərinin qarşılıqlı münasibəti mühüm rol oynayır. Tədqiqat işində, həmçinin müəllim-şagird münasibətlərinin mahiyyəti və məzmunu, müəllimin pedaqoji fəaliyyəti, maarifçi, həm pedaqoq, həm də psixoloq olmasının vacibliyi təhlil olunur. Belə ki, müəllim şagirdin yaxın köməkçisi olmalı, tərbiyə prosesində şagird üçün ideala çevrilməlidir.*

Açar sözlər: *müəllim, fəlsəfə, əqidə, mənəvi, iradə, humanist, beynəlmiləl, peşə, psixologiya.*
Key words: *teacher, philosophy, belief, spiritual, the will, humanist, international, profession, psychology.*
Ключевые слова: *учитель, философия, вера, духовность, воля, гуманист, интернационал, профессия, психология.*

Müəllim tədris prosesinin ən əsas simasıdır. Onun peşə fəaliyyəti sırasında bir çox qabiliyyətlər mühüm yer tutur: akademik, didaktik qabiliyyət, kommunikativ (ünsiyyət), iradi-emosional qabiliyyət və s. Müəllim bu qabiliyyətləri gərgin əməklə qazanır. Müəllimlik fəaliyyətinin özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

• *Müəllim öz həyatını xalqın gələcəyinə həsr edir.*

• *Müəllimlik mürəkkəb və çətin, məsuliyyətli peşədir, bu işdə səhvə yol vermək olmaz.*

• *Müəllimin fəaliyyət obyekti insandır. İnsanlar da pedaqoji proseslərdə çox mürəkkəb və dəyişkəndir.*

• *Müəllimlik yaradıcı işdir, çünki o, hazır göstərişlərlə, reseptlərlə işləyə bilməz.*

• *Müəllimin özünün pedaqoji nəzəriyyəsi, qanunauyğunluqları vardır.*

• *Müəllim müşahidə və təhlil etməyi, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi bacarmalıdır.*

Pedaqoji prosesdə müəllimin fəaliyyəti

Müəllimin fəaliyyəti ictimai həyatımızın xüsusi sahəsidir. Belə bir əmək sahəsində çalışan şəxsin mənəvi aləmi saf, təmiz olmalıdır. Məktəbdə müəllim əməyinin obyekti böyüməkdə və inkişaf etməkdə olan uşaq, yeniyetmə və gəncdir. Uşaq mütəhərrik bir varlıqdır. Onun inkişaf qanunauyğunluqlarını, psixoloji, bioloji xüsusiyyətlərini bilmədən sözün əsl mənasında onunla işləmək olmaz. Tərbiyənin özünəməxsus obyektiv qanunauyğunluqları vardır. Həmin qanunları bilmək müəllim üçün zəruridir. Bunun üçün ilk

növbədə, tərbiyə obyektinin nə olduğunu bilmək lazımdır. Tərbiyənin obyekti insandır. Bu varlıqda idrak mənbəyi, hislər və emosiyalar yatağı, yaddaş xəzinəsi, insanın bütün orqanizmini idarə edən beyni daha mürəkkəbdir.

Müəllim özünün danışıq tərzi, davranışı, tədris zamanı seçdiyi vasitə və üsulları öyrətməyə həvəs göstərməsi ilə şagirdləri hər zaman özünə cəlb etmişdir. "Ən yaxşı müəllim necə olmalıdır?" sualını görkəmli pedaqoq V.A.Suxomlinski belə cavablandırırdı: "O, ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər. Çətin tərbiyə olunan uşaqlarla işləmək, xəstə uşaqları ruhlandırmaq hər bir müəllimin əsas vəzifəsidir".

Müəllimlik ən şərəfli, ən çətin, ən məsuliyyətli, həm də mürəkkəb peşədir.

Sürətlə dəyişən və yeniləşən cəmiyyət müəllimlərin hazırlıq və peşəkarlıq səviyyəsinin yüksəlməsinə mühüm tələblər verir [1, s.8].

Valideynlər uşaqlarını müəllimə əmanət etdikdə arxayın və rahat olmalıdırlar. Pedaqoq Y.Talıbov yazırdı ki, müəllim peşəsini başqa peşələrdən fərqləndirən başlıca xüsusiyyətlərdən biri onun fəaliyyət obyektinin dinamik olmasıdır. Müasir müəllim öz peşə qabiliyyəti, akademik fəaliyyəti, ünsiyyət forması, iradi-emosional hisləri ilə seçilməlidir. Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidənin böyük təsiri vardır. Mənəvi əqidə müəyyən ictimai-siyasi, mədəni amillərin təsiri altında formalaşır. Belə nəticəyə gəlmək olar ki, mənəvi münasibətlərin formalaşması prosesi dinamik, dialektik, uzunmüddətli, gərgin əmək tələb edən bir prosesdir. Bu prosesdə müəllim-şagird münasibəti mühüm rol oynayır. Bu da müəllimi mənəvi münasibətlər aləmini təşkil edir. Müəllim ziyalılarımızın gənc nəslin təlim və tərbiyəsində çalışan ən qabaqcıl nümayəndələrindən biridir [2, s.10].

Müəllim hər zaman müqəddəsdir. O, həm şagirdlərlə, həm də valideynlərlə sıx əlaqə saxlayır, öz vəzifəsini layiqincə yerinə yetirməyə cəhd göstərir. Onu da qeyd etməliyik ki, uşağın düzgün formalaşmasında valideynlərin də rolu olmalıdır. Uşaq harada olursa-olsun, evdə, bağçada, məktəbdə düzgün tərbiyə almalıdır. A.S.Makarenko yazırdı: "Tərbiyə hər zaman baş verməlidir. Hətta siz evdə olmasanız da belə uşağın olduğu bütün mühit və şərait ona müsbət təsir göstərməlidir".

Müasir müəllim pedaqoji proses zamanı çox diqqətli olmalı, məsuliyyət hiss etməlidir. Pedaqoji tədris zamanı müasir müəllimin formalaşmasında etika mühüm rol oynayır. Etik-pedaqoji ideya bizə ta qədimdən məlumdur. Hələ ta qədimdən Azərbaycan xalqı öz folklor və dastanlarında, nağıl və qoşmalarında tərbiyəvi, əxlaqi-etik fikirlər irəli sürmüşlər.

Ə.Haşımov tədqiqatlarının birində yazırdı: "Pedaqoji fikrin ilk nümunəsi xalq kütlələri olmuşdur. Çünki xalqın geniş zəhmətkeş kütlələrinin düşüncəsi, yüksək insani hisləri, tarixi müdrikliyi folklorumuzda aydın əks olunmuşdur" [3, s.17].

Müəllimin hərtərəfli formalaşmasında etik davranışların rolu

Müəllim etikası məsələsini dahi çex pedaqoqu J.Kamenski geniş aspektdə işləmişdir. O, müəllim-şagird münasibətlərinə xüsusi əhəmiyyət vermiş, humanist müəllim idealını yaratmışdır. Müasir müəllim bütün tədrisboyu pedaqoji etikanı unutmamalı, uşaqlarla humanist davranmalı, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Ayrı-ayrı mühitdən gələn uşaqlar bir sinifdə toplaşır. Fərqli xüsusiyyətləri olan uşaqlar müəllimin köməyi, şəfqəti ilə bir-birinə uyğunlaşmalıdırlar. Deməli, müəllimin şəfqətindən, düzgün etik davranışından çox şey asılıdır. Müəllim etik biliklərə o dərəcədə yiyələnməlidir ki, bunu şagirdlərə başa salsın, onları hərtərəfli inkişaf etdirsin. Müəllim yaxşı oxuyan şagirdi qabağa çəkib, zəif oxuyanı danlamamalı, əksinə, hamısı ilə eyni qaydada davranmalı və müəyyən şəraitdə onu başa salmalı, ruhlandırmalıdır. Deməli, müəllim şagirdləri elmə həvəsləndirməli, öz davranış etikası ilə müvəffəqiyyət qazanmalıdır. Müasir müəllimin öhdəsinə böyük vəzifələr düşür. Hər bir uşağın təbiətində gizlənmiş qığılcımı yandırmaq, onlara ilham vermək müəllimin borcudur. İstedad hər bir uşağın zehnində, fikrində, ürəyində gizlidir. Bunları ancaq müəllim aşkara çıxara bilər. Bütün bunları görkəmli pedaqoqlar təsdiq etmişlər. Pedaqoji etika sayəsində hər bir uşağın istedadını aşkara çıxarmaq olar. S.Ə.Şirvani, A.A.Bakıxanov, K.D.Uşinski, M.F.Sidqi, A.S.Makarenko, N.Nərimanov, B.A.Suxomlinski, L.N.Tolstoy, A.İ.Gertsen və başqa pedaqoqlar pedaqoji etikanın ən vacib tərbiyə sistemi olduğunu qeyd etmişlər.

Bugünün müəllimi insan zəkası haqqında təcrübə əldə etməli, həm pedaqoq, həm də psixoloq olmalıdır. Müasir müəllim pedaqoji sistemdə tərbiyəçi ilə tərbiyə olunanlar arasında

mənəvi münasibətlərə xeyli yer verməlidir. İlk növbədə isə müasir müəllim özünün əqidəsinə, yəni əməli işi ilə sözünün bir-birinə uyğun gəlməsinə diqqət yetirməlidir. Uşaqlarla ünsiyyətdə olmaq, daim onları dinləmək, yol göstərmək, onların qəlbində ümid işığı yandırmaq lazımdır. Əlbəttə, pis uşaq yoxdur, çətin tərbiyə olunan uşaq vardır. Ünsiyyətdə olmaq işığın, qaradinməzlik isə zülmətin əlamətidir. Ünsiyyətdə olmaq müəllim nüfuzunu yüksəklərə qaldırır, onu ideallaşdırır.

Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidənin təsiri

Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidənin böyük təsiri vardır. Mənəvi əqidə müəyyən ictimai-siyasi, mədəni amillərin təsiri altında formalaşır. Əqidə insanın mühit, həyat, varlıq haqqında düşüncə və inamından ibarətdir. Mənəvi əqidənin formalaşmasında ictimai mühitin, ailənin böyük təsiri vardır. Mənəvi əqidənin əsas komponentlərindən biri elmi, əxlaqi-etik bilikdir. İnsan ta uşaqlıqdan başlayaraq ömrünün sonuna kimi müəyyən elmi biliklərə yiyələnmək üçün səy göstərir. Elmi biliklərə yiyələnmək sayəsində insan təbiətdə və cəmiyyətdə baş verən hadisələrin mahiyyətini dərindən dərk edir. Elmi, əxlaqi-etik biliklər müəllimin ictimai-siyasi hadisələri düzgün qiymətləndirməsinə, dünya miqyasında baş verən hadisələri düzgün dərk etməsinə kömək edir [4, s.27].

Mənəvi əqidənin başqa bir komponenti də müstəqil fikirdir, fəaliyyətdir. Elmi, əxlaqi-etik biliklərə yiyələnməklə mənəvi şüurun tam formalaşması baş vermir, bunun üçün müstəqil fəaliyyət vacibdir. Müstəqil fəaliyyət çox mürəkkəbdir, çünki əqidə müəllimi həmişə fəaliyyətə təhrik edir. Bu zaman müəllim cəmiyyətdə baş verən ictimai həyat hadisələrinin seyredicisi olmur, əksinə, bu hadisələrə müdaxilə edir, fəaliyyət göstərir. Çünki müəllimin bütün hadisələrdə fəaliyyət göstərməsi, fəal və aktiv olması "gənc nəsli arxasınca aparması" deməkdir.

Mənəvi əqidənin digər bir komponenti də iradədir. Əgər iradə olmasa, qarşıya çıxan çətinlikləri, maneələri dərk etmək cəsarəti olmasa, əqidə də ola bilməz. Deməli, mənəvi əqidə iradə qüvvəsini özündə birləşdirən prosesdir. Bütün bunlardan belə bir nəticə hasil olur ki, mənəvi əqidə elmi, əxlaqi-etik biliklərə, həyat təcrübəsinə, incə hislərə əsaslanan həyat stimulu olan insanların məqsədəuyğun fəaliyyətidir. Müəllim peşəsi bütün peşələrin anasıdır, çünki müəllim gənc nəsli həyata hazırlayır, inkişaf etmiş, hərtərəfli formalaşmış şəxsiyyət, vətən övladı formalaşdırır.

Müəllim hər zaman Vətən üçün canını verməyə hazır olan, iqtisadiyyatı idarə etməyi bacaran insanlar hazırlayır. Ona görə də müəllim elmi-əxlaqi, etik bilikli sayılır. Müəllim hər zaman öz peşəsini sevməli, dərindən dərk etməli, daima öz üzərində işləməlidir. Müəllim bir günəşdir, hər zaman parlayır, ətrafını işıqlandırır. Müəllim öz fəaliyyəti zamanı uşaqların psixologiyasını dərindən öyrənməli, onların daxili aləmi ilə maraqlanmalıdır. Müasir müəllim tələbkar olmalı, prinsiplərə riayət etməli, eyni zamanda ədalətli olmalıdır.

H.A.Dobrolyubov yazırdı: "Müəllim şagird üçün heyranedici təcrübə oyadan bəşəri kamilliyin ali nümunəsidir". Müəllim bilməlidir ki, öz nüfuzunu zəhməti, əməyi, biliyi, bacarığı sayəsində əldə edir. Müəllim kollektivçi olmalı, qarşılıqlı yardım göstərməyi bacarmalıdır. Müəllim fəal ictimaiyyətçi, maarifçi və biliklərin inkişafetdiricisi, xeyirxah münasibətlərin əsl vətənpərvər və əxlaqi əqidənin daşıyıcısı olmalıdır. Müəllim-şagird, şagird-müəllim kollektivi bir-biri ilə sıx bağlıdır. Müəllim-şagird kollektivi münasibətlərinin öz məzmunu, spesifik xüsusiyyətləri, çətinlikləri, problemləri vardır. Müəllim uşaq kollektivinə yalnız obyekt kimi deyil, habelə tərbiyə prosesində özünün ən yaxşı köməkçisi kimi baxmalıdır. Kollektiv tərbiyə amilidir və o şagird şəxsiyyətinə çox vaxt müəllimdən də güclü təsir göstərir. Kollektiv münasibətlərinin formalaşması müəllimin əlində qüdrətli silahdır. Müəllim hər bir şagirdin yaxşı və ya pis hərəkətini kollektivin müzakirəsinə verib rəy yaratdıqda müsbət nəticə verir. Müəllim şagirdini qəlbdən sevir, onun hər bir böyük, kiçik müvəffəqiyyətlərindən fərəhlənir. Qəlbində uşaqlara məhəbbəti, valideyn hərarəti olmayan müəllim uşağı incidir, ona daxili iztirab verir. L.Tolstoy belə müəllimlərə deyirdi: "Ona əzab verməyin, soruşun, qəlbini dinləyin". Rus pedaqoqu B.A.Suxomlinski yazırdı ki, mənim həyatımda ən başlıca sənət nədir? Düşünmədən deyərdim: Uşaqlara məhəbbət böyük qüvvədir. Belə bir məhəbbəti B.A.Suxomlinski "Ürəyimi uşaqlara verərəm" adlı əsərində böyük bir ürəklə, hərarətlə, sevgi hissi ilə tərənnüm etmişdir. Böyük alman pedaqoqu, müəllimlər müəllimi F.A.Distever müəllimi cəmiyyətin hərəkətverici qüvvəsi hesab

etmiş, müəllimlər üçün konkret tələblər, qaydalar hazırlamışdır. Müəllimin öz fənninə olan münasibəti uşaqlara da keçir. Məktəbin qabaqcıl məktəb olması üçün müəllimlərinin savadlı olması şərtdir.

Dahi M.Zelinski ailə tərbiyəsi, ata-övlad, ana-qız münasibətləri, məktəbin həyatla əlaqəsi haqqında maraqlı fikirlər söyləmiş, müəllimləri uşaqlıq dünyasını öyrənməyə çağırmışdır. Əsl müəllim şəxsiyyətin formalaşmasına, təkmilləşməsinə, inkişaf etməsinə təsir edən amillərin – irsiyyət, mühit və tərbiyənin qarşılıqlı münasibəti haqqındakı məsələsinə Karl Marks didaktik şəkildə yanaşmış və insanın yenidənqurma fəaliyyətini yüksək qiymətləndirmişdir.

Müasir Azərbaycan müəlliminin daha da formalaşması, hərtərəfli inkişaf etməsi, gələcək tələblərə cavab verməsi üçün onun qarşısında çətin və məsuliyyətli vəzifələr dayanır. Nüfuzlu müəllim cəmiyyət daxilində elmi biliyi, dünyagörüşü, intellekt səviyyəsi, humanistliyi, ədalətliliyi, qayğı və tələbkarlığı ölçülü, biçili tənzimlənməsi ilə daxil olduğu cəmiyyət üzvlərinin hər birində müsbət mənada fərqlənir. Daim yaradıcı əməyinin qayğısına qalan müəllim unutmamalıdır ki, şəxsi əməksiz insan müvəffəqiyyət qazana bilməz.

Bəli, müəllim hər zaman yaradıcı olmalı, peşə fəaliyyətində etik davranış prinsiplərini gözləməli və tələblərə ciddi şəkildə əməl etməlidir.

Müəllim gənc nəslin mənəvi estetik tərbiyəsinin inkişaf etməsində böyük rol oynamalı, həm özünün, həm də şagirdlərin milli əxlaq, ictimai davranış, pedaqoji-etika normalarına riayət etməlidir.

Hər bir müəllim etik davranış qaydalarına əməl etməlidir. Bütün bu qaydalara əməl edən müasir müəllim öz üzərində layiqincə işləyərək kollektivin hörmətini qazanır və yüksəlir.

Nəticə. Müasir müəllim şəxsiyyətinin formalaşması, hərtərəfli inkişaf etməsi, gənc nəslə dayaq olması dövrümüzün ən vacib aktual məsələlərindən biridir. Hər bir Azərbaycan müəllimi öz peşə nüfuzunu möhkəmləndirməyə, şərəf və ləyaqətini uca tutmağa borcludur. Müəllim ən məsuliyyətli, çətin və mürəkkəb bir yolun yolçusudur. Müqəddəs peşə sahibi olan müəllimlər öz sədaqəti, səbri, biliyi, ruh zənginliyi, fədakarlığı ilə seçilirlər. Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir. Ulu öndər Heydər Əliyev demişdir: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".

Hər an öz üzərində işləyən, yeni fikirlər axtaran hörmətli müəllimlərimizlə fəxr edir, onlara bu şərəfli məsləkdə uğurlar arzulayırıq.

İstifadə edilmiş ədəbiyyat

1. İlyasov M. Müəllim peşəkarlığı və sərişləliyinin müasir problemləri. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018.

2. Mirzəyev F., Rüstəmova X. Pedaqoji ustalığın əsasları (dərs vəsaiti). Bakı, 2012.

3. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. "Maarif" nəşriyyatı, Bakı, 1970.

4. İsmixanov M., Bayramov H., Vəliyeva S. Ali məktəb pedaqogikası. Bakı, 2019.

A.Novruzova, K.Huseynova

The basics of the teacher's pedagogical activity in modern times

Abstract

The article talks about the great role of ethical and pedagogical ideas, including moral beliefs, in the formation of a modern teacher, and it is noted that the social environment acts as an important factor in the development and formation of a teacher's personality. The interaction of heredity, environment and upbringing factors that influence the formation of human personality plays an important role. The research work also analyzes the nature and content of teacher-student relationships, the teacher's pedagogical activity, the importance of being an educator, both a pedagogue and a psychologist. Thus, the teacher should be a close assistant of the student, and should become an ideal for the student in the process of education.

А.Новрузова, К.Гусейнова

Основы педагогической деятельности учителя в современное время

Аннотация

В статье говорится о большой роли этико-педагогических идей, в том числе моральных убеждений, в становлении современного учителя, а также отмечается, что социальная среда выступает важным фактором развития и формирования личности учителя. Важную роль играет взаимодействие наследственности, окружающей среды и факторов воспитания, влияющих на формирование личности человека. В исследовательской работе также анализируются характер и содержание взаимоотношений учителя и ученика, педагогическая деятельность учителя, значение профессии педагога, как педагога, так и психолога. Таким образом, учитель должен быть близким помощником ученика, должен стать для него идеалом в процессе обучения.

ARILARIN ZƏHƏRLƏNMƏSİNƏ SƏBƏB OLAN ƏSAS AMİLLƏR

Niyazi Nəcəfov,
ARKTN-nin Baytarlıq Elmi-Tədqiqat İnstitutunun baş elmi işçisi,
biologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
e-mail: nni1966@ mail.ru

DOİ: 10.30546/2706-7858.2024.3.221
UOT: 636.96

Xülasə. *Məqalədə bal arılarının inkişafına, sağlamlığına və məhsuldarlığına təsir edən bir çox amillərdən bəhs edilir. Belə ki, arıçılara xəbərdarlıq etmədən bitkilərdə aparılan dərmanlama işləri, arı xəstəliklərinə qarşı aparılan müalicəvi tədbirlər zamanı keyfiyyətsiz kimyəvi preparatlardan istifadə edilməsi və digər amillər arıların zəhərlənməsinə gətirib çıxarır ki, bu da arıların inkişafdan qalmasına və məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Həmçinin təbii amillərdən gəzəngi yemlərinin (bəzi həşəratların ifrazatları) və zəhərli bitkilərin də arılara təsiri təhlil edilmişdir.*

Açar sözlər: *arılar, zəhərlənmə, kimyəvi preparatlar, kimyəvi pestisidlər, insektisidlər.*
Key words: *bees, poisoning, chemical preparations, chemical pesticides, insecticides.*
Ключевые слова: *пчелы, отравление, химические препараты, химические пестициды.*

Arı zəhərlənmələri müxtəlif səbəblərdən baş verə bilər. Bu səbəblərdən biri də insanların tədbirsiz, plansız surətdə müxtəlif zərərvericilərə qarşı apardıqları mübarizə tədbirləridir. Arılar dərmanlanmış bitkilərdən çiçək tozu və nektar toplayarkən zəhərli kimyəvi maddəni qəbul edərək nektarla və çiçək tozu ilə birlikdə pətəyə daşımış olur və beləliklə də həm özü tələf olur, həm də pətək daxilindəki arıların da zəhərlənməsinə səbəb olur.

Pestisidlər xəstəlik daşıyan parazitlərin, zərərli tarla və bitki böcəklərinin, göbələk və alaq otlarının, bit, birə, müxtəlif həşəratların tələf olmasında istifadə olunan kimyəvi (zəhərli) maddədir. Bu cür pestisidlərdən insanlar, məməlilər, quşlar, arı və balıqlar da ziyan görə bilir. İstifadə olunan pestisidlər üzvi fosforlu birləşmələr, fosfor turşusu və kükürdlü analoqların neytral efirləridir. Üzvi fosforlu birləşmələr toz və maye halında istifadə olunur, suda, ümumiyyətlə, çox az yağ və üzvi həlledicilərdə isə yaxşı həll olunurlar. Bu preparatlar ərzaq məhsullarının istehsalına, hazırlanmasına, depolanmasına, istehlakına, məhsulların keyfiyyətinə, zədələnməsinə səbəb olan böcəklərin, gəmiricilərin, alaq otlarının, göbələk və torpaq qurdlarının öldürülməsində geniş istifadə olunur. Kimyəvi pestisidlərə – Orqanofosfat (böcəklərin sinir sisteminə təsir edərək öldürür); Karbamat (sinir sistemini tamamilə məhv edir); Orqanoklorin (böcək öldürücüsüdür); Piretroid (çiçəklərdə rast gəlinən pestisidlərin sintetik versiyasıdır) və s. aiddir.

İnsektisidlər ekoloji sağlamlıq baxımından ağcaqanad və digər həşəratlara qarşı istifadə olunduqda ətraf mühitin sağlamlığına öz mənfi

təsirlərini göstərə bilirlər. Bunların bir çox növləri vardır.

Üzvi fosforlu insektisidlər həzm, tənəffüs, dəri və s. vasitəsilə orqanizmə daxil olur. Bədənə yayılan bu yüksək dozalı maddələr arıların ani ölümünə səbəb olur. Orqanizmdə metabolik dəyişikliklərə məruz qalan bu maddələr suda zəif həll olunduğundan sürətlə zəhərlənmə baş verir. Üzvi fosforlu birləşmələrə Malation, Paration etil, Azinfos metil, Kumafos, Diazion, Diklorvos, Xlorpirifos-metil, Fenitrotion və s. aiddir.

Üzvi xlorlu insektisidlər əvvəllər istifadə olunsa da, sonradan zərərli təsirləri ortaya çıxdıqda qadağan olunan xlorlu birləşmələrin iqlim və coğrafi şərtlərə uyğunsuzluğu məlum olmuşdur. Həmçinin torpaqda və bitkilərdə zəhərli qalıntı əmələ gətirməsi də müəyyən edilmişdir. Bu bitkilərdən istifadə edən digər canlılar mənfi təsirlərə (zəhərlənmələrə) məruz qalırlar. Bu zəhərli maddələr canlılarda sinir və davranış pozğunluğu, titrəmə və tənəffüs çatışmazlığı əmələ gətirir. Üzvi xlorlu birləşmələrə Aldrin, Endrin, Dieldrin, Endosulfon (a), Endosulfon (b), Endosulfan sulfat, pp-DDE, pp-DDD(TDE), Op-DDT, pp-DDT, BHC, Lindan, Metaksixlor, Heptaklor, Xlordan və s. aiddir.

Karbamat qrupu insektisidlər üzvi xlorlu insektisidlərə variantlar yarada bilən sintetik birləşmələrdir. Sintetik üzvi insektisidlər xlorlu karbohidrogenlər, üzvi fosforlu, karbomatlar, sintetik piretroidlər, benzol karbomidlər olaraq sinifləndirilirlər. Üzvi fosforlu birləşmələrə oxşar şəkildə parazit orqanizmində öz mənfi zərərli təsirini göstərir. Karbamatlar ətraf mühitdə uzun vaxt qala bilmir, suda yaxşı həll olunmur, torpaqda, ümumiyyətlə, 1-4 həftə içində parçalanırlar. Canlılarda yağ toxumalarında toplanırlar, beyinə daha çox lokalizasiya edirlər. Sinir sisteminə mənfi təsirləri qaçılmazdır. Karbamat birləşmələrə Aldikarb sulfoksid, Aldikarb sulfon, Karbofuran, 3-Hidroksikarbo furan, Karbaril, Oksamil, Ditiyokarb, Propoksur, Metiyokarb, 1-Naftol və s. aiddir.

İnsektisidlər üç qrupa bölünür: Bioinsektisidlər kimi tanınan bitki mənşəli insektisidlər, mikroorqanizm mənşəli insektisidlər, qeyri-üzvi insektisidlər.

Mikroorqanizm mənşəli insektisidlər böcək öldürücüləri arasında bakteriyalar, funguslar, viruslar və nematozlar olaraq kateqoriyalara bölünürlər.

Qeyri-üzvi insektisidlər isə arsen birləşmələri, flüorlu birləşmələr, kükürdlü və civəli birləşmələr olaraq dörd yerə bölünürlər.

İnsektisidin zəhərləmə dərəcəsi ÖD 50 (öldürücü doza 50) ifadəsi ilə dəyərləndirilir. Toksiki parametrlər aşağıdakı cədvəldə göstərildiyi qaydada müəyyənləşdirilir.

Zəhərlənmə dərəcəsi	Zəhərlənməyə məruz qalma dərəcəsi
1. Yüksək dərəcədə zəhərlənmə	Kəskin ÖD50 < 2 µg/arı
2.Orta dərəcədə zəhərlənmə	Kəskin ÖD50 2 µg/arı-10,99 µg /arı
3.Az zəhərlənmə	Kəskin ÖD50 11 µg /arı-100 µg /arı
4.Təsirsiz zəhərlənmə	Kəskin ÖD50 > 100 µg /arı/ (yetişkən arılar üçün)

Bir arı ailəsində zəhərlənmədən tələf olan arıların ölüm sayı

Ölüm nisbəti	Təsirə məruz qalan arı populyasiyası
1.Normal ölümlər	< 100 bal arısı / pətək-gün
2.Az dərəcəli ölümlər	200-400 bal arısı / pətək-gün
3.Orta dərəcəli öltümlər	500-900 bal arısı / pətək-gün
4.Yüksək dərəcəli ölümlər	> 1000 bal arısı / pətək-gün

Herbisidlər tarla zərərvericilərinə və ya alaq otlarına qarşı istifadə olunan kimyəvi maddələrdir. Herbisid bitki öldürən mənasını da verir. Kənd təsərrüfatı sahəsində məhsuldarlığı artırmaq üçün bitki zərərvericilərinə qarşı görülən tədbirlərdə istifadə olunarkən təbii bitki örtüyündəki bitki toksinləri və torpaq strukturundakı ağır metallar arılar üçün təhlükə yaradır.

Fungisidlər göbələk və göbələk sporlarının öldürülməsində, həmçinin onların nəzarət altına alınmasında istifadə edilən kimyəvi maddədir. Təbii və sintetik formada olan funqisid, ümumiy-

yətlə, məhsuldarlığa, bəzək bitkilərinə vurduğu zərəri qarşılamaq üçün parazit göbələklərə qarşı vaxtında mübarizə aparmaqda istifadə olunur.

Bakterisid müxtəlif zərərli bakteriyaların öldürülməsində istifadə edilən kimyəvi maddədir.

Təbii piretrinlər və sintetik piretroidlər birbirinə oxşar sintetik maddələrdir. Parazitlərə təsiri güclüdür və təsir gücünü uzun müddət saxlaya bilirlər. Mühit şərtlərinə daha davamlıdırlar. Sintetik piretroidlər məməlilər və quşlar üçün güvənli olmağına baxmayaraq, arılar üçün təhlükəlidir. Təbii piretrinlərdən daha dayanıqlısı təsirli permetrin, sipermetrin, deltametrin kimi piretroidlər sintez olunur. Birdən artıq piretroidlər öz aralarında və ya digər birləşmələrdə birləşmə surəti ilə daha sürətlə və daha güclü öldürücü təsirə malik olurlar. Son zamanlarda piretroidlər, əsasən açıq havada və qapalı məkanlarda milçək və ağcaqanadlara qarşı istifadə olunur. Piretroid qrupunun birləşmələrinə Permetrin (bütün izomerlər), Deltametrin, a-sipermetrin, Supermetrin (bütün izomerlər), cyflutrin, Bifentrin, Flumetrin, Cyhalotrin (izomer) və s. aiddir.

Rodentisidlər tort formasında, əsasən rütubətli yerlərə qoyulur. Siçanların su ehtiyacını da qarşılayır, cəzbedici qoxuya malikdir və uzaqdan

yem kimi cəlbedicidir. Mum blok forması açıq havada bütün hava şəraitinə dayanıqlı olur.

Larvasidlər kimyəvi maddə olaraq, əsasən zərərli sürfələrin öldürülməsində istifadə olunur. Bioloji larvasidlərdən ağcaqanadların sürfələrini qoymaq üçün seçdikləri sahələrdə – çay, göl, dərə, bataqlıq, təbii su qaynaqları, sulu otlaq sahələri, kanal və kanal ətrafı yerlərdə istifadə olunur.

Difron 25 SC LAROXYFEN PLUSWT Oxymos 20 EC

Nematisidlər yumru və sap kimi parazit qurdlara qarşı mübarizə aparmaq, həmçinin onları nəzarətdə saxlamaq üçün istifadə olunan preparatlardır. Dünyada ən çox istifadə olunan pestisidlərdəndir. Onlardan torpaq və suda yaşayan mikroskopik parazit qurdları öldürmək üçün istifadə edilir.

Arıların zəhərli bitkilərdən zəhərlənməsi. Bal arıları bal toplamaq üçün ətrafda olan çiçəkli, nektarlı, vərəmumlu, yəni tumurcuqlu bitkilərdən və su qaynaqlarından yararlanırlar. Bəzən bu qaynaqlar arıların həyatı üçün təhlükəli olur. Belə ki, arılar təbii amillərdən, təbii bitkilərdən də zəhərlənə bilirlər. Çiçək tozu və nektarı arılar üçün zəhərli sayılan bitkilər var ki, onlar da *toy çiçəkləri, meşə gülü, qarabaşaq yarması, yalançı qarğıdalı, böyük yemiş, astragalus (gəvən), adi at şabalıdı və s. aiddir.*

Adi at şabalıdı arılar üçün bir o qədər təhlükəli sayılmasa da, balı qəbul edən insanlara öz təsirini göstərir. İstər çiçək tozu (polen) və istərsə də nektar zəhərlənmələri arılarda, əsasən may-avqust aylarında öz təsirini göstərir. Bəsləyici arılara çiçək tozu (polen), əsasən may-avqust aylarında öz təsirini göstərir. Nektar zəhərlənməsi gəlirin çox olduğu vaxtlarda çöl (işçi) arılarında daha çox müşahidə olunur. Qalıntılı şeh balla qışladılan arı ailələrinin sürfələrində də yaza yaxın zəhərlənmə baş verə bilər. Belə ki, gənc arılarda baş verən ishal tədricən digər arılara da siraət edərək nəticədə toplu tələfata gətirib çıxarır.

Arılarda zəhərlənmə əlamətləri. Sağlam bal arıları pətəyin önündə və ya çöllükdə tələf olurlar. Zəhərlənmiş arılar isə pətək daxilində və ya uçuş taxtasının üzərində topa şəklində tələf olurlar. Pətəkdə arıların sayı hər gün azalır. Zəhərlənmədən tələf olan arıların dilləri çölə doğru uzanmış vəziyyətdə görünür və tükləri tökülür. Zəhərlənmənin növündən asılı olaraq arılar rəng dəyişikliyinə də məruz qala bilirlər. İtkilər, ilk növbədə, çöl arılarında müşahidə olunur. Arılarda qeyri-adi fərqli uçuşlar baş verir. Nektar dalınca gedən arılar qayıtdıqda pətəyə birbaşa girmək əvəzinə pətəyin ətrafında bir neçə dəfə dövrə vururlar, lakin yenə də uçuş taxtasına dəqiq eniş edə bilmirlər və hərəkətlərində bacarıqsızlıq müşahidə olunur. Bəzən günəbaxan çiçəyinə qonan zəhərlənmiş arılar orada normadan çox qalırlar və çiçəkdən rahatlıqla qalxa bilmirlər. Bəzi arılar, hətta iflic olduğundan qonduğu yerdən birdəfəlik qalxa bilməyərək tələf olurlar.

Mübarizə tədbirləri. Zəhərlənmədən zərər görən (35-50%) arı ailələri yeni, təmiz pətəyə köçürülməlidirlər. Çərçivələrdə arı azalması baş veribsə, birləşmələr aparılmalı və mübarizə üsulu kimi təbii bəsləyici yemlərdən (maye və quru yemlər) istifadə edilməlidir. Arılara vitamin və mineral tərkibli şəkər şərbəti və ya arı tortu (kek) verilməlidir. Özünü idarə edə bilməyəcəyi səviyyəyə çatan, yəni arı sayı azalan arı ailəsinə dəstək üçün yeni cavan arılar verilməlidir. Arıçılıqda dərmanlama işləri hava şəraiti nəzərə alınmaqla aparılmalıdır.

Nəticə. Arıların zəhərlənməsinin qarşısını almaq üçün tarlalarda dərmanlama işləri aparan fermerlərlə əlaqə qurmaq və təqvim planı hazırlamaq lazımdır. Belə halların təkrar baş verməməsi üçün hüquqi tənzimləmə aktı hazırlanmalıdır. Arılar üçün zərərli sayılan dərman preparatları işlədilməməlidir. Elə dərman preparatları seçilməlidir ki, insan və heyvan sağlamlığına heç bir mənfi təsiri olmasın.

İstifadə edilmiş ədəbiyyat

1. Sultanov R.L., Axundov A.H. Antropogen faktorların bal arılarına qlobal təsiri (insanların həyat fəaliyyətinin təhlükəsizliyi problemləri və onun tədrisi üzrə II Respublika Elmi-praktiki konfransının materialları). Bakı, 1999, s.97-98.

2. Ünal H.H. Arıların zeherlenmeleri: çözüm ve tedbirler. Pendik veteriner kontrol Enstitüsü Müdürlüğü, Pendik-İstanbul, Egitim, 2017.

3. Uluslararası arıçılıq araştırmaları ve sürdürülebilir kursal kalkınma stratejileri konqresi (bildiri kitabı). T.C.Bingöl Üniversitesi, 11-13 ekim, 2019.

N.Najafov

The main factors that cause bee poisoning

Abstract

The article is about the improvement, health and fruitfulness of honey bees. So, the process of giving chemicals to plants without telling bee-owners, during treatment of bees against illness not using chemicals correctly and other segments, cause to poison of them and stop their development. Also, the effect of natural factors on bees was analyzed by the forages of wasps (excretions of some insects) and poisonous plants.

Н.Наджафов

Основные факторы, вызывающие отправление пчел

Аннотация

В статье рассмотрено множество факторов, влияющих на развитие, здоровье и продуктивность медоносных пчел. Так, опрыскивание растений без предупреждения пчеловодов, неправильное использование пчеловодами химических препаратов при лечении против болезней пчел и другие факторы приводят к отправлению пчел, в результате чего пчелы перестают развиваться. Также было проанализировано влияние природных факторов на пчел по кормам ос (экскременты некоторых насекомых) и ядовитым растениям.

RESPUBLİKAMIZDA QOYUNÇULUĞUN İNKİŞAF ETDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Talıb Sadıqov,
ARKTN-nin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun
Abşeron Heyvandarlıq Təcrübə Stansiyasının böyük elmi işçisi
e-mail: talib.sadiqov.47@mail.ru

DOİ: 10.30546/2706-7858.2024.3.224
UOT: 6360822

Xülasə. *Qoyunçuluğun inkişaf etdirilməsində əsas məqsəd əhalinin qoyun ətinə olan tələbatının, sənayenin isə yun xammalına, xəz-dəri və s. məmulatlarına olan tələbatının ödənilməsindən və kəndli-fermer təsərrüfatlarının inkişaf etdirilməsindən ibarətdir. Məqalədə qoyunların bioloji təsərrüfat xüsusiyyətləri, inkişafı, cins tərkibinin yaxşılaşdırılması, yemlənilməsi, bəslənilməsi və saxlanılmasından bəhs edilir.*

Açar sözlər: *qoyun cinsləri, örüş-otlaq sahələri, tezyetişən, iribuynuzlu, cinsi yetişkənlik, süni mayalanma, süngərləmə damazlıq təsərrüfatları.*
Key words: *sheep breeds, grazing areas, breeding farms of early growing, cattle, sexual maturity, artificial insemination, sponging breeding farms.*
Ключевые слова: *породы овец, пастбищные, быстрорастущие, крупный рогатый скот, половозрелость, искусственное осеменение, племенные племенные хозяйства.*

Əhalinin ərzaq təminatında böyük rol oynayan qoyunçuluğun inkişaf etdirilməsi istiqamətində respublikamızın bütün bölgələrində islahatlar aparılır.

Ölkəmizdə seleksiya yolu ilə qiymətli qoyun cinslərinin genefondunun yaradılması əhalinin ərzaq təminatında ətlik-südlük-yunluq istiqamətli olmaqla başlıca yer tutur. Bu baxımdan ölkəmizdə mövcud qoyun cinslərinin məhsuldarlıq göstəriciləri (ət, süd, dəri, piy və yun) yüksək potensiala malikdir.

Qoyunçuluqla məşğul olan elm adamları və mütəxəssislər, ilk növbədə, qoyunların bioloji təsərrüfat xüsusiyyətlərini bilməlidirlər. Qoyunlar xırdabuynuzlu olmaqla cütdırnaqlı, gövşəyən heyvanlar qrupuna daxildir. Onların mədəsi dördkameralı olmaqla işkənbə, torcuq, kitabça və qursaqdan ibarətdir. El arasında torcuğa üsküklük, kitabçaya isə gəlinboğan da deyirlər. Qoyunların bioloji təsərrüfat xüsusiyyətləri plastikliyi, ahəngdarlığı, eləcə də ucuz yem qəbul edən dözümlü və hərəkətli, balavermə və tezyetişkənliyi ilə ali sinir-əsəb fəaliyyətinin zəif inkişaf etməsi ilə fərqlənirlər.

Qoyunların plastikliyi, təbii iqlim şəraitinə tez uyğunlaşması və s. xüsusiyyətlərinə görə bütün növlərinin təbii-iqlim şəraitində bəslənilməsi, eləcə də qoyunları yerli təbii-iqlim şəraitində örüş-otlaq sahələrində olan yemlərlə yemləyərək yetişdirmək mümkündür. Elə qoyun cinsləri də vardır ki, onların yetişdirilməsi üçün səhra, yarımsəhra, dağlıq, dağətəyi və yüksək dağlıq əraziləri daha əlverişli hesab olunur. Qoyunlar sürü

şəklində yetişdirilən heyvan olduğundan onları iri-böyük qrup halında saxlamaq məsləhət görülür. Qoyunların ən üstün cəhəti odur ki, onları hər hansı başqa bir heyvanlarla birlikdə saxlamaq mümkündür. Bu da sahibkara imkan verir ki, heyvan üçün lazım olan binadan səmərəli istifadə edə bilsin. Qoyunların ucuz təbii, örüş-otlaq sahələrində olan yemlərdən səmərəli istifadə etməsi, çöl şəraitində saxlanılması imkan verir ki, onların yemlənilməsi zamanı yemlərə çəkilən xərc tam minimuma endirilsin.

Qoyunlar dözümlü, hərəkətli və çevik olmaları ilə digər kənd təsərrüfatı heyvanlarının istifadə edə bilmədiyi otlardan daha yaxşı istifadə edirlər. Xüsusilə səhra və yarımsəhralıqlardakı otlardan qaba yemləri asanlıqla otlayırlar. Qoyunların dodaqları anatomik quruluşuna görə, incə mütəhərrik, iti olduğu üçün qısa otları, incə yarpaqları, dən yemlərini asanlıqla yeyirlər. Sutka ərzində səhra və yarımsəhra ərazilərdə 18-20 km məsafə qət edərək ac qalmırlar, özləri üçün lazım olan qidaları tapıb yeyirlər. Bundan əlavə, qoyunlar iribuynuzlu mal-qara və atların gedə bilmədiyi ərazilərdə, dağların yamaclarında, uçurumlu, sıldırımlı yerlərdə rahat otlayırlar. Sahələrdə, örüşlərdə, qışlaq və yaylaqlarda bitən 600 növ ot örtüyünün 82 növünü atlar, 56 növünü qaramal, 570 növünü isə qoyunlar otlayıb yeyirlər. Qoyunlar 1 kq diri çəki artımı üçün qaramala nisbətən çox az yem vahidi istifadə edirlər. Qoyunların ayaqları, dırnaqları və oynaqları möhkəm olduğu üçün quru səhralıqlarda, yarımsəhralıqlarda və dağların sıldırımlı, daşlı-qayalı, uçurumlu yerlərində rahat hərəkət edirlər. Qoyunlar yaylağa və qışlağa köç edərkən gün ərzində orta hesabla 50-60 km yol qət edirlər.

Məlumdur ki, qoyunlar çox isti, yaş-nəmişli örüş-otlaq sahələrində və nəmliyi çox olan ərazilərdə rahat olmurlar. Belə ki, qoyunların yun örtüyü yaxşı inkişaf etdiyindən onlar soyuq iqlim şəraitində özlərini pis hiss etmir, hətta qışda qarı eşməklə onun altında olan otları yeyirlər. Qoyunlar tezyetişən heyvandır, onlar 5-6 aylıq olanda cinsi yetişkənliyə çatırlar. Lakin toğluların ilk cütləşməsi damazlıq olmayan təsərrüfatlarda qaba və yarımqabayunlu qoyun cinslərində 12 aylığında, yəni 1 yaşında daha məqsədəuyğun hesab olunur. Belə ki, tez cütləşdikdə toğluların boy və inkişafı ləngiyir, normal getmir, bu da qoyunun boyunun balaca, diri çəkisinin isə az olmasına gətirib çıxarır. Lakin zərif və yarımzərifyunlu qoyun cinslərinin toğlularının 18 aylığında cütləşməyə buraxılması daha məqsədəuyğun hesab olunur.

Qoyun əti qidalılıq dəyərinə görə çox qiymətlidir. Qoyun ətinin ən dəyərli, qiymətli xüsusiyyətlərindən biri də onun tərkibində xolestrinin az olmasıdır. Əgər donuz ətinin (piyinin) 100 qramında 74,5-126 mqr, mal ətinin 100 qramında 75 mqr xolestrin olduğu halda, qoyun ətinin 100 qramında 29 mqr xolestrin vardır. Qoyun ətinin tərkibində zülalın miqdarı mal ətinin tərkibindəki qədərdir. Quyruqlu, yağlıquyruq qoyunların orqanizmində çoxlu miqdarda piy olduğu üçün qeyri-normal yemləmə-bəsləmə zamanı onları aclıq və susuzluğa qarşı davamlı edir. Qoyunların normal yaşama həyatının müddəti 12-14 ildir. Lakin qoyunlar 8-9 yaşdan sonra qoca hesab olunur. İribuynuzlu qaramal 18-20 il, atlar isə 30 ilə qədər yaşayır. Quzular 6-7 aylığında tam yun örtüyünə malik olurlar. Ayrı-ayrı qoyun cinslərinin konstitusiya tipinə görə ən yaxşısı möhkəm konstitusiya tipinə malik olanlardır. Möhkəm konstitusiya tipinə malik olan qoyun cinsləri sağlam olmaqla xəstəliklərə qarşı dözümlü olur, sümükləri möhkəm, məhsuldarlığı isə yüksək olur. İncə konstitusiya tipinə malik olan qoyun cinslərinin sümükləri isə incə və zərif olur. Belə qoyunların bədəninin eksteryer quruluşu da müxtəlif olur. Qoyunlar seçilərkən onların əsəb sistemi, histoloji və fizioloji göstəriciləri də nəzərə alınır. Qoyunların mədə-bağırsaq sistemi qaramalın mədə-bağırsaq sisteminə nisbətən müqayisədə həcm tutumu və yetişkənliyi, həzmetmə qabiliyyəti daha yaxşı inkişaf etmişdir. Belə ki, heyvanların bağırsağının uzunluğu onların bədəninin, yəni cəmdəyinin uzunluğuna nisbətində qoyunlarda 1:27-29, iribuynuzlu qaramalda 1:20-22, donuzlarda 1:12, atlarda isə 1:15 nisbətində olur.

Qoyunlar qış vaxtı yataqda saxlanılarkən yatağın istiliyi təxminən $+8^0$C temperaturda olmalıdır. Ona görə ki, çox isti olanda qoyunlar tərləyir, örüşə çıxarılarkən onlara soyuq olur və nəticədə qoyunlar xəstələnir. Məhz bu səbəbdən də qış mövsümündə yataqlarda daima temperatura nəzarət olunmalıdır. Qoyunların yataqda saxlanılma yeri də sıx olmamalıdır. Normal ha-

valanma və saxlama qaydalarına əməl olunmalıdır. Romanov qoyunlarından hər il orta hesabla hər 100 baş ana qoyundan 300 baş normal quzu alınır. Q.A.Smirnov və başqalarının tədqiqatlarında göstərilir ki, Romanov qoyunlarından 1 ildə 2 dəfə və yaxud 2 ildə 3 dəfə doğumun keçirilməsi mümkündür.

Apardığımız tədqiqatlar göstərir ki, Qarabağ qoyununun populyasiyaları olan Qaradolaq və Mil-Qarabağ qoyunlarından da yaxşı yemləmə, bəsləmə və saxlama şəraitində hər 100 baş ana qoyundan 140-150 baş quzu alınması qeydə alınmışdır. Bundan əlavə, qoyunların mayalanması zamanı süngərləmə üsulundan istifadə edərkən əkiz bala almanın sayı çox olur. Eyni zamanda 2 ildə 3 dəfə bala almaq da mümkün hesab olunur. Məlumat üçün onu da bildirək ki, Azərbaycanda yetişdirilən qoyun cinslərinin əksəriyyəti Balbas, Abşeron və Mil-Qarabağ qoyun cinsləri müstəsna olmaqla, qalan cinslərin hamısı qabayunludurlar. Yalnız bu 3 cins yarımqaba yunludur. Zərif və yarımzərifyunlu qoyun cinsləri isə yoxdur. Onu da qeyd edək ki, qoyunçuluğun əsas gəlir mənbəyi yundur. Lakin təəssüflər olsun ki, sovet hökuməti dağıldıqdan sonra Azərbaycanda yun öz dəyərini tamamilə itirmişdir. Qoyunçu fermerlər yunun alıcısı olmadığı üçün onu sata bilmirdilər, bu da qoyunçuluğun gəlirini xeyli azaltmışdır.

Alimlərimizin apardığı çoxillik elmi tədqiqatların, təsərrüfat şəraitində aparılan damazlıq-seleksiya işlərinin nəticəsi olaraq ənənəvi ekstremal təbii iqlim və örüş-otlaq şəraitində yüksək məhsul verən, əcdadı məlum olan qoçlardan törəmiş yeni (2011) yağlıquyruq, tezyetişən, yarımqabayunlu Abşeron və Mil-Qarabağ cinsli qoyunların bölgələrdə böyük sürü massivləri yaradılmışdır. Bu qoyun cinsləri yüksək genetik imkana malik olmaqla, texnoloji tələbatlara tam cavab verir. Damazlıq-seleksiya üsullarının tətbiqi ilə aborigen və gətirilmiş qoyunlardan alınan yeni yüksək məhsuldar, yerli şəraitə uyğunlaşmış cinslərin yaradılması, onların ətinin ontogenezdə formalaşması deməkdir. Beləliklə, respublikamızda yetişdirilən heyvanların məhsuldarlığının artırılması qarşıda duran əsas məsələ kimi qoyulmuşdur.

Xalqımızın gündən-günə artan maddi tələbatının ödənilməsində kənd təsərrüfatı mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq dövlətimiz kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirir. Belə ki, kənd təsərrüfatının inkişafı xalqımızın rifah halının yaxşılaşdırılmasına xidmət edir. Bu barədə Prezident İlham Əliyev də mütəmadi olaraq çıxışlarında lazımi göstərişlərini verir. Ölkəmizdə əhalinin ərzaqla təmin edilməsində əsas bitkiçilik məhsullarından taxıl, tərəvəz, bostan məhsullarının, heyvandarlıq məhsullarından isə ən əsası ət, süd və s. məhsullarının artırılmasıdır. Respublikamızda əhalinin qoyun ətinə olan tələbatını ödəmək üçün qoyunçuluğun inkişaf etdirilməsinə, cins tərkibinin yaxşılaşdırılmasına, baş sayının artırılmasına, eləcə də qoyunların yemlənməsinə, bəslənilməsinə və saxlanılmasına xüsusi fikir verilməlidir. Apardığımız tədqiqatlar nəticəsində qoyunların yemlənilməsi, bəslənilməsi və saxlanılması, xüsusilə də yaz, yay və payız aylarında gecələr otarılması zoobaytar qaydalarına uyğun olaraq təşkil olunduqda, eləcə də qoyunlar üçün kifayət qədər lazımi örüş-otlaq sahələri və tələbata uyğun yem bazası olduqda bu zaman qoyunlardan istədiyimiz məhsulu əldə etmək mümkün olur.

Bildiyimiz kimi, Azərbaycan ərazisində qoyunlar yaz, yay, payız, eləcə də qışlama dövründə, əsasən örüş-otlaq sahələrində otarılır. Lakin qışlama dövründə qoyunlara tələbata uyğun olaraq gündəlik qüvvəli, qaba və sulu-şirəli yemlərin verilməsi mütləq lazımdır. Əgər qoyunlar qışlama dövründə aclıq keçirərsə, bu zaman istədiyimiz məhsulu əldə etmək mümkün olmayacaq. Bundan əlavə, qoyunlar aclıq keçirdikdə, xüsusilə də boğazlıq və bala əmizdirmə zamanı yun öz inkişafını dayandırır, beləliklə də yunda qırılmalar əmələ gəlir ki, bu yunlar da nöqsanlı I və II qrup yun kimi qəbul olunur. Odur ki, belə yunlar nöqsanlı olduğu üçün toxuculuq sənayesi üçün də əhəmiyyətli hesab olunmur və normal yuna nisbətən 15-20% aşağı qiymətə satılır. Bununla yanaşı, qoyunlar qış mövsümündə aclıq keçirdikdə, xüsusilə boğazlıq müddətində quzular ana bətnində normal inkişaf etmir, doğulan quzular çox zəif və arıq olur, boy və inkişafı lənginir. Hətta ölü doğulanlar da çox olur. Beləliklə də qoyunlardan istədiyimiz məhsulu əldə edə bilmirik. Odur ki, daima qoyunların yemlənilməsinə, bəslənilməsinə və saxlanılmasına xüsusi

diqqət yetirməliyik.

Qoyunları dağlıq və dağətəyi ərazilərdə otararkən səhər vaxtı günortaya qədər güney ərazilərdə, günortadan sonra isə quzey ərazilərdə otarılması məsləhət görülür. Bundan başqa, qoyun yataqlarını inşa edərkən mütləq dağlıq və dağətəyi ərazilərdə dağın güney tərəfində, pəncərələri isə gün çıxana tərəf, aran, yəni düzənlik ərazilərdə inşa edərkən ərazinin ən hündür yerində, qapı və pəncərələri isə gün çıxana tərəf olmaqla inşa edilməsi məsləhət görülür. Məlumdur ki, Azərbaycanda qoyunların qapalı və yaxud yarımqapalı şəraitdə saxlanılması mümkündür. Bu şərtlə ki, qoyunlar tələbata uyğun faydalı yemlərlə tam təmin olunsun. Buna baxmayaraq, qoyunçuluqla məşğul olan fermerlərin kifayət qədər yem bazası, eləcə də kifayət qədər örüş-otlaq sahələri yoxdur. Qoyunçu fermerlər qoyunların saxlanılması üçün çox çətinliklərlə üzləşirlər. Atalar yaxşı demişdir: "Qoyununu yaz otar, yaz otarmadın payız otar, payız otarmadın yüz otar xeyri yoxdur". Mütləq qoyunların saxlanılması üçün kifayət qədər örüş-otlaq sahələri olmalıdır. Bundan əlavə, örüş-otlaq sahələrindən yun zibilləyici kol-kos, pıtraq və s. yabancı-zərərli alaq otları yığılıb toplanaraq mütləq yandırılmalıdır. Ona görə ki, onların toxumları yenidən bitir, inkişaf edir və gələcəkdə qoyunların yununu təkrar zibilləyir. Eyni zamanda zərərli alaq otları digər yem üçün yararlı otların inkişafına da mənfi təsir göstərir.

Apardığımız tədqiqatların nəticələri göstərir ki, əhalinin qoyunçuluq məhsullarına olan tələbatını ödəmək üçün ilin fəsillərindən asılı olmayaraq qoyunlar xüsusilə yaz, yay və payız aylarında isti havalarda mütləq gecələr otarılmalıdır. Qoyunları dağ və dağətəyi örüş-otlaq sahələrində otararkən mütləq gündəlik onlara duz verilməlidir. Aran bölgələrində bitən otların tərkibində duz çox olduğu üçün qoyunların duza tələbatı az olur. Qoyunların duza olan tələbatı ödənilmədikdə qoyunlar arasında qısırlıq faizi çox olur, onların kökəlməsi normal getmir, eyni zamanda ət üçün kəsdikdə ətin dadı və keyfiyyəti aşağı olur, dərinin soyulması da çətinləşir, dəri ayrı-ayrı hissələrindən cırılır və belə dərilər də keyfiyyətsiz hesab olunur.

Yay aylarında taxıl biçildikdən 5-6 gün sonra, eləcə də tərəvəz-bostan məhsulları yığıldıqdan sonra, tütün əkilən ərazilərdə, bölgələrdə, xüsusilə Şəki-Zaqatala zonasında tütün yığıldıqdan sonra qoyunların bu ərazilərdə otarılması çox effektiv olur. Belə ki, taxıl biçildikdən sonra kövşənliklərdə, bostan-tərəvəz və tütün sahələrində vitaminlə zəngin olan otlar, xüsusilə sarmaşıq və s. yetişmiş otlar çox olduğu üçün həmin otların tərkibində kifayət qədər mikro və makro elementlər, eyni zamanda müxtəlif vitaminlər, eləcə də orqanizm üçün lazım olan digər qida maddələri də çox olur. Belə ərazilərdə qoyunlar otarılarkən normal kökəlir, inkişaf edir, həvəsə gəlir və mayalanırlar, əkiz doğulan balalarının miqdarı da çox olur. Bundan əlavə, tütün sahələrində otarılan qoyunlarda heliment – bağırsaq qurdları, fassilyoz, diktakolyoz və s. bu kimi müxtəlif qurd xəstəlikləri də olmur. Yadda saxlamaq lazımdır ki, qoyunlar saxlanıldığı yerdən və ilin fəsillərindən asılı olmayaraq hər gecə sidiyə çıxarılmalıdır. Respublikanın bütün qoyunçuluq fermalarında ət istehsalını artırmaq məqsədi ilə qoyunların əkiz balavermə polestrikliyini də artırmaq və hər 100 baş ana qoyundan minimum 140-150 baş quzu alınmasını həyata keçirmək lazımdır. Qoyunların əkiz bala verməsi rus alimləri V.V. Abonyev, N.İ. Kravçenko və başqaları tərəfindən uzun illər tədqiqatlar aparılaraq öyrənilmişdir. V.A.Dravnitse (1973) apardığı tədqiqatlar zamanı müəyyən etmişdir ki, Latqaalskoy Təcrübə Stansiyasında Latviya tündbaşlı qoyunlarından döl kompaniyası zamanı yanvar ayında hər 100 baş ana qoyundan 137 baş, müvafiq olaraq fevral ayında 130 və mart ayında isə 116 baş quzu doğulduğunu qeydə almışdır. Bu da Latviyada örüş-otlaq sahələrinin iyun-avqust aylarında qoyunların yemlə təminatının ən yüksək səviyyədə olmasını göstərir. Yayın qurtaracağında, payız gələrkən örüş-otlaq sahələrində yemin miqdarı azalır. Y.A.İvanova və A.S.Eroxinanın tədqiqatlarına görə ən çox əkiz balavermə oktyabr ayında olur. Belə ki, bu vaxt qoyunlar örüş-otlaq sahələrində kifayət qədər yüksəkkeyfiyyətli yemlərlə qidalanırlar.

Tədqiqat apardığımız Beyləqan rayonu ərazisində yarımqabayunlu, tezyetişən, yağlıquyruq, ətlik, yunluq və südlük istiqamətli yeni yaradılmış (2011) Mil-Qarabağ qoyun cinsi "Mil-Qarabağ" bölgəsinin yayı çox isti olan Haramı və Mil-Qarabağ düzünün isti ekstremal iqlim şə-

raitinə çox yaxşı uyğunlaşmışdır. "Mil-Qarabağ" və "Qaradolaq" qoyun cinsləri tez yetişkənliyi və yüksək məhsuldarlığı ilə digər qoyun cinslərindən fərqlənirlər. Bu cinslərin əkiz bala verməsi də digər yerli qoyun cinsləri ilə müqayisədə çox üstünlük təşkil edir. Apardığımız tədqiqatlardan məlum olur ki, yaxşı yemləmə, bəsləmə və saxlama şəraitində "Mil-Qarabağ" və "Qaradolaq" cinsli qoyunların hər 100 baş ana qoyundan 140-150 baş quzu verməsi mümkündür. Rus alimlərinin, eləcə də apardığımız tədqiqatlar göstərir ki, qoyunların əkiz bala verməsi 40-60% onların yemlənilməsindən, bəslənilməsindən və saxlanılmasından, 10-30% cins tərkibindən, 10% isə digər səbəblərdən asılıdır. "Mil-Qarabağ" və "Qaradolaq" cinsli qoyunların ilk qarına, yəni birinci doğuşda əkiz bala verməsi 10%, müvafiq olaraq ikinci doğuşda 25-30%, üçüncü doğuşda 30-35%, dördüncü doğuşda isə 35-40% və daha çox əkiz bala verməsi müşahidə olunmuşdur. Gələcəkdə əkiz doğulmuş dişi quzuların hesabına təmir şişək sürüləri, eləcə də bu sürülərin hesabına da ana qoyun sürülərinin yaradılması günün vacib məsələlərindən biridir. Bununla yanaşı, əkiz doğulmuş erkək quzuların hesabına törədici qoç sürülərinin yaradılması da daha məqsədəuyğun hesab olunur. Bu yolla da gələcəkdə ayrıca əkiz doğan qoyunların sürü massivlərini yaratmaq lazım gələcək.

Qoyunçuluq məhsullarının artırılması üçün sənaye üsuluna yeni texnologiyalar əsasında inkişaf etdirilməsinə keçmək lazımdır. Bunun üçün ilk növbədə, hər 100 baş ana qoyundan daha çox bala alınmasını təşkil etmək, döl kompaniyasını qısaltmaq, yəni təxminən 30-50 gün ərzində başa çatdırmaq, quzuların anasından tez ayrılmasını və erkən yetişdirmə üsullarından istifadə edilməsi kimi məsələlər nəzərə alınmalıdır. Bu zaman bütün mövcud üsul və metodlardan istifadə etmək lazımdır. Məsələn, quzuların saxlanılması və sıxlığının mövsümiliyini aradan qaldırmaq üçün aşağıdakı genetik üsullardan istifadə etmək lazımdır:

– *vaxtından əvvəl yetişən və cinsi aktivliyin açıq mövsümiliyi olmayan uyğun cinslərin seçilməsi və belə cinslərin yerli qoyun cinsləri ilə cütləşdirilməsi;*

– *zootexniki, seleksiya, balanslaşdırılmış qidalanma;*

– *biotexniki-qonadotropinlərin, prostaqlandinlərin köməyi ilə (ovun)-mayalanmanın induksiyası və sinxronizasiyası;*

– *texnoloji-işıq rejimlərinin dəyişdirilməsi yolu ilə çoxalma – həvəsə gəlmə, mayalanma funksiyasının tənzimlənməsi, quzuların erkən süddən ayrılması və yüksək enerjili – kalorili yemlərdən istifadə etməklə intensiv yetişdirilməsi (bunun sayəsində quzuların 8-10 aylığında cinsi yetişkənliyə çatdırılması).*

Qoyunçuluq məhsullarının, xüsusilə də ət məhsullarının istehsalı, əsasən sürüdə ana qoyunların baş sayı və nisbəti ilə müəyyən edilir. Sürüdə ana qoyunların baş sayının – nisbətinin artırılması yolu ilə hər qoyunbaşına görə ət istehsalı əhəmiyyətli dərəcədə artır, eyni zamanda quzu ətinin nisbətinin artması hesabına ət məhsullarının keyfiyyəti də xeyli yaxşılaşır. Qoyunçuluq sahəsinin intensiv yetişdirilməsi, qoyunların bioloji təsərrüfat xüsusiyyətləri və imkanları ilboyu cavan quzu əti istehsalı texnologiyasının işlənilib hazırlanması və tətbiqi üçün zəmin yaradır ki, bu da binalardan, yemlərdən və heyvanlardan istifadənin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər. Bu, qoyunçuluq məhsullarının istehsalını artırmağa, əmək məhsuldarlığını yüksəltməyə və sənayeyə investisiyaların qaytarılmasını sürətləndirməyə imkan verir.

Xarici ölkələrdə qoyun əti istehsalı, əsasən intensiv yetişdirmə, kökəltmə və quzuların 8-9 aylığında kəsimi üzrə ixtisaslaşdırılmışdır. Aparıcı quzu əti istehsalçıları – Yeni Zelandiyada, Avstraliyada, İngiltərədə, Fransada, ABŞ-da və Bolqarıstanda kökəldilmiş quzular kəsilərək dadı və qidalılıq xüsusiyyətləri ilə seçilən yüksəkkeyfiyyətli quzu əti əldə edilir. Belə ətlərə dünya bazarlarında böyük tələbat vardır.

Hazırkı dövrdə qoyunların otarılması iqtisadi cəhətdən əsaslandırılmışdır. Lakin gələcəkdə qoyunların otarılması, xüsusilə də kənd təsərrüfatının yüksək intensiv inkişaf etmiş ərazilərdə qoyunçuluğun sənaye əsasında inkişaf etdirilməsinə çevrilə bilər. Bunu sənayenin yüksək intensiv inkişaf yoluna əvvəllər qədəm qoymuş heyvandarlığın digər sahələrinin inkişafı təcrübəsi də təsdiq edir. Heç kimə sirr deyil ki, donuzlar, inəklər, ev quşları və s. heyvanlar da bir vaxtlar örüş-otlaq sahələrində saxlanılırdı və ha-

zırda bir qayda olaraq qapalı tövlə şəraitində saxlanılır və yemləndirilir. Bu istehsal prosesində getdikcə əkin sahələrinin – tarlaların emalında bir növ halqa rolunu oynayır və öz məhsullarını heyvandarlıq məhsullarına çevirirlər. Əkinçiliyin intensiv inkişaf etdiyi ərazilərdə örüş-otlaq sahələrindən yalnız yüksək məhsuldar elit heyvanlar, xüsusilə ana heyvanların mayalanmadan əvvəl və mayalanma vaxtı istifadəsi üçün nəzərdə tutulur.

Hazırda ölkəmizdə ixtisaslaşmış və mexanikləşdirilmiş iri qoyunçuluq təsərrüfatları yoxdur. Mövcud olan qoyun yataqlarının əksəriyyəti sovet dönəmində tikilmişdir ki, bunların da çoxu optimal parametrlərə uyğun deyildir. Bu problemləri həll etmək üçün tikintidə qoyunların bioloji təsərrüfat xüsusiyyətləri nəzərə alınmaqla orijinal planlaşdırma və layihələndirmə üsullarından, müvafiq tikinti materiallarından istifadə etməklə qoyunçuluq komplekslərinə xidmət etmək üçün xüsusi maşın və mexanizmlər sisteminin yaradılması lazımdır. Sənaye və kənd təsərrüfatında elmi-texniki tərəqqinin nailiyyətlərini nəzərə almaqla mövcud texnologiyalar daim təkmilləşdirilməlidir. Belə ki, qoyunların yetişdirilməsi üzrə intensiv texnologiyadan istifadə, müasir qoyunçuluğun inkişafına, eləcə də taxıl istehsalı (əkinçilik) üçün yararsız olan ərazilərdə yeni iş yerlərinin yaradılmasına kömək edəcəkdir.

Qoyun yataqları su təchizatı ilə tam təmin olunmalıdır. Həmçinin bütün yataqların ərazisində, yaxınlığında yonca, arpa, qarğıdalı, xəsilliklər və s. kifayət qədər yem bitkilərinin əkilməsi və aqrotexniki qaydada qulluq edilməsi, eləcə də yüksək məhsulun əldə edilməsi vacib məsələdir. Bununla yanaşı, respublikamızın aran bölgələrində suvarılan əkin sahələrində bir ildə iki dəfə məhsul istehsal olunmasına nail olmaq lazımdır. Belə ki, taxıl biçildikdən sonra onun yerinə digər kənd təsərrüfatı bitkilərinin, xüsusilə qarğıdalı, günəbaxan, müxtəlif tərəvəz və bostan bitkilərinin əkilməsi vacibdir. Heyvandarlığın, eləcə də qoyunçuluğun intensivləşdirilməsinin mühüm fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, burada heyvan orqanizmlərinin biologji-təsərrüfat xüsusiyyətlərinə malik olan yüksək məhsuldar heyvanların yetişdirilməsi ilə məşğul olmaq lazımdır.

Süd məhsuldarlığı. Qoyun südü çox keyfiyyətlidir. Qoyun südündən hazırlanmış pendir çox keyfiyyətli və dadlı olur. Qoyun südü əvəzedilməz keyfiyyətə malikdir, onun tərkibində 18-20% quru maddə, laktasiya dövründən asılı olaraq yağlılığı 7-9% arasında olur. Qoyun südü insan orqanizmi tərəfindən yaxşı mənimsənilməsi ilə fərqlənir. 1 kq yumşaq pendirin hazırlanması üçün 4,0-4,5 l, bərk pendirin hazırlanması üçün isə 6,0-7,0 l qoyun südü tələb olunur.

Xəz-dəri istehsalı üçün dəridə yunun uzunluğu 3 sm-dən çox olduqda yunlu xəz-dəri, 1-3 sm olduqda yarımyunlu xəz-dəri və 0,5-1,0 sm olduqda isə azyunlu xəz-dəri hesab olunur. Şuba istehsalı üçün ən keyfiyyətli, yaxşı, əvəzedilməz dəri Romanov cinsli qoyunların dərisi hesab olunur.

Cütləşmə, quzulama (döl kompaniyası, balavermə) və cavanların yetişdirilməsi. Quzular cinsi yetişkənliyə 7-8 aylığında çatırlar. Lakin onların böyüməsi, boy və inkişafı tam başa çatmadığı üçün onların bu yaşda cinsi yetişkənliyə çatana kimi cütləşməyə – mayalanmaya buraxılması məsləhət görülmür. Dişi toğlular erkən cütləşib mayalandıqda onların inkişafı normal getmir, gecikir. Çünki qidalı maddələr, əsasən dölün-balanın formalaşmasına, quzu doğulduqdan sonra isə südün əmələ gəlməsinə sərf olunur. Digər tərəfdən toğluların həddindən artıq gec cütləşməsi də zərərlidir. Belə ki, dölün inkişafına sərf olunacaq qidalı maddələr piy qatının əmələ gəlməsinə sərf olunur ki, bu da gələcəkdə qoyunların balavermə fəaliyyətinə mənfi təsir göstərir. Xüsusən şişəklərdə qısırlıq olduqda bu heyvanlarda piylənmə, güclü kökəlmə gedir ki, belə heyvanlar ərəmik adlanır. Odur ki, əsasən qaba və yarımqabayunlu qoyun cinslərinin toğlularının 12 aylığında, zərif və yarımzəifyunlu qoyun cinslərinin toğlularının isə 18 aylığında cütləşməyə buraxılması daha məqsədəuyğun hesab olunur.

Cütləşmə mövsümü. Qoyunlar bir qayda olaraq yalnız ilin müəyyən bir vaxtında həvəsə gəlirlər və cütləşərək mayalanırlar. Qoyunçuluqda döl kompaniyasının təşkilinin aparılması çox çətin, mürəkkəb və məsuliyyətli işlərdən biridir. Qoyunların cütləşmə dövründən, mayalan-

ma vaxtından asılı olaraq onların doğum kompaniyası da müxtəlif aylarda, yəni payız, qış və yaz vaxtına düşür. Ümumiyyətlə, Azərbaycanda döl kompaniyası payız və yaz döl kompaniyalarına bölünür. Lakin qış dövründə də döl kompaniyası aparılır. İstər payız, istərsə də yaz döl kompaniyalarının həm üstünlükləri və həm də çatışmazlıqları vardır. Payız, qış dölünün (quzulamanın) yaz döl kompaniyasına nisbətən aşağıdakı üstünlükləri vardır. Cütləşmə iyul, avqust və sentyabr aylarında aparıldığı üçün qoyunlar bütün lazım olan qida maddələrini örüş-otlaq sahələrində otarılma zamanı qəbul edirlər. Ona görə də qoyunlar normal köklükdə olur, həvəsə gəlir, mayalanırlar və mayalanmış döl yaxşı inkişaf edir. Bu dövrdə ana qoyunlar yüksək mayalı olmaqla yanaşı, həm də məhsuldar olurlar, daha çox və keyfiyyətli bala verirlər. Alınan quzular yazda örüş-otlaq sahələrindən daha səmərəli istifadə edirlər. Payız və qış vaxtı doğulan quzular yazda örüş-otlaq sahələrinə çıxarılan vaxtlarda artıq vitaminli yaşıl otlardan yeyir, kökəlir, tez böyüyür və inkişaf edirlər. Yazda doğulan quzular isə körpə olduqları üçün yaz örüş-otlaq sahələrindən səmərəli istifadə edə bilmirlər. Təbii iqlim şəraitindən asılı olaraq dəyişkən havalarda quzular tez xəstələnirlər. Nəticədə onlar örüş-otlaq sahələrində yaxşı qidalana bilmədikləri üçün arıq olur və normal inkişaf edə bilmirlər. Qoyunlar boğazlıq dövründə normal və keyfiyyətli yemlərlə yemləndirilməlidir ki, doğulan quzular da sağlam və gümrah olsunlar.

Payızda oktyabr ayının 1-dək bütün yataqlar, quzu küzləri, çoban evləri və digər bütün yardımçı tikililər qışlamaya tam hazır olmalıdır. Heyvanlar saxlanılan binalarda nəmliyin və ikitərəfli hava cərəyanının əmələ gəlməsinə yol verilməməlidir. Döl kompaniyası, doğum zamanı binada temperatur 15-17^{0}C səviyyədə, eləcə də doğum şöbəsi, döl aparılan yer geniş və işıqlı olmalıdır. Doğum şöbəsinin darısqal, darıxdırıcı və qaranlıq olması heyvanların ölümünə səbəb olur. Döl kompaniyasının, doğumun müvəffəqiyyətlə keçirilməsi üçün qoyunçuluq ferması lazımi inventar, avadanlıq və əlavə işçi qüvvəsi ilə tam təmin olunmalıdır. Doğum zamanı doğacaq qoyunlar çobanların nəzarəti altında olmalıdır. Normal doğum zamanı içi su ilə dolu cift gəlir, sonra o partlayır, arxasınca quzunun qabaq ayaqları, sonra isə başı görünür. Əgər ana sağlamdırsa, eyni zamanda doğuş normaldırsa, doğum 40 dəqiqə ərzində tamamlanır və sağlam quzu doğulur. Əgər döl-bala böyük olarsa, doğuş normal olmazsa, mütləq qoyunun doğumuna baytar yardımı göstərmək lazımdır.

Əkiz balaalma. Mil-Qarabağ bölgəsində yetişdirilən "Mil-Qarabağ" cinsli qoyunların məhsuldarlığının yüksəldilməsi, əkiz bala verən ana qoyunların baş sayının artırılması, eləcə də ayrıca əkiz doğan qoyun sürülərinin yaradılması üzərində tədqiqat işlərinin aparılması günün vacib məsələlərindən biri olaraq qalır.

Elmi-tədqiqat işi apardığım yeni yaradılmış "Mil-Qarabağ" qoyun cinsi (2011) üzərində 2011-ci ildən Beyləqan rayonunun Dədəş və Vaqif Özəl Damazlıq Qoyunçuluq fermalarında Mil-Qarabağ bölgəsində bu cinsin kifayət qədər sürü massivləri yaradılıb. Hazırda tədqiqat işləri mövcud metodika, iş proqramı və təqvim planına uyğun olaraq aparılır.

Mil-Qarabağ qoyunu. Beyləqan rayonu, İkinci Aşıqlı kəndi

Tədqiqat apardığımız fermaların hər birindən 40 baş təcrübə və 40 baş da nəzarət qrupları üzrə qoyunlar götürmüşük. Burada əsas məqsəd qoyunların əkiz bala verməsi müqayisəli şəkildə göstərilir. "Mil-Qarabağ" cinsli qoyunlar balavermə məhsuldarlığına görə digər yerli qoyun cinslərindən fərqlənirlər. Belə ki, bu qoyunlardan yaxşı yemləmə, bəsləmə və saxlama şəraitində orta hesabla il ərzində hər 100 baş ana qoyundan 140-150 baş quzu alınması qeydə alınmışdır. Bundan əlavə, bəzi hallarda bu qoyunların 2 ildə 3 dəfə bala verməsi halları da müşahidə olunmuşdur.

Cədvəl 1.

"Mil-Qarabağ" cinsli qoyunların əkiz balavermə göstəriciləri (başla)

Qoyunların baş sayı	2020		2021		2022		2023	
	Cəmi quzu alınıb	Hər 100 baş qoyundan quzu alınıb	Cəmi quzu alınıb	Hər 100 baş qoyundan quzu alınıb	Cəmi quzu alınıb	Hər 100 baş qoyundan quzu alınıb	Cəmi quzu alınıb	Hər 100 baş qoyunda quzu alınıb
Dədəşin fermasında								
Təcrübə qrupu 40	58	145	60	150	60	150	62	155
Nəzarət qrupu 40	54	135	58	145	58	145	58	145
Vaqifin fermasında								
Təcrübə qrupu 40	55	137	59	147	58	145	60	150
Nəzarət qrupu 40	51	128	56	140	57	142	59	147

Süngərləmə üsulu. Qoyunçuluqda əkiz bala almaq üçün xüsusilə damazlıq təsərrüfatlarda təcrübə heyvanlarında istər süni mayalama işinin aparılması nəzərdə tutulduqda, istərsə də təbii cütləşmə zamanı süngərləmə üsulundan istifadə etmək məqsədəuyğun hesab olunur. Belə ki, bu mütərəqqi üsullardan biri olmaqla qoyunçuluqda süngərləmə üsulundan istifadə etdikdə qoyunlardan əkiz bala alınması çoxalır, eyni zamanda döl kompaniyası qısa müddət ərzində həyata keçirilir. Bu proses süngərə hopdurulmuş progesteron hormonunun qoyunun balalıq yoluna yerləşdirilərək təxminən 5-7 gün saxlanılması ilə həyata keçirilir. Sonra isə qoyunlar həvəsə gəlir və mayalanır, mayalanmış qoyunların çoxu əkiz bala verir. Süngərləmə üsulundan əsasən elmi-tədqiqat işləri aparılarkən istifadə olunması məsləhətdir.

Quzuların gündəlik diri çəki artımı. Apardığımız tədqiqatlar onu göstərir ki, quzuların yemlənilməsindən, bəslənilməsindən, eləcə də saxlanılmasından asılı olaraq onların kökəlmələri də müxtəlif olur ki, bununla əlaqədar gündəlik diri çəki artımı da müxtəlif olur. Odur ki, quzuların yemlənilməsi, bəslənilməsi və saxlanılması zoobaytar qaydalarına uyğun olaraq düzgün təşkil olunduqda onların gündəlik diri çəki artımı da yüksək olur. Bununla belə, quzuların gündəlik diri çəki artımı onların doğumundan, yəni onların payız, qış və yaz dölü zamanı doğulmasından da asılıdır. Quzuların diri çəki artımı üzrə payız və yaz dölü zamanı doğulan quzuların diri çəki artımında çox olmasa da müəyyən qədər fərq vardır.

Ölkəmizdə əhalinin qoyun ətinə olan tələbatının ödənilməsində əkiz doğulan quzuların əsas üstünlükləri aşağıdakılardır:

– Tək doğulan erkək quzu 6-8 aylığında təxminən 35-40 kq diri çəkiyə çatır və kəsilərkən təxminən 18-20 kq təmiz ət verir.

– Əkiz doğulan erkək quzular 6-8 aylığında 30-35 kq diri çəkiyə çatır və kəsilərkən 15-17 kq təmiz ət verir.

– Nəzərə almaq lazımdır ki, tək doğulan 1 baş quzu əkiz doğulan 2 baş quzu ilə müqayisə olunur. Belə ki, tək doğulan 1 baş quzu 18 kq ət verirsə, əkiz doğulan 2 baş quzu 15+15=30 kq təmiz ət verir ki, burada da fərq (30-18=12) 12 kq ət hesabı ilə əkiz doğulan quzuların xeyrinə olur.

– Əgər hər 100 baş ana qoyundan 150 baş quzu alınarsa, bu zaman hər 100 baş ana qoyundan alınan əkiz doğulan quzular hesabına alınan təmiz ət 50 baş X 12 kq ət=600 kq artıq təmiz ət deməkdir.

Yuxarıda göstərilən nəticələri əldə etmək üçün zoobaytar qaydalarına uyğun olaraq qoyunları lazımi keyfiyyətli örüş-otlaq sahələri ilə təmin etməklə yanaşı onlar üçün möhkəm yem bazası yaratmalıyıq. Fermaların ərazisində, yataqların yaxınlığında yonca, qarğıdalı, arpa, xəsilliklərin və s. müxtəlif yem bitkilərinin əkilməsini və onların aqrotexniki qaydada becərilməsini təşkil etməliyik. Bununla yanaşı, yataqların su təminatını da həll etmək lazımdır. Belə ki, hazırda yataqların əksəriyyətində su problemi vardır.

Bildiyimiz kimi, ucuz qoyun əti istehsal etmək üçün əsasən qoyunların örüş-otlaq sahələrində otarılaraq kökəldilməsidir. Belə ki, bu zaman qoyunların yemlənilməsinə və kökəldil-

məsinə əlavə xərclər çəkilmir. Bu zaman qoyunçuluq rentabelli olur, yəni gəlirlə işləyir.

Xarici ölkələrdən respublikamıza idxal olunan iri və xırdabuynuzlu mal-qara haqqında qısa məlumat

2023-cü ilin 8 ayı ərzində ölkəmizə 251 min baş diri qoyun idxal edilmişdir ki, bu da heyvandarlıq sahəsində ürəkaçan iş deyildir. Son illər Azərbaycanda iri və xırdabuynuzlu heyvanların baş sayının sürətlə azalması müşahidə olunur. Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, 2023-cü ilin oktyabr ayının 1-nə Azərbaycanda 2 milyon 533,1 min baş iribuynuzlu, 7 milyon 223,2 min baş xırdabuynuzlu heyvan olmuşdur. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu heyvanların baş sayında 4,3% və 113,4 min baş, xırdabuynuzlu heyvanların baş sayında isə 8,9% və ya 705,1 min baş azalma deməkdir. Həmçinin bu, ölkədə iri və xırdabuynuzlu heyvanların baş sayında son 10 illik dövrdə ən kəskin azalmadır.

Nəticə. Azərbaycanda yetişdirilən qoyun cinslərinin əti çox keyfiyyətli və dadlı olur. Respublikamızın əhalisinin ən çox sevdiyi ət quzu ətidir, çünki quzu əti heç vaxt insan orqanizminə mənfi təsir etmir, tez həzm olunur və yüksək kalorilidir. Odur ki, ölkəmizdə qoyunçuluğun inkişafına xüsusi fikir verilməlidir. Bundan əlavə, bizim yerli qoyun cinsləri ekstremal qeyri-normal, dəyişən iqlim şəraitinə çox dözümlüdür, onlar ən kasıb ot örtüyünə malik olan örüş-otlaq sahələrindən yaxşı istifadə etməklə ac qalmırlar, eyni zamanda yoluxan və yoluxmayan xəstəliklərə qarşı çox dözümlüdürlər. Yerli qoyun cinsləri orta hesabla hər 100 baş ana qoyundan ayrı-ayrı cinslər üzrə 110-150 baş quzu vermək qabiliyyətinə malikdirlər. Belə ki, bunların hamısı qoyunların zoobaytar qaydalarına uyğun olaraq düzgün yemlənilməsindən, bəslənilməsindən və saxlanılmasından asılıdır. Xüsusilə qeyd edək ki, Qarabağ qoyun cinsi və onun populyasiyaları olan Qaradolaq və Mil-Qarabağ qoyunları ilin bütün fəsillərində həvəsə gəlmə qabiliyyətinə malikdirlər. Ona görə də bu qoyunların əksəriyyəti yaxşı yemlənmə, bəslənmə və saxlanma şəraitində iki ildə 3 dəfə bala verirlər. Hazırda respublikamızın əksər bölgələrində qoyunların cins tərkibinin yaxşılaşdırılmasında yaxşılaşdırıcı cins kimi əsasən, Qala, Abşeron, Qaradolaq və Mil-Qarabağ qoyun cinslərinin törədici qoçlarından geniş istifadə edirlər. Yaxşı olardı ki, qoyunçuluğun inkişaf etdirilməsi və onun məhsuldarlığının artırılması üçün dövlət tərəfindən qoyunçu fermerlərə də supsidiyalar verilsin.

İstifadə edilmiş ədəbiyyat

1. Sadıqov T.H. Mil-Qarabağ bölgəsində Mil-Qarabağ qoyun cinsinin yaradılması haqqında. “Azərbaycan Aqrar elmi” jurnalı, №3, 2012, s.122-124.
2. Sadıqov T.H. Mil-Qarabağ qoyun cinsi. “Azərbaycan Aqrar elmi” jurnalı, №2, 2014, s.155-158.
3. Sadıqov T.H. Mil-Qarabağ cinsli qoyunların məhsuldarlıq göstəriciləri. “Azərbaycan Aqrar elmi” jurnalı, №5, 2016, s.123-125.
4. Sadıqov T.H. “Mil-Qarabağ” cinsli qoyunların bonitirovkası, yun və diri çəki məhsuldarlığı. “Azərbaycan Aqrar elmi” jurnalı, №1, 2019, s.67-69.
5. Məmmədov Ş.M., Sadıqov T.H., Həsənov F.G. “Mil-Qarabağ” qoyun cinsinin əkiz balavermə xüsusiyyətləri və onların diri çəki dinamikası (“Heyvandarlığın müasir problemləri və innovativ konsepsiyalar” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları). AKTN, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, Azərbaycan, Göygöl, 22-24 dekabr 2021, s.201-204.
6. Sadıqov T.H. Qoyunçuluq və yunçuluq kitabı. Bakı, “Ekspressçap” nəşiyyatı, 2022, 344 s.
7. Sadıqov T.H. Ölkəmizdə qoyunçuluğun inkişafı. “Peşə təhsili və insan kapitalı” jurnalı, cild 5, №2, 2022, s.72-75.
8. Мамедов Ш.М., Садыгов Т.Н. Биологические и продуктивные осебенности баранчиков Мил-Карабахской породы, рожденных в одинцовых ид-войневых пометах. Сов-ременные Технологии Селскохозяйственного произ-водства, Беларусь, Гродно, ГГАУ, 21 апреля, 13 мая, 10 июня 2022, с.228-230. Конфренции Ветеринария Зоотехния, Технология хранения и переработки сельскохозяйственной продукции.
9. Sadıqov T.H. Mil-Qarabağ cinsli törədici heyvanlardan alınan erkək quzuların diri çəki dinamikasının və eksteryer ölçülərinin öyrənil-

məsi. "Peşə təhsili və insan kapitalı" jurnalı, cild 6, №3, 2023, s.80-86.

10. Sadıqov T.H. Respublikamızda qoyun əti istehsalının artırılmasında əkiz bala almanın üstünlükləri (Ümummilli lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "I Beynəlxalq Heyvandarlıq Konfransı"nın materialları), Lənkəran, 20-21 oktyabr, 2023, s.119-126.

11. Nəcəfov N.A. Yeni yaradılmış yarımqabayunlu Qala-Abşeron qoyun yununun bəzi laboratoriya keyfiyyət göstəriciləri. "Azərbaycan Aqrar elmi" jurnalı, №5, 1991, s.16-17.

12. Nəcəfov N.A. Abşeron qoyun cinsi. "Elm və həyat" jurnalı, №1, 2010, s.58-59.

13. Nəcəfov N.A. Azərbaycanda Abşeron qoyun cinsinin yaradılması. "Azərbaycan Aqrar elmi" jurnalı, 2010, s.59-60.

14. Məmmədov Ş.M., Sadıqov T.H. Yarımqabayunlu "Abşeron" qoyun cinsinin biolojitəsərrüfat xüsusiyyətləri. "Baytarlıq elmi XXI əsrdə – Gələcəyə doğru innovasiyalar" (Beynəlxalq elmi-praktiki konfransın materialları). AKTN, Baytarlıq Elmi-Tədqiqat İnstitutu), Bakı, 25-26 noyabr, 2021, s.393-396.

15. Məmmədov Ş.M., Sadıqov T.H. Ana qoyunların quzulama müddətindən asılı olaraq erkək quzuların böyümə və inkişafı. Ümummilli lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "I Beynəlxalq Heyvandarlıq Konfransı"nın materialları, Lənkəran Dövlət Universiteti, Lənkəran, 20-21 oktyabr, 2023. s.207-212.

16. Sadıqov T.H., Həsənov F.C. Abşeron bölgəsində yetişdirilən Abşeron qoyun cinsinin əsas damazlıq göstəricilərinin qiymətləndirilməsi. "Aqrar Sahədə Elmi Araşdırmalar" jurnalı, HETİ-nun nəşrləri, №1, 2023, (7), s.158-162.

T.Sadigov

Recommendations on the development of sheep breeding in our Republic

Abstract

The main goal in the development of sheep breeding is to meet the population's demand for mutton, and the industry's demand for wool raw materials, fur, etc products, as well as to develop peasant farms. The article deals with the biological economic characteristics of sheep farming, its development, improvement of its breed composition, feeding, nutrition and maintenance.

Т.Садыгов

Рекомендации по развитию овцеводства в нашей республике

Аннотация

Основной целью развития овцеводства является удовлетворение потребности населения в спросе на баранину, а также потребности промышленности в шерстяном сырье, мехе и т.д. оно состоит в удовлетворении спроса на ее продукцию и развитии крестьянских хозяйств. В статье рассмотрены биолого-экономические характеристики овец, развитие, улучшение породного состава, кормление, питание и содержание.

РАЗВИТИЕ ТУРИСТСКИХ ПРОЕКТОВ КАК ПЕРВООСНОВА УСТОЙЧИВОГО ВНУТРЕННЕГО ТУРИЗМА АЗЕРБАЙДЖАНА

Анар Азизов,
Заведующий кафедры «Экономической теории» Азербайджанского Университета Кооперации, доктор экономических наук
ел.почта: anar.azizov.71@mail.ru

DOİ: 10.30546/2706-7858.2024.3.226
УДК: 338.48

Аннотация. *В статье показана потребность развития туристских проектов как основа устойчивого внутреннего туризма. Рассмотрены цели, виды, задачи, масштаб, уровень участников и управления. Представлены положительные и отрицательные последствия от реализации различных турпроектов. Утверждается целесообразность проведения общей оценки за весь период осуществления турпроектов. Рекомендуется оценивать работу каждого отдельного участника турпроекта, а также проводить постоянный контроль за процессом его реализации, за показателем качества туруслуг и степенью удовлетворения потребителей. Показаны векторы влияния турпроектов. Широко представлены критерии способствующие повышению экономической и социальной важности турпроекта для устойчивого развития внутреннего туризма. В заключении определён механизм процессов осуществления турпроектов включающий одиннадцать основных пунктов.*

Ключевые слова: *туристский проект, устойчивое развитие, внутренний туризм, оценка качества, потенциал, факторы, критерии.*
Açar sözlər: *turizm layihəsi, davamlı inkişaf, daxili turizm, keyfiyyətin qiymətləndirilməsi, potensial, amillər, meyarlar.*
Key words: *tourism project, sustainable development, domestic tourism, quality assessment, potential, factors, criteria.*

Туризм в Азербайджане получил свое активное развитие как всеобщее социально – экономическое явление. Такому развитию способствовало расширение научных, экономических, культурных и политических связей между регионами. В результате туристы получили возможность углубить свои знания, ознакомиться с культурно историческим наследием.

Новый импульс к устойчивому развитию туризма придал принятый 18 февраля 2022 года новый закон «О туризме», реализация которого, намного усилит возможности для дальнейшей мобилизации внутренних ресурсов в сфере туризма [3].

Туристический потенциал страны богат и очень разнообразен, что позволяет форми-

ровать различные турпродукты. Стоит отметить, что используя эти огромные возможности, одновременно создаются продукты в области индустрии развлечений, природы, культуры, истории и т.д.

Необходимо отметить, что Азербайджан исторически считается главным образом страной внутреннего туризма с предпочтительностью санаторно-курортного лечения. Обладая сильным санаторно-курортным комплексом, сложившегося с давних пор на основе ценнейших природных ресурсов, а также всеобщее одобрение и признание здоровья показателем нацбезопасности страны предполагают, что фактор поддержания здоровья будет основным при создание модели внутреннего туризма.

Отметим, что в последнее время в нашей стране наблюдается более успешное развитие внутреннего туризма. Так за первый квартал 2023 года этот вид туризма активнее развивается в южном регионе. Однако, все еще в некоторых регионах имеются сдерживающие факторы роста внутреннего туризма. На наш взгляд, если активизировать внимание развитию туризма внутри страны, то доходы от туризма в целом будут значительно выше.

В наших регионах роль и значение внутреннего туризма считают как драйвера региональной экономики. Тем не менее, при ограниченных возможностях региона стремительный экономический подъём благодаря росту индустриального сектора невыполним, а за счет эффективных вложений в сферу туризма невысокий эффект для экономического повышения можно извлечь очень быстро. Проблема заключается в недостатке денежных средств и квалифицированных работников, умеющих принимать быстрые решения в туристской деятельности.

«Наша цель – увеличить в 2026 году число иностранцев, посещающих Азербайджан, до 4 млн человек, местных жителей, путешествующих внутри страны – до 6 млн человек. Основная цель – превратить Азербайджан в устойчивое и доступное туристическое направление» – заявил председатель Госагентства по туризму Азербайджана на Туристическом саммите [4].

Стоит отметить, что Государственное агентство по туризму было создано 20 апреля 2018 года на базе министерства культуры и туризма Азербайджана, которое является государственным органом, регулирующим все основные вопросы развития устойчивого туризма в нашей стране. Положительные тенденции деятельности этого агентства характеризуются организацией современных предприятий туризма, значительным повышением числа туристов посетивших Азербайджан, активным развитием гостиничного хозяйства, формированием инфраструктуры высокого уровня и т.д.

Вызовы в условиях сегодняшних реалий усилили потребность развития устойчивого внутреннего туризма Азербайджана, что является недопустимым без успешной господдержки важных турпроектов.

Главной целью этих проектов является эффективное применение имеющихся в наличии ресурсов, которые составляют возможности территории, пользующейся туристической привлекательностью. Поэтому, к значимым задачам здесь относятся:

– *разработка разумных программ пространственного проектирования связанные с развитием необходимой современной инфраструктуры;*

– *создание условий экономического роста;*

– *возрастание конкурентоспособности субъектов туристского предпринимательства;*

– *активное привлечение инвестиций;*

– *мотивация вовлечения высокопрофессиональных кадров для сферы туризма.*

Под туристским проектом будем понимать комплекс мероприятий, выстроенных в определенной последовательности, оптимально сочетающихся между собой и направленных на создание уникального туристского предложения на основе наиболее рационального использования туристско-рекреационных ресурсов с целью максимального раскрытия потенциала территории, обладающей туристской привлекательностью [6, с.19].

Различают следующие виды туристских проектов: краткосрочные; среднесрочные; долгосрочные.

Цели проекта: промежуточные и конечные.

Масштаб проекта: малый, средний и мега-проект.

Уровень участников проекта: международный и национальный.

Уровень управления: республиканские, региональные и отраслевые.

В процессе утверждения решений о создании и развитии туристских проектов, следует проводить экспертизу элементов рекреационно-туристской системы в регионах, которые входят в потенциальную территорию воплощения проекта, по окончании которого следует проводить систематизацию объектов по видам и состоянию завершённости к применению в пределах проекта: следует определить плотность туристских объектов, дистанцию между ними, степень готовности транспортной инфраструктуры, а также доступность средств размещения.

Уместно составить полное описание смежных территорий, по таким показателям как, среднегодовая численность туристов, объекты туризма и препятствия для развития туризма. Эти сведения по вышеназванным показателям позволят определить в какой степени отобранная местность конкурентоспособна в сравнении с соседними, это также поможет составить будущие направления взаимодействия.

Для выполнения туристских проектов, кроме туристического бизнеса, следует ввести в действие еще и развлекательную, культурную, транспортную и прочие сферы. Для достаточно эффективного осуществления туристских маршрутов и предоставления туруслуг высокого качества необходимо развитие множества элементов инфраструктурного комплекса страны:

– *инженерного;*
– *логистического;*
– *дорожного;*
– *отраслевого.*

Туризм который предполагает создание требуемых условий пребывания на высоком уровне притянет за собой развитие основных видов инфраструктурных услуг: организационные, технологические, информационные, экологические, социальные на уровне региона и страны. В то же время, развитие инфраструктуры являющейся соединительным звеном для разных организаций и предприятий и как основы для обустройства жизни местного населения служит стимулом процессов экономической и социальной интеграции регионов Азербайджана.

Для раскрытия существующего потенциала сферы туризма, осуществляются разные турпроекты, в том числе и межрегионального уровня. При этом, партнерство ведется по таким направлениям как: общее обсуждение проблем и планов развития на перспективу; формирование информационного обеспечения для всех участников; совместная работа по продвижению туристских продуктов и дестинаций.

Отметим, что следует учитывать положительные и отрицательные последствия от реализации различных турпроектов. Так, в качестве положительных последствий можно особо отметить: увеличение вклада отрасли в валовой региональный продукт (ВРП); интенсивное развитие культуры и образования региона; создание новых и постоянных рабочих мест; рост привлекательности территории, главным образом для молодежи. Среди отрицательных последствий можно считать: повышение социальной напряженности; организацию нерентабельных туробъектов; недоиспользование объектов сферы туризма.

За весь период осуществления турпроекта целесообразно провести общую его оценку, которая должна базироваться на общем подходе оценки социальных проектов.

Оценка качества оказываемых услуг, в пределах выполняемого турпроекта должна быть обоюдной: со стороны клиентов туристских услуг и со стороны предоставляющих эти услуги. При этом оценить качество можно по таким критериям как: открытость; обеспечение безопасности; разумное соответствие цены и качества; профессиональная компетентность работника; имидж организации, оказывающей услуги. В итоге будут найдены имеющиеся проблемы, существующиеся ожидания клиентов относительно качества туристских услуг, что будет способствовать выявлению ключевых задач по росту эффективности деятельности каждого

участника турпроекта. Стоит отметить, что можно также оценивать и работу каждого отдельного участника турпроекта.

На стадии осуществления туристских проектов большое значение имеет постоянный контроль за процессом реализации, за показателем качества туристских услуг и степенью удовлетворенности клиентов (потребителей), за тем, насколько соразмерны итоги от его реализации тем показателям, которые первоначально были намечены с целью включения соответствующих поправок.

Следует отметить, что в условиях новых вызовов стало ясно, что стратегия устойчивого развития туризма, не может быть только прерогативой государства, а должна быть взаимодействием государства и бизнеса. Эффективной формой таких взаимоотношений является государственно – частное партнерство (ГЧП).

Контракты ГЧП выгодны с экономической точки зрения, т.к. чаще, чем традиционные оказываются в пределах заявленных объемов финансирования (более 30%) [7, с.21].

Результаты ГЧП особенно ясно проявляются при реализации больших туристских проектов инновационной направленностью. Очень важным при этом является соблюдение выполнения двух обязательных условий [1, с.274]:

– *четкое определение государственных стратегических целей;*

– *определение правил партнерства на период реализации общих проектов.*

Необходимо отметить, что турпроекты можно назвать одним из значительных факторов развития внутреннего туризма, а также в целом и региональной экономики, поскольку в пределах их развития и реализации привлечены самые основные составляющие общества: государство, домашние хозяйства и предпринимательский сектор (см. таблицу 1).

Таблица 1.
Векторы влияния туристских проектов

Общественный сектор	Решаемы вопросы
Государство	способствовать обеспечению устойчивого развития туризма; развитие туристской инфраструктуры; углубление межрегиональных отношений; развития единого рынка туризма.
Домашние хозяйства	увеличение занятости; получение высококачественных туруслуг; усиления межкультурных отношений; рост уровня образования.
Предпринимательский сектор	возрастание предпринимательской инициативы; получение максимальной прибыли; рост конкурентоспособности оказываемых туруслуг; поиск новых партнеров; развитие современных форм сотрудничества.

Говоря о внутреннем туризме, отметим, что в Азербайджане активизация развития этого вида туризма является одной из приоритетных задач т.к. для многих регионов сфера туризма представляется средством развития региональной экономики. Именно поэтому в организации межрегионального взаимодействия большую помощь могут оказывать различные общественные ассоциации, берущие на себя инициативы по формированию межрегиональных проектов, решая проблемы сотрудничества регионов, продвижения территорий и привлечения потоков туристов [2, с.11].

Интенсивному развитию устойчивого внутреннего туризма может способствовать и развернутая со страны властей его рекламная поддержка.

В настоящее время идет речь о полном восстановление внутреннего туризма. Для

этих целей необходимо активизировать маркетинговые усилия по продвижению туристских продуктов с обязательным упором на их безопасность и соблюдение требований Safe Travels [5, с.23].

Следует особо отметить, что туристические возможности Азербайджана осуществляются в новых современных проектах. Так, в Баку выполнен грандиозный проект глэмпинг в 20 метрах от моря на территории Sea Breeze Resort, являющийся признанным элитным поселком.

Понятие глэмпинг для многих наших граждан новое. Этот вид туризма предполагает заранее подготовленное место размещения с комфортными условиями к приезду гостей, обеспечивающий наслаждение красотой природы. Следует отметить, что развитие глэмпинга в Азербайджане ожидает блестящее будущее.

Критерии способствующие повышению экономической и социальной важности турпроекта для устойчивого развития внутреннего туризма являются:

– *конкурентные преимущества;*

– *комплексность и оперативность решаемых задач;*

– *достижимость планируемых результатов;*

– *условия для устойчивого развития социального туризма;*

– *расширение возможностей для оперативного внедрения инициатив предпринимателей направленных для устойчивого развития внутреннего туризма;*

– *перспективность.*

Таким образом, на наш взгляд, можно практиковать следующий механизм процессов осуществления турпроектов:

– *усовершенствование на уровне региона всей отвечающей современным требованиям необходимой нормативно – правовой базы;*

– *организация рабочей группы в состав которой должны входить представители власти, общественности и предпринимательства;*

– *заключение взаимной договоренности и единовременно – создание организационно – управленческой структуры, назначение исполнителей и ответственных за формирование и реализацию каждой стадии разработки турпроекта;*

– *научное обоснование необходимости турпроекта, прогнозирование и принятие решений;*

– *экспертный анализ составляющих развития и реализации турпроекта;*

– *оформление основной документации;*

– *составление туристского предложения и турпродукта;*

– *построение информационной системы с целью продвижения турпроекта;*

– *планирование и проведение больших рекламных кампаний;*

– *на всех стадиях действия турпроекта– обеспечение возможности результативного сотрудничества между его участниками;*

– *проведение непрерывного мониторинга составления и реализации турпроекта для создания эффективного механизма управления устойчивым его развитием.*

Список использованной литературы

1. Азизов А.А. Пути эффективного развития предпринимательства в сфере туризма Азербайджана. Баку, 2018, 320 с.

2. Баснина Т.Д. Российский туризм: стратегические направления устойчивого развития. Сборник статей. Москва, 2020 с.5-13.

3. Закон «О туризме» Азербайджанской Республики. Баку, 18 февраля 2022.

4. Речь председателя Государственного Агентства по Туризму Азербайджана на Туристическом саммите. Баку, 2022.

5. Розанова Т.П., Стыцюк Р.Ю., Карпова С.В., Константиниди Х.А., Мотагали Я.Б., Иванова Ю.О., Морозов М.А., Морозова Н.С., Артемьева О.А. Методологические и практические аспекты маркетингово управления продвижением курортных территорий РФ (монография). Архангельск: Архангельский институт открытого образования, 2017, 181 с.

6. Соцков В.В Формирование и развитие туристских проектов как основа внутреннего туризма России. Автореф. дисс. на соиск. учен. степ. к.э.н. Санкт-Петербург, 2021.

7. Яковенко О.В., Ферару Г.С. Государственно частное партнерство как одно из направлений развития туризма на федеральном и региональном уровнях. Региональная экономика и управление. Электронный научной журнал, 2016, N 1 (45), с.13-26.

A.Əzizov

Azərbaycanda davamlı daxili turizmin ilk əsası kimi turizm layihələrinin inkişaf etdirilməsi

Xülasə

Məqalədə dayanıqlı daxili turizmin əsası kimi turizm layihələrinin hazırlanmasının zəruriliyi göstərilir. Məqsədləri, növləri, vəzifələri, miqyası, iştirakçıların səviyyəsi və idarəetmə nəzərə alınır. Müxtəlif turizm layihələrinin həyata keçirilməsinin müsbət və mənfi nəticələri təqdim olunur. Turizm layihələrinin həyata keçirilməsinin bütün dövrü üçün ümumi qiymətləndirmənin aparılmasının məqsədəuyğunluğu təsdiq edilmişdir. Turizm layihəsində hər bir fərdi iştirakçının əməyinin qiymətləndirilməsi, eləcə də onun həyata keçirilməsi prosesinə, turizm xidmətlərinin keyfiyyət göstəricilərinə və müştəri məmnuniyyətinin dərəcəsinə daim nəzarət etmək tövsiyə olunur. Turizm layihələrinin təsir vektorları göstərilir. Daxili turizmin davamlı inkişafı üçün turizm layihəsinin iqtisadi və sosial əhəmiyyətini artırmağa kömək edən meyarlar geniş şəkildə təqdim olunur. Sonda on bir əsas məqamı özündə əks etdirən turizm layihələrinin həyata keçirilməsi mexanizmi müəyyən edilib.

A.Azizov

Development of tourism projects as the first basis of sustainable domestic tourism in Azerbaijan

Abstract

The article shows the need for the development of tourism projects as the basis for sustainable domestic tourism. The goals, types, objectives, scale, level of participants and management are considered. Positive and negative consequences from the implementation of various tourism projects are presented. The feasibility of conducting a general assessment for the entire period of implementation of tourism projects is argued. It is recommended to evaluate the work of each individual participant in the tourism project, as well as to constantly monitor the process of its implementation, the quality of tourism services and the degree of consumer satisfaction. The vectors of influence of tourism projects are shown. Criteria are widely presented that help increase the economic and social importance of a tourism project for the sustainable development of domestic tourism. In conclusion, a mechanism for the implementation of tourism projects is defined, which includes eleven main points.

DOĞRU LİDERLİK VƏ ONUN İDARƏETMƏDƏ ROLU

Adilə Fərəcova,
Bakı Şəhər Statistika İdarəsinin İnsan resursları, hüquq və sənədlərlə iş sektorunun məsləhətçisi, II dərəcəli dövlət qulluqçusu
e-mail: adilafarajova@stat.gov.az

DOİ: 10.30546/2706-7858.2024.3.228
UOT: 37; 65

Xülasə. *Liderlik təşkilatların, istər biznes, istər qeyri-kommersiya təşkilatı, istərsə də müvafiq olaraq biznesin idarə edilməsi, qeyri-kommersiya idarəçiliyi və ya dövlət idarəçiliyinin politologiya alt sahəsi vasitəsilə dövlət orqanı olmasından asılı olmayaraq idarə edilməsidir. Liderliyin düzgün təşkili və həyata keçirilməsi dövlətin ümumi idarəetməsini təşkil edən əsas amillərdəndir. Məqalədə liderlik və idarəetmə aspektlərindən istifadə edilməklə insanların məqsədyönlü fəaliyyətində, kadrların seçilməsində onun rolundan və əsas funksiyalarından söhbət açılır.*

Açar sözlər: *idarəetmə, liderlik, komanda, təhsil, uğur.*
Key words: *management, leadership, team, education, success.*
Ключевые слова: *менеджмент, лидерство, команда, образование, успех.*

Liderlik fərd və yaxud bir qrup insanın bir cəmiyyətin, təşkilatın və ya komandanın üzvlərinə təsir etmək və onlara rəhbərlik etmək qabiliyyətidir. Liderlik çox vaxt insanın malik olduğu rütbəsi, stajı və ya iyerarxiyadakı statusu ilə bağlı atributdur. Həmçinin bu, hər kəsin, hətta liderlik vəzifəsi olmayanların da sahib ola biləcəyi və ya əldə edə biləcəyi bir xüsusiyyətdir. Bu, zamanla təkmilləşdirilə və inkişaf etdirilə bilən bir bacarıqdır. Effektiv idarəetmənin əsas şərti liderlik ruhunun komandada formalaşdırılması və bunu hər bir əməkdaşa aşılamaqdan ibarətdir. Düşünmürəm ki, tək nəzəri biliklər əsasında bu bacarıq insanda formalaşa bilər, həmçinin bu bacarığın inkişafı və təkmilləşməsi üçün praktika, qabiliyyət, uşaqlıqdan formalaşan komanda ruhu və zamanla əldə etdiyi təhsil bu amilə müsbət təsir edir. Düzgün liderlik qabiliyyətinin olması idarəetmədə edilən kiçik səhvləri belə aradan qaldırmaq gücünə malikdir. Belə ki, hazırda qlobal təcrübədə liderlik məktəbləri fəaliyyət göstərir və ali təhsil müəssisələrində bu sahə dərindən nəzəri və praktiki formada öyrədilir [3].

Liderlər cəmiyyətin əksər sahələrində, o cümlədən biznes, siyasət, din, eləcə də sosial və icma əsaslı təşkilatlarda tələb olunur. Liderlər sağlam və bəzən çətin qərarlar verən insanlar kimi görünür. Onlar aydın bir vizyonu ifadə edir, əldə edilə bilən məqsədləri müəyyənləşdirir və ardıcıllarını bu məqsədlərə çatmaq üçün lazım olan bilik və alətlərlə təmin edir [1].

Azərbaycanda fəaliyyət göstərən demək olar ki, bütün ali təhsil müəssisələrində liderlik və idarəetmə dərsləri ətraflı şəkildə mütəxəssis-müəllim heyəti tərəfindən keçirilərək öyrədilir. Bu, həmçinin layihələr üçün də keçərlidir. Belə ki, 2023-cü ildən etibarən İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının

Təhlili və Koordinasiya Mərkəzinin əməkdaşlığı ilə həyata keçirilən "4Sİ Akademiyası" layihəsi çərçivəsində bir çox təlim layihələri keçirilməyə başlandı. Bildirmək istərdim ki, bu layihənin əsas məqsədi ölkədə rəqəmsal bacarıqların inkişaf etdirilməsi, idarəetmə sahəsində bilik və bacarıqların artırılması və əmək bazarında ixtisaslı kadrların hazırlanmasına dəstək olmaqdan ibarətdir. Belə ki, 100 milyondan çox təhsilalanın maarifləndiyi və təhsil aldığı "Coursera" onlayn təhsil platformasında 280-ə yaxın universitet və qabaqcıl şirkətlərin süni zəka, böyük verilənlər (Big Data), data analitika, blokçeyn, bulud texnologiyaları, liderlik, kommunikasiya, ingilis dili və digər istiqamətlər üzrə 10 minə yaxın kursu tədris olunurdu. "4Sİ Akademiyası" çərçivəsində platformada Yel, Dyuk, Miçiqan, İllinois, Virciniya kimi 40-a yaxın nüfuzlu universitetlərin, həmçinin "Google", "IBM", "Microsoft", "Meta" kimi qabaqcıl texnologiya şirkətlərinin ümumilikdə 800-ə yaxın kursu vətəndaşlarımıza ödənişsiz təqdim edilirdi. Nəticə olaraq hazırda 8000 nəfər bu kursdan yararlanaraq idarəetmə və liderlik kurslarında iştirak etməklə beynəlxalq miqyasda tanınan sertifikatlar əldə edir, o cümlədən tanınmış Avropa və Amerika professor-müəllim heyətindən canlı şəkildə mühazirələr dinləyərək liderlik qabiliyyətinə dərindən yiyələnmək şansı əldə edirlər. Belə ki, mən bir çox universitetlərin təşkil etdiyi kurslarda iştirak edərək sertifikatlar əldə etmişəm. Bunlara nümunə olaraq, University of London-Managing the Company of the Future, Europe Business School-Intercultural Management, Erasmus University Rotterdam-Innovation Management, The State University of New York-Job Success, Duke University və s. universitetlərini göstərə bilərəm [6].

"İdarəetmə" və "liderlik" anlayışlarını daim birgə eşidirik. Bəs fərqlər nədən ibarətdir?

"İdarəetmə" və "liderlik" terminləri tez-tez bir-birini əvəz edən mənada istifadə olunur, lakin fərqli nüanslar da vardır. Ona görə də rəhbərliklə idarəetmənin tərifini başa düşmək faydalı ola bilər. Aralarındakı əsas fərqlərdən biri – "İdarəetmə"nin planlaşdırma və nəzarət prosesi, "liderlik" isə insanların birlikdə nəyəsə nail olması üçün çalışması prosesidir [4]. Həm idarəetmə, həm də liderlik məqsədlərə nail olmaq və ya dəyişiklik etmək üçün vacibdir və rolunuzdan asılı olaraq effektiv olmaq üçün hər ikisinin aspektlərindən istifadə etməlisiniz.

İdarəetmə əsas mənada müəyyən şəxslər qrupunun və ya müvafiq qurumların strukturlarına və ya daxili bölgüsünə əsasən təşkiletmə formasıdır [5]. Liderlik ictimai həyatın əsası kimi geniş mənada, hər bir cəmiyyətə xas olan özünütənzimləmə, özünüqoruma və özünütəşkilatlandırma sistemidir. İdarəetmə hər zaman heç də şüurlu formada olmayıb, həmçinin kortəbii şəkildə də həyata keçirilir. Liderlik cəmiyyət arasında yaranmış ictimai və sosial əlaqələrin təşkilinin önəmli mexanizmi kimi, insanların məqsədyönlü fəaliyyətinin önəmli hissəsi olmaqla xarakterizə edilir. Həmçinin liderlik cəmiyyətin qorunması və inkişafına kömək edən əsas hüquqi mexanizmdir.

Çağdaş dövrdə daim sosial fəaliyyətin bütün sahələri üzrə müvafiq qurum və orqanların iyerarxik və sistematik idarəedilməsi, həmçinin kadrların birlikdə mümkün fəaliyyəti üçün sistemli idarəetməyə ehtiyac duyulur. İdarəetməni tam əhatəli və məzmunlu şəkildə öyrənmək üçün bütün elmlərdə olduğu kimi, bu elmin də strukturuna diqqət yetirilməlidir. İdarəetmənin strukturu-qarşılıqlı vəhdət və əlaqədə olan aidiyyəti elementlərin məcmusu kimi başa düşülür. Həmin elementlərə nəzər yetirək:

• ***İdarəetmənin subyekti*** – idarəetmənin əsas metodlarından istifadə olunaraq ümumi və ya birlikdə fəaliyyət göstərənlərə təsir edən əsas komponentə idarəetmənin subyekti adı verilmişdir.

• ***İdarəetmənin obyekti*** – idarəetmənin əsas obyekti kadrların iradə və davranışlarının idarəetmənin subyekti üzrə olan iradəsinə uyğunlaşdırılan birgə fəaliyyət iştirakçısıdır.

• ***İdarəetmə sistemi*** – idarəetmə sisteminin subyektləri və obyektləri arasında mümkün əlaqə potensialı məcmusu idarəetmə sisteminin əsasını təşkil edir. Beləliklə, idarəetmə sistemi idarəetmənin əsas komponentlərindən olan idarəetmə subyekti və obyektinə xas olan əlamətləri tam olaraq özündə birləşdirir.

• ***İdarəetmənin funksiyaları*** – idarəetmə funksiyaları birbaşa idarəetmə obyektlərinə təsir edən və daxil olan prosesdir.

İyerarxiya baxımından istənilən bir sistem başqa bir yüksək sistem tərəfindən öz məqsədlərinə nail olmaq naminə yaradılır [2].

İdarəetmə sisteminin əsas funksiyalarına nəzər salaq:

Planlaşdırma. Hər bir sahədə olduğu kimi, idarəetmə sahəsində də proseslərin inkişafının kəmiyyət və ya keyfiyyət göstəricilərinin, istiqamətlərinin, vəzifə və nəticələrinin, məqsədinin, sürətinin əvvəlcədən tam müəyyən edilməsi vacibdir. Bu prosesə planlaşdırma deyilir.

Proqnozlaşdırma. Planlaşdırmanın əsas hissəsi olaraq vacib funksiya proqnozlaşdırmadır ki, bu funksiyanın elmi nailiyyəti olaraq qeyd edilməsi və ya alınmış məlumatlar ilə istənilən hadisələr və ya proseslərin inkişafında baş verə biləcək dəyişikliklərin qabaqcadan görülməsidir.

Təşkilatçılıq. Adı çəkilən funksiyada, əsasən müəssisə və ya idarələrin yaranması, o cümlədən, ləğv edilməsi, birləşdirilməsi və ayrılmasının müəyyən edilməsini əsas göstərmək olar.

Nəticə. İdarəetmə ictimai və yaxud sosial əhəmiyyətli məqsədlərə çatmaq üçün həyata keçirilmiş proseslərin məcmusu kimi başa düşülür. O, məzmun olaraq təşkiletmənin formalaşması və məqsədlərinə nail olmaq üçün həyata keçirilən planlaşdırma, motivasiya və nəzarətdir.

İstifadə edilmiş ədəbiyyat

1. Bağırzadə M. Dövlət idarəçilik nəzəriyyəsi. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəşri (V, VI fəsil), “Elm və təhsil” nəşriyyatı, 2010.

2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi xəbər saytı.
https://president.az/articles/34197

3. Вяткина Н.В. Профессия «Менеджер» ретроспективный анализ социоло гического подхода. Вестник ПНИПУ. Социально-экономические науки, 2015.

4. Babayev R. Müasir idarəetmə nəzəriyyələri (magistr dissertasiyası). Bakı, 2015.

5. Əliyeva Y. Menecmentin əsasları (mühazirə toplusu). Kooperasiya, 2012.
http://unec.edu.az/-application/uploads/2015/12/babayev_rashad.pdf

6. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi saytı.
https://www.economy.gov.az/az

A.Farajova

True leadership and its role in management

Abstract

Leadership plays a crucial role in the management of organizations, whether in the business, nonprofit, or government sectors, corresponding to the fields of business management, nonprofit management, and public administration, respectively. The effective organization and implementation of leadership are fundamental components of overall management within any state. This article examines the role and primary functions of leadership in guiding purposeful activities among individuals, including aspects related to personnel selection, through using the interplay between leadership and management.

А.Фараджова

Истинное лидерство и его роль в управлении

Аннотация

Лидерство это управление организациями, будь то бизнес, некоммерческая организация или государственный орган, вне зависимости от того, осуществляется ли оно через управление бизнесом, управление некоммерческой деятельностью или посредством политологии как подотрасли государственного управления. Правильная организация и реализация лидерства являются одними из ключевых факторов, составляющих общее управление государством. В статье рассматривается роль и основные функции лидерства в целенаправленной деятельности людей и подборе кадров через аспекты лидерства и управления.

MÜASİR İQTİSADİ İNKİŞAFDA HƏRBİ İRS TURİZMİNİN ƏHƏMİYYƏTİ

Nərmin Mirzəzadə,
Azərbaycan Dövlət Aqrar Universitetinin
Aqrobiznes, menecment və marketinq kafedrasının assistenti
e-mail: narminmirzazada@gmail.com

DOİ: 10.30546/2706-7858.2024.3.230
UOT: 342:379.85

Xülasə. *Son illərdə hərbi irs turizmi dünyanın müxtəlif regionlarında geniş vüsət almışdır. Onu məşhurlaşdırmaq, gəncləri vətənpərvərlik mövzusu ilə tanış etmək üçün dünyada və ölkəmizdə bir sıra dövlət, həmçinin regional proqramlar həyata keçirilir. İctimai təşkilatlar, hərbi irs klubları, gənclər turizm mərkəzləri fəal şəkildə inkişaf edir. Onların maraq dairəsinə hərbi irs turizmi sahəsində geniş tədbirlər daxildir. Hərbi-tarixi turizm özündə ümumi mədəni dəyərlərə, milli əsasa söykənən sosial-mədəni potensialı ehtiva edir, milli özünüdərkə, xalqın qəhrəmanlıq keçmişi ilə bağlılığa əsaslanan şəxsiyyətin formalaşmasına yönəldilmişdir.*

Açar sözlər: *perspektiv, turoperator, arxeoloji, sərgi, infrastruktur.*
Key words: *perspective, tour operator, archaeological, exhibition, infrastructure.*
Ключевые слова: *перспективный, туроператор, археологический, выставочный, инфраструктура.*

Hərbi irs turizminə, ilk növbədə, XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmış mənəviyyat ideyası və vətənpərvərlik nəzəriyyəsi kontekstində ideoloji prizmadan baxılır. H.A.Berdyaev, İ.A.İlyin, E.V.Sokolov və H.A.Berdyayevin fikrincə, mənəviyyatın strukturu bütöv dəyərlər toplusundan ibarətdir ki, onların arasında özünü təkmilləşdirmək istəyi, sosial həssaslıq, mənəvi potensial, məsuliyyət, vətənpərvərlik ön plana çıxır [1, s.68].

Mədəni, o cümlədən hərbi irs turizminin inkişafının elmi əsasını N.Ya. Danilevskinin "mədəni-tarixi tiplər" nəzəriyyəsi təşkil edir. Belə ki, "Yerli sivilizasiyalar" və tarixçilər O.Şpenqler, A.Toynbi və L.N.Qumilyovun "Sivilizasiya yanaşması" nəzəriyyələrində işlənmişdir. Bu nəzəriyyələrin müəllifləri mənşəyindən tam tənəzzülə və məhvə qədər müxtəlif mərhələlərdən keçən ayrı bir sivilizasiyanın özünü identifikasiyası və mədəniyyət icması konsepsiyasına əsaslanan inteqral qanunlar sistemini formalaşdırdılar. Eyni zamanda bu suverenliyin qorunması tələbinin yerinə yetirilməsi və öz dəyərini yüksək dərəcədə dərk etməsi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun məhsuldarlığına zəmanət verir. Bu fenomen sözün əsl mənasında vətənpərvərlik hissi ilə sıx bağlıdır.

Müəlliflərdən D.A.Troitskinin, V.P.Qolovanovanın, A.A.Baxvalovanın, V.İ.Omelçenkonın, A.A.Ostapetsinin bir sıra əsərləri hərbi-tarixi turizmin öyrənilməsinə həsr edilmişdir [2, s.91]. Bu tədqiqatlar ümumi nəzəri xarakter daşıyır, vətənpərvərlik tərbiyəsinin mahiyyətini açır, ancaq əsərlərdə turizm vasitəsilə vətənpərvərlik

tərbiyəsi problemlərinin konkret həlli yolları təklif olunmur. S.K.Volkova, D.Yu. Şulyakova, E.A.Rıjivolova, E.L.Draçeva, D.A.Troitski, K.S.Mişkina və başqaları turizmin bu növünün inkişafının əsas tendensiyalarını müəyyənləşdirmiş, problemlər sırasında mədəni-maarif turizmi ilə əlaqəni qurmuş, onun gənclərdə vətənpərvərlik tərbiyəsinin formalaşmasına təsirini müəyyən etmiş, tarazlığın olmadığını qeyd etmişlər [3, s.439].

İ.Yu. Solomina görə hərbi irs turizmi hərbi tarixə maraq, qəhrəmanların abidələrini və yaddaqalan yerləri ziyarət etmək, hərb tarixindən tematik mühazirələr oxumaqla xarakterizə olunan mədəni-tarixi turizmin alt növüdür. S.K.Volkov, O.V.Konina, A.A.Debely hərbi irs turizmini tarixi qəhrəmanlıq hadisələrinin (festivallar, yenidənqurmalar), hərbi şöhrətli yerlərə turist marşrutları şəklində təqdim edilməsi forması kimi, hərbi döyüş meydanlarına, muzey obyektlərinə, aktiv hərbi obyektlərə və poliqonlara, hərbi maşınların yerləşdiyi yerlərə baş çəkmək və hərbi idman tədbirlərində iştirak etmək kimi qiymətləndirirlər [4, s.134]. T.V.Gordienko hərbi texnikanın istifadəsi ilə əlaqəli mədəni, təhsil və idman turizmi proqramlarının inkişafına yönəlmiş turizm növü kimi, E.A.Titova turistin hərb tarixi ilə bağlı milli və yerli mədəniyyətlə tanış olduğu səyahət növü olaraq, T.A.Kolpashchikova isə hərbi irs turizmini turistin mədəniyyətlə tanış olmaq və onu dərk etmək üçün öz bölgəsinin (ölkəsinin) ərazisindən başqa bir bölgəyə (ölkəyə) getməsini birləşdirən mürəkkəb bir hadisə, nəticədə fərdin mədəni turizminin formalaşması kimi dəyərləndirir. Eyni zamanda B.M.Şavarinski turizmin təbliği kontekstində qeyd edir ki, müasir dövrdə vətənpərvərlik tərbiyəsində lider mövqeləri gənclərə mənəvi, əxlaqi, tarixi və mədəni vətənpərvərlik təsirinin istiqamətləri baxımından daha çox tutarlıdır. V.İ.Levin isə qeyd edir ki, hərbi irs turizmi vətənpərvərlik tərbiyəsinin ən mühüm yollarından biridir və güclü stimul kimi çıxış edir. Y.V.Meşçeryakova diqqəti bir fakta yönəldir ki, baş verənləri və onun nəticələrini dərk etmək bizə gənc nəsildə gələcəkdə oxşar hadisələrin qarşısının alınması haqqında sabit fikir formalaşdırmağa imkan verir (mədəni, sosial-məişət və mədəni əlaqələr çərçivəsində dostluq əlaqələrinin inkişaf etdirilməsi imkanları haqqında) [5, s.76].

Elmi əsərlərdə gənclərin hərbi-tarixi turizmə cəlb edilməsinin motivasiya komponenti məsələsi hələ də böyük ölçüdə fraqmentar şəkildə təqdim olunur və gələcək sistemləşdirməni tələb edir. Hərbi irs turizmi cəmiyyətdə müəyyən qurulmuş rolları həyata keçirir ki, bu da xarakterik funksiyaları ilə ətraflı şəkildə dəqiqləşdirilə bilər. Ümumiyyətlə, bu funksiyaları iki böyük qrupa – mədəni və tarixi; təhsilə bölmək olar. Bu funksiyaları daha ətraflı nəzərdən keçirtsək aşağıdakıları vurğulaya bilərik:

- *vətəndaşların vətənpərvərlik tərbiyəsi;*
- *tarixi həqiqətin, yaddaşın və cəmiyyətin dəyərlərinin qorunması;*
- *dövlətin hərbi potensialına vahid baxışın formalaşdırılması;*
- *keçmiş dövrlərin bilik və təcrübəsinin qorunması, gələcəkdə ötürülməsi və mübadiləsi.*

Hərbi-tarixi turizm özündə ümumi mədəni dəyərlərə, milli əsasa söykənən sosial-mədəni potensialı ehtiva edir, milli özünüdərkə, xalqın qəhrəmanlıq keçmişi ilə bağlılığa əsaslanan şəxsiyyətin formalaşmasına yönəldilmişdir. Bir çox müəlliflərin fikrincə, hərbi irs turizminin əsas funksiyaları mədəni, maarifləndirici və maarifləndirmədir ki, onun da mahiyyəti vətənpərvərlik tərbiyəsi, mənəvi və sosial dəyərlərin qorunmasıdır. Gənc nəslin vətənpərvərlik tərbiyəsinin formalaşmasında hərbi irs turizmi ciddi yer tuta bilər.

Hərbi irs turizminin mahiyyətini müəyyən edən konseptual aparatın tədqiqi iki fundamental yanaşma aşkar etdi: turizmin passiv və aktiv formalarından istifadəyə əsaslanan yanaşma. Aktiv forma turistin fiziki gücünü yaxşılaşdırmaq və inkişaf etdirmək məqsədi daşıyır və aktiv hərəkət üsullarını nəzərdə tutur. Passiv hərbi turizm biliyə olan ehtiyacı ödəməyə, yeni təəssüratlar əldə etməyə yönəlib və fiziki gücdən istifadə ilə əlaqəli deyil.

İqtisadçılar "hərbi irs turizmi" anlayışını müxtəlif mövqelərdən nəzərdən keçirirlər. Ümumiyyətlə, "hərbi-tarixi turizm" dedikdə, aşağıdakılar başa düşülür [6, s.178]:

– *tarixi qəhrəmanlıq hadisələrinin təqdim edilməsi formaları, hərbi şöhrətli yerlərə turist marşrutları;*

– hərbi döyüşlərin keçirildiyi yerlərə, hərbi muzey əşyalarına və eksponatlarına, aktiv obyektlərə və poliqonlara, hərbi maşınların yerləşdirilmə yerlərinə baş çəkmək;

– hərbi idman tədbirlərində iştirak;

– turistin hərb tarixi ilə bağlı milli və yerli mədəniyyətlə tanış olduğu səyahət növü.

Hərbi texnikanın istifadəsinə əsaslanan turizm növü mədəniyyət və idman turizmi proqramlarının inkişafına yönəldilir. Hərbi irs turizminin inkişaf prinsipləri öyrənilərkən hərbi-tarixi irsdən istifadə əsasında turizmin inkişafının proqramı məqsədli planlaşdırılmanın əsas rolu ilə vurğulanır, o cümlədən yeni hərbi komplekslərin yaradılması və turizmin yenidən qurulması, tarixi yerlər və muzeylər, klub assosiasiyalarının inkişafı, inteqrasiya olunmuş turizm infrastrukturunun yaradılması əks olunur. Hərbi irs turizminin inkişafı milli və regional səviyyədə aşağıdakı perspektivlər şəklində nəzərdən keçirilir [7, s.59]:

– istehkamlardan və digər hərbi-tarixi obyektlərdən istifadə etməklə turizm marşrutlarının layihələndirilməsi və həyata keçirilməsi;

– hərbi-tarixi resurslara əsaslanan özəyi olan muzey-tarixi komplekslərin və turizm-rekreasiya klasterlərinin yaradılması;

– hərbi-tarixi tədbirlərin təşkili;

– hərbi-vətənpərvərlik düşərgələri və turizm-diyarşünaslıq mərkəzləri əsasında tematik proqramların formalaşdırılması.

Dünya təcrübəsində müxtəlif növ tarixi istehkamlardan, qalalardan turizm məqsədləri üçün istifadə edilməsində böyük təcrübə toplanmışdır. İş zamanı YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ən əhəmiyyətli istehkamlar tədqiq edilmişdir: Böyük Çin səddi (ÇXR), Praqa qalası (Çexiya), Fort San Felipe del Morro (Kuba), Dəniz qalası (Suomenlinna) və Hvasonq qalası (Koreya Respublikası), Qədim Qvinedd (Böyük Britaniya) knyazlığında Kral I Eduardın qalaları və s.

Bu muzeylərdə müxtəlif sərgilər təqdim olunur:

– tarixi mövzular (qalaların tikintisinə həsr olunmuş sərgilər, sənədlər və fotoşəkillər, orijinal əşyalar, tarixi interyerin yenidən qurulması, kütləvi məzarlıqlar);

– hərbi mövzular (silah sərgiləri, hərbi postlar, hərbi hadisələrin təsviri);

– bədii mövzular (tarixi və bədii panoramalar; rəssamların sərgiləri);

– dini mövzular (kilsələr).

Qeyd etmək olar ki, ümumilikdə hərbi irs turizmi tarixi hadisələrin aşağıdakı təqdimat formalarına aiddir:

– festivalların, rekonstruksiyaların keçirilməsi;

– hərbi şöhrətli yerlərə turist marşrutları;

– hərbi döyüş yerlərinə, hərbi muzeylərin əşyalarına və eksponatlarına, aktiv ərazilərə və poliqonlara baş çəkmək, döyüş maşınlarının yerləşdiyi yerlər;

– hərbi idman tədbirlərində iştirak.

Hərbi irs turizminin hazırkı vəziyyətinin hərtərəfli öyrənilməsi, bu turizm növünün yüksək potensialından və dinamik inkişafından xəbər verir. Bununla yanaşı, əsas məhdudlaşdırıcı amilləri də vurğulamaq lazımdır [8, s.201]:

– hərbi-tarixi turizm obyektlərinin baxımsız vəziyyətdə olması onlardan səmərəli istifadə etməyə imkan vermir. Orta əsrlərə aid istehkamlar arxeoloji rekonstruksiya tələb edir;

– turizm marşrutlarının məhdud diapazonu regionun ən mühüm hərbi-tarixi turizm obyektlərini əhatə etmir, əksər şirkətlər bu növü turizm təklifi üçün prioritet hesab etmirlər;

– gənclər arasında hərbi-vətənpərvərlik turizminin inkişafı gənclərin və məktəblilərin turizm vasitəsilə ölkənin tarixinin öyrənilməsinə fəal cəlb olunmasını nəzərdə tutan proqramların dövlət tərəfindən kifayət qədər maliyyələşdirilməməsi ilə məhdudlaşır;

– regional hərbi tarix muzeylərində muzeyləşdirmənin müasir formalarından istifadə edilmir, mövcud eksponatların nümayişi üçün istifadə olunan üsullar, əsasən ənənəvi xarakter daşıyır;

– hərbi irs mövzulu tədbirlər yerli xarakter daşıyır, festivalların təşkili isə həm maliyyə imkanları, həm də təklif olunan proqramların keyfiyyəti ilə məhdudlaşır;

– geniş spektrli hərbi-tarixi yenidənqurma klublarının mövcudluğuna baxmayaraq, bu cəmiyyətlər, bir qayda olaraq, turizm bazarından kənarda fəaliyyət göstərir, klub qurumları ilə turizm subyektləri arasında qarşılıqlı əlaqə sistemi yoxdur.

Nəticə. Sadalanan amillərə əsasən nəzərə almaq lazımdır ki, hərbi irs turizmi sahəsində turist-ekskursiya xidmətlərinin göstərilməsi yalnız müəyyən edilmiş qaydada turoperatorlar tərəfindən həyata keçirilə bilər. Hərbi turizmin strukturunda hərbi-vətənpərvərlik turlarının təşkilinə tez-tez müxtəlif təşkilat və qurumlar – məktəblər, hərbi-vətənpərvərlik klubları, uşaq idmanı və turist-diyarşünaslıq klubları cəlb olunur. Bu aspektdə turizm subyektləri ilə yuxarıda qeyd olunan təşkilatlar arasında kompleks qarşılıqlı fəaliyyət sistemini inkişaf etdirmək lazımdır. Bölgələrdə hərbi-tarixi sərvətlərdən istifadə etməklə vətənpərvərlik tərbiyəsi məqsədi qoyularkən dövlət və bələdiyyə orqanları, təhsil sistemi və cəmiyyətin digər subyektləri arasında qarşılıqlı fəaliyyətə ehtiyac da yaranır. Eyni zamanda bələdiyyələrarası və regionlararası turist mübadiləsi proqramları vasitəsilə uşaqların vətənpərvərlik tərbiyəsinin inkişafı, tur və ya ekskursiya zamanı məktəblə turizm təşkilatı arasında vəzifələrin bölüşdürülməsi aktualdır.

İstifadə edilmiş ədəbiyyat

1. Turizm və rekreasiya problemləri: problemlər və perspektivlər. Birinci Elmi-praktiki konfransın materialları. Bakı, "Mütərcim" nəşriyyatı, 2007, 104 s.
2. Кузик С.П. География туризма (учебник). И.Билик, 2011, 271 с.
3. Ткаченко Т.И. Устойчивое развитие туризма: теория, методология, бизнес-реалии (монография). И.Киев, Национальные переговоры – Сберегательный Университет, 2009, 463 с.
4. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi (dərs vəsaiti). Bakı, "Mütərcim" nəşriyyatı, 2006, 280 s.
5. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Bakı, "Mütərcim" nəşriyyatı 2004, 312 s.
6. Barchukov I.S. Scientific research methods in tourism: a textbook. Textbook for Universities, M., "Akademiya" Publishing Center, 2008, 224 p.
7. Aleksandrova A.Yu. International tourism. M., Aspect Press, 2002, 470 p.
8. Baranova L.I. Tourism and foreign trade. Local history and tourism: problems, searches, perspectives. Orel, 2000, pp.201-202.

N.Mirzazade

Importance of military heritage tourism in modern economic development

Abstract

In recent years, military heritage tourism has become widespread in different regions of the world. In order to popularize it and introduce young people to the topic of patriotism, a number of state and regional programs are implemented in the world and in our country. Social organizations, military heritage clubs, youth tourism centers are actively developing. Their interests include a wide range of events in the field of military heritage tourism. Military-historical tourism includes socio-cultural potential based on common cultural values, national basis, and is aimed at the formation of national self-awareness and identity based on connection with the heroic past of the nation.

Н.Мирзазаде

Значимость туризма военного наследия в современном экономическом развитии

Аннотация

В последние годы туризм военного наследия получил широкое распространение в различных регионах мира. В целях его популяризации и приобщения молодежи к теме патриотизма в мире и в нашей стране реализуется ряд государственных и региональных программ. Активно развиваются общественные организации, клубы военного наследия, центры молодежного туризма. В сферу их интересов входит широкий спектр мероприятий в сфере туризма военного наследия. Военно-исторический туризм включает в себя социокультурный потенциал, основанный на общекультурных ценностях, национальной основе, и направлен на формирование национального самосознания и идентичности, основанной на связи с героическим прошлым нации.

İNSAN KAPİTALI: MAHİYYƏTİ, TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Famil Niftiyev,
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun
elmlər doktoru üzrə dissertantı
e-mail: f.niftiyev@mail.ru

DOİ: 10.30546/2706-7858.2024.3.231
UOT: 331

Xülasə. *Məqalədə Azərbaycanda insan kapitalının mahiyyəti və onun qiymətləndirilməsindən söhbət açılmış, alimlərdən xüsusən təhsil, səhiyyə və mədəniyyət kapitalının təhlilinə geniş yer verilmişdir. Həmçinin insan kapitalının qiymətləndirilməsində çoxölçülü orta kəmiyyət metodu vasitəsilə iqtisadi rayonlara tətbiqi və düsturu verilmiş, insan kapitalının təhlilində əldə edilmiş nəticələr məqalədə öz əksini tapmışdır.*

Açar sözlər: *insan kapitalı, təhsil, səhiyyə, mədəniyyət, qiymətləndirmə.*
Key words: *human capital, education, health, culture, assessment.*
Ключевые слова: *человеческий капитал, образование, здравоохранение, культура, оценка.*

Ümumilikdə problemin qoyuluşu. Azərbaycanda insan kapitalının formalaşması və istifadəsi üçün uyğun olmayan şərtlər onun əsas komponentlərinin müəyyənləşdirilməsi və hərtərəfli təhlili zərurətini aktuallaşdırır. Dünya təcrübəsi sübut edir ki, istənilən sosial-iqtisadi prosesin iqtisadi səmərəliliyi onun genişləndirilmiş təkrar istehsalı nəzərə alınmaqla insan kapitalından asılıdır, çünki sonuncunun strateji əhəmiyyəti həm fərdin, həm də bütövlükdə dövlətin rəqabət qabiliyyətinin təmin edilməsindən ibarətdir. Belə ki, ölkənin iqtisadi rayonları üzrə insan kapitalının qiymətləndirilməsi əsas problemləri və hər bir ərazinin potensialını nəzərə almaqla onun inkişaf perspektivlərini müəyyən etməyə imkan verəcək ki, bu da ölkədə kapital növünün iqtisadi artıma təsirini gücləndirməyə kömək edəcəkdir.

Son tədqiqatların və nəşrlərin təhlili. Amerikalı tədqiqatçı-alimlər, Nobel mükafatı laureatları T.Şults və H.Bekker XX əsrin ikinci yarısından sonra insan kapitalı nəzəriyyəsinin formalaşması ilə iqtisadiyyat elmində böyük nailiyyətlər əldə etmişlər. Sonralar insan kapitalı nəzəriyyəsinin əsas müddəalarına D.Bell, M.Blauq, E.Denison, F.Mahlup, C.Minser, T.Stuart və başqaları kimi Qərb alimlərinin də fikirləri əlavə olundu [4].

Respublikamızın alimləri də insan kapitalının formalaşması, istifadəsi, təkrar istehsalı və qiymətləndirilməsi problemlərinə böyük diqqət yetirmişlər: prof. U.K.Ələkbərov, i.f.d. F.Q.Mikayılov, c.ü.f.d. F.Q.Niftiyev və başqalarının adını qeyd edə bilərik [4].

Ümumi problemin əvvəllər həll olunmamış hissələrinin vurğulanması. Bu proseslərin nəticələrinin gələcək praktiki istifadəsi, xüsusilə insan kapitalının və onun əsas komponentlərinin formalaşdırılması, istifadəsinin səmərəliliyinin artırılması üzrə tövsiyələrin işlənilib hazırlan-

ması insan kapitalının təhlili və qiymətləndirilməsi problemlərində həllini tapmamış qalır.

Məqalənin məqsədi də çoxölçülü orta kəmiyyət metodundan istifadə etməklə Azərbaycanın regionları üzrə onun əsas komponentlərinin müəyyən edilməsi yolu ilə insan kapitalının təhlili və qiymətləndirilməsinə yeni yanaşmanın hazırlanmasıdır.

Əsas tədqiqat materialının təqdimatı. Bu gün dünya iqtisadiyyatının inkişafı çətin mərhələ dövründədir. İqtisadi və siyasi böhran, təbii sərvətlərin azalması, texnogen fəlakətlər və digər neqativ təsirlər sahibkarları istehsal ehtiyatları axtarmağa, maddi resurslardan və istehsal güclərindən səmərəli istifadə etməyə, innovasiyaları tətbiq etməyə, istehsal olunan məhsullarda insan əməyinin xüsusi çəkisini artırmağa məcbur edir. Buna əsaslanaraq alimlər insan kapitalının tədqiqinə, onun formalaşmasına, inkişafına, təkrar istehsalına, qorunmasına və iqtisadiyyatda istifadəsinə getdikcə daha çox diqqət yetirirlər.

Cəmiyyətin intellektuallaşmasının müasir şəraitində inkişafın əsas mənbəyi insan kapitalıdır. Məhz o iqtisadi sistemlərin rəqabət qabiliyyətini müəyyən edir və onların inkişafı üçün əsas resurs kimi çıxış edir. İqtisadiyyatın insan resurslarını yaratmaq və səmərəli istifadə etmək qabiliyyəti getdikcə xalqın iqtisadi gücünü, onun rifahını müəyyən edir. İnsan kapitalı investisiyalar nəticəsində formalaşmış və ya inkişaf etmiş, eləcə də insanların topladığı müəyyən bir sağlamlıq, bilik, bacarıq, qabiliyyət, motivasiya və digər məhsuldar keyfiyyətlər kimi müəyyən edilə bilər. O iqtisadi fəaliyyətin müəyyən bir sahəsində məqsədyönlü şəkildə istifadə olunur, əmək məhsuldarlığının artmasına kömək edir və bunun sayəsində sahibinin gəlirlərinin artmasına təsir göstərir [1]. İnsan kapitalı istehsal, maliyyə, sosial və digər proseslərin idarə edilməsinin bütün səviyyələrində – müəssisədən (təşkilatdan), bütövlükdə dövlətə qədər səmərəli inkişafın əsas amilinə çevrilir. Bu, təkcə əmtəə və ya xidmətlərin istehsalı və dövriyyəsi prosesində səhv hesablamaların aşkar olduğu maddi istehsal sahəsinə deyil, həm də ictimai həyatın bütün proseslərinə aiddir [2].

Yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, insan kapitalı insanın cəmiyyətin sosial-iqtisadi inkişafının yüksəldilməsi üçün istifadə olunan xassələri, bilik, bacarıq və vərdişləridir. O hər bir cəmiyyət üçün sərvətdir, ən yüksək dəyərlərdən biridir, qabaqcıl dövlətlərin liderliyinin, rəqabət qabiliyyətinin və s. onun yığılması prosesi insanın həyatı boyu davam edir.

İqtisadi mühitdə müasir bazar transformasiyaları iqtisadiyyatın sürətli inkişafına təkan verir və texnoloji proseslərin daim modernləşdirilməsini tələb edir. Məhz ona görə də insan kapitalı kimi sosial-iqtisadi inkişafın mühüm resursu böyük əhəmiyyət kəsb edir və onun təhlilinə, eləcə də qiymətləndirilməsinə ehtiyac yaranır.

Bu gün alimlər həm kəmiyyət, həm də keyfiyyət göstəricilərindən istifadə etməklə insan kapitalının təhlili və qiymətləndirilməsi üçün müxtəlif üsul və vasitələrdən bəhrələnməyi təklif edirlər. Diqqətimizi onun əsas komponentləri nəzərə alınmaqla ölkənin iqtisadi rayonlarında insan kapitalının təhlili və qiymətləndirilməsinin kifayət qədər sadə metodunun tətbiqinə yönəltməyi zəruri hesab edirik. Tədqiqatın məntiqini müəyyən etməklə insan kapitalının təhlili üçün məlumat modelini hazırladıq *(şəkil 1)*.



Şəkil 1. İnsan kapitalının təhlilinin informasiya modeli [3]

İnanırıq ki, ölkə üçün müasir şəraitdə insan kapitalının əsas komponentləri təhsil, səhiyyə və mədəniyyət kapitalıdır. İnsan kapitalının əsas komponentlərinin belə seçilməsi onunla bağlıdır ki, onun formalaşması və inkişafı bir çox amillərdən – müxtəlif məhsuldarlıq qabiliyyətləri, biliklər, sağlamlıq vəziyyəti, məlumat əldə etmək, peşəkar mobillik, ehtiyaclar, əhalinin mədəniyyət səviyyəsi və s. asılıdır. Biz Dövlət Statistika Komitəsi tərəfindən dərc edilmiş, geniş istifadə üçün mövcud olan və insan kapitalının əsas struktur komponentlərinin vəziyyətini kifa-

yət qədər tam təhlil edən və qiymətləndirən göstəricilər matrisini təklif edirik *(cədvəl 1)*.

Biz ölkənin iqtisadi rayonlarında insan kapitalını onun əsas struktur komponentləri baxımından çoxölçülü orta kəmiyyət metodundan istifadə edərək qiymətləndirəcəyik: təhsil kapitalı, səhiyyə kapitalı və mədəniyyət kapitalı [3]. Burada, N – Azərbaycanın iqtisadi rayonu (adı); n – iqtisadi rayonların sayı (14); i – regionun seriya nömrəsi (i=1,2...n); X – müəyyən bir kapital komponentinin (adının) qiymətləndirilməsinin göstəricisi; k – qiymətləndirmə göstəricilərinin sayı; (müəyyən edilmiş qədərdir). Xüsusilə təhsil kapitalı üçün 3, səhiyyə kapitalı üçün 4, mədəniyyət kapitalı üçün 2 müəyyən etdik; j qiymətləndirmə göstəricisinin seriya nömrəsidir (j=1,2... k).

Cədvəl 1.

İnsan kapitalının qiymətləndirilməsinin fərdi göstəriciləri

İnsan kapitalının struktur komponentləri	**İnsan kapitalının qiymətləndirilməsinin göstəriciləri**
Təhsil kapitalı	• hər 10.000 nəfərə düşən universitet tələbələrinin sayı; • ali təhsil müəssisəsi üzrə elmi dərəcəsi olan professor-müəllim heyətinin sayı, şəxslər; • hər 10.000 nəfərə düşən ali təhsilli əhalinin sayı.
Səhiyyə (Sağlamlıq) kapitalı	• ilin sonuna olan xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi, şəxslər; • hər 10.000 nəfərə stasionar xəstəxana çarpayılarının olması; • hər 10.000 nəfərə düşən bütün ixtisaslar üzrə həkimlərin sayı; • hər 10.000 nəfərə düşən xəstəxana müəssisələrinin sayı.
Mədəniyyət kapitalı	• əhalinin hər 1000 nəfərə düşən mədəniyyət (klub, teatr, konsert, muzey və s.) müəssisələri ilə təminatı, vahid; • ildə orta hesabla əhalinin hər 1000 nəfərə düşən mədəniyyət müəssisələrində iştirakçıların sayı.

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Respublikanın insan kapitalını regionlar baxımından qiymətləndirmək üçün çoxölçülü orta kəmiyyət metodundan istifadə edirik. Çoxölçülü orta kəmiyyət bir populyasiya vahidi üçün bir neçə xüsusiyyətin orta qiymətidir. Müxtəlif xüsusiyyətlərin mütləq qiymətlərinə əsaslanaraq orta dəyəri hesablamaq mümkün olmadığından çoxölçülü orta kəmiyyət nisbi dəyərlərdən müəyyən edilir. Ona görə də Azərbaycanın insan kapitalının bölgələri baxımından təhlili və qiymətləndirilməsi üçün Dövlət Statistika Komitəsinin nisbi göstəricilərindən istifadə edilməlidir. Çoxölçülü orta sıra nömrələri i (i=1,2,3,...,N) olan N – vahidlərin statistik populyasiyası üçün hesablanmış törəmə dəyərdir, k–xüsusiyyəti (x) sıra nömrələri ilə j (j=1,2...k). Birincisi, populyasiyanın hər bir dəyərindəki hər bir xüsusiyyətin (x) qiymətlərinin Pij nisbəti onun orta dəyərinə nisbəti [3]:

$$P_{ij} = \frac{X_{ij}}{X_j} \qquad (1)$$

Burada, Xij – əhalinin i-ci vahidində j-ci qiymətləndirmə göstəricisinin qiyməti, xj-j-ci qiymətləndirmə göstəricisinin orta qiymətidir.

Bundan sonra əhalinin hər bir vahidi üçün bu nisbətlərin ortası müəyyən edilir ki, bu da çoxölçülü ortalama adlanır:

$$p_i = \sum p_{ij}/k$$

İnsan kapitalının ayrı-ayrı struktur komponentlərinin (təhsil kapitalı, səhiyyə kapitalı və mədəniyyət kapitalı) qiymətləndirilməsi üçün hesablama cədvəli aşağıdakı kimidir *(cədvəl 2)*.

Cədvəl 2.

Kapitalın qiymətləndirilməsi üçün hesablama cədvəli

İqtisadi rayonlar	Kapital göstəriciləri						Yekun qiymətləndirmə
	X_1	$P_{ij}=\frac{X_{ij}}{X_j}$ P_{i1}	X_2	P_{i2}	X_3	P_{i3}	$P_i=\sum P_{ij}/3$
Abşeron-Xızı							
Gəncə-Daşkəsən							
Şəki-Zaqatala							
-							
-							

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Alimlərin fikrincə, insan kapitalı əmək məhsuldarlığının artımında əsas amildir və bu amilin təsiri durmadan artır. İndi isə insanlara investisiyalar, onların yaradıcı, elmi, intellektual və innovativ potensialı ölkə üçün prioritet strateji əhəmiyyət kəsb edir: məqsədyönlü və proqram məqsədli funksional investisiyalar, həm insanlar, həm də cəmiyyət üçün faydalıdır, çünki onlar əmək məhsuldarlığının artımını təmin edir, istehsalın səmərəliliyi və ölkənin iqtisadi artımının tədricən təsiri artır. Belə ki, respublikada sosial inkişaf fondlarının yaradılması yolu ilə səmərəli, effektiv daxili investisiya sistemi qurulmalı və bu fondlar gələcəkdə güclü investisiya institutlarına və vətəndaşların əmanətlərinin cəlb edilməsinə çevrilməlidir. İnsan kapitalının inkişafı üçün müəyyən tədbirlərin həyata keçirilməsi də məqsədəuyğundur: insan inkişafı üçün maliyyələşdirmə səviyyəsini (təhsilə, səhiyyəyə, mədəniyyətə xərclərin artırılması) tədricən insan kapitalının inkişafı səviyyəsi yüksək olan ölkələr qrupu səviyyəsinə yüksəltmək; özünüməşğulluğun və mikro sahibkarlığın stimullaşdırılması üçün məqsədli proqramlar hazırlamaq; insanların yaradıcılıq potensialının aktivləşdirilməsi və yüksəkixtisaslı işçi qüvvəsinin inkişafını təmin etmək və s.

Təhsilin iqtisadi artıma mühüm töhfəsi ondan ibarətdir ki, o işçi qüvvəsini məhsuldar biliklərlə təmin edir, yeni biliklərin toplanılmasına kömək edir, yeni ideyaların yaradılması və onların həyata keçirilməsi prosesini stimullaşdırır.

Nəticə. Sonda belə qənaətə gəldik ki, insan kapitalı geniş mənada iqtisadiyyatın və cəmiyyətin inkişafının intensiv məhsuldar amilidir ki, bu da əmək ehtiyatlarının təhsilli hissəsini, biliklərini, əqli və idarəetmə əməyinin alətlərini, yaşayış mühitini və əmək fəaliyyətini özündə ehtiva edir. İnsan kapitalı qloballaşma şəraitində ölkə iqtisadiyyatının və dövlətin dünya bazarlarında rəqabətqabiliyyətliliyinin qorunub saxlanılmasının zəruri şərti olmaqla yanaşı, ölkədə qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinin ən mühüm xarakteristikası və təhlilidir. Azərbaycanın bölgələrində insan kapitalının dəyərinin ölçülməsi üsulları öz göstəricilər sistemimizi və milli iqtisadiyyat səviyyəsində onun dəyərini ölçmək üsullarını inkişaf etdirməyə imkan verdi. Məhz ona görə də bu aspektlər gələcəkdə əlavə elmi araşdırmalar və ən uyğun həll yollarının axtarışını tələb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Гришнова О.А. Экономика труда и социально-трудовые отношения (учебник). К.: Знание, 2004, 535 с.
2. Хромов М.И. Экономическое развитие в единстве процессов формирования и использования человеческого капитала. Экономика и правительство, 2010, №1, с.57-61.
3. Мормоза А.Т. Теория статистики (учеб. пособие). К.Центр учебной литературы, 2013, 592 с.
4. Niftiyev F.Q. İnsan kapitalı haqqında təsviri nəzəriyyələr. Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər (II Beynəlxalq elmi konfransın materialları), MDU, 2022, №1, s.235-237.

F.Niftiyev

Human capital: its nature, analysis and assessment features

Abstract

The article discusses the nature of human capital in Azerbaijan and its evaluation, and the analysis of the educational, health and cultural capital of scientists is given ample space.

Also, in the assessment of human capital, the application and formula of the multidimensional average quantitative method to economic regions were given, and the results obtained in the analysis of human capital were reflected in the article.

Ф.Нифтиев

Человеческий капитал: его природа, особенности анализа и оценки

Аннотация

В статье рассматривается природа человеческого капитала в Азербайджане и его оценка, а анализу образовательного, медицинского и культурного капитала ученых отведено достаточно места. Также при оценке человеческого капитала дано применение и формула многомерного среднеколичественного метода по экономическим регионам, а также отражены результаты, полученные при анализе человеческого капитала.

ÜRƏK FƏALİYYƏTİNİN MƏSAFƏDƏN MONİTORİNQİ SİSTEMİNİN ALQORİTMİK VƏ APARAT-PROQRAM TƏMİNATI MƏSƏLƏLƏRİ

İzzət Piriyev,
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı
e-mail: izzetpiriyev.n@gmail.com

DOİ: 10.30546/2706-7858.2024.3.232
UOT: 28

Xülasə. *Ürək-damar sistemi (ÜDS) xəstəliklərinin vaxtında aşkar edilməsini və müalicəsini təmin etmək üçün insanın ÜDS-nin əsas fizioloji parametrlərinin məsafədən monitorinqi sahəsində bir çox aparat-proqram kompleksi yaradılmışdır. Məqalədə ürək-damar sistemindəki pozğunluqların məsafədən monitorinqi sisteminin alqoritmik və aparat-proqram təminatı məsələləri təhlil edilmiş, bioloji obyektlərin məsafədən monitorinqi üçün texniki vasitələrin layihələndirilməsi zamanı istifadə olunan komponentlər və onların xüsusiyyətləri göstərilmişdir. Aritmiya meydana gəldikdə həkim-mütəxəssislərin pasiyentin EKQ siqnallarını real vaxt rejimində nəzərdən keçirməsi üçün xəbərdarlıq siqnalı alqoritminin iş axını diqqətdə saxlanılan məsafədən monitorinq sistemi ilə adi EKQ sistemləri müqayisəli təhlil edilmiş, üstünlükləri və mənfi cəhətləri vurğulanmışdır.*

Açar sözlər: *aritmiylar, məsafədən monitorinq, teletibb, həyəcan siqnalı, aparat-proqram kompleksi, sensorlar, siqnalların ötürülməsi.*
Key words: *arrhythmias, remote monitoring, telemedicine, warning signal, hardware-software complex, sensors, signal transmission.*
Ключевые слова: *аритмии, дистанционный мониторинг, телемедицина, сигнал предупреждения, программно-аппаратный комплекс, датчики, передача сигнала.*

Bu gün qəfil ölümlərin əksəriyyəti xroniki xəstəliklər və bütün dünyada əsas ölüm səbəblərindən olan ürək-damar sistemi xəstəlikləri nəticəsində baş verir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) paylaşdığı məlumatlara əsasən, hər il təxminən 17,9 milyon insan müxtəlif ürək xəstəliklərindən həyatını itirir [1]. Bu xəstəliklərin ağırlığını nəzərə alaraq, bir çox tədqiqatçı araşdırmalarını ürək-damar xəstəlikləri və ürək sağlamlığına yönəltmişdir. Bundan əlavə, xəstəxanalarda, klinikalarda və digər əlaqəli səhiyyə müəssisələrində istifadə üçün ənənəvi ürək-damar diaqnostikası texnologiyalarının təkmilləşdirilməsi yollarının öyrənilməsinə böyük diqqət yetirilmişdir. Bu tədqiqat sahəsində artan səylər ürək funksiyasının skrininqi və diaqnostikası texnologiyasında bir sıra irəliləyişlərə səbəb olmuşdur. Müxtəlif ürək anomaliyaları elektrokardioqram (EKQ) analizi kimi tanınan sadə, risksiz və ucuz ürək testindən istifadə etməklə yoxlanılır və qiymətləndirilir. Hər bir EKQ ürək döyüntüsü siqnalında üç görkəmli dalğa var: P dalğası, QRS kompleksi və T dalğası. Bu dalğaların qısa müddət ərzində (<30 dəq)

aşkarlanması kəskin skrininq və diaqnostika üçün böyük müvəffəqiyyət və dəqiqliklə həyata keçirilmişdir. Digər tərəfdən ürək-damar xəstəliklərinin erkən aşkarlanması, ev şəraitində geyinilə bilən ağıllı cihazlara, mobil telefonlara, ağıllı paltarlara və qulluq nöqtəsi cihazlarına qoşulan EKQ elektrodları vasitəsilə EKQ siqnallarının uzunmüddətli monitorinqini tələb edir. Məsafədən monitorinqdə istifadə olunan qurğular, adətən simsiz rabitədən istifadə edir və geniş enerji resursları tələb edə bilər [2].

Aktuallıq

Xəstələrin funksional vəziyyətinin məsafədən diaqnostikası və xəstəliklərin vaxtında aşkar edilməsini və müalicəsini təmin etmək üçün insanın ürək-damar sisteminin (ÜDS) əsas fizioloji parametrlərinin məsafədən monitorinqi sahəsində bir çox aparat-proqram kompleksi yaradılmışdır. Ürək ritmlərin, aritmiyaların və digər ürək-damar sistemi parametrlərinin məsafədən monitorinqi üçün tibbi aparat-proqram təminatı sistemini inkişaf etdirmək, tibbi məsafədən telemetriya avadanlıqlarının əhatə dairəsini genişləndirmək, həmçinin tibbi xidmətlərin keyfiyyətinin təkmilləşdirilməsi biotibbi mühəndisliyin aktual mövzularından birinə çevrilmişdir. Tibbi telemetriya üçün məlum olan kommersiya qurğuları qəbul edilən məlumatın müəyyən miqdarını və əlaqənin çevikliyini təmin etmir. “Apple” və “Samsung” brendlərinin xarici cihazları bahalıdır və kifayət qədər sensorlar və kommunikasiya protokolları dəstinə malikdir ki, bu da onların biotibbi tədqiqatlarda geniş istifadəsinə imkan vermir [3].

Bu istiqamətdə xroniki, şəkər və ürək xəstəlikləri olan xəstələrin vəziyyətinin məsafədən monitorinqi üçün çoxpilləli intellektual sistemin hazırlanması istiqamətində də bir çox tədqiqatlar aparılmışdır. Ürək fəaliyyətinin məsafədən monitorinqi sistemində əsas diqqət ürək-damar sistemi xəstəlikləri nümunəsindən istifadə etməklə, bioloji obyektlərin vəziyyətinin məsafədən monitorinqi üçün aparat-proqram tibbi kompleksinin qurulması metodlarının, xassələrinin və xüsusiyyətlərinin öyrənilməsinə verilir. Xəstənin sağlamlıq vəziyyətinin uzunmüddətli məsafədən monitorinq texnologiyası təhlükəli ürək döyüntüsü aritmiyalarının aşkarlanmasının effektivliyini artırmağa imkan verir. Məsafədən monitorinq sistemləri vasitəsilə məlumatların toplanılması həm tibb işçilərinin yükünü asanlaşdırır, həm də xəstələrlə təmasların sayını azaldır və onların psixoloji vəziyyətini yaxşılaşdırır.

Məsafədən monitorinq üçün texniki vasitələrin layihələndirilməsi

Bioloji obyektlərin məsafədən monitorinqi üçün texniki vasitələrin layihələndirilməsinin əsas vəzifəsi müasir riyazi vasitələrdən istifadə etməklə proseslərin adekvat modellərini yaratmaq və informasiya-ölçmə sistemlərində ən müasir yanaşma əsasında informasiyanın emalının düzgün üsullarını hazırlamaqdır. Aparat-proqram kompleksinin struktur diaqramının təşkili üsulunu müəyyən edərkən əsas diqqət aşağıdakılara yönəldilməlidir:

– *yüksək etibarlılıq və müdaxilələrə qarşı toxunulmazlıq;*

– *kompleksin funksionallığını və onun istehsal qabiliyyətini artıran fizioloji siqnalların qeydə alınması və emalı üçün biotibbi sistemin arxitekturasının qurulması metodu;*

– *paralel proseslərin müəyyən edilməsi məsələsinin həlli üçün verilənlərin paylanılmasının riyazi modeli və fiziki təqdimatı;*

– *tibbi informasiya sistemləri ilə uzlaşma, biotibbi verilənlərin mübadiləsi standartına uyğun olaraq informasiya mühitində məlumatların ötürülməsi imkanının təmini;*

– *ötürülən biotibbi məlumatların zamana görə sinxronlaşmasını təmin etməli;*

– *bir sıra fizioloji siqnalların qeydiyyatı, saxlanılması, emalı, təhlili funksiyasını təmin etmək üsulu: nəbz, temperatur, elektrokardioqramlar və s. ürək-damar sistemi xəstəliklərinin uzaqdan monitorinqi üçün aparat-proqram kompleksi.*

Ürək ritmlərinin məsafədən qeydiyyatının müxtəlif qurğuları arasındakı qarşılıqlı əlaqənin təsvir edilməsi, vahid kommunikasiya standartının istifadə olunması vacibdir [3-4]. Məsafədən EKQ monitorinq sistemini layihələndirərkən ***şəkil 1-də*** sxematik şəkildə ümumiləşdirildiyi kimi bir çox komponentlər nəzərə alınmalıdır.



Şəkil 1. Məsafədən EKQ monitorinq sistemlərinin dizayn prosesində nəzərə alınmalı komponentləri

Bu komponentlər birlikdə effektiv və dəqiqliklə işləyən bir məsafədən EKQ monitorinq sistemini təşkil edir. İstifadəçilərin keyfiyyətli və müstəqil monitorinq və müşahidə imkanlarına malik olmasını təmin etmək üçün bu komponentlərin effektiv bir şəkildə birləşdirilməsi əhəmiyyətli rol oynayır. Onların əsas xüsusiyyətləri *cədvəl 1-də* verilmişdir [5].

Cədvəl 1.
Məsafədən EKQ monitorinq sisteminin komponentləri

Komponent	Xüsusiyyətləri
Elektrodlar/sensorlar	Dəri ilə yaxşı təmas, aşağı elektrod-toxuma empedansı, biouyğunluq. Mövcud növlər: Ag/AgCl, quru, izolyasiya edilmiş, tekstil əsaslı və mikro iynəli.
Analoq ön hissə	Toxuma gərginliyini və temperatur monitorinqini izləyə bilən çoxlu seçmə kanalları olan monitorinq çipidir. Analoq ön hissə çiplərinə 16 bitlik ARÇ, yüksək gərginlikli multipleksorlar və SPI interfeysi daxildir.
Məlumatların alınması sistemi	İlkin emal komponentləri: gücləndiricilər, multipleksorlar, ARÇ, rabitə modulları.
Rəqəmsal siqnal emalı sistemi	Real vaxt rejimində işləmə üçün mikro nəzarətçi.
Simsiz texnologiyalar	IR, Bluetooth, WiFi, RF, mobil rabitənin son nəsil texnologiyaları (4G, LTE, 5G) və WAN.
Enerji istehlakı	Aşağı güclü komponentlər və proqram təminatı, dinamik güc tənzimləmə üsulları və enerji yığma üsulları.

Sistem arxitekturası

Məsafədən EKQ monitorinq sistemi, adətən EKQ məlumatlarını toplamaq, ötürmək, emal və təhlil etmək üçün birlikdə işləyən bir neçə komponenti əhatə edir. Belə bir sistem üçün ümumiləşdirilmiş arxitektura (1) xəstə interfeysindən, yəni ölçü cihazı (sensor) səviyyəsindən, (2) android cihazından, yəni smartfondan və *şəkil 2-də* göstərildiyi kimi web portaldan (3) ibarətdir.



Şəkil 2. Məsafədən monitorinq üçün sistem arxitekturası

Sistemin birinci pilləsi xəstənin tibbi məlumatlarını toplamaq üçün istifadə olunan sensorlardan

ibarət olan xəstə interfeysidir. Bu səviyyə xəstənin taxdığı cihazlardan real vaxt rejimində məlumatı (ingiliscə, HR-Heart Rhythm, ürək ritmi) aşağı enerjili Bluetooth vasitəsilə sistemin ikinci səviyyəsinə ötürür. İkinci səviyyə sensorlardan pasiyentin məlumatlarını çıxartmaq üçün istifadə edilən smartfondan ibarətdir. Daxili simsiz şəbəkəyə malik smartfonu GPRS, 3G və ya digər Wi-Fi şəbəkələri vasitəsilə web portalla əlaqə saxlamaq imkanına malikdir. Bundan əlavə, smartfonun daxili GPS proqramı müşahidə altında olan şəxslərin yerini (pasiyentin yeri cihaza quraşdırılmış geolokasiya aparatlarından istifadə etməklə təyin edilir) öyrənməyə kömək edir. Üçüncü səviyyədə web portal SQLite daxili məlumat bazasından məlumatları çıxararaq GPRS/3G və ya Wi-Fi vasitəsilə onlayn MySQL-ə ötürür. Web portal sensorlardan xəstələrin məlumatlarını əldə edən və onları identifikasiya üçün yer və şəxsi məlumatlarla birlikdə həkim interfeysi kimi tanınan web interfeysində nümayiş etdirən platformadır [6].

Siqnalların məsafədən monitorinqi zamanı alınan tibbi ölçmə məlumatlarının emalında müxtəlif süni intellekt (Sİ), maşın öyrənmə, dərin öyrənmə, filtrləmə və digər alqoritmlər tətbiq olunur. Bu alqoritmlər əsasında aritmiyaların avtomatik aşkarlanması, ürəyin işemik xəstəliyi olan xəstələrdə asimptomatik miokard işemiyasının qiymətləndirilməsi və s. patologiyaların aşkarlanmasını asanlaşdırır [6-7].

Xəbərdarlıq siqnalı alqoritmi

Sistem ritm pozğunluğu olan hallarda müvafiq həkimi xəbərdar etmək üçün xəbərdarlıq siqnalları yaradır. Xəbərdarlığın vaxtında çatdırılması və cavablandırılması üçün xəbərdarlıq siqnalları müxtəlif rabitə kanalları vasitəsilə göndərilir. Bunlara e-poçt xəbərdarlıqları, SMS xəbərdarlıqları, xüsusi mobil tətbiq bildirişləri və klinik sistemlərlə inteqrasiya vasitələri ola bilər. Xəbərdarlıq sistemi *şəkil 2-də* göstərildiyi alqoritminə əsaslanır [6]. Əvvəldən təyin edilmiş dəyərlər əsasında orta ürək ritm dəyərlərindən kənara çıxdıqda sistem xəbərdarlıq siqnalı yaradır. ***Cədvəl 1-də*** verilmiş həddi dəyərlər Amerika Ürək Assosiasiyasının (AUA) və Avropa Hipertoniya Cəmiyyətinin hesabatından götürülmüşdür [8-9].

Cədvəl 2.
Həyəcan siqnalı üçün ritm dəyərləri

Sinus ritm növü	Ürək ritmləri
Normal	$60 \leq HR \leq 100$ (vuruş/dəqiqə)
Bradikardiya	$HR \leq 60$ (vuruş/dəqiqə)
Taxikardiya	$HR \geq 100$ (vuruş/dəqiqə)

Xəbərdarlıq siqnalı sistemi yuxarı və aşağı hədd dəyərləri prinsipi ilə işləyən ümumiləşdirilmiş monitorinq modelidir. Müxtəlif yaş qrupları üzrə hədd dəyərləri ***cədvəl 3-də*** təqdim olunur. Sistem xəstənin tibbi məlumatlarını verilmiş həddi dəyərlərlə müqayisə edir və ölçülmüş dəyər yuxarı və ya aşağı hədlərini keçərsə xəbərdarlıq siqnalı yaradır.



Şəkil 3. Xəbərdarlıq siqnalı alqoritmi
(HR-ürək ritmləri, BPM-dəqiqədə döyüntülərin abreviaturası)

Xəbərdarlıq mexanizmi yaş qrupuna görə hər xəstənin monitorinqi üçün fərdiləşdirilə bilər, çünki təklif olunan xəbərdarlıq siqnalı sistemi müxtəlif hədd dəyərlərini qəbul edir və hədd səviyyələrinin qiymətləri fərdlərin ürək həyati parametrləri əsasında müəyyən edilə bilər. Sistem hər hansı bir dəyişikliyin olub-olmadığını öyrənmək üçün hər on dəqiqədən sonra ürək ritmlərini əvvəlki dəyərlərlə müqayisə edir.

Cədvəl 3.
Xəbərdarlıq mexanizmi üçün yaşa görə hədd dəyərləri

Parametrlər/yaş	18–35 yaş	36–64 yaş	64-dən yuxarı
Normal ürək ritmi	72–75 (BPM)	76–79 (BPM)	70–73 (BPM)
Bradikardiya	HR ≤ 55	HR ≤ 60	HR ≤ 65
Taxikardiya	HR ≥ 110	HR ≥ 120	HR ≥ 100

AÜA-nın məlumatına görə xəstələrin 90%-i ürək tutmasından əvvəl özlərini yüksək risk altında hesab edə bilmirlər. Beləliklə, anormallıq halında onlara xəbərdarlıq siqnalları ilə məlumat verməklə riski minimuma endirmək olar. AÜA ürəyin həyati əlamətlərinin qəfil düşməsi və ya yüksəlməsi ilə kardioloqa həyəcan mesajı göndərilməsi arasında ideal vaxtın 4-6 dəqiqə arasında olmasını tövsiyə edir ki, bu da xəstəsini xilas etmək üçün qızıl dövr adlanır [6, 8,10].

Məsafədən EKQ monitorinq sistemlərinin ənənəvi sistemlərlə müqayisəsi

Məsafədən EKQ monitorinq sistemlərinin ənənəvi sistemlərlə müqayisədə bir sıra üstünlükləri olmaqla yanaşı, hər birinin özünəməxsus məhdudiyyətləri də var. İstifadə edilən senariya və tələblərə görə hər hansı birinin uyğun olduğu təyin edilə bilər. Ümumiləşdirilmiş halda bu sistemlərin müqayisəsi *cədvəl 4-də* verilmişdir [3, 5].

Cədvəl 4.
Məsafədən EKQ monitorinq sistemlərinin ənənəvi sistemlərlə müqayisəsi

	Simsiz EKQ	Ənənəvi EKQ
Xarakteristikalar	*Üstünlükləri*	
	Daşıma qabiliyyəti	Çətin avadanlıq
	Nisbətən aşağı qiymət	Yüksək xərc
	Simsiz rabitə	Kabel vasitəsilə sabit məlumat ötürülməsi
	Klinik mühitdən kənar istifadə imkanı	Xəstəxana/ambulator ölçmələr
	Məsafədən monitorinq imkanı	Ölçmə zamanı həkim-mütəxəssisə ehtiyac
	Uzunmüddətli ölçmə imkanı	Alınma vaxtı məhduddur
	Mənfi cəhətləri	
	Müdaxilə problemlərinə qarşı həssaslıq və əlaqə itkisi	Kabelli əlaqə
	Uzunmüddətli monitorinq üçün elektrodların biouyğunluğu	Standart elektrodların uyğunluğu (nisbətən qısamüddətli ölçmə)

Nəticə. Simsiz rabitə və sensor texnologiyasındakı irəliləyişlər real vaxt rejimində səhiyyə monitorinq sistemlərinin əhatə dairəsini genişləndirir. Məsafədən EKQ monitorinq sistemləri istifadəçilərin (sağlam insanların və xəstələrin, həm də tibb işçilərinin) sərbəst hərəkətlərini və normal həyat tərzini, gündəlik hərəkətlərini, naqillərin mövcudluğu ilə maneə törətmədən müayinə etmək üçün istifadə edilir, çünki monitorinq altında olan şəxs böyük bir cihaza bağlanmamalıdır. Üstəlik, avtomatik EKQ təsnifatı üçün alqoritmlərin inkişafı, səhv diaqnoz problemlərini və həkimlərin canlı iştirak ehtiyacını azaltmaq potensialına malikdir. Nəticə etibarilə bütün səhiyyə keyfiyyəti gücləndirilir, həm də distant monitorinqin normal həyat şəraitində həyata keçirilə bilməsi gündəlik fəaliyyətlərə imkan verir.

İstifadə edilmiş ədəbiyyat

1. World Health Organisation (WHO).
https://www.who.int/europe/health-topics/cancer/cardiovascular-diseases#tab=tab_

2. Elgendi M., Al-Ali A., Mohamed A., Ward R. Improving Remote Health Monitoring: A Low-Complexity ECG Compression Approach. Diagnostics, 2018, 8, 10.

3. Magrupov, Talat M. Yuldashev Zafar M. Abdihalikov Seit P. A Medical Hardware-Software

System for Remote Monitoring of Heart Diseases. Radioelectronics. 2021, vol. 24, no. 2, pp.78-86.

4. İsmayılova K.Ş. Biotibbi siqnallar və biotibbi informasiyanın işlənilməsi və analizi. Mühazirələr konspekti. Bakı, 2015, ADNSU.

5. Gloria Cosoli, Susanna Spinsante, Francesco Scardulla, Leonardo D'Acquisto, Lorenzo Scalise.,Wireless ECG and cardiac monitoring systems: State of the art, available commercial devices and useful electronic components., Measurement 177, 2021, 109243.

6. Priyanka Kakria N.K. Tripathi and Peerapong Kitipawang. A Real-Time Health Monitoring System for Remote Cardiac Patients Using Smartphone and Wearable Sensors. International Journal of Telemedicine and Applications 2015, doi.org/10.1155/2015/373474.

7. Bin Jiang, Nengbin Dong, Jinliang Shou, Limei Cao, Kai Hu, Wencheng Liu and Xia Qi. Effectiveness of artificial intelligent cardiac remote monitoring system for evaluating asymptomatic myocardial ischemia in patients with coronary heart disease. Am J Transl Res. 2021, 13 (10). 11653-11661.

8. Rautaharju, P.M. Surawicz B. and Gettes L.S. "AHA/ACCF/HRS recommendations for the standardization and interpretation of the electrocardiogram: part IV: the ST segment, T and U waves, and the QT interval a scientific statement from the American Heart Association Electrocardiography and Arrhythmias Committee, Council on Clinical Cardiology; the American College of Cardiology Foundation; and the Heart Rhythm Society Endorsed by the International Society for Computerized Electrocardiology", Journal of the American College of Cardiology. 2009, vol. 53, no. 11, pp.982-991.

9. Committee G. "2003 European Society of Hypertension-European Society of Cardiology guidelines for the management of arterial hypertension", Journal of Hypertension. 2003, vol. 21, no. 6, pp.1011-1053.

10. Wellens, H.J.J. Gorgels A.P. and Munter H. de "Cardiac arrest outside of a hospital how can we improve results of resuscitation?" Circulation. 2003, vol. 107, no. 15, pp.1948-1950.

I.Piriyev

Algorithmic and hardware-software issues of remote heart activity monitoring system

Abstract

In order to ensure timely detection and treatment of cardiovascular system (CVD) diseases, many hardware-software complexes have been created in the field of remote monitoring of the main physiological parameters of the human CVD. In the article, the algorithmic and hardware-software issues of the remote monitoring of disorders in the cardiovascular system were analyzed, the components and their characteristics used in the design of technical means for remote monitoring of biological objects were shown. The workflow of the warning signal algorithm for real-time review of the patient's ECG signals by medical specialists when arrhythmia occurs was reviewed, the remote monitoring system and conventional ECG systems were compared, and the advantages and disadvantages were highlighted.

И.Пириев

Вопросы, связанные с алгоритмическим и аппаратно-программным обеспечением системы дистанционного мониторинга сердечной деятельности

Аннотация

Для обеспечения своевременного выявления и лечения заболеваний сердечно-сосудистой системы (ССЗ) создано множество аппаратно-программных комплексов в области дистанционного мониторинга основных физиологических параметров ССЗ человека. В статье проанализированы алгоритмические и программно-аппаратные вопросы дистанционного мониторинга нарушений сердечно-сосудистой системы, показаны компоненты и их характеристики, используемые при создании технических средств дистанционного мониторинга биологических объектов. Рассмотрена схема работы алгоритма сигнала предупреждения для просмотра в режиме реального времени сигналов ЭКГ пациента медицинскими специалистами при возникновении аритмии, проведено сравнение системы дистанционного мониторинга и традиционных систем ЭКГ, выделены преимущества и недостатки.

PEŞƏ TƏHSİLİNDƏ İNNOVATİV YANAŞMA

Könül Ələkbərova,
Peşə Təhsili üzrə Dövlət Agentliyinin
Peşə təhsilinin təşkili və təhsilverənlərlə iş
şöbəsinin Təhsilverənlərlə iş sektorunun müdiri
e-mail: Konul.Alakbarova@ptda.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.234

Kənd təsərrüfatı sektoru ölkənin iqtisadi inkişafında əvəzolunmaz bir yer tutur və bu sahənin mütəxəssislərinin hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bu sahədə gənc kadrlarının peşəkar təcrübə və biliklərinin artırılması məqsədi ilə **"Almaniyada Beynəlxalq Kənd Təsərrüfatı Təcrübə Proqramı"** layihəsi həyata keçirilir. Bu proqram çərçivəsində tələbələr Almaniyanın cənub regionlarında fəaliyyət göstərən fermer təsərrüfatlarında təcrübə keçərək, kənd təsərrüfatı sahəsində ən müasir metod və texnologiyalarla tanış olurlar. Sözügedən proqram Almaniyanın "Agrar Kontakte International" (AKI) təşkilatı tərəfindən icra edilir.

Agrar Kontakte International (AKI) Almaniyanın Baden-Württemberg əyalətində yerləşən qeyri-kommersiya təşkilatıdır. Bu təşkilat 1991-ci ildə Almaniyanın regional fermerlər birliyi tərəfindən təsis edilmiş və 1998-ci ildən etibarən müstəqil bir təşkilat olaraq fəaliyyətini davam etdirir. AKI kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən gənc mütəxəssislər üçün peşə təhsilinin təcrübə proqramlarını həyata keçirir və 30 ildən artıq bir müddətdə müxtəlif ölkələrdən olan tələbələrin bu proqramda iştirakını təmin edir. Təşkilatın əsas məqsədi kənd təsərrüfatında müasir texnologiyaların və innovativ metodların tətbiqini təşviq etməkdir.

AKI-nin əsas fəaliyyət istiqaməti gənc kadrların kənd təsərrüfatı sahəsində peşəkar inkişafını təmin etmək və onlara "öyrənərək tətbiqetmə" yanaşması ilə praktiki biliklər qazandırmaqdır. Təşkilat bu məqsədlə Almaniyanın cənub regionlarında kiçik və orta ailə təsərrüfatları ilə əməkdaşlıq edir. Bu fermer təsərrüfatlarında təcrübəyə cəlb edilən tələbələr gündəlik işlərdə aktiv iştirak edərək təcrübə keçir, bilik və bacarıqlarını inkişaf etdirirlər.

Peşə təhsilində innovativ yanaşma: "öyrənərək tətbiqetmə"

Beynəlxalq təcrübə proqramı çərçivəsində tətbiq olunan *"öyrənərək tətbiqetmə"* yanaşması peşə təhsilində innovativ bir model kimi çıxış edir. Bu yanaşma tələbələrin nəzəri biliklərini real iş şəraitində praktiki olaraq tətbiq etmələrini təmin edir. Tələbələr Almaniyada yaşadıqları müddətdə ailə təsərrüfatlarının bir üzvü kimi fəaliyyət göstərir, təsərrüfat işlərinin müxtəlif sahələrində təcrübə qazanırlar. Bu praktiki təlim tələbələrin kənd təsərrüfatı sahəsində müasir texnologiyaları və metodları öyrənmələrinə şərait yaradır və onları gələcəkdə öz ölkələrində tətbiq edə biləcəkləri yeniliklərlə təmin edir.

AKI-nin təşkil etdiyi bu proqram çərçivəsində

tələbələr həm heyvandarlıq, həm də bitkiçilik sahəsində müxtəlif işlərdə iştirak edirlər. Proqramın əsas xüsusiyyətlərindən biri də tələbələrin yalnız kənd təsərrüfatı işlərinə deyil, həm də alman mədəniyyəti və dilinə inteqrasiya olunmasıdır. Tələbələr Almaniyada qaldıqları müddətdə alman dilində təlim alır və bu dil biliklərini gündəlik iş prosesində aktiv istifadə edirlər. Bu, onların kommunikasiya bacarıqlarını artırır və beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini yüksəldir.

İnnovativ yanaşmanın uğurlu nəticələri

İnnovativ yanaşmanın nəticəsi olaraq, 2023-cü ilin aprel ayında Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi və Bərdə Dövlət Peşə Təhsil Mərkəzinin bir qrup tələbəsi **"Almaniyada Beynəlxalq Kənd Təsərrüfatı Təhsil Proqramı"** layihəsində iştirak etmək hüququ qazanmışdır. Təşkilatın nümayəndələri tərəfindən *"bitkiçilik" mütəxəssisi, "heyvandarlıq" mütəxəssisi, "bağban-dekorator", "aqroservis" mütəxəssisi, "genişprofilli traktorçu-maşinist"* kimi kənd təsərrüfatı ixtisasları üzrə təhsil alan tələbələrin müsahibəsi baş tutmuş və müsahibədən 11 tələbəmiz uğurla keçmiş və Almaniyanın Ştutqart şəhərinin müxtəlif regionlarında gənc fermerler üçün 8 aylıq kənd təsərrüfatının təcrübə proqramına cəlb olunmuşdur. Onlar kənd təsərrüfatı sahəsində praktiki biliklər qazanmaqla Almaniyanın qabaqcıl texnologiyaları ilə yaxından tanış olmuş və öz sahələrində peşəkar bacarıqlarını inkişaf etdirmişlər. Təcrübə 6 dekabr 2023-cü ildə başa çatmış və proqramı uğurla bitirən hər bir tələbəmiz sertifikatla təltif olunmuşdur.

Təcrübə proqramının əsas məqsədi Almaniya və tərəfdaş ölkələr arasında ikitərəfli əlaqələrin inkişafı, eyni zamanda Azərbaycanda kənd təsərrüfatı sahəsinə səmərəli töhfə verməkdən ibarətdir. İnanırıq ki, tələbələr Azərbaycana qayıtdıqdan sonra öz ölkələrinin kənd təsərrüfatı sektorunda müasir metodların tətbiqi və innovativ texnologiyaların yayılmasına töhfə verəcəklər. Bu proqramın uğuru Peşə Təhsili üzrə Dövlət Agentliyinin innovativ yanaşması və peşə təhsilinə olan xüsusi diqqətinin nəticəsidir.

"Almaniyada Beynəlxalq Kənd Təsərrüfatı Təcrübə Proqramı" və onun icrasında AKI təşkilatının rolu, Azərbaycanın kənd təsərrüfatı sektorunda peşə təhsilinə innovativ yanaşmanın vacibliyini bir daha ön plana çıxarır. Bu proqram tələbələrə nəzəri bilikləri praktiki təcrübə ilə birləşdirmə imkanı verir ki, bu da onları gələcəkdə öz təsərrüfatlarını daha səmərəli və dayanıqlı şəkildə idarə etmək üçün hazırlayır.

Peşə Təhsili üzrə Dövlət Agentliyi kənd təsərrüfatı sektorunda peşə təhsilinin inkişafı və müasir yanaşmaların tətbiqi istiqamətində fəal iş aparır. Almaniyada təcrübə proqramını tətbiq etməkdə Agentliyin əsas məqsədi tələbələrin yalnız nəzəri biliklərlə kifayətlənməyərək onları müasir kənd təsərrüfatı texnologiyaları və innovativ metodlarla tanış etməkdir. Bu istiqamətdə həyata keçirilən "Almaniyada Beynəlxalq Kənd Təsərrüfatı Təcrübə Proqramı" kimi layihələr agentliyin kənd təsərrüfatı sahəsində yüksəkixtisaslı kadrların hazırlanması üçün göstərdiyi səylərin bariz nümunəsidir. Peşə Təhsili üzrə Dövlət Agentliyi belə proqramları və layihələri dəstəkləməklə Azərbaycanın kənd təsərrüfatı sektorunda səmərəli və dayanıqlı inkişafın təmin olunmasına, eləcə də beynəlxalq təcrübələrin ölkəmizdə tətbiqinə mühüm töhfə verir. Bu yanaşma ölkəmizin kənd təsərrüfatı sahəsində rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına və aqrar sahədə davamlı inkişafa şərait yaradır.

AZƏRBAYCAN 47-Cİ BEYNƏLXALQ "WORLDSKİLLS" YARIŞLARINDA

Rəfail Əliyev,
layihə koordinatoru
e-mail: rafail.aliyev@vet.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.236

Son illər ölkəmizdə peşə təhsilinə dövlətin diqqət və qayğısı nəticəsində məzunlarımız bir-birinin ardınca uğurlara imza atır, öz bacarıqları ilə dünya arenasına çıxa bilirlər. Məhz gənclərimizin bu mötəbər yarışda ən azından iştirakı və uğurlu peşə təqdimatları da bu istiqamətdə əldə edilən nailiyyətlərdəndir.

Məlumat üçün bildirək ki, Beynəlxalq "WorldSkills" təşkilatı dünyanın ən nüfuzlu bacarıq olimpiadasının təşkilatçısı kimi gənclərin peşə təhsilinə marağının artırılması və maarifləndirilməsi istiqamətində fəaliyyət göstərir. Habelə təşkilat əmək bazarının tələblərinə və qlobal standartlara uyğun peşəkarlar yetişdirmək, həmin standartları təhsil sisteminə inteqrasiya etmək üçün də imkanlar yaradır. Azərbaycan Respublikası "WorldSkills International" təşkilatına 2020-ci ildə 85-ci üzv olaraq qoşulmuş və 2023-cü ildə isə "WorldSkills Azerbaijan" İctimai Birliyi peşələr üzrə texniki bacarıq və kompetensiyaların inkişafına dəstək verilməsi, bacarıq olimpiadalarının təşkili və koordinasiyası üçün milli platformanın təmin olunması məqsədi ilə qeydiyyata alınmışdır.

10-15 sentyabr 2024 tarixlərində Fransanın Lion şəhərində 47-ci Beynəlxalq "WorldSkills" yarışları təşkil edilmişdir. Tədbirin rəsmi açılış mərasimi 10 sentyabr tarixində Liondakı "LDLC" arenasında keçirilmişdir. 11-14 sentyabr tarixlərində isə 69 ölkədən gəlmiş 1400-ə qədər iştirakçı 62 fərqli sahədə öz bacarıqlarını nümayiş etdirmişlər. Ölkəmiz bu yarışlarda 6 bacarıq istiqamətində *(qaynaq, aşpaz, veb-texnologiyalar, 3D rəqəmsal oyun sənəti, kiber-təhlükəsizlik və*

saç ustası) 7 yarışçı ilə təmsil olunmuşdur.

Beynəlxalq "WorldSkills" yarışları hər iki ildən bir təşkil edilməklə peşə təhsili sahəsinin dünyada daha da inkişafına töhfə verməkdədir. Budəfəki yarışların rəsmi şüarı *"Bacarıq olan yerdə yol da var" (Where there is a skill there is a way)* şəklində idi. 1400-ə yaxın yarışçının və 1300-dən artıq ekspertin iştirakı ilə budəfəki yarışlar ən geniş həcmli tədbirlərdən biri kimi yadda qaldı. Qeyd edək ki, sözügedən yarışlara ən böyük heyətlə Çin Xalq Respublikasının komandası qatılmışdır. Belə ki, ÇXR komandası 59 fərqli peşə sahəsi üzrə 68 yarışçı ilə bu kateqoriyadakı siyahıya başçılıq edirdi. Ev sahibi olan Fransa komandası isə 54 ayrı bacarıq istiqamətindən 63 iştirakçı ilə təmsil olunurdu. Əlavə olaraq onu da qeyd edək ki, yarışların keçirilməsi və təşkili prosesində 1200-dən artıq könüllünün əməyindən yararlanılmışdır. Bu könüllülərin 500-ə yaxını Fransaya digər ölkələrdən gəlmişdirlər.

Azərbaycan nümayəndə heyəti tərəfindən yarışlar çərçivəsində dünyada texniki və peşə təhsili sahəsinin inkişafı istiqamətində fəaliyyət göstərən beynəlxalq sponsor və tərəfdaşlar da daxil olmaqla bir sıra xarici rəsmi nümayəndələrlə görüşlər keçirilmişdir. Həmin toplantılar zamanı bu sahədəki qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, qarşılıqlı fikir mübadiləsinin aparılması və müvafiq sahədə ölkəmizlə bağlı gələcək əməkdaşlıq perspektivləri müzakirə edilmişdir. Bütün bunlarla yanaşı, sözügedən yarışlar çərçivəsində Beynəlxalq "WorldSkills" Təşkilatının Baş Assambleyası da daxil olmaqla bir sıra iclaslar keçirilmişdir. Həmin toplantılar zamanı təşkilatın gələcəklə bağlı başlıca fəaliyyət istiqamətləri də daxil olmaqla bir sıra strateji məsələlər müzakirə edilmişdir. Bundan başqa, 2028-ci ildəki yarışlara ev sahibinin müəyyən edilməsi üçün səsvermə də keçirilmişdir. Belə ki, 2028-ci ildə keçirilməsi planlaşdırılan yarışlara ev sahibliyi uğrunda əvvəlcə iki ölkə – Yaponiya (Aichi şəhəri) və Kanada (Toronto şəhəri) öz namizədliklərini irəli sürmüşdülər. Lakin səsvermədən öncə Kanadanın öz namizədliyini gözlənilmədən geri götürməsi ilə Yaponiya 2028-ci ildəki "WorldSkills" yarışlarına ev sahibliyi üçün yeganə namizəd qalmış və səsvermədən qalib çıxaraq bu hüququ rəsmən əldə etmişdir.

Son olaraq onu da qeyd edək ki, ölkəmiz 2020-ci ildə Beynəlxalq "WorldSkills" təşkilatına üzv olduqdan sonra ilk dəfə idi ki, bu tədbirdə bütöv heyətlə iştirak edirdi. Sözügedən tədbirdə ölkəmizi Rəsmi Nümayəndə statusunda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov təmsil etmişdir.

Diqqətinizə onu da çatdırırıq ki, 2022-ci ildəki "Special Edition" adı verilən Beynəlxalq "WorldSkills" yarışları 15 fərqli ölkənin 26 ayrı şəhərində və müxtəlif vaxtlarda təşkil edilmişdir. Bu baxımdan Liondakı yarışlar ölkəmiz üçün bir ilk idi. Növbəti yarışlar isə 2026-cı ilin sentyabr ayında Çinin Şanxay şəhərindən təşkil ediləcəkdir.

THE ROLE OF WOMEN'S EDUCATION ON INTRAHOUSEHOLD TIME ALLOCATION

Punhan Huseynov,
Doctoral student of Azerbaijan State University of Economics
e-mail: punhan.huseynov@socar.az

DOİ: 10.30546/2706-7858.2024.3.238
UOT: 371; 390

Abstract. *This study employs the division of household chores and factors which have impact on it. Firstly we analysed the situation in developed countries by using OLS test, but in our extension we added some different independent variables to explain household time fraction for another developed country, Germany. In addition, we searched the relationship between the division of household chores and social norms, thus this relationship allows us to explain the non-linearities associated to the division of household chores.*

Key words: *household chores, factor, labor, society, education.*
Açar sözlər: *ev işləri, amil, əmək, cəmiyyət, təhsil.*
Ключевые слова: *домашние дела, фактор, труд, общество, образование.*

Introduction

The division of household labor is an issue that cuts across countries, genders and all types of relationships, from married couples to roommates and all of these show the importance and actuality of this issue.

In this paper intrahousehold allocation of time is analyzed. Most previous time allocation studies have defined household chores as an aggregate of different home activities. Most of them have similar results that the characterisrics of household chores have important influence in determining of sharing of them. On the other hand, economic factors such as relative wages, demographic factors (number of children, living in rural or city etc.), education (mother's education level) seem to have significant effect on intrahousehold time allocation. The research of Olga Zajkowska proves that all these factors have considerable role on this rate.

In Addition, sharing the household chores has significant effects on our social lives such as on fertility, divorcing parents etc. Special focus has been given to the so called lowest-low fertility countries, i.e., those countries, with fertility persisting well below replacement levels. Among these countries, Spain, Italy and Japan are the leading examples with average total fertility rates of 1.2. Below replacement fertility presents new economic challenges for a society, as it changes the age structure of the population and may require structural adaptations with important implications for welfare.

Method

In these paper, data have been collected for seven developed countries - Belgium, Hungary, Slovakia, Poland, Czech, Estonia, Lithuania. The ages of women are between 18-60 with their partners. The aim of the model is to find answers of following questions:

– How is housework divided?

– Do both absolute and relative income matter?

– Does the specialization model still work? Does it depend on female labour supply?

– Is there a trade off between household production and market services?

– Reduced versus structural form?

In this model our independent variables are below:

– *labour supply;*
– *partner's labour supply;*
– *joint household time supply;*
– *rural area;*
– *income share;*
– *mother's education;*
– *gross wage;*
– *children under three;*
– *children under six.*

Other explanatory variables are living in these seven developed countries as we mentioned before.

OLS test result

hh time frac [%]	Coef.	Std. Dev.	z	p-vaule
labor supply [h]	-0.0819	0.0231	-3.54	0.000
partner's labor supply [h]	0.0534	0.0164	3.25	0.001
joint household time supply	-0.1711	0.0168	-10.19	0.000
rural area	-1.7880	0.7441	-2.40	0.016
income share	-0.1430	0.0161	-8.89	0.000
mother's education	-0.9030	0.2261	-3.99	0.000
gross wage	-0.0028	0.0007	-4.08	0.000
children under 3	3.5693	0.8885	4.02	0.000
children under 6	2.7895	0.9214	3.03	0.002
BG	5.3046	1.2500	4.24	0.000
CZ	1.3660	1.2745	1.07	0.284
EE	-4.6078	1.3136	-3.51	0.000
HU	3.4601	1.3175	2.63	0.009
LT	-2.3458	1.4188	-1.65	0.098
SK	-2.5223	1.3192	-1.91	0.056
const	85.9079	1.7317	49.61	0.000
R^2	=	0.1338		

Source: Paper of Olga Zajkowska

According to the result of OLS test, we can emphasize that all variables are significant except living in Czech Republic. Living in Belgium has really high positive influence (5.3) on the household time fraction, on the contrast the most negative influence is belong to living in Estonia, thus the coefficient is -4.6. It is noteworthy to mention that there is a negative relationship between the age of the children and household time fraction, so if couples have a child under 3 then it has positive influence on it (3.56), nevertheless if they have a child under 6 then the influence is positive again, but the amount of coefficient is less than previous one.

In this test, we have six developed countries, but our result shows that they have different impact on the division of household labour, thus three of them (BG, CZ, HU) have positive effect, others (EE, LT, SK) have negative influence. That's why, these results prove that despite the similarity of the level of country's development they have miscellaneous impacts on our dependent variable. Owing to this outcome, we can infer that there are some other factors which affect the division of household chores. In one of our extensions, we will analyze the relationship between social norms and housework division.

Conclusion. Firstly, According to our results from OLS, we can say that Intra-household time allocation is influenced by financial input into household budget and engagement into paid work (minor effects!) – OLS and all quantiles.

In addition, there is a tendency that "children are women thing".

Mother's education is significant factor in determining of household time allocation. But, having the children under 3 and 6 are the most important factors which influence this rate, thus there is a negative relationship between the ages of children and household time fraction.

It is noteworthy to mention that despite the similarity of the level of country's development they have miscellaneous impacts on the division of household chores and according to this result, we can say that some other factors such as social norms should be analysed.

Extensions:

Household chores division in Azerbaijan which is a developing country, what are the differences regarding with explanatory factors between developed and developing countries?

One of the most significant reason to choose Azerbaijan is the existence of great conservatism among Azeri people. Before independence of Azerbaijan (before 1991, under Soviet Union) this indicator was greater than current situation, however after getting liberty it has being decreased so fast, creation of the State Committee for Family, Women and children affairs of Republic of Azerbaijan was one of the most important measure for the policy to decrease conservatism and all these factors have great impact on family issues, especially on the division of household chores.

To analyse housework division in Azerbaijan we are going to use OLS model to find the

influence of explanatory variable on our dependent variable household chores division. In this case, we have 7 independent variables:

1. ***School enrolment*** – it shows the percentage of people in total population who have primary education level, our variable is continuous.

2. ***GDP*** – this explanatory variable indicates GDP per capita.

3. ***Female labour*** – the percentage of female labor forces in the total number of women.

4. ***Spending on education*** – expenditures on education in the total spending of governmental budget.

5. ***Urban population*** – it shows the percentage of people who live in urban area.

6. ***Agriculture employment*** – the percentage of people who work in agriculture sector.

7. ***Birth rate*** – it indicates the rate of birth per 1000 people.

All our independent variables are continuous and our explained variable is hh division – household chores division. Our main hypothesis is following:

– Improvement in education has positive impact on housework division.

– GDP influences positively to our independent variable.

– Female labour has positive impact.

– Spending on education has positive influence.

– Increasing number of urban population has positive effect.

– Agriculture employment has negative impact.

– Birth rate per 1000 people has positive impact on household chores division.

Our dataset belongs from 2004 to 2012. Firstly we should emphasize that positive rate in school enrolment results an increase in household chores division, the following graph shows the relationship between household chores division and school enrolment:

Our results prove this tendency



Regression model estimation and conclusions

According to our results, most our our explanatory variables are not significant, only three of them – Female labour, spending on education, birth rate are significant if our alpha is 0.15. It is obviously seen that Female labour force has positive influence on household chores division, we have positive coefficient 0.37 which prove our hypothesis that Female labour – the percentage of female labour forces in the total number of women. However spending on education has negative influence on our dependent variable and according to this result we should reject our hypothesis that expenditures on education in the total spending of governmental budget. It is noteworthy to mention that we should reject our hypothesis that birth rate per 1000 people has positive impact on household chores division, because our coefficient is negative which shows negative relationship between our explanatory and explained variables. Another significant point is that in our OLS result school enrolment is not significant independent variable and we assume that this is because of some local traditions in Azerbaijan.

To conclude our results, we can mention that most of our results are different from the results in developed countries. Thus most of our independent variables are insignificant, however in both results female labour supply has positive influence on household chores.

There is a tendency that "children are women thing" which is stronger than developed countries and moreover some traditions have great influence on this rate. We can say that these factors have more influence on household chores in developing countries than developed, that is why some of our factors were not significant.

Social Norms and Household time allocation:

Economic theories of the household predict that increase in the female relative human capital lead to decreases in female housework time. However, longitudinal and cross-sectional evidence seems to contradict this implication. One of the most important factors on this contradiction is

social norms and in this part we will analyse the relationship between them. According to the Spanish Time Use Survey (STUS), first wives who earn more than their husbands still undertake more than half of the housework. Second, female's share of housework decreases as their relative earnings increases, but only up the point when they earn the same amount of money as their husbands. All these findings show that social norms should be considered in the division of household chores.

The data used for STUS is drawn from 2002-2003 and it consists of a representative sample of 20 603 households and contains information on their daily activities. The instrument of survey is based upon a dairy activities, where all members of the households are 10 years old and over complete on a selected day (the same day for all selected members of household). There are 3 types of women according to their income:

– *women who earn less than their husband;*
– *earn the same as their husbands;*
– *earn more than their husbands.*

household chores. On average, a woman's share of total housework time is 0.76 when she earns less than her husband, 0.71 when she earns the same amount, 0.68 when she earns more than her husband.

Another surprising result of STUS is that the weekday and weekend have important influence on the housework time allocation. Thus, during the weekend household specialization does not decrease with relative earnings for women, it actually increases.

All these results of STUS show that there is a social tendency "household chores are women things". Our findings suggest that a women's relative share of housework does not change with spouse's relative earnings. These results provides some evidence of social norms associated to the household division of labour. Economic theories of household predict that increase in female human capital lead to symmetrically decrease in the amount of share of women in the housework division. However STUS showed the non-linearities associated to the division of household chores.

Housework, paid labor and relative earnings

	Husband	Wife	Ratio	Obs.
Net monthly earnings		Daily minutes of housework		
Wife earns less than husband	82.36	228.53	0.76	1017
	(98.96)	(126.39)	(0.22)	
Wife earns the same as husband	92.30	204.33	0.71	792
	(101.85)	(124.39)	(0.25)	
Wife earns more than husband	86.90	188.57	0.68	199
	(84.11)	(112.67)	(0.24)	
		Daily minutes of paidwork		
Wife earns less than husband	406.97	310.42	0.43	1017
	(245.89)	(208.94)	(0.22)	
Wife earns the same as husband	390.49	331.38	0.46	792
	(246.55)	(214.66)	(0.21)	
Wife earns more than husband	406.47	334.33	0.45	199
	(221.55)	(196.55)	(0.18)	

Note: Standard deviation in parenthesis.

Source: Cristina Fernandes "Social Norms and Household time allocation"

But, from the survey we got surprising results with respect to how the time that both spouses devote to housework and paid work changes with respect to spouse's relative earnings. When a wife's earnings are more , equal or less than her partner, it shows that the variation of household specialization, defined as the time the woman spends in any housework over the total amount of time than both spouses spends in this activity. Even women contributed to more than 50% of household income engage in more than 50% of

Results:

The women's rising labour force participation has positive relationship on household chores division. However women's relative share of housework does not change with spouse's relative earnings. These results provides some evidence of social norms associated to the household division of labour. Thus, it shows that plenty of people think that "household chores are women's issue", that's why this thought leads to the non-linear relations between women's and men's shares in

total family income.

In addition, we analysed the relationship between division of housework and family divorce. Our results showed that the women's rising labour force participation decreases their financial independence and it reduces the value of marriage. While the hours of female working outside increase, meanwhile the hours of women dealing with household chores decrease. Thus, division of housework has positive impact on family divorce.

Another important factor which affects this division is social norms. As we mentioned before, there is non-linearity between female's income and housework division, the main reason of this relationship is this factor. Thus, some "trend ideas" such as "females should care about children", "this is women's issue" create this non-linearity.

Furthermore according to our OLS results, it is obviously seen that situations are different in developed and developing countries. Such as education was significant factor which had negative impact on household chores division in developed countries, however this factor was insignificant for developing country, Azerbaijan. All these results prove the importance of local traditions on this issue such as "household chores are women's issue", this thought is stronger in developing country than developed one.

Reference

1. Bernard Fortin and Guy Lacroix. A Test of the Unitary and Collective Models of Household Labour Supply. Economic Journal, 1997, 107, pp.933-55.

2. Souza-Poza, Alfonso, Hans Schmid, and Rolf Widmer. The Allocation and Value of Time Assigned to Housework and Child Care: an Analysis for Switzerland. Journal of Population Economics, 2001, 14, pp.599-618.

3. Korenman, Sanders, Mei Liao and June O'Neill. Gender Differences in Time Use and Labor Market Outcomes.

4. Konrad K.A. and Lommerud K.E. Family policy with non-cooperative families. Scandinavian Journal of Economics, 1995, 97(4), pp.581-601.

5. Spitze G. and South S.J. Women's employment, time expenditure and divorce. Journal of Family Issues, 1985, 6(3), pp.307-329.

6. Sayer L.C. and Bianchi S.M. Women's economic independence and the probability of divorce. Journal of Family Issues, 2000, 21(7), pp.906-943.

7. Manser M. and Brown M. Marriage and household decision-making: A bargaining analysis. International Economic Review, 1980, 21(1), pp.31-44.

8. Ministry of Social Defence of Labor and People of Azerbaijan. http://www.mlspp.gov.az/

9. Article Demography and residence development, Yeni Azerbaycan newspaper, 18.02.2014.

10. The state Committee for Family, Women and children affairs of Republic of Azerbaijan, http://scfwca.gov.az/

11. The World Bank dataset. www.worldbank.org

P.Hüseynov

Ailədaxili vaxtın bölüşdürülməsində qadınların təhsilinin rolu

Xülasə

Bu araşdırmada ev işlərinin bölgüsü və təshil də daxil olmaqla ona təsir edən amillərdən istifadə olunur. Əvvəl OLS testindən istifadə edərək inkişaf etmiş ölkələrdəki vəziyyət təhlil olunur, lakin genişlənmədə başqa bir inkişaf etmiş ölkə olan Almaniya üçün ev təsərrüfatlarının vaxt hissəsini izah etmək üçün bəzi fərqli müstəqil dəyişikliklər əlavə edirik. Bundan əlavə, biz ev işlərinin bölgüsü ilə sosial normalar arasındakı əlaqəni araşdırdıq. Beləliklə, bu əlaqə bizə ev işlərinin bölünməsi ilə əlaqəli qeyri-xəttiliyi izah etməyə imkan verir.

П.Гусейнов

Роль женского образования в распределении внутрисемейного времени

Аннотация

В этом исследовании рассматривается разделение домашних дел и факторы, которые на него влияют. Сначала мы проанализировали ситуацию в развитых странах с помощью теста OLS, но в нашем расширении мы добавили несколько различных независимых переменных для объяснения доли времени, затрачиваемого на домашнее хозяйство, для другой развитой страны, Германии. Кроме того, мы исследовали связь между разделением домашних дел и социальными нормами, таким образом, эта связь позволяет нам объяснить нелинейности, связанные с разделением домашних дел.

Peşə təhsili və insan kapitalı. Cild 7, №3, 2024, s.81-84

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ PEŞƏYÖNÜMÜ İŞİNİN TƏŞKİLİ

Mehriban Eyvazova,
Azərbaycan Respublikası Təhsil İnstitutunun
Peşə və ömürboyu təhsilin proqramları
şöbəsinin baş mütəxəssisi
e-mail: m.eyvazova@arti.edu.az

Günel Fərəcova,
Azərbaycan Respublikası Təhsil İnstitutunun
Peşə və ömürboyu təhsilin
proqramları şöbəsinin mütəxəssisi
e-mail: g.ferecova@arti.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.240

"Peşə" sözü "müəyyən bir təhsil yolu ilə əldə edilən sistemli bilik və bacarıqlara əsaslanan, insanlar üçün faydalı məhsul istehsal edərək və yaxud xidmət göstərərək və bunun müqabilində gəlir gətirən sistemli iş" kimi başa düşülür. Sistemli işin düzgün qurulması nəticəsində əldə edilən uğurlar insana həm iş, həm də şəxsi həyatında xoşbəxtlik şansı verir və öz sosial rifahının yaxşılaşdırılmasına kömək edir. İnsan həyatındakı ictimai nüfuzun artırılması üçün verilən ən mühüm qərarlardan biri olan peşə seçimi getdikcə əhəmiyyət kəsb edərək onun bütün həyatını əhatə edir.

Ümumi təhsil pilləsini bitirən məzunlar şəxsi xüsusiyyətlərinə uyğun peşə seçimi etdikdə gördüyü işlərdən zövq alaraq karyeralarında uğur qazanmalarına nail olurlar. Bunun üçün, ilk növbədə, şəxsin yaşadığı ətraf mühit, həyat tərzi və şərait onun seçdiyi peşəyə uyğun olmalıdır ki, seçim etmək daha asan olsun. Bu baxımdan təhsilini başa vurmuş məzunlar peşə seçimi ilə bağlı qərarsız olmamaları üçün peşəyönümü işinə daha çox diqqətlə yanaşmalıdırlar.

Məzunlar ətrafdakıların təzyiqi, ailəsinin istəyi və əldə edəcəyi gəlirə əsaslanaraq qərar verib çox da uğur qazana bilməyəcəkləri peşə seçimi edirlər. Onların seçdikləri qeyri-real peşə "dönülməz" yol olduğundan, həm şəxsin xoşbəxtliyinə, həm də ölkə iqtisadiyyatında yaratdığı mənfi təsiri inkar etmək olmaz. Peşə seçimi düzgün aparılmazsa, müəyyən bir müddət keçdikdən sonra məzunlar seçimdən narazı qalaraq, peşə və ixtisas sahəsini dəyişmək və yaxud başqa sahələrə üz tutmaq məcburiyyətində qalırlar. Bu isə onların çətinliklərlə qarşılaşaraq yeni peşə seçməsi üçün həm əlavə vaxt, həm də vəsait itkisi yaradır. Bunların baş verməməsi üçün məzunlar vaxtında düzgün seçim edərək öz sevdiyi peşəni seçməli, maraq və həvəslə öyrənməli, həmin sahənin peşəkarı olmalıdırlar. Peşə seçimi zamanı məzunlar öz bilik, bacarıq və tələblərinə uyğun daha da böyük uğurlara imza atmaq üçün diqqətli olmalı, seçmək istədikləri peşələr haqqında bütün incəlikləri öyrənmək üçün tədqiqat aparmalı, məlumatlar toplamalıdırlar. Peşələr haqqında tədqiqat aparmaq ona görə lazımdır ki, əmək bazarı sabit qalmır, daim dəyişir. Ona görə də məzunlar əmək bazarının hazırkı və perspektiv tələbinə uyğun gələcəkdə işsizlik və ya başqa sahələrdə işləmək məcburiyyəti ilə üzləşməmək üçün peşə seçimi zamanı daha çox ehtiyac duyulacaq peşə sahələrinə olan tələbatı nəzərə almalıdırlar. Bu proses, məzunların maraqlarına, şəxsi keyfiyyətlərinə, qabiliyyətlərinə, fizioloji xüsusiyyətlərinə və cəmiyyətin iqtisadi ehtiyaclarına uyğun olaraq peşə istiqamətində düzgün seçim etmələrinə köməklik edir. İnkişaf edən iqtisadiyyat, texnologiyanın sürətli tərəqqisi və əmək bazarında baş verən dəyişikliklər, məktəblərdə peşəyönümü işinin daha da təkmilləşdirilməsini və müasir dövrün tələblərinə uyğunlaşdırılmasını zəruri edir. Peşəyönümü işinin məktəblərdə effektiv təşkili, gənclərin düzgün qərar verməsinə, öz potensiallarını daha yaxşı realizə etmələrinə və cəmiyyətdə faydalı mütəxəssislər kimi formalaşmalarına

şərait yaradır. Məktəblərdə peşəyönümü işinin təşkili zamanı erkən yaşlarda aparılan peşə seçiminə təsir edən amilləri müəyyənləşdirmək üçün aşağıda verilmiş addımlara diqqət yetirmək məqsədəuyğun hesab olunur.

Peşəyönümü işinin aparılması üzrə addımlar:

İnteraktiv üsullar: müxtəlif iş formatlarından istifadə – təlimlər, rol oyunları, keyslər, layihə fəaliyyətlərinin təşkil olunması;

Mütəxəssis dərsləri: müxtəlif sahələr üzrə peşəkarların məktəbdə praktiki dərslər keçmələri üçün dəvət edilməsi;

Müəssisələrə ekskursiyalar: müxtəlif ixtisaslar üzrə mütəxəssislərin hansı iş prosesində işlədiyini görmək üçün istehsalat obyektlərinə, ofislərə, laboratoriyalara səfərlərin, eləcə də uşaq və gənclər üçün müxtəlif düşərgələr, peşələr üzrə klubların təşkil edilməsi;

Təhsil sərgi-yarmarkaları: məktəblilərin universitet, kollec və şirkət nümayəndələri ilə ünsiyyət qura biləcəyi tədbirlərin təşkil edilməsi;

Onlayn platformalar: əmək bazarının cari vəziyyəti və ən çox tələb olunan peşələr haqqında məlumat toplanılması, onlayn peşələr üzrə mütəxəssislər ilə məsləhətləşmələrin aparılması üçün müasir texnologiyalardan istifadə edilməsi;

Psixoloji testlər: şagirdlərin bilik, bacarıq və səriştələri, maraqları, sağlamlıq vəziyyəti, sosial-psixoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün psixoloji testlərdən istifadə edilməsi;

Peşəkar testlər: müxtəlif fəaliyyət növlərində özünü sınamağa imkan verən qısa praktik tapşırıqların verilməsi;

Məsləhət verilməsi: şagirdlərə seçmək istədiyi peşə sahəsi üzrə təhsil alacağı müəssisə ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməsinə köməklik edilməsi;

Səhv seçim riskini azaltmaq: şüurlu şəkildə peşə seçən şagirdin bu sahədə uğur qazanma ehtimalının daha da yüksəldilməsi;

Valideynlər və işəgötürənlərlə əməkdaşlıq: birgə işləməklə məktəblilər üçün vahid dəstək sisteminin yaradılmasına kömək edilməsi.

Valideynin övladına peşə seçimində dəstəyi

Güvənli mühit yaradın: övladını mühakimə etmədən öz düşüncə və hislərini ifadə etməsinə icazə verməli, peşə seçimində övladına təzyiq göstərməməli və yarana biləcək münaqişənin qarşısını almalı;

Məlumat verin: müxtəlif peşələr, təhsil və karyera imkanları barədə informasiya verməli və seçdiyi peşənin müsbət və mənfi cəhətləri haqqında müzakirə aparmalı;

Hobbiləri ilə maraqlanın: övladının asudə vaxtlarında hansı işlərlə məşğul olmağı xoşladığına diqqət yetirməli;

Maraqlarını dəstəkləyin: gələcək peşəni seçərkən övladının şəxsi keyfiyyətlərini, hobbi və istedadını nəzərə almalı, həmin peşə sahəsi üzrə öyrənmək istədiyi fəaliyyətlərin inkişaf etdirilməsində köməklik göstərməli;

Mütəxəssisdən kömək istəyin: əgər peşə seçimində fikir ayrılığı yaranıb çətinlik çəkilirsə, bu zaman məktəb psixoloqundan və ya peşəkar mütəxəssisdən məsləhət alınmalı;

Öz fikrinizi tətbiq etməyin: övladının qərarlarına hörmətlə yanaşmalı, peşə seçimi etmə hüququ verməli;

Sərgiləri, muzeyləri və müəssisələri birlikdə ziyarət edin: övladının dünya görüşünü genişləndirməyə və müxtəlif fəaliyyət sahələri haqqında fikirlər formalaşdırılmasına köməklik göstərməli, onlarda hansısa bir peşəyə erkən yaşda maraq yaranıbsa, ədəbiyyat, dərslər, internet və s. resurslar vasitəsilə bu marağın qoruyub saxlanılmasına imkan yaratmalı;

Fərqli peşələri müzakirə edin: öz peşələri və dostlarının peşələri haqqında müzakirə aparmalı.

Şagirdlərin peşə seçimi zamanı diqqət etməsi lazım olan amillər:

Özünü tanıma: maraq, hobbi, qabiliyyət, dəyər, yumşaq bacarıq və meyillərini müəyyənləşdirmək üçün özlərini qiymətləndirməli;

Peşə aləmini araşdır: müxtəlif fəaliyyət sahələri, işin təsviri, təhsil, təlim, əməkhaqqı, peşəyə aid tələb və perspektiv imkanları haqqında məlumat əldə etməli;

Mütəxəssislərlə görüş: maraqlandığı peşələr üzrə mütəxəssislərlə görüşməli, hansı iş prosesində işlədiyini görmək üçün istehsalat obyektlərinə, ofislərə, laboratoriyalara səfər etməli, məlumatlandırıcı müsahibələr keçirən mütəxəssisləri tapmaq üçün onlayn platformalardan istifadə etməli;

Onlayn sınaq testlər: onlayn psixoloji testlər və praktiki tapşırıqlar vasitəsilə müxtəlif fəaliyyət növlərində özünü sınayaraq qiymətləndirməli;

Qərar qəbul et: bilik, bacarıq və öz daxili aləminin təhlilinə əsaslanaraq və özünə ən çox məmnunluq gətirəcəyini düşündüyü peşəni seçərək düzgün qərar verməli;

Öz bacarıqlarını inkişaf etdir: karyera planlaşdırmağı və hədəflər qoymağı öyrənməli.

Yuxarıda qeyd edilən addımlar üzrə şagirdlərin fərdi ehtiyacları, maraqları, dəyərləri, şəxsi xüsusiyyətləri, spesifik və ümumi qabiliyyətləri, psixoloji amillər, yaşadığı bölgənin xüsusiyyətləri, bazarda tələb-təklif balansı və iş imkanları nəzərə alınaraq gələcəkdə karyeralarını uğurla planlaşdırmaqda kömək edəcəkdir.

Peşəyönümü işi təhsil müəssisələrində şagirdlərə gələcək peşələrini əsaslı şəkildə seçməkdə kömək etməyə yönəldilmiş bir sistemdir. Bu sistemin məqsədi şagirdlərin maraq, qabiliyyət və meyillərini müasir əmək bazarının tələbləri ilə təhsili əlaqələndirməkdir. Ümumi təhsil məktəblərində peşəyönümü işinin təşkili ibtidai təhsil səviyyəsindən başlayaraq şagirdlərin müxtəlif peşə sahələri ilə yaxından tanış olması və bu sahələrin iqtisadiyyatda oynadığı rolu haqqında informasiyanın verilməsi, ilkin bacarıqların formalaşdırılması olduqca önəmli məsələlərdən biridir. Beləliklə, ümumi təhsil məktəblərində aparılan peşəyönümü işinin həyata keçirilməsi böyük əhəmiyyət kəsb etdiyi üçün ömürboyu davam etməlidir.

Şagirdləri peşə seçiminə və əmək fəaliyyətinə hazırlamaq üçün ümumi təhsil məktəblərində müəyyən peşələrin öyrədilməsi məqsədi ilə peşə təmayüllü siniflərin təşkili ciddi əhəmiyyət kəsb edir. Burada əsas məqsəd ümumi orta təhsil bazasında şagirdlərə müxtəlif peşə ixtisasları haqqında informasiya verərək onların peşə təhsilinə hazırlanmasıdır. Həmçinin şagirdlərin peşələr üzrə bilik və səriştələrə yiyələnməsi, inkişaf etdirilməsi yolu ilə əmək bazarının tələbinə uyğun ixtisaslı kadrlar formalaşdırmaqla yanaşı, şagirdlərə ilkin sahibkarlıq bacarıqları aşılayaraq gələcəkdə peşə sahibi kimi öz iş yerlərini qurmaqda dəstək olmaqdır. Şagirdlərin təhsil müddətində peşə vərdişlərinə yiyələnməsi texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, ömürboyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi keçirtmək və ətraf mühitə fəal inteqrasiya olunmaq deməkdir.

2019–2020-ci tədris ilində ümumi təhsil müəssisələrinin X-XI siniflərində Təhsil Nazirliyinin dəstəyi ilə "Peşə təmayüllü siniflər" yaradılmışdır. PTS-in təşkil edildiyi məktəblərdə 4 istiqamət üzrə – xidmət; təmir-tikinti; kənd təsərrüfatı və İKT profillərini əhatə edən 19 ixtisas üzrə tədris aparılır. Hazırda "Peşə təmayüllü siniflər" respublika üzrə 2024–2025-ci tədris ilində 251 məktəb, 447 sinif, 8940-dan artıq şagird sayını əhatə edir.

PTS-də tədrisin təşkili ümumtəhsil fənləri ilə yanaşı, müxtəlif peşə profil istiqamətlərini əhatə edən modullar üzrə əsas səriştələrin mənimsənilməsi yolu ilə həyata keçirilir. Peşə ixtisaslarının fəaliyyətlərini özündə cəmləşdirən modullar şagirdlərdə əmək bazarının tələbatını nəzərə alaraq nəzəri bilik və praktiki səriştələri formalaşdırır.

PTS-in təşkil edildiyi məktəblərdə ixtisas üzrə nəzəri təlimin keçirilməsi üçün nəzərdə tutulan tədris otağı kompüter, printer, proyektor, internet və s. invertarlarla təmin olunmuşdur. İxtisasın praktiki hissəsini mənimsətmək məqsədi ilə emalatxana zəruri alət və avadanlıqlarla təchiz olunmuş, kənd təsərrüfatı profilinin tədrisi üçün isə təcrübə sahəsi ayrılmışdır. Şagirdlər peşə təhsili müəssisələrinin təlim-istehsalat, təsərrüfat sahələrinə, müxtəlif peşə sahələri üzrə işəgötürənlərlə əməkdaşlıq çərçivəsində ayda bir dəfədən az olmayaraq təcrübə səfərlərinə və ya ekskursiyaya cəlb olunurlar. Həmin əməkdaşlığın məqsədi şagirdlərin özlərini müxtəlif fəaliyyətlərdə sınamaq şansı və onlara maraqlı olan peşələrin incəlikləri haqqında: məsələn, maraq göstərdikləri peşə üzrə hansı təhsil səviyyəsi, peşəyə verilən tələb, inkişaf perspektivləri, işin müsbət və mənfi cəhətləri, bu sahədə (peşə, ixtisas) fəaliyyət göstərənlərin əməkhaqları və s. kimi mövzular barəsində həmin peşə sahibləri ilə ünsiyyət quraraq məlumatlar əldə etməklərinə şərait yaratmaqdır. Şagirdlər gələcəkdə seçmək istədikləri peşə ilə təhsil aldıqları fənlər arasında əlaqə gördükdə həmin fənlərə qarşı maraqları artır və daha da yaxşı oxumağa həvəslənirlər. Şagirdlərin ixtisas seçərək düzgün peşəyə yiyələnmələri baxımından peşəyönümü işinin təşkili üzrə maarifləndirmə xarakterli təlimlərin də böyük əhəmiyyəti vardır. Bu məqsədlə 2024-cü ilin fevral-mart aylarında Məktəbin İnkişaf Planı (MİP) reallaşdırılan 227, 238, 18, 38, 51, 162, 154, 91, 35, 75, 159, 111, 276, 284, 301, 178, 242, 260, 265 nömrəli ümumi təhsil məktəblərində VIII və IX sinif şagirdlərinə "Peşə seçiminin əhəmiyyəti" adlı mövzusunda interaktiv təlim keçirilib. Təlim Təhsil İnstitutunun Əlaqələndirmə və Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin birgə əməkdaşlığı ilə təşkil olunub.

Təlimçi qismində ARTİ-nin Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin əməkdaşları – Mehriban Eyvazova, Günel Fərəcova, Gülnar Tahirli, Xəyalə Səftərova və Səlimə Quliyeva iştirak ediblər. Təlimin keçirilməsində əsas məqsəd şagirdləri peşə və yüksək texniki-peşə təhsili müəssisələrində tədris edilən ixtisaslar barədə və YTP təhsil səviyyəsi üzrə məzun olduqdan sonra təhsilini davam etdirmək üçün ali məktəblərə imtahansız qəbul olma qaydaları haqqında maarifləndirmək olub. Şagirdlərə peşə və ixtisasın fərqi, peşə təhsilinin insan həyatındakı rolu, peşə seçiminə təsir edən amillər, düzgün peşə seçimində diqqət ediləcək əsas məqamlar, formal, qeyri-formal və informal təhsil alma üsulları, dual təhsil sistemi, əmək bazarı və karyera haqqında məlumatlar və gələcəkdə peşə seçmələri istiqamətində məsləhətlər verilmişdir. Təlim prosesində şagirdlərə peşə təhsili müəssisələri məzunlarının müxtəlif peşə sahələrindəki nailiyyətlərini əks etdirən mövzular barədə videoçarxlar nümayiş etdirilib, həmçinin interaktiv şəkildə keçirilən təlimdə şagirdlərə peşələrin xüsusiyyətləri haqqında qrup tapşırıqları verilmişdir. Təqdim olunan qrup tapşırığının məqsədi şagirdlərə peşələri tanıtma və onların xüsusiyyətləri haqqında qısa təsəvvür yaratmaq idi.

Peşəyönümü işinin təşkilində aşağıda verilən təkliflərə diqqət edilməsi məqsədəuyğundur:

– xüsusi psixoloji testlərdən istifadə edərək şagirdlərin maraq, qabiliyyət, meyilləri və şəxsi xüsusiyyətləri aşkarlanaraq ilkin diaqnoz təyin etməli;

– xüsusilə IX və XI sinif şagirdləri arasında peşə seçimində qərarsız olan şagirdlər müəyyən edilməli, onların məqsədlərinə hörmət edilərək dəstək verilməli;

– məktəb psixoloqu və ya müəllimi şagirdə maraqlarını anlatmağa, test nəticələrini təhlil etməyə və əsaslandırılmış seçimlər etməyə kömək etməli;

– peşə seçimi ilə bağlı şagirdlər və valideynlər üçün seminarlar təşkil edilməli;

– şagirdlərin hisləri, düşüncələri və münasibətləri nəzərə alınaraq, peşə seçimi ilə bağlı istiqamətləndirilməsi barədə valideynlər məlumatlandırılmalı;

– məqsədi olmayan şagirdlərin istedadı üzə çıxarılmalı, onlara peşələr haqqında ətraflı məlumat verilərək kömək edilməli;

– şagirdlərin öz istedadlarını kəşf etmələri üçün tədbirlər təşkil edilməlidir.

Nəticə. Düzgün qurulmuş peşəyönümü işinin təşkili modeli gənc nəslin uğurlu və peşəkar fəaliyyətə hazırlanması üçün ən yaxşı peşə seçimini əvvəlcədən məntiqi ardıcıllıqla xəritələşdirərək həmin peşəni parametrləri üzrə inkişaf etdirir və optimal nəticə əldə etmə imkanı yaradır.

Peşəyönümü işi məktəbin, ailənin və şagirdin özünün birgə aparacağı bir işdir və bu işin təşkili üzrə istiqamətləndirilən şagirdlər həmyaşıdlarından daha tez seçim edərək qərar verə bilirlər. Valideynlər və müəllimlər də şagirdləri peşə seçiminə yönləndirərkən onların maraqlarına, istedadlarına və dəyərlərinə uyğun seçim etmələrində dəstək olmalıdırlar. Düzgün seçilməyən peşə şagirdin psixoloji vəziyyətinə, şəxsi inkişafına və sosial mühitinə mənfi təsir göstərərək karyerasında uğursuzluğa gətirib çıxaracaqdır. Düzgün seçim yeniyetmələrə məntiqli şəkildə öz yollarını seçməkdə kömək etməklə, onların şəxsi inkişafına və dəyişən dünyaya uğurlu uyğunlaşmasına töhfə verəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili (metodik vəsait). Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı, 2021.

2. İlyasov M. Peşə, ixtisas seçimi (yeniyetmə və gənclər üçün elmi-metodik vəsait). Bakı, 2015.

3. Antoniu E. Career planning process and its role in human resource development. Antoniu E. Annals of the University of Petroşani, Economics, 2010. Volume 10 (2), pp.13-22.

4. Ayriza Y. Exploring Children's Career Interests and Knowledge Based on Holland's Theory. Ayriza Y., Triyanto A., Setiawati F.A. [et. al.] International Journal of Instruction. 2020, Volume 13 (2), p.p.643-662.
http://www.e-iji.net/dosyalar/iji_2020_4_40.pdf

5. Hiebert B., Borgen W.A., Schober K. Career Development: The Role of Guidance and Counselling in Fostering an Increased Range of Educational and Career Alternatives. TVETipedia. 2010, pp.8.
https://unevoc.unesco.org/up/Career_Development.pdf

6. Improving Vocational Education and Training in Schools: A Global Perspective
https://www.oecd.org/education/improving-vocational-education-and-training-in-schools.pdf

PEŞƏ TƏMAYÜLLÜ SİNİFLƏRDƏ TƏDRİSİN EFFEKTİVLİYİNİ ARTIRAN METODİK TÖVSİYƏLƏR

Sona Ağazadə,
Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin aparıcı mütəxəssisi
e-mail: sona.agazade@arti.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.242
UOT: 37

Xülasə. *Məqalədə peşə təmayüllü siniflərdə tədrisin effektivliyini artırmaq üçün iki əsas metodik yanaşma – tədris proqramının planlaşdırılması və müasir texnologiyaların inteqrasiyası öz əksini tapmışdır. Hər iki yanaşma dərs prosesində şagirdlərin təhsil aldıqları peşə ixtisası üzrə dərin bilik və praktiki bacarıqları əldə etmələrini təmin etmək məqsədini güdür. Məqalədə müəllimlərə tədris proqramlarını necə strukturlaşdırmağı və müasir texnologiyalardan necə istifadə etmələri barədə tövsiyələr verilir, həmçinin praktiki nümunələrlə bu yanaşmaların necə həyata keçiriləcəyi izah edilir.*

Açar sözlər: *peşə, tədris proqramı, şagird, metodika, məqsəd, hədəf, qiymətləndirmə, müasir texnologiya, simulyasiya.*
Key words: *profession, curriculum, student, methodology, goal, target, evaluation, modern technology, simulation.*
Ключевые слова: *профессия, учебная программа, студент, методология, цель, задача, оценка, современные технологии, моделирование.*

Peşə təmayüllü siniflər şagirdlərə müəyyən bir peşə sahəsində ilkin praktiki və nəzəri biliklər qazandırmağı hədəfləyir. Bu siniflərdə tətbiq olunan tədris proqramları şagirdlərin təhsil aldıqları ixtisaslar üzrə əmək bazarı və karyera həyatında uğurlu olmaları üçün zəruri olan ilkin bilik və bacarıqlara yiyələnməyi təmin edir.

Peşə təmayüllü sinif şagirdlərinin gələcəkdə müvafiq peşə sahələrində ixtisaslaşması və əmək bazarında rəqabətədavamlı olmaları üçün təhsil proqramlarının tədrisində effektiv üsulların tətbiqi üçün imkanlar yaratmaq olduqca əhəmiyyətlidir. Bu məqsədin həyata keçirilməsi üçün ixtisas müəllimlərindən təkcə proqramdakı mövzular barədə dərin biliklərə sahib olmaları deyil, həm də müasir tədris metodologiyalarını tətbiq etmələri də tələb olunur. Peşə təmayüllü siniflərdə tədris prosesinin effektivliyini artırmaq, şagirdlərin praktiki bacarıqlarını inkişaf etdirmək və onların peşə təhsili sahəsində uğur əldə etmələrini təmin etmək üçün xüsusi metodik yanaşmaların olması olduqca vacibdir. Bu yanaşmalar həm tədris proqramının planlaşdırılmasını, həm də müasir texnologiyaların tədris prosesinə inteqrasiyasını əhatə edir.

1. Tədris proqramının planlaşdırılması

Peşə təmayüllü siniflərdə dərs proqramlarının planlaşdırılması şagirdlərin spesifik peşə sahələrində lazımi bilik və bacarıqları əldə etmə-

lərini təmin etmək məqsədini daşıyır. Bu məqsədin həyata keçirilməsi üçün dərs proqramının məqsəd və hədəflərinin dəqiq şəkildə müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Tədris proqramının planlaşdırılması dərsin məqsəd və hədəflərinin aydın şəkildə müəyyənləşdirilməsindən başlayır.

1.1. Məqsəd və hədəflərin aydın müəyyənləşdirilməsi

Məqsəd dərsin sonunda şagirdlərin əldə etməli olduğu geniş və ümumi nəticəni təmsil edir. Dərsin məqsədini düzgün müəyyənləşdirmək, müəllimə və şagirdlərə dərsin nəyə xidmət etdiyini anlamağa kömək edir və tədris prosesinin daha effektiv olmasını təmin edir. Bu, şagirdlərdə nə öyrənəcəkləri və dərsin hansı nəticələrə gətirib çıxaracağı barədə aydın fikir oyadır.

Hədəflər isə məqsədin daha spesifik və ölçülə bilən alt bölmələridir. Onlar şagirdlərin dərsin sonunda hansı konkret bilik və bacarıqları əldə etməli olduqlarını detallı şəkildə göstərir. Hədəflər şagirdlərin öyrənmə prosesində hansı mərhələlərdən keçməli olduqlarını və nə qədər irəlilədiklərini qiymətləndirmək üçün istifadə edilir. Bu məqsədlərin müəyyən edilməsi dərs planlarının effektivliyini artırır. Peşə təmayüllü siniflərdə dərs proqramının planlaşdırılması şagirdlərin konkret peşə sahəsində praktiki bacarıqlar və nəzəri biliklər əldə etmələrini təmin etməlidir. Dərslərin məqsəd və hədəflərinin dəqiq müəyyənləşdirilməsi şagirdlərin bu bilikləri nə dərəcədə mənimsədiklərini qiymətləndirməyə kömək edir.

Məqsəd və hədəflərin müəyyənləşdirilməsində SMART kriteriyalarından istifadə etmək faydalıdır. Məqsədlərin müəyyən edilməsi üçün konkret, ölçülə bilən və əldə edilə bilən kriteriyalar qoyulmalıdır. SMART kriteriyaları məqsəd və hədəflərin aşağıdakı xüsusiyyətləri daşımalı olduğunu özündə əks etdirir [5].

• **Spesifik (specific):** Məqsəd və hədəflər dəqiq və konkret olmalıdır. Şagirdlər hansı bilik və bacarıqları əldə etməli olduqlarını aydın şəkildə anlamalıdır.

• **Ölçülə bilən (measurable):** Məqsəd və hədəflər ölçülə bilən olmalıdır. Bu, şagirdlərin hansı səviyyəyə çatdığını qiymətləndirmək üçün əhəmiyyətlidir.

• **Əldə edilə bilən (achievable):** Məqsəd və hədəflər realistik və şagirdlərin əldə edə biləcəyi

şəkildə müəyyənləşdirilməlidir.

• **Reallığa əsaslanan (relevant):** Məqsəd və hədəflər şagirdlərin peşə sahəsində lazım olan bilik və bacarıqlara uyğun olmalıdır.

• **Zamanla məhdud (time-bound):** Məqsəd və hədəflərin müəyyən bir zaman çərçivəsində əldə edilməsi tələb olunmalıdır.

Tətbiq nümunəsi

Məqsəd: Şagirdlər isitmə və soyutma sistemlərinin təmirinin əsas prinsiplərini öyrənəcək.

Hədəflər:

– şagirdlər sistem mühərriklərinin əsas komponentlərini tanıyacaq;

– şagirdlər mühərrikin iş prinsipini izah edə biləcək;

– şagirdlər mühərrikin qüsurlarını aşkar edib, sadə təmir işlərini həyata keçirə biləcək.

Bu nümunədə məqsəd və hədəflər spesifik, ölçülə bilən, əldə edilə bilən, reallığa əsaslanan və zamanlı məhdudiyyətə malikdir. Bu yanaşma dərsin sonunda şagirdlərin konkret nə öyrənməli olduqlarını və bu bilikləri necə tətbiq edə biləcəklərini göstərir.

Sual cavab (dərsin möhkəmləndirilməsi): İsitmə və soyutma sisteminin temperaturunun qeyri-sabit olması zamanı hansı təmir işlərini görməyi planlaşdırarsınız? Bu sualla şagirdlərə müraciət etmək dərsin interaktiv olmasını təmin edəcəkdir. Çünki sual-cavab metodunun tətbiq edilməsi zamanı şagirdlər dərsdə aktiv iştirak edir, bu da onların diqqətini artırır və mövzunu daha yaxşı anlamalarına kömək edir. Onlar öz fikirlərini paylaşmağa və müzakirələrdə iştirak etməyə təşviq olunur. Bu, dərsə olan marağı artırır və öyrənmə prosesini daha cəlbedici edir.

Qiymətləndirmə: Məqsəd və hədəflərin müəyyənləşdirilməsi dərs prosesinin qiymətləndirilməsi üçün də vacibdir. Müəllimlər şagirdlərin qoyulmuş məqsəd və hədəflərə nə dərəcədə çatdıqlarını qiymətləndirmək üçün müxtəlif qiymətləndirmə metodlarından istifadə edə bilərlər. Yazılı testlər, praktiki tapşırıqlar və təqdimatlar bu qiymətləndirmə prosesində rol oynaya bilər. Əldə olunan nəticələr dərs proqramını daha da təkmilləşdirmək və şagirdlərin öyrənmə prosesini

dəstəkləməyi təmin edir.

1.2. Modul yanaşma

Modul yanaşma dərs proqramının müxtəlif mövzulara bölünərək hər bir mövzunun sonunda şagirdlərə tətbiqi tapşırıqlar təqdim edilməsini nəzərdə tutur. Hər modulun sonunda həyata keçirilən praktiki işlər şagirdlərin əldə etdikləri bilikləri praktiki olaraq tətbiq etməyə imkan verir. Modul yanaşma peşə dərslərində hər bir mövzunun spesifik bir bölmə olaraq tədris edilməsini təmin edir. Bu yanaşma şagirdlərin praktiki tapşırıqlar vasitəsilə biliklərini tətbiq etmələrini asanlaşdırır.

Modul qiymətləndirməsi: Hər modulun sonunda şagirdlərin bilik və bacarıqlarını qiymətləndirmək üçün müxtəlif qiymətləndirmə metodları tətbiq edilməlidir. KSQ-dən əlavə, keçirilmiş yazılı testlər, praktiki layihələr, təqdimatlar, qrup işləri və fərdi tədqiqatlar bu qiymətləndirmələrin bir hissəsi ola bilər [2].

1.3. Şagirdlərin motivasiyasını artırmaq və fəal iştirakını təmin etmək

1.3.1. Motivasiya strategiyaları:

• **Məqsəd təyini:** Şagirdlərin şəxsi məqsədləri ilə dərs məqsədlərini əlaqələndirmək öyrənmə prosesini daha mənalı edir.

• **Uğur hekayələri (motivasiya çıxışları):** Peşə sahələrində ixtisaslaşmış mütəxəssislərin peşə təmayüllü siniflərdən məzun olmuş və ixtisası üzrə uğur hekayəsi olan şəxsləri dərslərə dəvət etmək şagirdlərin motivasiyasını artırır.

• **Gələcək perspektivlər:** Şagirdlərə əldə etdikləri bilik və bacarıqların gələcəkdə necə tətbiq oluna biləcəyini göstərmək.

1.3.2. Effektiv iştirakın artırılması:

Fərdi yanaşmaların tətbiqi şagirdlərin effektiv iştirakını təmin edən başlıca amildir. Bunun üçün tədris materiallarının təqdimatı zamanı şagirdlərin öyrənmə tərzlərinə uyğun tədris materiallarından istifadə etmək, öyrənmə stilinə uyğun fərdiləşdirilmiş dərs planları hazırlamaq lazımdır.

Fəal öyrənmə metodları ilə dərslərin təşkili, qrup layihələri və praktiki məşqlər şagirdlərin dərslərdə daha fəal iştirakını təmin edir. Fəal öyrənmə metodları olaraq aşağıdakılardan istifadə edilə bilər:

• **Vizuallıq:** vizual vasitələrdən, diaqramlardan və videolardan istifadə.

• **Auditiv:** şifahi tədris və müzakirələr.

• **Kinestetik:** praktiki fəaliyyətlər.

1.4. Tədris prosesində əlavə dəstək mexanizmləri

1.4.1. Real təcrübə ilə tədrisin əlaqələndirilməsi:

Təcrübə səfərləri və proqramlarında iştirak: şagirdlərin peşə sahələrində real təcrübə qazanmaları üçün təcrübə səfərləri və təcrübə proqramları vasitəsilə praktiki məşğələlər təşkil etmək şagirdlərə real iş mühitini görmək və dərindən müşahidə etmək şansı verir.

1.4.2. Əməkdaşlıq və şəbəkələşmə:

• **Sənaye ekspertləri ilə əlaqələr:** şagirdlərin sənaye ekspertləri ilə seminar və ya "master klass" dərslərini təşkil etmək və onların biliklərindən faydalanmaq imkanı yaradır.

• **Peşəkar şəbəkələşmə:** şagirdlərə peşəkar şəbəkələrə qoşulmaq və sənaye konfranslarında iştirak etmək, digər məktəblərin peşə təmayüllü siniflərində təhsil alan şagirdləri ilə online və ya offline görüşünü təşkil etmək şagirdlərdə şəbəkələşmə yolu ilə kommunikasiya və mübadilə bacarıqlarını artırır.

Təlim və inkişaf:

• **Müəllimlər üçün təlimlərin təşkili və dəstək qruplarının yaradılması.** Müəllimlərin peşə dərslərində istifadə edə biləcəyi təkmilləşdirmə məqsədli metod və texnikaların öyrədildiyi təlimlərin, müəllimlər üçün könüllü dəstək qruplarının və mübadilə proqramlarının təşkili peşə təmayüllü siniflərdə tədrisin effektivliyinin artırılmasına kömək edəcək.

2. Müasir texnologiyaların tədrisə inteqrasiyası

Müasir texnologiyalar dərs prosesini daha maraqlı və interaktiv edir. Virtual reallıq (VR) və artırılmış reallıq (AR) texnologiyaları şagirdlərə real dünya təcrübələrini simulyasiya etməyə imkan verir.

VR və AR tətbiqləri: VR və AR texnologiyalarından istifadə edərək şagirdlərə müasir peşə mühitlərini virtual olaraq göstərmək mümkündür. Məsələn, şagirdlər AR vasitəsilə çilingər dərslərində komponentlərin necə birləşdirildiyini vizual olaraq görə bilərlər.

Simulyatorlar və proqramlar: peşə sahəsi ilə əlaqədar simulyatorlardan və proqram təminatlarından istifadə edərək şagirdlərin praktiki bacarıqlarını inkişaf etdirə bilərsiniz. Dizayn dərslərində AutoCAD kimi proqramlardan istifadə etməklə, şagirdlərə real dünya dizayn təcrübələri

təqdim edilə bilər [7].

Onlayn resursların inteqrasiyası: peşə təlimi platformaları şagirdlərin öyrənmə təcrübəsini daha da maraqlı edir. Coursera, edX və Udacity kimi onlayn təhsil platformaları şagirdlərə spesifik peşə sahələri üzrə kurslar və sertifikatlar təqdim edir [8]. Bu resurslardan istifadə edərək şagirdlərin biliklərini artırmaq mümkündür.

İnteraktiv alətlər: təlimatlı video dərslər və webinarlar vasitəsilə şagirdlərə yeni texnologiyaları öyrətmək effektiv bir metoddur. Şagirdlərə onlayn interaktiv alətlər vasitəsilə praktiki məşqlər etdirmək dərs prosesini daha interaktiv və maraqlı edir [1].

Nəticə. Peşə təmayüllü siniflərdə tədrisin effektivliyini artırmaq üçün metodiki yanaşmaların əhəmiyyəti böyükdür. Ümumilikdə peşə təmayüllü siniflərdə tətbiq olunan metodiki yanaşmalar tədris prosesini daha strukturlaşdırılmış, interaktiv və effektiv edir. Tədris proqramının məqsəd və hədəflərinin aydın müəyyənləşdirilməsi, modul şəklində təşkil edilməsi və müasir texnologiyalardan istifadənin artırılması şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Müəllimlər bu metodlardan istifadə edərək dərs prosesini daha maraqlı və effektiv edə, şagirdlərin peşə sahələrində uğurlu bir karyera qurmaqlarına kömək edə bilərlər.

İstifadə edilmiş ədəbiyyat

1. Bawa P. MOOCs: A Study of Faculty Perspectives. International Journal of Education and Development using Information and Communication Technology. 2016, 12 (1), pp.14-30.

2. Black P. & Wiliam D. Assessment and Classroom Learning. Assessment in Education: Principles, Policy & Practice. 1998, 5 (1), pp.7-74.

3. Boud D. & Falchikov N. Aligning Assessment with Long-Term Learning. Assessment & Evaluation in Higher Education. 2006, 31 (4), pp.399-413.

4. Bower M., Howe C., McCredie N., Robinson A., & Grover D. Augmented Reality in Education – Cases, places and potentials. Educational Media International. 2014, 51 (1), pp.1-15.

5. Doran G.T. There's a S.M.A.R.T. Way to Write Management's Goals and Objectives. Management Review, 1981, 70 (11), pp.35-36.

6. Mikropoulos T.A. & Natsis A. Virtual Reality in Education: A Survey of the Research. Educational Technology & Society. 2011, 14 (1), pp.24-43.

7. Papalazarou M., Richardson J. & Davies P. The Use of CAD in Design Education. Design and Technology Education: An International Journal. 2018, 23 (2), pp.3-16.

8. Yuan L. & Powell S. MOOCs and Open Education: Implications for Higher Education. Proceedings of the 2nd International Conference on Education and E-Learning. 2013, 2, pp.11-17.

9. Məmmədova A. Tədris Prosesində Praktik Nümunələr. Bakı, 2014, s.134-136.

10. İsmayılova N. Müəllim və Tədris Metodikasının Əsasları. Bakı, 2012, s.155-156.

S.Aghazade

Methodical recommendations that increase the effectiveness of teaching in vocational classes

Abstract

The article discusses two main methodological approaches to increasing the effectiveness of teaching in vocational-oriented classes: curriculum planning and the integration of modern technologies. Both approaches aim to ensure that students acquire in-depth knowledge and practical skills related to their vocational field during the teaching process. The article provides recommendations for teachers on how to structure curricula and use modern technologies, and also explains how to implement these approaches with practical examples.

С.Агазаде

Методические рекомендации повышающие эффективность обучения в профессиональных классах

Аннотация

В статье рассматриваются два основных методических подхода к повышению эффективности обучения в профессионально ориентированных классах: планирование учебной программы и интеграция современных технологий. Оба подхода направлены на обеспечение глубоких знаний и практических навыков учащихся в их профессиональной области. Статья предоставляет рекомендации для учителей по структурированию учебных программ и использованию современных технологий, а также объясняет, как реализовать эти подходы на практических примерах.

PEŞƏ TƏHSİLİNİN YAŞIL İQTİSADİYYATYÖNLÜ TRANSFORMASİYASI

Xəyalə Səftərova,
Azərbaycan Respublikası Təhsil İstitutunun
Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin aparıcı mütəxəssisi
e-mail: xayala.saftarova@arti.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.244
UOT: 377; 504. 062

Xülasə. *"Yaşıl iqtisadiyyat" termininə ilk dəfə 1989-cu ildə Böyük Britaniyada aparıcı ekoloji iqtisadçı qrup tərəfindən hazırlanmış "Yaşıl İqtisadiyyatın Planı" adlı hesabatda rast gəlinib. Hesabatın adından başqa, demək olar ki, heç bir hissəsində yaşıl iqtisadiyyata istinad edilməyib, müəlliflər tərəfindən sonradan bu bir fikir kimi istifadə olunub. 2008-ci ildə bu termin çoxsaylı qlobal böhranlara qarşı müzakirələrdə yenidən gündəm oldu. Maliyyə böhranı və qlobal tənəzzüllə bağlı narahatlıqlar kontekstində UNEP "yaşıl stimul paketləri" ideyasını müdafiə etməklə irimiqyaslı dövlət investisiyalarının "yaşıl iqtisadiyyata" başlaya biləcək sahələri müəyyən etdi. Eyni zamanda bir neçə hökumətin iqtisadi bərpa səylərinin bir hissəsi kimi əhəmiyyətli "yaşıl stimul paketləri"ni həyata keçirtməyə ruhlandırdı.*

Məqalədə yaşıl iqtisadiyyat strategiyalarının peşə təhsilində rəqabətqabiliyyətli, müasir peşə bacarıqlarına malik mütəxəssislərin hazırlanmasında ixtisas üzrə kurikulumların tədrisinin həm ekoloji, həm də iqtisadi cəhətdən davamlı inkişafa töhfə verəcəyi vurğulanır.

Açar sözlər: *yaşıl iqtisadiyyat, ekoloji problemlər, yaşıl texnologiya, keyfiyyətli imkanlar, davamlı bərpa, ekoloji dayanıqlıq.*
Key words: *green economy, environmental problems, green technology, quality opportunities, sustainable recovery, environmental sustainability.*
Ключевые слова: *зеленая экономика, экологические проблемы, зеленые технологии, качественные возможности, устойчивое восстановление, экологическая устойчивость.*

Yaşıl iqtisadiyyatın beynəlxalq səviyyədə razılaşdırılmış tərifi yoxdur, lakin son nəşrlərdə ayrı-ayrı təriflər verilmişdir. Məsələn, insan rifahının və sosial bərabərliyin yaxşılaşdırılması ilə nəticələnən, eyni zamanda ekoloji riskləri və ekoloji çatışmazlıqları əhəmiyyətli dərəcədə azaldan bir iqtisadiyyatdır. O aşağı karbonlu resurs baxımından səmərəli və inklüzivdir. Yaşıl iqtisadiyyat əsasən ətraf mühitə diqqət yetirən, sosial ədalətə və sürətli iqtisadi inkişafın prinsiplərinə əsaslanan bir modeldir. Bu model mənfəətin əldə edilməsi, resursların səmərəli istifadəsi, ədalətlilik prinsiplərinin qorunması ilə yanaşı, ətraf mühitə ziyan vermədən alternativ enerji istehsalı və insanların yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına nail olmağı hədəfləyən amilləri özündə əks etdirir.

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı

inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir. Ona görə də ölkəmizdə də 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Sərəncam imzalanmışdır. Həmin Sərəncamda Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 tədbirinin Azərbaycanda keçirilməsi ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Bundan başqa, dövlət başçısının 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı Sərəncamında növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən beş milli prioritetdən biri də Azərbaycanın ***"təmiz ətraf mühit"*** və ***"yaşıl artım"*** ölkəsi olmasıdır. Bu prioritet daxilində "yüksəkkeyfiyyətli ekoloji mühit" və "yaşıl enerji məkanı" kimi amillərin reallaşdırılması nəzərdə tutulmuşdur. "Yüksəkkeyfiyyətli ekoloji mühit"in məqsədi ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsi, gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə dəyə biləcək zərərlərin azaldılmasıdır. "Yaşıl enerji məkanı"nın məqsədi isə strateji dövr üçün qabaqcıl ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin daha çox artırılması, ölkədə enerjidən səmərəli istifadə edilməsi, həmçinin yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsidir. Sənəddə ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinə yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi ilə bağlı qarşıya qəti tapşırıqlar qoyulmuşdur.

Müasir iqtisadiyyatda ***"təkrar emal"*** anlayışı da mühüm yer tutur. Bu da tullantıların bir qisminin yenidən istifadəyə yararlı hala gətirilməsi üçün onların istehlak prosesinə daxil edilməsidir. Əsas məqsəd təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısını almaq, eləcə də əlavə xammal bazası yaratmaqdır. Təkrar emal ilkin istehsala nisbətdə asan və tez başa gəldiyindən enerji qənaətinə imkan yaradır. Ölkəmizdə təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədi ilə dövlət başçısının 2011-ci il 28 dekabr tarixli Sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılmışdır. Bu parkın yaradılması ölkədə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən "yaşıl" iqtisadiyyatın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir. Bundan başqa, tullantıların idarə olunaraq ətraf mühitə təsirinin azaldılması, yandırılıb zərərsizləşdirilməsi və zərərsizləşdirilən tullantılardan ayrılan qazlardan elektrik enerjisinin əldə edilməsi məqsədi ilə 2012-ci ildə müasir texniki qurğularla təmin olunmuş Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu fəaliyyətə başlamışdır. Tullantıların zərərsizləşdirilməsi sahəsində əhəmiyyətli fəaliyyətlərdən ən vacibi isə çeşidləmədir. 2012-ci ildən bu istiqamətdə "Təmiz Şəhər" ASC-nin Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu uğurla fəaliyyət göstərir. Zavodda məişət tullantılarının çeşidlənməsi ölkədə təkrar istehsal biznesini inkişaf etdirir və tullantıların ümumi həcmini azaldır. Çeşidləmə zavodunun fəaliyyəti tullantıları düzgün idarə etməklə təbii ehtiyatlara və enerjiyə qənaət olunmasına xidmət edir.

Yaşıl iqtisadiyyatın dayanıqlılığını daim təmin etmək məqsədi ilə istifadə olunan texnologiyaların tətbiq olunması üçün bu sahələrdə xüsusi bilik və bacarıqlara malik kadrların hazırlanması vacib məsələlərdən biri olmuşdur. Peşə təhsili müəssisələrində tədris olunan ixtisas üzrə peşə təhsili kurikulumları mütəxəssislərin bu sahə üzrə bilik və bacarıqlar qazanmasında əsas təməl rolunu oynayır. Peşə təhsili kurikulumları aşağıdakı istiqamətlərdə tələb olunan bacarıqları inkişaf etdirir və əhəmiyyətli töhfələr verir:

• **İxtisaslı kadrların hazırlanması** yaşıl enerjidən istifadə, tullantıların təkrar emalı, dayanıqlı kənd təsərrüfatı və s. kimi müxtəlif sahələrdə texnologiyaların tətbiqi üçün çalışan mütəxəssislərin hazırlanmasına yönəldilib.

• **Texnoloji innovasiyalar** günəş və külək enerjisi, ekoloji tikinti materialları, elektrik avtomobilləri və digər bərpa olunan enerji mənbələri üzrə təhsilalanlara yaşıl texnologiyalardan istifadə etmə bacarıqları öyrədərək mütəxəssislər hazırlayır.

• **Ekoloji maarifləndirmə** yaşıl iqtisadiyyatın əsas istiqamətlərindən biri də ətraf mühitə qayğı və dayanıqlı inkişaf haqqında məlumatların ötürülməsi və insanları ekoloji problemlərin həllində aktiv iştiraka təşviq etməkdir.

• **Sosial-iqtisadi inkişaf** peşə təhsili sayəsində işçi qüvvəsi daha bacarıqlı və rəqabətqabiliyyətli olur, bu isə həm iqtisadiyyatın dayanıqlı inkişafına, həm də yeni yaşıl iş yerlərinin yaradılmasına gətirib çıxarır.

Bu bacarıqlar qlobal ekoloji problemlərin həlli və gələcək nəsillərə daha sağlam və dayanıqlı bir dünya yaradılmasını zəruri edir.

Yaşıl iqtisadiyyatın inkişaf sahələrinin daha da genişləndirilməsi məqsədi ilə Elm və Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə **"TƏMƏL"** platforması çərçivəsində iqtisadiyyatın dayanıqlı inkişaf modelli keçidinə həsr olunmuş dörd maarifləndirmə tədbiri həyata keçirilmişdir.

1. İstehsal, ətraf-mühit və bərpa olunan enerji mövzusunda interaktiv seminar və bərpa olunan enerji mənbələrinin nümayişi.
2. Ekonəqliyyata keçid sərgisi.
3. Kənd təsərrüfatında yaşıl innovasiyalar mövzusunda infotur.
4. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl artım" gündəliyində təhsil konfransı.

1. "İstehsal, ətraf-mühit və bərpa olunan enerji" mövzusunda interaktiv seminar və bərpa olunan enerji mənbələrinin nümayişi 20 may 2024-cü il tarixində İqtisadi Zonaların İnkişafı Agentliyi nəzdində Peşə Təhsil Mərkəzində keçirilib. Tədbirdə yaşıl iqtisadiyyatın ölkəmizdə prioritet olduğu və bu istiqamətdə istehsalda bərpa edilən enerji mənbələrindən istifadə, enerjiyə qənaət, yaşıl keçidin ətraf mühitə təsirinin və bərpa edilən enerji qurğularına xidmət sahələri üzrə mütəxəssislərin hazırlanmasının əhəmiyyəti müzakirə olunaraq peşə təhsili sisteminin vacibliyi diqqətə çatdırılmışdır. Həmçinin bu istiqamətdə növbəti tədris ilində *"alternativ enerji qurğu və avadanlıqlarının istismarı", "günəş panelləri quraşdırıcısı və təmirçisi", "elektrik və hibrid avtomobillərin təmiri üzrə texnik"* ixtisasları üzrə tədris proqramları və dərsliklərin hazırlanması haqqında məlumat verilmişdir.

2. **Ekonəqliyyata keçid** sərgisi 22 may 2024-cü il tarixində Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində Elm və Təhsil Nazirliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi və Azərbaycanın Avtomobil Dilerləri Assosiasiyasının birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində baş tutub. Sərginin keçirilməsində məqsəd ekoloji cəhətdən təmiz elektrik və hibrid nəqliyyat vasitələrini təşviq etmək, sektor üzrə aparıcı maraqlı tərəfləri birləşdirmək, ekoloji nəqliyyata keçiddə peşə təhsilinin rolunu vurğulamaq və sərgi iştirakçıları, investorlar və geniş auditoriyaya şəbəkələşmə imkanı yaradılmasından ibarət olmuşdur.

3. **Kənd təsərrüfatında yaşıl innovasiyalar** mövzusunda infotur 24 may 2024-cü il tarixində Elm və Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində baş tutub. Kənd təsərrüfatı sahələri istiqamətində mütəxəssislərə artan tələbatı nəzərə alaraq Mərkəzdə kənd təsərrüfatı məhsullarının istehsal qrupunda "fermer", "bitkiçilik", "heyvandarlıq" və "baytarlıq" ixtisasları üzrə mütəxəssislərin hazırlanması zamanı tədrisə xüsusi diqqət yetirildiyi bildirilib.

4. **"Yaşıl dünya naminə həmrəylik ili"** çərçivəsində **"Yaşıl artım"** gündəliyində təhsil konfransı 27 may 2024-cü il tarixində Elm və Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə baş tutub. Konfransda Elm və Təhsil naziri Emin Əmrullayev, dövlət rəsmiləri, millət vəkilləri, COP29-un nümayəndələri iştirak ediblər. Konfransın əsas məqsədi milli sosial-iqtisadi prioritet olan təmiz ətraf mühit və "yaşıl artım" üzrə təhsil-təlim komponentlərini müzakirə edərək bu istiqamətdə yeni sistemli yanaşmaları formalaşdırmaqdan ibarət olub. Ölkəmizdə yaşıl iqtisadiyyata keçid üçün bütün sahələrdə kompleks yanaşmanın ortaya qoyulması, təhsildə "yaşıl" bacarıqların ölkə iqtisadiyyatı üçün əhəmiyyəti, peşə təhsili sisteminin bu prosesdə əsas faktor kimi rolu və

bu istiqamətlərdə tədris proqramlarının hazırlanması və yenilənməsi əsas məqsəd olaraq hədəflənmişdir.

Almaniya təcrübəsi

Dünya təcrübəsinə nəzər saldıqda, yaşıl iqtisadiyyatın peşə təhsili sahəsində bir çox uğurlu nümunələrinin olduğunu görürük. Məsələn, bu sahədə peşə təhsili Almaniya, Danimarka, Avstraliya və s. kimi ölkələrdə daha çox inkişaf etmişdir. Almaniya peşə təhsili sisteminin yaşıl iqtisadiyyata keçidini dəstəkləyərək bu sahədə ixtisaslı kadrların hazırlanmasına böyük əhəmiyyət verir.

Almaniyada peşə təhsilinin yaşıl iqtisadiyyatda tətbiqinə nəzər salaq:

1. **Bərpa olunan enerji sahəsində təhsil.** Almaniya peşə təhsilində bərpa olunan enerji sahəsi üzrə mütəxəssislərin hazırlanmasına xüsusi önəm verir. Peşə məktəbləri təhsilalanların günəş, külək və biokütlə enerjisi ilə işləyən sistemlərin quraşdırılması, saxlanılması və idarə edilməsi üzrə praktiki bacarıqlara yiyələnməsini təmin edir. Bu da Almaniyanın bərpa oluna bilən enerji sahəsində lider ölkələrdən biri olmasını göstərir.

2. **Dual təhsil sistemi.** Almaniyada təhsilalanlar dual təhsil vasitəsilə yaşıl texnologiyalar üzrə səriştələrə yiyələnir, eyni zamanda müəssisələrdə praktiki təcrübə qazanırlar. Xüsusən də elektrik mühəndisliyi, ətraf mühit texnologiyaları və ekologiya istiqamətində geniş yayılmış dual təhsil proqramları bərpa olunan enerji və ekoloji texnologiyalar sahəsində mütəxəssislər hazırlayır.

3. **Yaşıl sənaye və idarəetmə bacarıqları.** Almaniyada peşə təhsili müəssisələrində təhsilalanlar enerji effektivliyi, ekoloji idarəetmə və tullantıların emalı kimi sahələr üzrə bilik və bacarıqlara yiyələnirlər.

4. **Yaşıl sertifikatlar və ixtisaslar.** Almaniyada peşə təhsili sahəsində yaşıl iqtisadiyyatla bağlı xüsusi sertifikat proqramları və ixtisaslar yaradılmışdır. Sertifikat proqramları texniki biliklərin artırılması ilə yanaşı, karbon emissiyasının azaldılması, təkrar emal və enerjiyə qənaət edilməsi sahələrində də biliklər verir. Bu sertifikatlar enerji effektivliyi, bərpa olunan enerji mənbələri və ekoloji tikinti sahələrində geniş yayılmışdır.

Almaniya təcrübəsi göstərir ki, peşə təhsili yaşıl iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır və ölkənin ekoloji dayanıqlılığını təmin edərək ekoloji təmiz texnologiyaların tətbiqinə və yaşıl iş yerlərinin yaradılmasına şərait yaradır. "Yaşıl" peşələr həm iqtisadi, həm də ekoloji baxımından ölkənin gələcəyi üçün sərmayə qoyulmasıdır.

Yaşıl ixtisaslara ekoloji kənd təsərrüfatı, bərpa olunan enerji texnologiyaları, tullantıların idarə edilməsi, həmçinin təmiz texnologiyalara dair peşə sahələri daxildir və bu ixtisaslar ekoloji dayanıqlılıq və iqtisadiyyatın inkişafının öyrədilməsi məqsədini daşıyır.

Nəticə. Müasir dövrdə peşə təhsilinin yaşıl iqtisadiyyatyönlü transformasiyası davamlı inkişaf üçün vacib bir addım hesab olunaraq ekoloji izləri azaltmaq, resurslardan səmərəli istifadəni təmin etmək və cəmiyyətin ümumi rifahını artırmaq məqsədi ilə həyata keçirilir. Yaşıl keçid strategiyaları əmək bazarının və ətraf mühitin tələblərinə uyğun peşə təhsilində rəqabətqabiliyyətli, bacarıqlı mütəxəssislərin hazırlanmasını təmin etməklə, həm ekoloji, həm də iqtisadi baxımdan davamlı inkişafın əsasını qoyur. Peşə təhsili müəssisələrində ixtisas üzrə kurikulumların tədrisi zamanı yaşıl iqtisadiyyatın nəzərə alınması ölkənin inkişafı üçün əhəmiyyətli töhfələr verəcəkdir.

Ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafında kompleksliliyin artırılması, enerji və resurslara qənaət edən ekoloji təmiz texnologiyaların istehsalının stimullaşdırılması, sənayenin ayrı-ayrı sahələrinin bir-biri ilə uzlaşmış şəkildə fəaliyyət göstərməsi bu gün diqqət mərkəzindədir. Məhz bu səbəblər, eləcə də sənaye sahəsində əldə edilən göstəricilər bir daha sübut edir ki, Azərbaycan regionun güclü sənaye mərkəzidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

2. Osnabrück Declaration on vocational education and training as an enabler of recovery and just transitions to digital and green economies-

Endorsed on 30 November 2020.

3. Sukhdev P. Corporation 2020: Transforming Business for Tomorrow's World. Island Press, 2014.

4. World Economic Forum. The Future of Jobs Report, 2020.

5.https://azertag.az/xeber/yasil_iqtisadiyyat_nedir-2333990

6.https://greenly.earth/en-us/blog/company-guide/green-economy--meaning-and-principles

7.https://stimul.edu.az/az/view/361/643/Yasil-iqtisadiyyat-uzre-pese-tehsili-telimlerine-qeydiyyat-davam-edir

8.https://www.muallim.edu.az/www.old/arxiv/2010/25/18.htm

9.https://vet.edu.gov.az/news/content/1085/inner

Kh.Saftarova

Green economy-based transformation of vocational education

Abstract

The term "green economy" was first used in 1989 in the report "Green Economy Blueprint" prepared by a leading group of environmental economists in Great Britain. Apart from the title of the report, there is almost no reference to the green economy, which was later used as an afterthought by the authors. In 2008, the term was again on the agenda in the debate against numerous global crises. In the context of concerns about the financial crisis and global recession, UNEP advocated the idea of "green stimulus packages" and identified areas where large-scale public investment could jump-start the "green economy". It has also inspired several governments to implement significant "green stimulus packages" as part of economic recovery efforts.

In the article, it is emphasized that the teaching of curricula by specialty in the preparation of specialists with competitive, modern professional skills in vocational education of green economy strategies will contribute to both ecological and economic sustainable development.

Х.Сафтарова

Трансформация зеленой экономики профессионального образования

Аннотация

Термин «зеленая экономика» впервые был использован в 1989 году в отчете «Green Economic Blueprint», подготовленном ведущей группой экономистов-экологов Великобритании. Помимо названия доклада, в нем почти нет упоминаний о зеленой экономике, которая позже была использована авторами в качестве второстепенной мысли. В 2008 году этот термин снова оказался на повестке дня в дебатах по поводу многочисленных глобальных кризисов. В контексте опасений по поводу финансового кризиса и глобальной рецессии ЮНЕП выступила за идею «пакетов зеленого стимулирования» и определила области, где крупномасштабные государственные инвестиции могли бы дать толчок «зеленой экономике». Это также вдохновило ряд правительств на реализацию значительных «пакетов зеленого стимулирования» в рамках усилий по восстановлению экономики.

В статье подчеркивается, что преподавание учебных программ по специальностям при подготовке специалистов с конкурентоспособными, современными профессиональными навыками в профессиональном образовании стратегий зеленой экономики будет способствовать как экологическому, так и экономическому устойчивому развитию.

Peşə təhsili və insan kapitalı. Cild 7, №3, 2024, s.94-98

TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNİN ŞAGİRDLƏRİN PEŞƏYÖNÜMLÜ İSTİQAMƏTDƏ İNKİŞAFINA TƏSİRİ

İlham Dadaşov,
Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının baş müəllimi
e-mail: dadasov.ilham.69@bk.ru

DOİ: 10.30546/2706-7858.2024.3.246
UOT: 377; 73/76

Xülasə. *Məqalədə ibtidai siniflərdə şagirdlərin peşəyönümlü istiqamətdə inkişafına təsviri incəsənət fənninin tədrisinin təsirindən bəhs olunur. Bununla yanaşı, peşəyönümlü işlərin aparılmasında ibtidai siniflərdə təsviri incəsənət dərslərinin hərtərəfli qaydada düzgün təşkili və tədrisi, məhz bu istiqamətdə aparılan işlərin inkişafında çox vacib təsirverici bir qüvvə olması tədqiqat işində öz əksini tapmış, eləcə də şagirdləri peşələrə istiqamətləndirmək, müxtəlif peşə sahələri ilə tanış etmək, dərslərdə praktiki fəallığı artırmaq və bu işlərin təşkili üçün əlverişli şərait yaratmaq ən zəruri məsələlərdən biri kimi bildirilir. Dərslərdə yaradıcı mühitin doğru istiqamətə yönəldilməsi şagirdlərin müxtəlif yaş mərhələlərində fəaliyyət növlərinin təlim-tərbiyə işlərində uğur qazanmasına və qabiliyyətlərinin inkişafına, istedadlarının üzə çıxmasına, onlarda fərqli peşəyönümlü bacarıqların formalaşmasına zəmin yaradır.*

Açar sözlər: *müstəqil yaradıcı düşüncə, peşəyönümlü işlər, əqli və intellektual inkişaf, yaradıcı fəaliyyət, şagirdlərin tələbatlarının müxtəlifliyi, praktik məşğələlər, fənlər arasında əlaqə, psixoloji fəaliyyət, peşəkar kadrların formalaşması.*
Key words: *independent creative thinking, professional-oriented work, mental and intellectual development, creative activity, diversity of students' needs, practical exercises, communication between disciplines, psychological activity, formation of professional personnel.*
Ключевые слова: *самостоятельное творческое мышление, профориентационная работа, умственное и интеллектуальное развитие, творческая деятельность, многообразие потребностей учащихся, практические занятия, связь между предметами, психологическая деятельность, формирование профессиональных кадров.*

Müasir dövrdə insan şəxsiyyətinin və onun mənəvi cəhətdən kamil vətəndaş, xalqa, yaradıcılığa, yaşadığı torpağa bağlı insan kimi formalaşmasında təsviri incəsənətin əhəmiyyəti böyükdür. Bu baxımdan hər bir sahədə olduğu kimi, təhsil sahəsində də peşəyönümlü işlərin təşkilində təsviri incəsənət fənninin tədrisinin yeni tələblərə uyğun müxtəlif növ peşələrin yaranmasında xüsusi yeri vardır. Elmi-informasiya axınının müasir dövrdə sürətlənməsi yeni inkişaf prosesində hərtərəfli hazırlıqlı,

yüksək səviyyəli peşəkar ixtisaslı kadrlara böyük ehtiyac olduğunu qarşıya bir məqsəd olaraq qoyur. Əqli və fiziki əməyin yaxınlaşması, istehsalatın, texnologiyaların təşkilində köklü dəyişikliklər, elm və texnikanın dinamik inkişafı, istehsal prosesində kompleks avtomatlaşdırılma və mexanikləşdirilmə müasir zamanda peşələrin yenilənməsinə müsbət təsir göstərən əsas amillərdən biridir [12, s.183]. Bu səbəbdən peşəyönümlü işlərin təşkili və tədris olunması artıq ibtidai siniflərdə düzgün qaydada təşkil olunmalı, məqsədyönlü və mərhələli şəkildə aparılmalıdır. Belə ki, bu zəmində ibtidai siniflərdə peşəyönümlü işlərin aparılmasında təsviri incəsənət dərslərinin hərtərəfli qaydada düzgün təşkili və tədrisi çox vacib təsirverici bir qüvvə olaraq qalır.

Ümumiyyətlə, təsviri incəsənət fənni üzrə dərslərin əsas məqsədi estetik dünyagörüşünə, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə malik olan milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan şəxsiyyətin formalaşdırılmasına yönəldiyindən onun təlimi prosesində şagirdin meyil və maraqları, arzu və istəkləri əsas götürülür, onların fəallığına üstünlük verilməsi gələcək savadlı və peşəkar kadrların formalaşmasında önəmli rol oynayır [1, s.112].

Məlum olduğu kimi, əsasən təsviri incəsənət dərslərində şagirdlərə estetik mənəvi və əmək tərbiyəsinin öyrədilməsi vacib məsələlərdən biridir. Xüsusən də fənnin tədrisində praktik dərslərin təşkilində şagirdlər realist rəsmin elementar əsasları haqqında bilgi alır, onlar naturadan ətraf mühitdə olan əşyaların süjeti üzrə rəsm çəkmək qayda və qanunlarını öyrənir, yaddaşa, təsəvvürə, təxəyyülə görə müəyyən mövzu üzrə rəsm çəkmək vərdişlərinə yiyələnir, təsvir texnikası, yapma fəaliyyəti, dekorativ tətbiqi sənət – xalq sənəti haqqında geniş məlumatlar əldə etməklə, artıq onlarda ilkin olaraq ibtidai bacarıqlar bu yönümdə formalaşmağa başlayır. Bu nailiyyətlərin əldə olunması üçün dərslərin keçirilməsində əyaniliyə üstünlük verilməsi çox vacibdir. Bununla əlaqədar olaraq tanınmış pedaqoq K.D.Uşinski əyaniliyi yüksək qiymətləndirərək yazırdı ki, uşaqlar formalarla, rənglərlə, səslərlə, ümumiyyətlə, duyğularla düşünürlər [7, s.88]. Həqiqətən də etiraf etmək lazımdır ki, dərslərin bu prinsipdə keçirilməsi şagirdlərdə müxtəlif bacarıq və vərdişləri, rəsm çəkmək bacarıqlarını, yapma işində müəyyən bilikləri inkişaf etdirir, bədii zövqü, yaradıcı estetik dərketməni gücləndirir, idrak fəallığını, əxlaqi-mənəvi keyfiyyətlərini düzgün istiqamətə yönəldir, estetik baxışlarını, təsəvvürlərini və müxtəlif sənət növlərinə olan maraq və məhəbbət hissini formalaşdırmaqla yanaşı, onların gələcək fəaliyyətlərində, əsasən, peşə seçiminə çox böyük müsbət təsir göstərir. Məsələn, təsviri incəsənət dərsləri gələcəkdə müxtəlif peşələrə – "rəssam", "dizayner", "modelyer", "heykəltəraş", "qrafika", "dekorativ – tətbiqi sənət ustası", "memar" və s. sahib olmaqda və bu peşələrin sirlərini daha yaxşı mükəmməl şəkildə mənimsəməkdə şagirdlərə, ilkin olaraq onların bu peşələrə uyğun bacarıqlarının qavranılması istiqamətində böyük imkanlar yaradır, bu yönümdə sadə bacarıq və vərdişlərin formalaşdırılmasına kömək edir.

Təsviri incəsənət dərslərinin üstün və xarakterik cəhətlərindən biri də odur ki, şagirdlərin hərtərəfli inkişafına yardımçı olmaqla yanaşı, həm də onların bir şəxsiyyət kimi düzgün formalaşmasını və intellektual səviyyəsinin inkişaf etməsini stimullaşdırır. Müasir dövrdə hərtərəfli inkişaf etmiş şəxsiyyət yalnız müəyyən bir fəaliyyət sahəsi ilə məhdudlaşmayıb, fərqli sahələrdə çalışa bilən, lazımi vəziyyətdə yeni ixtisasa tez bir zamanda yiyələnə bilən, müasir texnologiyanı və texnikanı mənimsəməyi bacaran, müxtəlif peşə sahəsinə xas əmək bacarığı və vərdişlərinə malik olan bir şəxsiyyət olaraq başa düşülür. Bu baxımdan hərtərəfli inkişaf etmiş şəxsiyyət öz peşə fəaliyyətində hər cür əməyi daha səmərəli və yaradıcı əməyə, eləcə də müstəqil əməyə çevirə bilir. Bu da elm və texnologiyanın sürətlə inkişafı dövründə peşələrin yenilənməsinə və müasir peşələrə daha sürətlə yiyələnmə prosesində çox önəmli faktorlardan biridir [9, s.87].

Müasir təhsildə peşəyönümü fəaliyyətinin gücləndirilməsi, peşəkar kadr hazırlığının kəmiyyət və keyfiyyətcə bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması həlli vacib olan problemlərdəndir. Bu səbəbdən şagirdləri peşələrə istiqamətləndirmək üçün müxtəlif peşə sahələri ilə onları tanış etmək, keçirilən dərslərdə praktiki fəallığı artırmaq, yaradıcı xarakterli tapşırıqları icra etməyə həvəsləndirmək və bu işlərin təşkili üçün əlverişli şərait yaratmaq ən zəruri məsə-

lələrdən biridir. Aparılan tədqiqatlar onu göstərir ki, təsviri incəsənət dərslərində şagirdlərin fəallığı onlarda sosial təcrübəni tez və uğurla mənimsəməyə yardım edir, kommunikativ qabiliyyətlərinin inkişafını sürətləndirir. Şagirdlərin peşə ustalığı, yaradıcı qabiliyyətləri inkişaf etdikcə gerçəkliyin dürüst, realist əks etdirilməsinə dair bilik və vərdişlər qazanması təlimi estetik tələbata çevirir. Təsviri incəsənət dərsləri də bu tələbata cavab verməlidir ki, proses şagirdlər üçün mənasını itirməsin, darıxdırıcı olmasın, təsviri incəsənət dərslərinə onlarda bu fənnə maraq zəifləməsin, əksinə, dərslərdə yaradıcı mühit doğru istiqamətə yönəldilsin. Bu istiqamətdə dərslərdə şagirdlərin fəallığının əsasını, məhz onların müxtəlif fəaliyyət növü üzrə tələbatları təşkil edir ki, bu da sadəcə şagirdlərin tələbatı olaraq qalmır, onların həmin tələbatı ödəməyə şərait yaradan fəaliyyətə yönəldir. Məhz dərslərdə şagirdlərin tələbatlarının müxtəlifliyi onları ödəmək üçün fəaliyyət növlərinin də fərqliliyini yaradır. Şagirdlərin tələbatları fəaliyyət motivlərinin mənbəyi olmaqla yanaşı, bir qədər fəal və dəyişkəndir. Ona görə də şagirdlərin müxtəlif yaş mərhələlərində fəaliyyətlərinin növləri, xarakteri, xüsusiyyətləri, inkişafa təsirinin fəallığı onlara təlim-tərbiyə işlərində uğur qazandırır və qabiliyyətlərinin səviyyəsini tez bir zamanda dəyişdirir. Həmçinin şagirdlərin müxtəlif fəaliyyət növləri dərslərdə özlərinin istedadlarının üzə çıxmasına, inkişafına və onlarda fərqli peşəyönümlü bacarıqların formalaşmasına gətirən mühüm şərtlərdən biridir. Bu baxımdan şagirdlər məktəbdə, ailədə nə qədər himayə olunsa da, özlərinin əməyi və fəallığı olmasa onlar müəyyən səviyyəyə və öz işlərində lazımi nailiyyət əldə edə bilməzlər. Bildiyimiz kimi, şagird pedaqoji təsirin qaydalara uyğun düzgün qurulmuş təlim və tərbiyədə həm obyekti, həm də subyektidir, yəni, şagird, öz-özünün təlim və tərbiyəsinin inkişafının iştirakçısıdır [7, s.69].

Təsviri incəsənət dərslərində şagirdlərin daha fəal, müstəqil yaradıcı düşüncəyə malik olması onların mənəvi və əxlaqi keyfiyyətlərinin sürətlə və doğru istiqamətdə formalaşmasını və düzgün inkişafını stimullaşdırır. Belə bir fəaliyyətə şagirdlər həvəslə qoşulur, öz bacarıqlarını bütövlükdə həyata keçirirlər və bu da onların özlərini bir şəxsiyyət kimi ifadə etmələrində, kollektivçilik, intizamlılıq, birgə fəaliyyət, təşəbbüskarlıq və s. kimi lazımi əxlaqi keyfiyyətlərin formalaşdırılmasında çox böyük rol oynayır. Bu işlərin də həyata keçirilməsi ibtidai siniflərdə təsviri incəsənət dərslərinin təlim-tərbiyə prosesinin düzgün istiqamətdə təşkil olunmasından asılıdır.

Son illərdə psixologiya va pedaqogika sahələrində aparılan elmi araşdırmalardan məlum olur ki, müasir dövrümüzdə təsviri incəsənət dərslərinin keçirilməsi çox vacibdir. Ona görə ki, əgər məktəblərdə təsviri incəsənətin praktik dərsləri keçirilməsə və yaxud da orta ümumtəhsil məktəbinin tədris planlarından çıxarılarsa, bu hal şagirdlər üçün həqiqətən də çox böyük fəsadlar törədə bilər, yəni onların hərtərəfli dinamik inkişafına, xüsusən də normal əqli və intellektual inkişafına ciddi mənfi təsir göstərə bilər ki, bu da gələcəkdə peşəkar kadrların hazırlanmasında ciddi maneələr yarada bilər [2, s.59].

Bazar iqtisadiyyatı şəraitində şagirdlərin müstəqil əmək həyatına hazırlamasında əsasən təsviri incəsənət üzrə praktik dərslərin çox böyük əhəmiyyəti var. Ona görə də ibtidai siniflərdə təsviri incəsənət dərslərinin keyfiyyətini yüksəltmək məqsədi ilə müasir tələblərə uyğun metodların, prinsiplərin, eləcə də müəllimin pedaqoji və metodiki cəhətdən yüksək hazırlığı vacib amillərdən biridir. İlkin olaraq müəllim şagirdlərin yaş səviyyəsini nəzərə alaraq onların maraq və meyillərini, yaşa uyğun necə istiqamətləndiyini, fiziki inkişafın və bu inkişafın senzitiv dövrlərini, hansı səviyyədə getdiyini, uşaqlara aid olan xüsusiyyətləri və s. dərindən bilməli və analiz etməyi bacarmalıdır ki, dərsi daha yaradıcı, keyfiyyətli və səmərəli təşkil edə bilsin, həmçinin təhsilalanlarda müxtəlif peşələrə müvafiq ilkin bacarıq və vərdişləri onların istəklərinə uyğun istiqamətdə formalaşdırsın [4, s.67]. Onu da etiraf etmək lazımdır ki, müasir dövrdə müəllimlərin üzərinə çox böyük bir məsuliyyət düşür. Müəllim şagirdlərin təlim və tərbiyəsində müstəsna rol oynayır. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Əgər müəllim olmasa, heç birimiz cəmiyyətdə indi tutduğumuz yeri tuta bilməzdik və bugünkü kimi fəaliyyət göstərə bilməzdik" [11, s.137].

Həqiqətən də ibtidai siniflərdə müəllimin təsviri incəsənət dərslərində peşəyönümlü işlərin təşkilində məhsuldar fəaliyyəti və şagirdlərdə

peşə mədəniyyətinin düzgün səviyyədə formalaşmasında əhəmiyyətli dərəcədə rolu danılmazdır. Şagirdin daha yüksək səviyyədə bilik və bacarıqlar əldə etməsi üçün müəllim dərs prosesinə elmi cəhətdən düzgün və yaradıcı yanaşma prosesində praktika ilə nəzəriyyənin ümumi vəhdətini hərtərəfli qaydada təşkil etməlidir. Başqa fənlərdən qazanılmış biliklərdən, müasir metodlardan, üsullardan, prinsiplərdən və dərsin daha keyfiyyətli praktik fəaliyyəti üçün müəllim müəyyən köməkçi üsul və vasitələrdən istifadə etməlidir ki, şagird müxtəlif peşələrə uyğun bacarıq və vərdişlər əldə etsin, praktik fəaliyyətdə əldə olunan bacarıqları nümayiş etdirə bilsin. Bu işlərin daha məhsuldar qaydada getməsində dərsdə yaradılan mənəvi-emosional mühitin, müəllimin tədrislə əlaqəli pedaqoji və psixoloji biliklərinin lazımi səviyyədə olması mühüm faktorlardan biridir. Bu haqda görkəmli rus pedaqoqu K.D.Uşinskinin müəllimin qarşısına qoyduğu tələblər içərisində onun pedaqogika ilə yanaşı, psixologiya elmini də dərindən bilməsinin vacib olmasını qeyd etməsi çox önəmlidir [10, s.122].

Məhz təsviri incəsənət bir proses kimi özündə psixoloji fəaliyyəti birləşdirməklə, başqa sözlə desək, onu özündə əks etdirməklə dərslərin təlim və tərbiyəsində şagirdlərin, həmçinin sağlamlıq imkanları məhdud uşaqların psixoloji cəhətdən hazırlanmasına, onların psixoloji durumuna, onlarda psixi proseslərin inkişafına (hissi qavrama, psixomotorika, diqqət, təfəkkür, emosiya, iradə) müsbət təsir göstərir və bu kimi psixi proseslərin inkişafını daha da təkmilləşdirərək inkişaf etdirir [6, s.78]. Bu da dərslərin hərtərəfli cəhətdən yaradıcı istiqamətdə getməsinə təsir edir və təsviri incəsənətin təlimi-tərbiyəsi prosesində şagirdlərin psixoloji cəhətdən təsviri incəsənət fəaliyyətinə hazırlanmasını, əmək adamlarına və onların peşələrinə səmimi münasibətin yaranmasını, cəmiyyətin xeyrinə vicdanla işləmək kimi keyfiyyətləri, müəyyən yaradıcı vərdişlərin və bədii-estetik təfəkkürün, zövqün, onlarda fəal, emosional, iradi fəaliyyətin formalaşmasını inkişaf etdirir. Müəllimlər tərəfindən şagirdlərin psixoloji fəaliyyətinin düzgün aparılması, həm də gələcəkdə psixoloji durumu sağlam olan profesional müasir peşə sahiblərinin hazırlanmasında və formalaşdırılmasında və onların daha keyfiyyətli məhsuldar əməkdə özlərini təsdiq etməsində çox vacibdir [3, s.128].

Məlumdur ki, təsviri incəsənət dərslərinin daha yaxşı mənimsənilməsi keyfiyyətini yüksəltmək üçün vacib vəzifələrdən biri də onun əlaqədə olduğu elm sahələrinin tədrisinədə diqqətin artırılmasıdır. Məsələn, başqa fənlərdən biliklərin alınması, fənlər arasında əlaqə yaradılması, əldə olunan bilikləri təsviri incəsənət dərslərində tətbiq etmək bacarığının öyrədilməsi bir çox cəhətdən faydalıdır və şagirdlərin müstəqil fəaliyyətində müxtəlif bacarıqların əldə olunmasına kömək edir. Bu məsələlərlə əlaqədar fənlərarası əlaqə prosesində şagirdlərə daha fəal yanaşmaq, imkan olduqca onlara fərdi olaraq hərtərəfli şəkildə köməklik göstərmək çox vacibdir. Başqa fənlərdən alınmış biliyin təsviri incəsənətlə əlaqələndirilməsi şagirdlərdə müxtəlif peşələrə və peşə sahiblərinə qarşı rəğbət hissi yaradır, onlar istehsalatda çalışan işçilərin əməyinin mahiyyətini anlayır, onların hazırladığı məhsulların qədir-qiymətini bilir, onlardan qənaətlə istifadə etməyi bacarır və bu da onların görüb öyrəndiklərini öz əməli fəaliyyətlərində tətbiq etmək kimi mühüm bacarıqların öyrənilməsinə zəmin yaradır [5, s.97]. Fikrimcə, sonrakı inkişaf mərhələsində təsviri incəsənət dərslərində şagirdlərin fənlərarası əlaqə imkanlarından istifadə etməsi başqa bədii fəaliyyət növləri ilə əlaqə yaratmasına geniş imkanlar yaradır və peşə fəaliyyətinin inkişafına böyük fayda verməklə onlarda özlərinə inam hissini, eləcə də öz yaradıcı potensialını qiymətləndirmək bacarığını, sonrakı mərhələlərdə isə gələcəkdə özlərinin əmək fəaliyyətinə hazırlığını və peşə seçmək imkanlarını formalaşdırır. Bütün bunlar onu göstərir ki, müasir dövrdə təsviri incəsənət dərslərinin ibtidai siniflərdə şagirdlərin ilkin peşəyönümlü fəaliyyətinə təsiri çox böyükdür və bu gələcəkdə onların seçdikləri peşənin sirlərinə daha mükəmməl, peşəkarcasına dərindən yiyələnmələrinə geniş imkan açaraq yüksək səviyyəli professional kadrların hazırlanmasına şərait yaradacaqdır.

Nəticə. Sonda belə bir nəticəyə gəlmək olar ki, ümumiyyətlə, təsviri incəsənət dərsləri gələcək ölkə iqtisadiyyatının sürətli inkişafı üçün və müasir dövrün yeni yaranmış peşələrin tələblərinə cavab verən yüksək savada, intellektə, mədəniyyətə, pe-

şəkarlığa sahib, beynəlxalq standartlara uyğun kadrların hazırlığı üçün xüsusi önəm daşıyır.

İstifadə edilmiş ədəbiyyat

1. Atayev S. İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası. Bakı, "Nurlan" nəşriyyatı 2001, 168 s.
2. Rüstəmov Ç.A. Təsviri incəsənətin tədris metodikasına dair praktik məşğələlər. Bakı, "İşıq" nəriyyatı, 2001, 140 s.
3. İlyasov M.İ. Peşəyönümünün əsasları (dərs vəsaiti). Bakı, "Mütərcim" nəriyyatı, 2011, 324 s.
4. İlyasov M.İ. Peşə, ixtisas seçimi (yeniyetmə və gənclər üçün elmi-metodik vəsait). Bakı, ADPU, 2015, 100 s.
5. Zeynalov F. İbtidai siniflərdə təsviri sənətin digər fənlərlə əlaqəli tədrisi. Bakı, "Ayna" mətbuat evi, 2006, 134 s.
6. Həmzəyev M. Pedaqoji psixologiya. Bakı, "Maarif" nəriyyatı, 1991, 132 s.
7. Kazımov N. Məktəb pedaqogikası. Bakı, "Nurlan" nəşriyyatı, 2002, 130 s.
8. Kərimov Y.Ş. Təlim metodları. Bakı, "RS.Poliqraf" nəşriyyatı, 2007, 162 s.
9. Orucov Z.N. Peşə təliminin nəzəri və praktiki məsələləri. Bakı, "Mütərcim" nəşriyyatı, 1997, 228 s.
10. Talıbov Y., Ağayev Ə., Eminov A., İsayev İ. Pedaqogika. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003, 254 s.
11. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri (monoqrafiya). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 208 s.
12. Orucov Z.N., Rzayeva Y.T. Texnologiya. Bakı, ADPU, 2006, 256 s.

I.Dadashov

The effect of fine art classes on the professional development of students

Abstract

The article deals with the influence of Fine Arts classes on the professional-oriented development of students in primary grades. In this regard, it is reflected in the article that the proper organization and teaching of Fine Arts classes in primary grades in the conduct of professional-oriented work, especially on this basis, is a very important driving force in the development of work carried out in this direction. It is stated that it is important as one of the most necessary issues to guide students to professions, familiarize them with various professional fields, increase practical activity in classes and create favorable conditions for organizing these works. It is noticed that to direct the creative environment in the right direction at the lessons will help to ensure that the types of activities of students at different age stages achieve success in training and education, to develop their abilities, to reveal their talents, to form different professional-oriented skills in them.

И.Дадашов

Влияние занятий изобразительного искусства на профессиональное развитие учащихся

Аннотация

В статье рассказывается о влиянии уроков изобразительного искусства на развитие учащихся в начальных классах по направлению их профессиональной ориентации. В связи с этим в статье отражено, что всесторонняя правильная организация и преподавание уроков изобразительного искусства в начальных классах, особенно при проведении профориентационной работы на этой основе, является очень важной движущей силой в развитии работы, проводимой именно в этом направлении. Утверждается, что ориентация учащихся на профессии, ознакомление с различными профессиональными направлениями, повышение практической активности на уроках и создание благоприятных условий для организации этой работы важны как один из важнейших вопросов. На уроках показано, что творческая среда направлена в нужное русло, что виды деятельности учащихся на разных возрастных этапах способствуют успеху в учебно-воспитательной работе и развитию их способностей, раскрытию их талантов, формированию у них навыков различной профессиональной направленности.

DÖVLƏT VƏ ÖZƏL MƏKTƏBLƏRDƏ TƏHSİLALANLARA MİLLİ-ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRİN AŞILANMASI MƏSƏLƏLƏRİ

Şahnaz Abdullayeva,
Bakı Dövlət Universitetinin doktorantı
e-mail: shahnaz.aliyeva.aghasamad@bsu.edu.az

DOİ: 10.30546/2706-7858.2024.3.250
UOT: 372.881.111.1

Xülasə. *"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri haqqında olan 9-cu maddəsində qeyd olunduğu kimi, hər bir valideynin yetkinlik yaşına çatmayan övladları üçün təlim-tərbiyə müəssisəsini seçmək hüququ vardır. Əlbəttə ki, hər bir valideyn öz maddi imkanı çərçivəsində övladı üçün əlindən gələn hər şeyin ən yaxşısını etməyə çalışır. Təhsil müasir dövrün əvəzolunmazına, ən vacib tələb və tələbatına çevrildiyindən valideynlər övladlarının təhsil alması üçün təlim-tərbiyə müəssisəsini seçərkən müxtəliftipli təhsil müəssisələrini araşdırır, dövlət, yoxsa özəl məktəb olması, dövrün tələbinə uyğun tədrisin ingilis, rus, yoxsa Azərbaycan dilində seçimləri barədə fikir mübadiləsi edirlər. 11 illik təhsilin sonunda isə təhsilalan məktəbdə yalnız biliklər əldə etmiş olmur, dövrün vacib bacarıqlarını mənimsəməklə yanaşı, onda milli kimliyin dərki, ümumbəşəri dəyərlər haqqında da müəyyən fikirlər formalaşır. Məqalədə təhsilalanlara şagirdlərə milli və ümumbəşəri dəyərlərin aşılanmasında özəl və dövlət tipli məktəblərin rolu müzakirə olunur.*

Açar sözlər: *özəl və dövlət məktəbləri, milli dəyərlər, ümumbəşəri dəyərlər, Davamlı İnkişaf Məqsədləri (DİM), beynəlxalq təhsil proqramları, milli kurikulum, qlobal problemlər.*
Key words: *private and public schools, national values, universal values, Sustainable Development Goals (SDGs), international education programs, national curriculum, global problems.*
Ключевые слова: *частные и государственные школы, национальные ценности, общечеловеческие ценности, Цели Устойчивого Развития (ЦУР), международные образовательные программы, национальная учебная программа, глобальные проблемы.*

Uzaqgörən siyasətçi, həyatını millətinə həsr etmiş ümummilli lider Heydər Əliyev demişdir: "Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir" [2]. Onun uzaqgörən siyasətinin bir hissəsi də milli dəyərlərin unudulmaması, eyni zamanda dünyada sürətlə gedən qloballaşma prosesindən kənarda qalmamaq üçün ümumbəşəri dəyərlərin mənimsənilməsi idi. Ümummilli liderin uzaqgörən siyasətini davam etdirmək məqsədi ilə 2004-cü ildə Azər-

baycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə çox zəngin elm, maarif, mədəniyyət mərkəzi kimi qısa zaman kəsiyində özünün sosial, siyasi, mədəni və mənəvi sahələrdə qazandığı görkəmli nailiyyətlərlə bütün dünyanı heyran edən Heydər Əliyev Fondu yaradılmışdır. Fondun Prezidenti YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, vitse-prezident, ölkəmizin Birinci xanımı Mehriban Əliyevanı böyük azərbaycançılıq ideologiyasının tədqiqatçısı, təbliğatçısı və mükəmməl bilicisi hesab etmək olar. Mehriban Əliyeva sivilizasiyalararası və dinlərarası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə, islam aləmində görülən görkəmli işlərə dəstəyini əsirgəməmişdir. Mehriban Əliyevanın təşəbbüsü və İSESKO-nun dəstəyi ilə 2008-ci ildə Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" adlı Beynəlxalq Bakı Forumunda dərin məna və məzmun kəsb edən nitqində demişdir: "Azərbaycan Böyük İpək yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühiti yaşamışdır. Bu həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, provoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dialoq əsas dəyərlərin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir" [3]. Həqiqətən də Mehriban Əliyevanın daim diqqət mərkəzində saxladığı, yuxarıda adı çəkilmiş humanizm, gender bərabərliyi, dostluq, həmrəylik, tolerantlıq, hamı üçün əlçatan təhsil imkanları və s. kimi dəyərləri həm milli, həm də ümumbəşəri dəyərlərə aid etmək olar.

Milli və ümumbəşəri dəyərlərin aşılanması yolunda atılan addımlar bununla kifayətlənmir. Növbəti addım "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da öz əksini tapır: "Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir" [4]. Azərbaycanda ümumbəşəri dəyərlərin aşılanması yolunda dövlət qanunları çərçivəsində qəbul olunmuş qərarlardan biri də Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 yanvar tarixli, 1673 nömrəli Sərəncamı oldu [5]. Həmin il "multikulturalizm" bir fənn kimi ali məktəblərdə tədris olunmağa başladı. Bundan əlavə, bu yolda böyük layihələr həyata keçirildi.

"Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin 3-cü maddəsində də qeyd olunduğu kimi, təhsil müəssisəsinin məqsədi fərdin, cəmiyyətin, dövlətin maraqlarına uyğun olaraq, şagirdlərin müxtəlif fənlər vasitəsilə müvafiq elm sahələri üzrə təkcə zəruri biliklərə deyil, eyni zamanda XXI əsr bacarıqlarına yiyələnməsini, milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə olunmasını, sağlam həyat tərzini, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrini dərk etməsini, müstəqil şəkildə əlavə biliklər əldə etməsini və öz üzərində daim çalışaraq şəxsiyyəti formalaşdıran həyati bacarıqlarını inkişaf etdirməsini, şəxsi, intellektual və fiziki inkişafını, cəmiyyətə inteqrasiyasını və sosiallaşmasını, rəqabətədavamlı olmasını, peşə seçimini, əmək fəaliyyətinə hazırlığını və növbəti pillədə təhsil almaq imkanını təmin etməkdir [1]. Bir sözlə, ümumtəhsil məktəbində təhsil prosesi öyrədici, tərbiyəedici və inkişafetdirici xarakter daşıyır. Mülkiyyət növündən, yəni dövlət, bələdiyyə və ya özəl olmasından asılı olmayaraq, bütün ümumi təhsil müəssisələrində təlim-tərbiyə prosesi dövlət təhsil standartlarına uyğun hazırlanmış və ya beynəlxalq səviyyədə akkreditasiya olunan müvafiq təhsil proqramları (kurikulumlar) əsasında həyata keçirilir və hər bir məktəblini gələcəyə və həyata hazırlayır.

Ümumtəhsil məktəblərində tədris dili dövlət dili – Azərbaycan dili olsa da, "Təhsil haqqında"

Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinə uyğun olaraq tədris digər dillərdə də aparıla bilər. Tədris dilindən və ya mülkiyyət formasından asılı olmayaraq hər bir təhsil müəssisəsi təhsilalanların şəxsiyyət kimi formalaşması yolunda milli və ümumbəşəri dəyərlərin aşılanması üçün müəyyən addımlar atır. Dövlət və özəl ümumtəhsil müəssisələrinin qanun çərçivəsində fərqləri ondan ibarətdir ki, özəl ümumtəhsil məktəbinin nizamnaməsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin rəyindən sonra həmin təhsil müəssisəsinin təsisçisi, dövlət ümumtəhsil məktəbinin nizamnaməsi isə tabeliyində olduğu mərkəzin və ya yerli icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Elm və Təhsil Nazirliyinin statistik məlumatlarına əsasən, hazırda Azərbaycanda *10 dövlət gimnaziyası, 37 dövlət liseyi, 63 məktəb-lisey kompleksi və 40-a yaxın digər qurumlara tabe olan özəl məktəblər* fəaliyyət göstərir. Özəl qurumlar da öz növbəsində, müxtəlif beynəlxalq təhsil proqramlarından istifadə edirlər. Məsələn, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin təhsil proqramının mərkəzində beynəlxalq nüfuzlu Kembric kurikulumları durur. Kompleksin məqsədi təhsilalanlara intellektual səviyyəni, fiziki və emosional sağlamlığı, yaradıcılıq və empatik ruhu inkişaf etdirmək üçün tərtib olunmuş müxtəlif öyrənmə təcrübələrini təqdim etməkdir. Bununla yanaşı, həmin tədris müəssisəsi təhsilalanlara əzmkarlıq, tolerantlıq, multikulturalizm, yaradıcılıq, dürüstlük, savadlılıq, mükəmməllik, ruh yüksəkliyi və liderlik kimi dəyərləri aşılamağı qarşısına məqsəd qoyub. Çünki gənclərin irsinə və milli mənəvi dəyərlərinə hörmət edən əsl Azərbaycan vətəndaşı kimi formalaşması, səriştəli və yenilikçi olması, sosial, yaradıcı, tənqidi düşünərək üzləşdiyi problemləri asanlıqla həll edə bilməsi, fiziki və emosional cəhətdən sağlam hazırlanması çox vacibdir [6]. Azərbaycan Beynəlxalq Məktəbi (The International School of Azerbaijan) isə tədris prosesində "International Baccalaureate" (IB) adlanan beynəlxalq proqramı tətbiq edir. Bu beynəlxalq proqram mədəniyyətlərarası anlaşma və hörmət vasitəsilə daha yaxşı, daha dinc dünya yaratmağa kömək edən, maraqlanan, bilikli və qayğıkeş gənclər formalaşdırmq məqsədi daşıyır. Həmin proqram, həm də beynəlxalq təhsil və ciddi qiymətləndirmənin müxtəlif metodlarını hazırlamaq üçün dünyanın müxtəlif yerlərində olan məktəblər, hökumətlər və beynəlxalq təşkilatlarla birgə işləyir. Bu beynəlxalq proqram bütün dünyada təhsilalanları fəal, şəfqətli və ömürboyu öyrənən olmağa təşviq edir [7]. Azərbaycanda hazırda Müasir İnnovasiyalar Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, Landau School, Kaspi Liseyi, Sabis Sun Beynəlxalq Məktəbi, Baku-Oxford Məktəbi, Xəzər Universiteti Dünya Məktəbi, Avropa Azərbaycan Məktəbi, Bakı Britaniya Məktəbi, Hədəf Liseyi, Bakı Atatürk Liseyi, Oxbridge Akademiyası, Bakı Beynəlxalq Təhsil Kompleksi və s. kimi özəl məktəblər fəaliyyət göstərir. Yuxarıda adı qeyd olunan və ya olunmayan özəl məktəblərin çoxunun tətbiq etdiyi beynəlxalq kurikulum İB və ya Kembric Beynəlxalq Təhsil proqramlarıdır. İB və ya Kembric Beynəlxalq Təhsil proqramlarının timsalında demək olar ki, bütün beynəlxalq proqramlar ümumbəşəri dəyərlərə önəm verir. Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin timsalında Azərbaycanda fəaliyyət göstərən özəl məktəblərin demək olar ki, hər biri öz missiyasında milli dəyərləri də əsas götürmüşdür. Bundan əlavə, Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Avropa Azərbaycan Məktəbi, Bakı Beynəlxalq Təhsil Kompleksi və digər bəzi özəl məktəblər istər İB proqramı çərçivəsində, istərsə də məktəbin fərdi missiyasına uyğun olaraq təhsilalanlara Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) aşılamaq məqsədi ilə müəyyən layihələr həyata keçirir. "Qlobal Məqsədlər" kimi də tanınan Dayanıqlı İnkişaf Məqsədləri (DİM) 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən yoxsulluğa son qoymaq, planeti qorumaq və 2030-cu ilədək bütün insanların sülh və firavanlıqdan zövq almasını təmin etmək üçün universal fəaliyyət çağırışı kimi qəbul edilmişdir. 17 DİM inteqrasiya olunub, bunlara yoxsulluğa və aclığa son, sağlamlıq və rifah, keyfiyyətli təhsil, gender bərabərliyi, təmiz su və sanitariya, sərfəli enerji, layiqli əmək və iqtisadi artım, sənaye, innovasiya və infrastruktur, bərabərsizliyin azaldılması, dayanıqlı şəhərlər və icmalar, məsuliyyətli istehlak və istehsal, iqlim dəyişikliyinə qarşı mübarizə, torpaq ekosisteminin mühafizəsi, sülh, ədalət və səmərəli institutlar və məqsədlər üçün tərəfdaşlıq

aiddir [8]. Adı çəkilən bütün bu məqsədlərin çoxu azadlıq, xeyirxahlıq, ədalət, bərabərlik, sevgi və məsuliyyət, dürüstlük, həmrəylik, həqiqət, cəsarət, dostluq, şərəf, sülh və s. kimi ümumbəşəri dəyərlərlə birbaşa və ya dolayı yolla vəhdət təşkil edir [9]. Deməli, ümumbəşəri dəyərlər, həm də qlobal dünya yaradaraq birlikdə əməkdaşlıq nəticəsində bütün dünya ölkələrini narahat edən qlobal problemlərin həlli naminə ölkələri bir araya gətirmək niyyətindədir.

Təhsil qanunlarında əks olunduğu kimi, dövlət məktəblərində də milli dəyərlərin qorunması və ümumbəşəri dəyərlərin aşılanması məqsədi ilə tədbirlər görülür, məktəblilər ümumbəşəri dəyərlərlə vəhdətdə olan qlobal problemlərin həllinə təşviq edilir. Buna nümunə olaraq müasir və innovativ yanaşmaların tədqiqi və pilot layihələrin hazırlanması və s. məqsədlərə xidmət edən 15 yanvar 2016-cı il tarixində yaradılmış Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun həyata keçirdiyi layihələri göstərmək olar. Bu layihələrdən biri kimi "Kompasito" adı altında yaradılmış qlobal problemləri və ümumbəşəri dəyərləri işıqlandırmaq məqsədi ilə paylaşılan hazır dərs icmallarını da göstərmək olar [10]. Bu yolla institut dövlət məktəblərində fəaliyyət göstərən müəllimləri qlobal problemləri işıqlandırmağa və ümumbəşəri dəyərləri aşılamaq məqsədi ilə bu mövzuları sinif daxilində təhsilalanlarla müzakirə edərək onları aydınlatmağa sövq edir. Bundan əlavə, bu, 23 yanvar 2006-cı il tarixli, 33 nömrəli Əmrlə təsdiq olunmuş "Ümumi təhsil sistemində dərslik siyasəti"nə əsasən, təhsilalanların Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyaların əks olunması, dünyəvilik prinsipinə riayət edilməsi, milli, dini, irqi, cinsi və siyasi ayrıseçkilik təbliğ edən fikirlər, mübahisə doğuran məlumatlar olmamasına diqqət yetirilməsi dərsliklərin məzmununa verilən tələblərdə yer alır [11]. Dövlət məktəblərində əsas dərs vəsaiti kimi istifadə olunan bütün fənn dərsliklərinin hər biri bu tələblər əsasında hazırlanmışdır. Buna əsasən, dərsliklərin hər birində birbaşa və ya dolayı yolla milli və ümumbəşəri dəyərlərə aid mövzulara rast gəlmək olar. Buna nümunə olaraq milli kimliyin dərki və milli iftixar hissinin formalaşması məqsədi ilə 7-ci sinifin ingilis dili dərsliyinin 25-ci səhifəsində verilmiş "yağış sularını enerjiyə çevirən və bu enerjini işıqlandırma məqsədi ilə istifadə edən Reynerjinin (Rainergy) banisi, həmyerlimiz Reyhan Camalova haqqında olan" mətni göstərmək olar [12]. 8-ci sinifin ingilis dili dərsliyində "Nature" adlı üçüncü mövzuda Türkiyədə, Tibetdə və İndoneziyada baş vermiş təbii fəlakətlər haqqında məlumat verilməsi ümumbəşəri dəyərlərin məktəb dərsliklərində işıqlandırılmasına bariz nümunədir. Yer planetində bir-birindən tamamilə fərqli millətlər yaşasa da, hər biri burada baş verən təbii fəlakətlər qarşısında acizdir. Ona görə də bütün dövlətlər təbii fəlakətlər kimi qlobal problemlər qarşısında yalnız birləşərək, birbirinə dəstək olaraq mübarizə apara bilər. Bu ümumbəşəri dəyərlər insanlara humanizmi, birliyi, əməkdaşlığı və dostluğu xatırladır [13]. Bundan əlavə, həm də milli və ümumbəşəri dəyərlərin aşılanması məqsədi ilə istər özəl, istərsə də dövlət məktəblərində bir sıra layihələr həyata keçirilir. İB Beynəlxalq Təhsil Programını tətbiq edən özəl məktəblər qlobal problemləri özündə əks etdirən və ümumbəşəri dəyərlərlə vəhdət təşkil edən Dayanıqlı İnkişaf Məqsədlərini İB proqramı çərçivəsində onun bir hissəsi kimi həyata keçirirlər. Ona görə də izlədiyi təhsil proqramı Kembric Beynəlxalq Proqramı olduğu halda, DİM-i öz missiyasına çevirən Heydər Əliyev adına Müasir Təhsil Kompleksində 2023-cü ilin noyabr ayı "DİM ayı" (Sustainable Development Goals) elan olundu və bu böyük bir layihənin ilkin addımı kimi təhsilalanları məlumatlandırma məqsədi daşıyırdı. Bir ay boyunca dərslərdə 17 məqsədin hər birinə toxunulur, bu mövzunu əhatə edən oyunlar və digər əyləncəli fəaliyyətlər həyata keçirilirdi. Bu prosesə bağçadan başlayaraq yuxarı sinif şagirdlərinə kimi bütün məktəb cəlb olunmuşdur. Ayın sonu Birləşmiş Millətlər İnkişaf Proqramının (United Nations Development Program) nümayəndələri məktəbə qonaq qismində dəvət olundu və dərslərdə dinləyici kimi iştirak etdilər.

Layihənin ikinci addımı artıq məlumatlandırma deyil, hərəkətəkeçmə prosesini özündə əks etdirirdi. Layihə çərçivəsində məktəb daxilində "Xeyriyyə satışı" həyata keçirildi. Şagirdlərin

hazırladıqları əşya və qidalar satışa qoyulur, satışdan əldə edilmiş maliyyə beynəlxalq və müstəqil fəaliyyət göstərən təşkilat olan SOS Uşaq kəndlərinə yardım məqsədi ilə göndərilirdi. Avstriya, Polşa, Almaniya, Argentina və digər ölkələrdə olan, eləcə də Azərbaycanda 1999-cu ildə yaradılmış SOS Uşaq kəndləri beynəlxalq təşkilatının əsas hədəfi valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün ailələr yaratmaq, onların öz gələcəklərini formalaşdırmalarında kömək etməkdir. Bu da DİM-in yoxsulluğa və aclığa son, sağlamlıq, rifah və keyfiyyətli təhsil kimi məqsədlərinə uyğun gəlirdi. MTK DİM ayı çərçivəsində təhsilalanları məlumatlandırmaqla kifayətlənmədi, onları qlobal problemlərin həlli yönündə bir addım atmağa, bu axının bir parçası olmağa ruhlandırdı. Həmçinin təhsilalanlara təmiz şəhər və sanitariya üçün ilk addımı insanın özünün atmalı olduğunu, yerə zibil atmaqdan çəkinməli və atanı xəbərdar edib məlumatlandırmalı, təmiz suyun ömrünün uzanması üçün bu gün suyu israf etməməli, diş fırçalayarkən suyu bağlamalı, təmiz hava uğruna kağız israf etməməli, ağac əkmək üçün sabahı gözləməməli, yoxsulluğun azaldılması üçün varlanmağı gözləməməli, bacardığımız qədər ehtiyac içində olan insanlara əl tutmalı olduğumuzu bir daha xatırlatdı. Layihənin ikinci addımının nəticəsi olaraq SOS Uşaq kəndləri ilə MTK arasında müqavilə imzalandı.

Növbəti addım BMİP və MTK-nın birgə ərsəyə gətirdiyi "Gələcək buradan başlayır" adlı məktəb simpoziumu oldu. Bu simpoziumda respublika ərazisindəki 13 dövlət, eləcə də özəl məktəbləri bir araya gəldilər və hər məktəbin DİM haqqında yeni layihəsinin təqdimat mərasimi keçirildi. Həmin startapda yer tutanlardan biri dövlət məktəbi oldu və layihənin həyata keçirilməsi üçün lazımi maliyyə dəstəyi ilə təmin olundu. Qalib olmuş layihənin əsasını telefon, planşet və s. kimi daimi işlək vəziyyətdə olan elektron qurğuların "klaviaturanın hərəkəti vasitəsilə enerji ilə təmin olunması" təşkil edirdi. Belə ki, elektron cihaz işlədikcə enerji yığırdı.

Bu simpoziumda eyni məqsəd adı altında akademik Zərifə Əliyeva adına lisey, XXl Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, Xalid Quliyev adına 62 nömrəli məktəb-lisey, Oxbridge Akademiyası, Tofiq İsmayılov adına 6 nömrəli məktəb-lisey, İlyas Əfəndiyev adına Elitar Gimnaziya, Bakı Avropa Liseyi, Rüfət Məmmədov adına 269 nömrəli tam orta məktəb, Bakı Oksford Məktəbi, 132-134 nömrəli Təhsil Kompleksi, Tahir Həsənov adına 23 nömrəli tam orta məktəb, Azərbaycan Britaniya Kolleci də aktiv iştirakçılardan idilər. Beynəlxalq və milli dəyərlər uğrunda rəqabətdə olan özəl məktəblərin hər birinin eyni səhnədə dostcasına yer alması, dövlət məktəbləri ilə əməkdaşlıqlarını genişləndirib Azərbaycanın müxtəlif regionlarından gələn təhsilalanlara bir-birini maarifləndirməsini görmək qururverici səhnələrdəndir.

Nəticə. Bildiyimiz kimi, dövlət çərçivəsində milli və ümumbəşəri dəyərlərin təhsilalanlara aşılanması məqsədi ilə dövlət məktəbləri üçün nəzərdə tutulmuş qərarlar qəbul olunur və həyata keçirilir. Bunlara nümunə olaraq dövlət çərçivəsində bəzi layihələri və dövlət məktəblərində əsas vəsait kimi istifadə olunan dərslikləri göstərmək olar. Özəl məktəblərdə isə ümumbəşəri dəyərlər həmin məktəblərin tətbiq etdiyi müxtəlif beynəlxalq kurikulumlar çərçivəsində yer alır, milli dəyərlərin aşılanması isə bu məktəblərin fərdi missiyalarının bir parçasıdır. Bundan əlavə, həm dövlət, həm də özəl məktəblər bu məqsədlə həyata keçirilən müxtəliftipli layihələrin birgə təşkilatçıları və iştirakçılarıdır. Beləliklə aydın olur ki, həm milli, həm də ümumbəşəri dəyərlər istər dövlət, istərsə də özəl məktəblərdə təhsilalanlara aşılanır. Deməli, hər bir valideyn maddi imkanları çərçivəsində övladları üçün təlim-tərbiyə müəssisəsini seçmək hüququnu dəyərləndirərkən istər özəl, istərsə də dövlət məktəblərini rahatlıqla və arxayınlıqla seçə bilər, çünki milli və ümumbəşəri dəyərlərin aşılanması prosesi dövlət çərçivəsində və nəzarətindədir.

İstifadə edilmiş ədəbiyyat

1.https://e-qanun.az/framework/21148
2.https://www.qanunla.az/umumbeseri-deyerler-azerbaycan-xalqinin-milli-menevi-deyerleri-her-bir-genc-terefinden-menimsenilmelidir/
3.http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_avqust2009/88840.htm
4.https://e-qanun.az/framework.29145
5.https://e-qanun.az/framework/32310
6.https://www.mtk.edu.az/en/page/2-vision-mission-amp-values

7.https://www.tisa.az/mission-statement
8.https://www.undp.org/sustainable-development-goals?gad_source=1&gclid=EAIaIQobChMI0rKUgf3BgwMVKGWRBR2-mwvwEAAYASAAEgIoi_D_BwE
9.https://az.warbletoncouncil.org/valores-universales-1103
10.https://www.tipii.edu.az/az/article/91-quot-kompasito-quot-dars-icmallari
11.https://edu.gov.az/az/esas-senedler/1011
12. Heydərova K., Qurbanova G., Məmmədova S. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün İngilis dili (əsas xarici dil) fənni üzrə dərslik. "Şərq-Qərb" nəşriyyatı, 2022, 160 s.
13. Heydərova K., Qurbanova G., Məmmədova S. Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün İngilis dili (əsas xarici dil) fənni üzrə dərslik. "Şərq-Qərb" nəşriyyatı, 2023, 160 s.

Sh.Abdullayeva

Some issues of instilling national and universal values to students in public and private schools

Abstract

According to the Decree No. 156 of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated September 5, 2009, on the "the Implementation of the Law of the Republic of Azerbaijan "On Education"" and as stated in Article 9 of the "Model Charter of the General Education School" about the rights and duties of parents or other legal representatives adopted by the decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan, every parent has the right to choose an educational institution for their minor children. Of course, every parent tries to do the best they can for their child within their financial means. Since education has become the indispensable, most important need and demand of the modern age, parents, when choosing an educational institution for their children's education, examine different types of educational institutions, whether it is a public or private school, the idea that the language of instruction should be in English, Russian, or Azerbaijani according to the requirements of the time, they exchange. At the end of 11 years of education, in addition to acquiring knowledge, the student acquires the important habits of the time, understands the national identity, and certain ideas about universal values are formed.

The article discusses the role of private and public schools in instilling national and universal values in students.

Ш.Абдуллаева

Некоторые вопросы привития национальных и общечеловеческих ценностях учащимся государственных и частных школ

Аннотация

В целях обеспечения реализации 156 Президента Азербайджанской Республики Ильхама Алиева от 5 сентября 2009 года принят «Типовой Устав общеобразовательной школы», принятый постановлением Кабинета Министров. Азербайджанской Республики, в котором речь идет о правах и обязанностях родителей или других законных представителей. Как указано в статье 9, каждый родитель имеет право выбрать учебное заведение для своего несовершеннолетнего ребенка. Конечно, каждый родитель старается сделать для своего ребенка все, что в его силах, в рамках своих финансовых возможностей. Поскольку образование стало незаменимой, важнейшей потребностью и требованием современности, родители, выбирая учебное заведение для обучения своих детей, рассматривают различные типы учебных заведений, будь то государственная или частная школа, идея о том, что язык обучение должно вестись на английском, русском или азербайджанском языке в зависимости от требований времени. В конце 11-летнего обучения, помимо получения знаний, учащийся приобретает важные привычки того времени, понимает национальную самобытность, формируются определенные представления об общечеловеческих ценностях.

В статье рассматривается роль частных и государственных школ в привитии учащимся национальных и общечеловеческих ценностей.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2024-cü il 29 may tarixli 295s nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir.

2024/2025-ci tədris ili üçün peşə təhsili müəssisələrinə tələbə qəbulu Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə

İxtisasın şifri	İxtisasın qrupu	İxtisasın adı	Cəmi	Yerlərin sayı, o cümlədən		İllik təhsil haqqı (manatla)	
				dövlət sifarişi	ödənişli əsaslarla	Bakı şəhərindəki təhsil müəssisələrində	digər bölgələrdəki təhsil müəssisələrində
1	2	3	4	5	6	7	8
I. "Sənətşünaslıq, mədəniyyət və incəsənət" peşə istiqaməti üzrə							
030102	Kargüzarlıq	kargüzar	200	155	45	500	500
		kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis	80	60	20	650	600
030103	Reklam işi	reklam dizayneri	80	50	30	550	500
030110	İnteryer və eksteryerin bədii tərtibatı	interyer və eksteryerin bədii tərtibatçısı	40	40			
		florist	20	15	5	550	500
030111	Zərgərlik	zərgər	20	20			
030112	Ağacdan, keramikadan, metaldan hazırlanan bədii məmulatlar	ağac nəqqaşı	60	60			
030119	Xalq bədii yaradıcılığı	xalçaçı	360	325	35	500	500
II. "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə" peşə istiqaməti üzrə							
030202	Mühasibat işi	əməliyyatçı-mühasib	1140	585	555	650	550
		mühasibat uçotu	260	240	20	1340	1340
030203	Sığorta işi	sığorta işçisi	140	90	50	650	550

1	2	3	4	5	6	7	8
030204	Kommersiya	dayə	540	300	240	650	550
		qida və qeyri-qida malları satıcısı, nəzarətçi-xəzinədar	340	275	65	550	500
		kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi	220	185	35	550	500
		logistika operatoru	240	185	55	650	550
		tədbirlərin təşkilatçısı	60	35	25	550	500
030207	Kino-video nümayişi	işıq operatoru	40	35	5	550	500
		kinomontajçı	40	30	10	600	550
		video çəkiliş üzrə operator	100	85	15	600	550
		səs operatoru	20	20			
		media və audiovizual texnologiyaların istismarı	20	20			
030208	İaşə xidməti	aşpaz	1620	1195	425	650	550
		qənnadıçı, şirniyyatçı	480	405	75	600	500
		turizm sahəsində iaşə üzrə mütəxəssis	280	240	40	600	500
		qida və içki üzrə nəzarətçi	80	65	15	650	550
030210	Bərbərlik	bərbər	360	175	185	650	550
		bərbər-vizajist-manikürçü	1100	890	210	650	550
		qrimçi-pastijor	20	20			
		saç kəsimi və gözəllik xidmətlərinin təşkili	120	90	30	1690	1690
030213	Bələdçilik	turizm təşkilatçısı	260	190	70	600	550
030214	Avtomatlaşdırılmış texnologiyalar və istehsal	avtomatika üzrə usta	20	15	5	600*	550
		avtomatika sistemlərinin istismarı	40	40			

1	2	3	4	5	6	7	8
030219	İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti	kompüter sistem inzibatçısı	560	245	315	650	550
		informasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi	340	260	80	650*	550
		kompüterlərin təmiri və xidməti üzrə texnik	620	480	140	650	550
		kompüter şəbəkələri və şəbəkə inzibatçılığı	240	190	50	1880	1880
		qrafik dizayner	740	510	230	650	550
		sistem və şəbəkə xidməti üzrə texnik	160	80	80	650	550
		telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator	500	395	105	650	550
		informasiya kommunikasiya texnologiyaları üzrə texnik	80	55	25	650	550
		veb-dizayner və proqram təminatçısı	320	245	75	650*	550
		veb-dizayn və proqram təminatı	260	220	40	1670	1670
		kiber təhlükəsizlik	120	60	60	1880	1880
		kompüter sistemlərində proqramlaşdırma	100	40	60	1410	1410
030221	Mühafizə işi	mühafizəçi	60	40	20	550	500
030222	Mehmanxana işi	mehmanxana inzibatçısı	140	95	45	550	500
		mehmanxana və restoran işinin təşkili və idarə edilməsi	160	140	20	550	500
III. "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı" peşə istiqaməti üzrə							
030301	Bitkiçilik	bitkiçilik mütəxəssisi	500	430	70	500	500
		baramaçı	60	60			
		meyvə ustası	100	90	10	500	500
		tərəvəz ustası	80	75	5	500	500
030302	Kənd təsərrüfatı nəqliyyatı və elektrik avadanlığına xidmət	genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər	380	325	55	500	500
		genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)	340	265	75	550	500
		kənd təsərrüfatı və inşaat texnikası (maşınlarının) istismarı	40	20	20	2710	2710
		kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer	160	130	30	550	500
030303	Maşın-traktor parkına texniki xidmət	aqroservis mütəxəssisi	420	365	55	500	500

1	2	3	4	5	6	7	8
030304	Heyvandarlıq üzrə mütəxəssis	heyvandarlıq mütəxəssisi	280	235	45	500	500
		baytar texniki	240	155	85	500	500
		baytarlıq və heyvandarlıq işi	20	15	5	1820	1820
030306	Arıçılıq	arıçı	140	105	35	500	500
030307	Meliorasiya və çilingər işləri	suvarma maşınları və nasos qurğuları maşinisti	80	40	40	600	550
030309	Yeraltı mədən işləri	dağ-mədən işləri üzrə mütəxəssis	80	55	25	650	550
030311	Neft və qazçıxarma	neft və qazçıxarma operatoru	240	175	65	650	550
030321	Ağac emalı qurğuları, mebel sənayesi, ağac məmulatları və yarımfabrikatların hazırlanması	mebel ustası	300	255	45	550*	500
		üzlükçü dizayner	40		40	600	550
030322	Balıqçılıq	balıq yetişdirilməsi üzrə mütəxəssis	40	35	5	550	500
IV. "Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları" peşə istiqaməti üzrə							
030403	Elektrik stansiyalarının və şəbəkələrinin avadanlıqlarına xidmət və təmir	elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis	340	255	85	550	500
030404	Yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırılması	yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırılması üzrə elektrik montyoru-xətçi	20	20			
030405	Lift təmiri	lift üzrə elektromexanik	20	20			
030409	Elektrik avadanlıqlarına xidmət və təmir (sahələr üzrə)	elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru	1120	920	200	550*	500
		sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı	40	40			
030414	Tibbi avadanlıqların təmiri və xidməti	tibbi avadanlıqların təmiri və xidməti elektromexaniki	40	20	20	650	550
030420	Elektron avadanlıqlarına xidmət	elektronika ustası	40	30	10	650*	550
		elektronika və kommunikasiya sistemlərinin istismarı	140	135	5	2350	2350
030423	Radiomexanika	radio-televiziya aparatlarının təmiri və xidməti radiomexaniki	40	40			
030428	Radio və telefon avadanlıqlarının quraşdırılması	rabitə avadanlıqlarının quraşdırıcısı	160	145	15	550	500
030429	Mobil telefonların təmiri	mobil telefonların təmiri ustası	60	55	5	650*	550
030430	Rabitə avadanlıqlarının quraşdırılması	rabitə quraşdırıcısı-kabelçi	20	15	5	650	550

1	2	3	4	5	6	7	8
030432	Alternativ və bərpa olunan enerji mənbələri sistemlərinə xidmət	alternativ enerji qurğu və avadanlıqlarının istismarı	80	80			
		günəş panellərinin quraşdırıcısı və təmirçisi	60	40	20	650	550
V. "Metallurgiya, maşınqayırma və metal emalı" peşə istiqaməti üzrə							
030514	Qaynaq (elektrik qaynağı və qaz qaynağı işləri)	əl elektrik qaynaqçısı	160	145	15	550	500
		elektrik qaz qaynaqçısı	1220	1025	195	600	550
		sənayedə quraşdırma işləri üzrə usta	60	50	10	600*	550
		sənayedə avadanlıqların quraşdırılması və texniki istismarı	100	95	5	2390	2390
030526	Mexaniki emalda dəzgah və avadanlıqların sazlanması	proqramla idarə olunan dəzgahların operatoru	20	20			
		proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı	40	20	20	1410	1410
030527	Torna və frezer dəzgahı	torna və frezer dəzgahların operatoru	280	245	35	600*	550
030529	Çilingərlik	təmirçi-çilingər	280	275	5	600	550
		mexaniki yığma işləri üzrə çilingər	40	40			
VI. "Aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri" peşə istiqaməti üzrə							
030601	Uçan aparatların planer və sistemlərinin təmiri və istismarı	planer və mühərrik üzrə mexanik	40	35	5	650	550
030602	Uçan aparatların elektrik, cihaz və radio avadanlıqlarının təmiri və istismarı	uçan aparatların cihaz avadanlıqları üzrə elektromexanik	40	35	5	650	550
		dronların texniki xidməti və təmiri üzrə mütəxəssis	60	40	20	650	550
030605	Gəmi, maşın və mexanizmlərin təmiri və istismarı	gəmi, maşın və mexanizmlərin təmiri üzrə çilingər	60	55	5	600	500
030615	Maşinist	elektrovoz maşinisti	100	85	15	650	550
		teplovoz maşinisti	60	50	10	650	550
030616	Hərəkət tərkibinin təmiri və xidməti	dəmiryolu stansiya və keçid növbətçisi	40	40			
		dəmiryolu stansiyasının növbətçisi	60	50	10	650	550
		vaqon baxıcısı-təmirçisi	120	105	15	550	500
		texniki xidmət məntəqələrində lokomotivlərin baxıcısı və təmiri çilingəri	60	20	40	600	500
030617	Dartı yarımstansiyası	kontakt şəbəkəsinin elektrik montyoru	100	60	40	600	500

1	2	3	4	5	6	7	8
030618	İşarəvermə, mərkəzləşdirmə, bloklama qurğuları (İMB)	işarəvermə, mərkəzləşdirmə, bloklama qurğularının təmiri və xidməti elektrik montyoru	60	20	40	600	500
030620	Elektrik qatarı (metropoliten)	elektrik qatarının maşinisti	80	65	15	600	500
	Avtomobillərin təmiri - sürücülük	avtomobil rəngsazı	40	40			
030624		avtomobil üzrə elektrik	280	240	40	550	500
		avtomobillərin təmiri çilingəri	680	565	115	550	500
		avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü	340	275	65	600	550
		avtomobil mexatronikası üzrə texnik	20	20			
		avtomobil diaqnostikası və təmiri ustası	320	230	90	600*	550
		elektrik və hibrid avtomobillərin təmiri üzrə texnik	60	40	20	600	550
030625	Avtomotonəqliyyat vasitələrinin texniki vəziyyəti	avtomobil mühərriklərinin yığıcısı	100	90	10	600	500
		nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə)	120	95	25	2340	2340
030631	Metropolitendə stansiya növbəsi	metropolitenin stansiya növbətçisi	80	40	40	600	550
030635	Hava nəqliyyatı vasitələrinin texniki vəziyyəti	nəqliyyat vasitələrinin texniki istismarı (hava nəqliyyatı üzrə)	40	40			
VII. "Kimyəvi və biokimyəvi texnologiya" peşə istiqaməti üzrə							
030701	Laborant-analitik	kimyəvi analiz laborantı	380	335	45	650	550
		laborant-mikrobioloq	280	230	50	550	500
030713	Neft-kimya sənayesinin aparatı	neft-kimya sənayesinin aparatçısı-operatoru	180	160	20	550	500
VIII. "İlkin tələbat və ərzaq mallarının texnologiyasi" peşə istiqaməti üzrə							
030812	Yeyinti məhsulları istehsalı avadanlıqları	üzümçülük və şərab ustası	60	60			
	Tikiş istehsalatı	dərzi	1200	1045	155	600	550
030818		tikiş avadanlıqlarının operatoru, tikişçi	260	255	5	550	500
030819	Modelçilik və dizayner	geyim üzrə dizayner	580	465	115	600	550
		moda dizaynı	180	130	50	600	550
		səhnə kostyumları üzrə dərzi	80	75	5	600	550
030824	Elektron yığma və səhifələmə	poliqrafiya üzrə dizayner	20	15	5	550	500

1	2	3	4	5	6	7	8
IX. "İnşaat və arxitektura" peşə istiqaməti üzrə							
030905	Mənzil-kommunal təsərrüfatı	çilingər-santexnik	240	175	65	550	500
		mənzil təsərrüfatı xidməti üzrə mütəxəssisi	20	20			
030906	Xarrat-dülgər və parket istehsalı	dülgər	280	265	15	550	500
030907	Bəzək tamamlama işləri	rəngsaz və suvaq ustası	180	175	5	550	500
030908	Ümumi inşaat işləri	inşaat ustası	120	110	10	550	500
		binaların tikintisi və istismarı	60	55	5	1650	1650
		interyer dizayn	100	60	40	650	550
030910	İnşaatda quraşdırma işləri	plastik qapı və pəncərə ustası	40	35	5	600	550
030913	İnşaatda sanitar-texniki sistemlərin hissə və qovşaqları	isitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis	60	50	10	600	550
		isitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı	20	20			
		kombi və kondisioner ustası	120	100	20	600	550
		plastik boru qaynaqçısı	20	20			
030919	Yol maşınlarına xidmət	yolun və süni qurğuların cari təmiri və saxlanılması üzrə briqadir	60	45	15	600	550
		Cəmi	**28220**	**21985**	**6235**		

* Koreya təhsil standartları əsasında yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində ilk və texniki-peşə təhsili səviyyələri üzrə təhsil haqqı 1000 manat məbləğində olmaqla.

** Adambaşına maliyyələşmə mexanizminin tətbiq edildiyi (Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi istisna) peşə təhsil müəssisələrində ilk və texniki-peşə təhsili səviyyələri üzrə təhsil haqqı 800 manat məbləğində olmaqla.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üzrə

İxtisasın şifri	İxtisas qrupu	İxtisasın adı	Cəmi	Yerlərin sayı, o cümlədən		İllik təhsil haqqı (manatla)
				dövlət sifarişi	ödənişli əsaslarla	
030103	Reklam işi	reklam dizayneri	20		20	500
030202	Mühasibat işi	əməliyyatçı-mühasib	40		40	500
030203	Sığorta işi	sığorta işçisi	20		20	500
030204	Kommersiya	tədbirlərin təşkilatçısı	20	20		
030208	İaşə xidməti	aşpaz	160	40	120	500
		qənnadıçı-şirniyyatçı	20		20	500
		turizm sahəsində iaşə üzrə mütəxəssis	20	20		
030210	Bərbərlik	bərbər	20		20	500
		bərbər-vizajist-manikürçü	20		20	500
030213	Bələdçilik	turizm təşkilatçısı	120	100	20	500
030222	Mehmanxana işi	mehmanxana inzibatçısı	20	20		
030219	İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti	qrafik dizayner	40		40	500
CƏMİ			**520**	**200**	**320**	

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi üzrə

İxtisasın şifri	İxtisas qrupu	İxtisasın adı	Cəmi	Yerlərin sayı, o cümlədən		İllik təhsil haqqı (manatla)
				dövlət sifarişi	ödənişli əsaslarla	
030214	Avtomatlaşdırılmış texnologiyalar və istehsal	avtomatika üzrə usta	40	20	20	600
		avtomatika sistemlərinin istismarı	60	40	20	1470
030219	İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti	veb-dizayn və proqram təminatı	20	20		
		qrafik dizayner	40	20	20	600
		İnformasiya-kommunikasiya texnologiyaları üzrə texnik	40	20	20	600
		kompüter sistemlərində proqramlaşdırma	60	40	20	1410
030409	Elektrik avadanlıqlarına xidmət və təmir (sahələr üzrə)	elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru	40	20	20	600
		sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı	60	40	20	2470
030420	Elektrik avadanlıqlarına xidmət	elektronika ustası	40	20	20	600
		elektronika və kommunikasiya sistemlərinin istismarı	40	40		
030432	Alternativ və bərpa olunan enerji mənbələri sistemlərinə xidmət	alternativ enerji qurğu və avadanlıqlarının istismarı	40	40		
030514	Qaynaq (elektrik qaynağı və qaz qaynağı işləri)	elektrik qaz qaynaqçısı	60	40	20	600
030913	İnşaatda sanitar-texniki sistemlərin hissə və qovşaqları	isitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis	60	40	20	600
CƏMİ			**600**	**400**	**200**	

Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi üzrə

İxtisasın şifri	İxtisasın qrupu	İxtisasın adı	Cəmi	Yerlərin sayı, o cümlədən		İllik təhsil haqqı
				dövlət sifarişi	ödənişli əsaslarla	
1	2	3	4	5	6	8
030102	Kargüzarlıq	kargüzar	40	30	10	500
030119	Xalq bədii yaradıcılığı	xalçaçı	40	40		
030202	Mühasibat işi	əməliyyatçı-mühasib	20	15	5	550
		mühasibat uçotu	20	20		
030204	Kommersiya	dayə	20	20		
030208	İaşə xidməti	qənnadıçı, şirniyyatçı	20	15	5	500
		turizm sahəsində iaşə üzrə mütəxəssis	40	40		
030210	Bərbərlik	bərbər	20	15	5	550
		bərbər-vizajist-manikürçü	40	30	10	550
030219	İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti	informasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi	20	15	5	550
		kompüterlərin təmiri və xidməti üzrə texnik	20	15	5	550
030221	Mühafizə işi	mühafizəçi	40	30	10	500
030222	Mehmanxana işi	mehmanxana və restoran işinin təşkili və idarə edilməsi	20	20		
030302	Kənd təsərrüfatı nəqliyyatı və elektrik avadanlığına xidmət	genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)	40	35	5	500
030304	Heyvandarlıq üzrə mütəxəssis	baytar texniki	20	20		
030321	Ağac emalı qurğuları, mebel sənayesi, ağac məmulatları və yarımfabrikatların hazırlanması	mebel ustası	20	15	5	500
030403	Elektrik stansiyalarının və şəbəkələrinin avadanlıqlarına xidmət və təmir	elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis	20	20		
030420	Elektron avadanlıqlarına xidmət	elektronika və kommunikasiya sistemlərinin istismarı	20	20		

1	2	3	4	5	6	8
030430	Rabitə avadanlıqlarının quraşdırılması	rabitə quraşdırıcısı-kabelçi	20	15	5	550
030616	Hərəkət tərkibinin təmiri və xidməti	dəmiryolu stansiya və keçid növbətçisi	40	35	5	550
030624	Avtomobillərin təmiri – sürücülük	avtomobil üzrə elektrik	20	15	5	500
		avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü	40	30	10	550
		avtomobil diaqnostikası və təmiri ustası	20	15	5	550
030625	Avtomotonəqliyyat vasitələrinin texniki vəziyyəti	nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə)	20	20		
030818	Tikiş istehsalatı	tikiş avadanlıqlarının operatoru, tikişçi	20	15	5	500
030908	Ümumi inşaat işləri	binaların tikintisi və istismarı	20	20		
030913	İnşaatda sanitar-texniki sistemlərin hissə və qovşaqları	isitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis	20	20		
		Cəmi	**700**	**600**	**100**	

Özəl Peşə Təhsili Müəssisələri üzrə "Profi-Resurs" Peşə Tədris Mərkəzi

İxtisasın şifri	İxtisas qrupu	İxtisasın adı	Ödənişli əsaslarla yerlərin sayı
030208	İaşə xidməti	qida və içki üzrə mütəxəssis	20
030210	Bərbərlik	bərbər	40
030213	Bələdçilik	turizm təşkilatçısı	20
030219	İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti	kompüterlərin təmiri və xidməti üzrə texnik	40
		veb-dizayner və proqram təminatçısı	40
030403	Elektrik stansiyalarının və şəbəkələrinin avadanlıqlarına xidmət və təmiri	elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis	20
030409	Elektrik avadanlıqlarına xidmət və təmiri (sahələr üzrə)	elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru	40
030514	Qaynaq (elektrik qaynağı və qaz qaynağı işləri)	əl elektrik qaynaqçısı	40
		elektrik qaz qaynaqçısı	40

030624	Avtomobillərin təmiri - sürücülük	avtomobil rəngsazı	20
		avtomobil üzrə elektrik	120
		avtomobillərin təmiri çilingəri	120
		avtomobil diaqnostikası və təmiri ustası	120
030625	Avtomotonəqliyyat vasitələrinin texniki vəziyyəti	avtomobil mühərriklərinin yığıcısı	200
030819	Modelçilik və dizayner	geyim üzrə dizayner	40
CƏMİ			**920**

Qeyd: Özəl peşə təhsili müəssisələrində təhsil haqqı müəssisənin xərcləri nəzərə alınmaqla, müəssisələr tərəfindən müəyyən edilir.

MƏQALƏLƏRİN TƏRTİBATI QAYDALARI

Məqalə redaksiyaya elektron formada təqdim olunmalı və bundan əvvəl başqa nəşrlərdə yayımlanmamalıdır.

Məqalə hazırlanarkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Məqalə Azərbaycan, rus və ingilis dillərindən birində hazırlanmalıdır.

2. Məqalə Microsoft Word mətn redaktorunda A4 formatında (soldan, yuxarıda, aşağıdan və sağdan – 2 sm.), Times New Roman şrifti ilə 12 pt. ölçüdə, vahid sətirarası intervalla və mətndaxili yazıda abzas 1 sm. göstərməklə hazırlanmalı və həcmi minimum 5, maksimum 10 səhifə təşkil etməlidir.

3. Məqalənin mətninin aşağıdakı bölmələrdən ibarət olması tövsiyə olunur:

• giriş (məsələnin aktuallığı, problemin hazırkı vəziyyəti);
• tədqiqatın məqsədi, məsələnin qoyuluşu;
• tədqiqat hissəsi;
• dəlillər sistemi və elmi əsaslandırma;
• məsələnin həll üsulları aprobasiyası;
• alınan nəticələrin tətbiqi;
• nəticə;
• istifadə edilmiş ədəbiyyat.

4. Məqalə aşağıdakı ardıcıllıqla hazırlanmalıdır:

– UOT;
– məqalənin adı;
– müəllif haqqında qısa məlumat (elmi dərəcə, vəzifə, iş yeri, elektron poçt ünvanı);
– məqalənin xülasəsi və açar sözlər.

5. Məqalənin sonunda istifadə olunmuş ədəbiyyat siyahısında hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnir. Mənbənin biblioqrafiq təsviri Ali Attestasiya Komissiyasının dissertasiya işlərində mənbənin biblioqrafik təsvirinə aid irəli sürdüyü tələblərə uyğun olaraq göstərilməlidir.

6. Məqalədə aşağıdakı məlumatlar Azərbaycan, ingilis və rus dilində verilməlidir: məqalənin adı; müəllifin adı, soyadı; məqalənin xülasəsi və açar sözlər.

7. Müəssisədə yerinə yetirilən tədqiqatın nəticələrini açıqlayan məqalənin çap edilməsi üçün müvafiq yazılı razılıq olmalıdır.

8. Məqalədə göstərilən məlumat və faktlara görə müəllif məsuliyyət daşıyır.

9. Məqalələr redaksiyaya rəy alınaraq daxil olur və müsbət rəy almış məqalələr çapa tövsiyə olunur.

10. Redaksiya məqalənin əsas məzmununa xələl gətirməyən redaktə dəyişiklikləri və ixtisarları etmək hüququnu özündə saxlayır.

11. Məqalə çapa verilmədikdə redaksiya heyətinin qərarı barədə müəllifə məlumat verilir və əlyazma müəllifə qaytarılmır. Redaksiyanın məqaləni yenidən işləmək haqqında müraciəti, onun çapa veriləcəyini ehtiva etmir. Belə ki, ona əvvəl rəyçilər, sonra isə redaksiya heyəti yenidən baxır. Çap üçün məqbul sayılmayan məqalə müəllifinin məqalənin çapına yenidən baxılması xahişi ilə redaksiya heyətinə müraciət etmək hüququ var.

12. Məqalənin korrekturası müəllifə göndərilmir.

13. Məqalə sadalanan tələblərə cavab verməzsə, baxılmaq üçün qəbul edilmir və müəllifə qaytarılır. Əlyazmanın daxil olduğu vaxt redaksiyanın mətnin son variantının redaksiyaya daxil olduğu gündən sayılır.

RULES FOR THE LAYOUT OF THE PREMİSES

The paper shall be submitted to the editorial office in electronic form and shall not be published in other editions.

When preparing a paper, please meet the following requirements:

1. The paper shall be drawn up in Azerbaijani, Russian, or English.

2. The paper shall be drawn up in the Microsoft Word text editor in A4 format (with 2 cm left, top, bottom, and right indents), using Times New Roman 12 pt font, single line spacing, and 1 cm paragraph indents within the text, and consist of minimum 5 and maximum 10 pages.

3. The paper text is recommended to comprise the following sections:

• introduction (relevance and current state of the issue);
• the research objective, statement of the problem;
• research;
• proof system and scientific justification;
• approbation of methods to solve the problem;
• application of the obtained results;
• conclusion;
• references.

4. The paper shall be drawn up in the following order:

– UDC;
– the paper title;
– brief information on the author (academic degree, position, place of work, e-mail address);
– the paper abstract and keywords.

5. Each cited source in the references at the end of the paper shall be numbered in the order of its use in the paper and provided without translation. The bibliographic description of the source shall comply with the Higher Attestation Commission's requirements for the bibliographic description of sources in theses.

6. The paper shall provide the following information in Azerbaijani, English, and Russian: the paper title; the author's given name and surname; the paper abstract and keywords.

7. An appropriate written permission shall be obtained for the publication of a paper describing the results of research performed at an institution.

8. The author shall be responsible for the data and facts provided in the paper.

9. Papers shall be sent to the editorial office after receiving reviews, and those with positive reviews shall be recommended for publication.

10. The editors reserve the right to make editorial changes and abbreviations that do not violate the paper's main content.

11. If the paper is rejected, the author shall be informed of the editorial board's decision, and the paper shall not be returned to the author. The editors' request for revision shall not mean that the paper will be published. Thus, it will first be considered by reviewers and then the editors. The rejected paper's author shall be entitled to apply to the editorial board with a request to revise the paper publication issue.

12. The paper's proofreading shall not be sent to the author.

13. If the paper does not meet the aforementioned requirements, it shall not be accepted for consideration and shall be returned to the author. The paper receipt time shall be the date of receipt of the final text version by the editors.

ПРАВИЛА СОСТАВЛЕНИЯ СТАТЕЙ

Статья должна быть представлена в редакцию в электронном виде и не должна быть опубликована в других изданиях.

При подготовке статьи необходимо учитывать следующие требования:

1. Статья должна быть составлена на азербайджанском, русском или английском языке.

2. Статья должна быть составлена в текстовом редакторе Microsoft Word в формате А4 (отступы слева, сверху, снизу и справа - по 2 см), с использованием шрифта Times New Roman 12 pt, с одинарным межстрочным интервалом и 1 см отступами абзаца в тексте, в объеме не менее 5 и не более 10 страниц.

3. Рекомендуется представить текст статьи в составе следующих разделов:

• введение (актуальность и текущее состояние проблемы);
• цель исследования, постановка задачи;
• исследовательская часть;
• система доказательств и научное обоснование;
• апробация методов решения задач;
• применение полученных результатов;
• заключение;
• использованная литература.

4. Статья должна быть составлена в следующем порядке:

– УДК;
– заголовок статьи;
– краткие сведения об авторе (ученая степень, должность, место работы, адрес электронной почты);
– аннотация статьи и ключевые слова.

5. Каждый цитируемый источник в библиографическом списке в конце статьи нумеруется в порядке его использования в статье и приводится без перевода. Библиографическое описание источника должно соответствовать требованиям ВАК к библиографическому описанию источников в диссертациях.

6. В статье должна быть приведена следующая информация на азербайджанском, английском и русском языках: заголовок статьи; имя и фамилия автора; аннотация статьи и ключевые слова.

7. На публикацию статьи, описывающей результаты исследования, выполненного в учреждении, должно быть получено соответствующее письменное разрешение.

8. Автор несет ответственность за приведенные в статье данные и факты.

9. Статьи направляются в редакцию после получения рецензий, и статьи, получившие положительные рецензии, рекомендуются к публикации.

10. Редакция оставляет за собой право вносить редакционные изменения и сокращения, не нарушающие основного содержания статьи.

11. В случае отказа в публикации автору сообщается о решении редколлегии, и статья автору не возвращается. Запрос редакции на доработку статьи не означает, что она будет опубликована. Так, ее сначала рассматривают рецензенты, а затем редакция. Автор статьи, не принятой к публикации, вправе обратиться в редакцию с просьбой о пересмотре вопроса о публикации статьи.

12. Корректура статьи автору не высылается.

13. Если статья не соответствует вышеперечисленным требованиям, она не принимается к рассмотрению и возвращается автору. Временем поступления статьи считается дата получения редакцией окончательного варианта текста.

Yaradıcı heyət

Baş redaktor müavini
Əfsanə Zülfüqarova
məsul katib
Afaq Xanpaşayeva
baş mühasib
Kəmalə Bayramova

şöbə redaktorları
Vüqar Səlimova
Sevinc Məmmədova
Günel Ələsgərova
Pərvanə İbrahimova

müxbir-redaktor
Rəna Rüstəmova
korrektor
Lalə Niyazqızı

Jurnal Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 23.11.2017-ci il tarixli, 416 nömrəli əmri ilə təsis edilmiş və dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat №2000314101

* * *

Jurnalın yaradıcı kollektivi Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi adına Diplomuna layiq görülmüş və jurnal Azərbaycan Mətbuat Şurasının üzvüdür.

* * *

"Peşə təhsili və insan kapitalı" jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının TEXNİKA, İQTİSAD və PEDAQOGİKA elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında yer almışdır.

Redaksiyanın ünvanı: AZ 1033, Bakı şəhəri, Əlicabbar Orucəliyev 61;
Tel./Fax: 566-09-67; 566-09-87;
www.jurnal.vet.edu.az
E-mail: peshetehsili.jurnali@vet.edu.gov.az

Rekvizitlər

Müştəri: "Peşə təhsili və insan kapitalı" jurnalı
VÖEN: 2000314101
H/h: AZ13CTRE00000000000002168904
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005

VÖEN: 1401555071
M/hesab: AZ41NABZ01360100000000003944
SWIFT: CTREAZ22
D3. Büdcə təsnifatının kodu: 142595
D4. Büdcə səviyyəsinin kodu: 03

Çapa imzalanmışdır: 16.09.2024. Kağız formatı: 60x84 1/8.
Çap vərəqi: 13. Sifariş: 167.
"Peşə təhsili və insan kapitalı" jurnalı redaksiyasında yığılıb və
"Max Ofset" MMC-nin mətbəəsində çap olunub.